# Bizi Umudsuz qoyma



Əli Bəy Azəri

# Əli Bəy Azəri
# Bizi Umudsuz qoyma

*http://www.litres.ru/pages/biblio_book/?art=70022869*
*SelfPub; 2024*

## Аннотация

Kitabda müasir Azərbaycan yazıçısı, Azərbaycan yazıçılar birliyinin üzvü "Xəzan" ədəbi jurnalının baş redaktoru Əli Bəy Azərinin hekayələri verilmişdir. Müəllif bu hekayələrdə müxtəlif mövzulara toxunur, fərqli yanaşmalar edir, bununla yanaşı, əksər hekayəsində, sevgini, məhəbbəti, vətəndaşlıq borcunu ön sıraya qoyur. Eləcə də, bu gün cəmiyyətdə kökünü kəsmək mümkün olmayan şarlatanlıq, dələduzluq, yalançılıq kimi sosial xəstəliklər ifşa olunur, tənqid atəşinə tutulur. Kitabda satirik hekayələrə də yer verilib.

# Содержание


| | |
|---|---|
| Bizi ümidsiz qoyma | 4 |
| Sevgi və Borc | 42 |
| Başdaşındakı şəkil | 75 |
| Qurd Ağzı | 103 |
| Alış-veriş yardımçısı | 118 |
| Böyrək daşı | 125 |
| Möhlət | 151 |
| Yağlı bəhanə | 159 |
| Qız Təvəkgülün brend ayaqqabısı | 171 |
| Əlimdən pul iyi gəlir | 183 |
| Zəncinin dərsi | 201 |
| Yer necə fırlanır ki… | 221 |
| Qapıçı | 224 |
| Şər | 253 |
| Nazirin qəbulundan reportaj | 269 |
| Halal ehsan | 291 |
| Sonuncu dar ağacı | 299 |
| Doqquzuncu vaqon | 330 |
| Qəribə sərnişin | 338 |

# Əli Bəy Azəri
# Bizi Umudsuz qoyma

## Bizi ümidsiz qoyma

“Heç kimi qınama, dünya işinin həmişə dəyişkən və çevrilən olduğunu nəzərə al”. Nəsirəddin Tusi

Gecənin bir aləmində qəfildən yuxudan ayıldı – hər tərəf zülmət qaranlıq idi. Başını pəncərəyə sarı çevirdi. Yaxşı ki, göydə ulduzlar sayrışırdı, onların hənirtisini canında hiss etdi, yoxsa Umudun bağrı partlayacaqdı. Qaranlığa allergiyası olan adamlar kimi havası çatmırdı, dərindən nəfəs alıb köks ötürdü.

Çarpayısının yanında döşəmənin üstünə qoyduğu telefonunu götürüb saata baxmaq, vaxtı müəyyənləşdirmək istədi. Tez də fikrindən daşındı. “Ehh, indi vaxtın nə fərqi var?! Təxmini bilirəm ki, hələ gecədir, səhərin açılmasına çox var. Bir də tutaq ki, telefonda baxıb vaxtı müəyyənləşdirdim, saatın dörd, beş, ya altının yarısı olduğunu öyrəndim. Bəs sonra? Bunun nə mənası olacaq? Gedib dəhnə bağlamayacam ki, bostan suvaram. Yer belləməyəcəm ki, əkin əkəm. Ot biçmiyəcəm, naxır otarmıyacam… Mənimki… elə bu çarpayıdı ki, uzadıblar.., uzanmışam…”

Çarpayısı pərdəsiz pəncərənin qənşərindəydi deyə hər zaman çölə baxa bilirdi. İndi də gözlərini bir neçə dəfə döyəcləyib

yenə də çölə baxdı, havadan elə bil zəhrimar yağırdı, səmada təkəmseyrək sayrışan ulduzlar da bu qarmaqarışıqlıqdan bezmiş kimi gah itib-batır, gah da gözə dəyirdilər. Çox güman ki, hələ sabahın açılmasına xeyli vaxt vardı.

Bu gecə yuxusunu yaman qarışdırmışdı Umud. Ömründə bircə dəfə – o izdihamlı ayrılıq günündə gördüyü komandirləri girmişdi yuxusuna. Adı necəydi onun, hə, yadına düşdü Cahangir, elə özüydü ki, vardı cahangir Cahangir Əliyev, polkovnik ulduzları ona necə də yaraşırdı, əsl sərkərdə kimi görsənirdi.

Umid bu gecə yuxuda görmüşdü ki, yamaclardan, gədiklərdən keçən bir yolla hardansa gəlir. Əlli-altmış qoyun-quzunu da qatıb qabağına. Beş dolu qucaq palıd qırması yüklənmiş boz eşşək də qabaqda qırğı kimi gedir. Umudun da əlində dəhrə var. Onun özünə də maraqlıydı, niyə dəhrə? Niyə çomaq yox, silah yox, dəhrə? Eşşəyi yükləyəndən sonra həmişə dəhrəni, baltanı, orağı yükün bir yerinə taxardı, əlində heç nə saxlamazdı, eləcə qollarını yelləyə-yelləyə eşşəyin arxasına düşüb gedərdi.

Fikirləşə-fikirləşə bir az getmişdi ki, birdən gözü qabaqda qırğı kimi gedən boz eşşəyə sataşdı. Eşşəyin yükü yaman əyilmişdi, az qalırdı yerə çatsın. Yük azca da əyilsəydi palıd qırmalarının ucu yolun üst badındakı yarğana ilişəcəkdi. Yarğana ilişən kimi yük eşşəyi aşıracaqdı.

Yol deyəndə də adamın ağzı ağrıyır, səmtsiz bir çəhlim idi, sərt yamacın döşü ilə gedib, gədiyin başına dolanırdı.

Şiv palıd qırmaları yarğana ilişən kimi boz eşşək elə yük qarışıq yumalanıb düşəcəkdi dərənin dibinə. Onda da ya qismət… eşşək ya sağ qala, ya şikəst ola… Yamacdakı kəsilmiş ağacların çəkilləri qarnını yırtmasaydı, belindəki nizə kimi palıd qırmalarından biri ilişib ya gözünü tökəcəkdi, ya da qarnını yırtacaqdı. Şikəst eşşək də Umudun nəyinə gərəkdi…

Umud tez özünü yetirdi eşşəyə. Axı eşşək hardan bilərdi ki, Umud nə düşünür. Eşşək bunları anlamırdı, heç anlaya da bilməzdi. Yükü az qala yernən sürünsə də gedirdi. "Hoqquş, hoqquş" deyib eşşəyi dayandırdı. Yükün əyən tərəfini qaldırdı ki, düzəlsin. Bu xeyli vaxt apardı, çünki örkən də boşalmışdı. Umud yavaş-yavaş örkəni də çəkib bərkitdi. Yük qarışıq örkəni çəkib bərkitmək asan iş deyildi, xeyli vaxt apardı. Başı yükü düzəltməyə necə qarışdısa, bir də baxdı ki, heyvanlar gözdən itib. Eşşəyi döyəcləyib yola düzəldi ki, gedib heyvanlara çatsınlar. Bir xeyli getmişdilər ki, gədiyin dolanbac aşırımında örkənin eşşəyin qarnının altından keçib belindəki palanı bərk saxlayan çatısı qırıldı və yük palanqarışıq belindən sivişib quyruğunun üstündən yerə düşdü. Yükün altından çıxan eşşək ilan ağzından qurtarıb gölə tullanan qurbağa kimi götürüldü, qaçdı və bir anın içində dağın arxasına keçib görünməz oldu. Umud baxdı ki, əlindəki dəhrə də yoxa çıxıb. Heyvanların itməsi, eşşəyin yükü salıb qaçması, bu yandan da dəhrənin müəmmalı şəkildə yoxa çıxması Umudu bərk üzdü. Məyus-məyus əyilib aşağılara baxdı ki, görsün heyvanlar su içmək üçün dərəyə tökülməyiblər…

Dərənin qırağında qamışdan bir çavıstan vardı. Qapısının

ağzında yekəpər pəhləvana oxşar biri oturub çay içirdi. Umud baxan kimi onu tanıdı – Haramı döyüşləri zamanı briqadaya komandirlik etmiş Cahangir idi. O da Umudu tanımışdı, əli ilə işarə elədi ki, düş gəl aşağı. Tay demədi, gəl çay iç. Umud kimiydi ki, onun yanında, adi bir döyüşçü. Umud kimi döyüşçülərdən polkovnikin tabeçiliyndə minlərlə idi.

vaxtlar olduğu kimi qaça-qaça gəldi komandirinin çağırışına. Nəsə demək istəsə də səsi çıxmadı. Polkovnik də heç nə demədi, eləcə əli ilə oturmaq işarəsi verdi. Umud dəyirmi masanın ətrafına qoyulmuş kötüklərdən birinin üstündə oturdu. Polkovnik nəlbəkidəki çayını içib qurtardı. Nazik stəkanın yarısından olan qıpqırmızı çayı da nəlbəkiyə tökdü, qurtaqurtla onu da çəkdi başına.

–Kim nə deyir-desin, nəlbəki çaya dad verir. – dedi.

Sonra çəkmələrini geyib ağır-ağır ayağa qalxdı. Umuda dedi ki, dur gedək.

Umud durub polkovnikin arxasınga getmək istəyəndə baxdı ki, ayaqyalındı. Bunu polkovnik də gördü. Polkovnik geri dönən kimi elə bil Umudun dili açıldı.

–Axı mən ayaqyalınam! – Yavaşca pıçıldadı. – Geyməyə ayaqqabım yoxdur.

Polkovnik gülümsündü. Astadan, bir az da xışıltılı səslə dedi ki, ayaqqabıları neynirsən, uzağa getmirik, qapıdakı çəkələklərdən birini keçirt ayağına, tez gedək, gələk. Umud kötüyün üstündən yavaşca durub qamış çavıstanın keçə qapısına yaxınlaşmaq istəyirdi ki, ayağında kəskin ağrı hiss etdi; ya

ayağına tikan batmışdı, ya da cücü çalmışdı, əqrəb də ola bilərdi. Hər nəydisə bərk ağrıtdı, elə bu ağrının təsirindən də Umud yuxudan ayıldı.

Umud yuxunun təsirindən çıxa bilmirdi. Bir vaxtlar kitablardan oxuduğu yuxuyozmaları xatırlayıb çözməyə çalışırdı, bacarmırdı. Yalnız yaddaşında ilişib qalan xoş xatirələr bircə-bircə göz önündə canlanırdı.

…Biləsuvar gömrük-keçid məntəqəsində həmişəki kimiydi, yenə də basabasdı, yenə də sıxlıqdı.

Umudu qarşılamağa gələnlər həyəcanla gözləyirdilər. Qrupa mayor Orduxanov rəhbərlik edirdi. Iki maşınla gəlmişdilər; qərargah rəisinin “Niva” sını o qədər yumuşdular ki, ağappaq gəlin maşınına bənzəyirdi, tünd yaşıl rəngli Hərbi-Tibbi Yardım maşını da elə bil zavoddan indicə gətirilmişdi.

Gələnlər arasında İsgəndər adlı xüsusi şöbənin zabiti də vardı, nədənsə mayor Orduxanovun yanını kəsdirib durmuşdu, bir addım da kənara çəkilmirdi. Həkim maşınında sürücü, Rövşən həkim və tibbi bacısı Yulyadan başqa daha iki əsgər – tibb təlimatçısı və sanitar da vardı.

Bir-iki siqaret çəkib gəzişmişdilər ki, keçid başladı. Baxdılar ki, tumanı uzun, saqqallı, orta yaşlı bir iranlı əlil arabasını itələyə-itələyə gətirir, Umud da bəy balası kimi oturub arabanın içində.

Lap uşaq kimi sevindilər. Necə sevinməyəydilər?! Odun-alovun içindən birgə çıxmış döyüşçü yoldaşları indi də qonşu ölkədən müalicədən sap-sağlam qayıdırdı. Göndərəndə

Rövşən həkimin ümidi üzülmüşdü. Burda xəstəxanalarda gecikdirilmişdi deyə qıçı qanqrena olmuşdu. Dizdən aşağısının kəsilməyi bir yana, özünün sağ qalacağına ümid çox az idi. O qədər qan itirmişdi ki, yaşaması şübhəliydi. İndi budur sapsağlam öz ölkəsinə qayıdırdı.

Mayor Orduxanov sevinirdi… Umudun yaşamasına sevinirdi… Nə qədər acı olsa da əlil arabası ilə qayıtmasına sevinirdi… Umud tankdan sonra piyada qalmamışdı. O, yaxşı bilirdi ki, ölkədə xirtdəyəcən problemi var, belə tezliklə Umuda əlil arabası ala bilməyəcəklər. Sənədləri nazirliyə göndərələr, çək-çevirdən sonra ona əlillik qrupu təyin edələr, növbəyə yazalar… Bu, uzun bir mərəkə olacaqdı. Nə yaxşı ki, qonşu qardaş ölkədə bunu başa düşüblər. Umud kimi əlilləri vətənlərinə əlil arabası ilə qaytarırlar.

Nəhayət, gəlib çatdılar. Görüşmək üçün birinci mayor Orduxanov özünü toplayıb onlara tərəf addımladı. "İlahi, Umud nə günə qalmışdı! O qarayanız dolubədənli gəncdən əsər-əlamət görünmürdü. İnsan nə tez dəyişərmiş… Ağappaq olmuşdu, azca sarısı vardı. Eybi yoxdur, beş-on gün qulluğunda durarlar, yenə də gümrahlaşar, Haramının tərtəmiz vətən havası…" Təskinlik tapıb yaxınlaşdı. Umud da komandiri ilə görüşmək üçün uçunurdu, az qalırdı əlil arabasından yerə düşüb ona tərəf yüyürsün, dizləri üstə lap uşaq kimi iməkləsin…

Mayor Orduxanov addımını yeyinlədib özünü onlara yetirdi və əyilib Umudun boynunu qucaqladı. Sonra da o biriləri növbə ilə Umudun boynuna sarılıb görüşdülər.

Axırda Yulya utana-utana Umuda yaxınlaşdı. Əvvəlcə hamı kimi əyilib boynunu qucaqlamaq, üzündən öpmək istədi. Nə fikirləşdisə, dayandı… matdım-matdım ona baxdı… Baxdı və hönkürə-hönkürə əyilib onun boynuna sarıldı. Bayaqdan özünü güclə saxlayan Umud da içindəkiləri boşaltdı, onun hıçqırığı Yulyanın hönkürtüsünə qarışdı…

Yulya xoş görünüşlü ucaboy, sarışın bir rus qızı idi. Atası Gennadi rus ordusunun peşəkar zabitidir. Rusiyanın Volqoqrad şəhərində hərbi xidmət keçərkən Yevdakiya ilə evlənib. Ailənin böyük qızı Nadya elə Volqoqrad şəhərində dünyaya gəlib. Bir neçə ildən sonra Gennadini təyinatla Azərbaycana göndəriblər. Elə o vaxtdan ailə Salyan rayonu ərazisində yerləşən hərbi şəhərcikdə yaşamalı olub. Yulya da burada dünyaya gəlib. Təxminən on beş il burada yaşayandan sonra Gennadini Uzaq Şərqə xidmət keçməyə göndəriblər, daha doğrusu, o, özü bunu rəhbərlikdən xahiş edib. Təqaüdə çıxmazdan əvvəl Uzaq Şərqdə yaxşı staj yığacaqdı, maaşı da yüksək olacaqdı.

Gennadi ilə Uzaq Şərqə getməyə arvadı Yevdakiya razılıq verməyib. O, gedəndən sonra daha iki il həmin hərbi şəhərcikdə yaşayıb, əvvəlki işində işləyib. Böyük qızı Nadya da orta məktəbi bitirəndən sonra anasının yanında işə düzəlib.

Hər şey Yulya Tibb texnikumuna qəbul olandan sonra başlayıb. Gennadi təqaüdə çıxandan sonra Azərbaycana deyil, Volqoqrada qayıdacağını yazıb. Anası ilə Nadya da köçüb getməyi təklif ediblər. Yulya isə oxuyacağını, sonra da Azərbaycanda qalıb işləyəcəyini bildirib. Bu o vaxta təsadüf

edirdi ki, ölkə dağılmağa sürüklənir, daxildə parçalanma gedirdi. Müstəqil dövlətlərin yaranması ilə çoxlarının ölkələrdən-ölkələrə köçünə təkan vermişdi.

Yevdakiya ilə Nadya köçməyə qərar verəndə Yulya inadından geri çəkilmədi:

–Sizin vətəniniz Volqoqraddırsa, mənim də vətənim Azərbaycandır. Siz gedin, mən qalıb oxuyacam.

–Bəs sonra? – Anası israrla soruşdu. – Sonra da gedib müharibədə yaralananların yaralarını sarıyacaqsan?

–Bəli! – Bu Yulyanın ağlına da gəlməzdi, amma anasının deməyi ilə beyninə girdi.

–Onda qal.

Anası ilə bacısı köçüb getdilər, Yulya isə təhsilini davam etdirdi. Müharibə təzə-təzə alovlanırdı. Bir müddət anası pul göndərir, yardım edirdi. Elə ki, təhsilini başa vurdu, anasının yardımları kəsildi.

Həmin vaxt daha çox gənclər ölkənin müdafiəsinə qoşulurdu. Yulya da qərarını verdi.

Çox keçmədi ki, tale onu Haramıda döyüş mövqeyində olan hərbi hissəyə gətirdi. Umudla tanışlıq da elə burda baş verdi. Həmin gün Umudgilin ekipajını və çoxlu tankçını Ağdam cəbhəsindən Haramıya gətirmişdilər.

İndi Yulya Umudun boynuna ən əziz, ən doğma adamı kimi sarılmışdı. Sağ-salamat gördüyünə nə qədər sevinirdisə, bir neçə saatdan sonra itirəcəyinə təəssüflənirdi. Xeyli müddətdən bəri isinişdiyi adamı bir daha görməyəcəyindən qorxur və hıçqırırdı.

–Gəlin çəkilək kənara, qoy yüngülləşsinlər. Bayaqdan hiss edirdim ki, bahar buludu kimi dolublar.

Mayor Orduxanov iranlını da götürüb kənara çəkildi. Onun əlini iki əlləri arasına alıb sıxdı.

–Heç bilmirəm, sizə necə təşəkkürümü bildirim. Bizə bu sevinci yaşatdığınıza görə o taylı qardaşlarımıza minnətdarıq.

İranlı başı ilə qarşılığını bildirdi, hansısa sənədləri mayor Orduxanova verdi, sənədin birinə də qol çəkdirib özündə saxladı. Mayor Orduxanov əlil arabasının sənədi olduğunu zənn etdi və farsca yazılmış anlamadığı kağızları Rövşən həkimə ötürdü. İranlı görüşün uzun çəkdiyini görüb ciddiləşdi:

–Babam! – dedi. – Xəstanızı götürün, mən arabanı aparmalıyam. Vəxtim yoxdu gözlamağa.

Bu sözdən hamısı tutuldu. Mayor Orduxanov Rövşən həkimə, Rövşən həkim də İsgəndərə baxdı, sadəcə çiyinlərini çəkdilər.

–Belə də olur. – Mayor Orduxanov təəssüflə dilləndi və işarə elədi ki, deyiləni eləsinlər.

Tibb təlimatçısı ilə sanitar əsgər Umudu əlil arabasından dik götürüb hərbi-tibbi yardım maşınına tərəf apardılar.

–Ora yox! – Mayor Orduxanov səsləndi. – “Niva” ya, özü də… qabaq oturacağa…

Umudun ürəyi dağa döndü, o, belə də zənn etmişdi, mayor Orduxanov onu, elə o biri döyüşçüləri də özünə doğma, bəlkə də, qardaşdan yaxın bilirdi. Heç vaxt razı ola bilməzdi ki, keçmiş döyüşçüsü, özü də bu vəziyyətdə narahat yerdə aparılsın. Hələ yaşı qurumamış gözlərindən iki damcı sevinc yaşı axıb sifətini

yandırdı.

İsgəndərin rəngi-rufu dəyişdi, mayor Orduxanovu tərs-tərs süzdü: “Bu nə edir? Umud qabaqda oturacaqsa, deməli mən keçib arxada oturmalıyam? Hə, heç nə olmaz, elə Orduxanovla biz ikimiz də arxada oturacağıq!” Bir az rahatlandı, bir az təskinlik tapdı.

İranlı kolyaskanı götürən kimi heç sağollaşmadan onlardan uzaqlaşdı.

–Hamı yerinə! – Mayor Orduxanov səsləndi.

“Niva” nın sürücüsü Rahib əli ilə sürücü oturacağını qabağa əyib əli ilə tutdu ki, İsgəndər arxa tərəfə keçsin. İsgəndər keçib yerini rahatlayandan sonra gözlədi ki, bəlkə mayor Orduxanov da arxa oturacağa keçəcək.

–Nə gözləyirsən? – Mayor Orduxanov Rahibə baxdı. – Özün də arxaya keç.

Rahib arxa oturacağa keçib İsgəndərlə yanbayan oturdu. İsgəndər pərt olsa da daha büruzə verməyi əhəmiyyətsiz bildi.

–Bu şərəfi əldən buraxmaram. – Mayor Orduxanov yerini rahatlayıb mühərriki işə saldı.

–Hansı şərəfi? – İsgəndər pərtliyini büruzə verməmək üçün maraqlandı.

–Umud kimi qəhrəman döyüşçüyə sürücülük etmək şərəfini. Belə şans hər dəfə ələ düşməz.

“Niva” qabaqda, yamyaşıl hərbi-tibbi yardım maşını da arxasınca yola düşdü. Baş yola çıxana kimi heç kim danışmadı. Elə ki, baş yola çıxıb sürəti tarazladı, mayor Orduxanov üzünü

Umuda tutub gülümsündü. Umud fürsət gözləyirmiş kimi araya söz saldı.

–Sizi də təbrik edirəm, “mayor” rütbəsi almısınız.

–Çox sağ ol, Umud. – Sağ əlini sükandan ayırıb Umudun çiyninə vurdu. – Sən bundan da yüksək rütbəyə layiqsən. Hə, danış, görüm, babalar sənə necə qulluq göstərirdilər?

–Sağ olsunlar. Bir dənə davranışları nəyə desən dəyərdi. Adamı o qədər mehriban dindirir, şirin-şirin danışdırırdılar ki, elə bil yaxın qohumların, kəndçilərindi. Bir də öz aralarında hamısı bir-birinə “ağa” deyə müraciət edirlər.

–Bəs, babam? – İsgəndər müdaxilə etdi.

–Sizə “babam, babam” demələrinə baxmayın…

–Deməli, sən orda “ağeyi Umud” oldun… – Mayor gülümsündü.

–Hə, elə deyirdilər… – Umud da qımışdı.

–Özgə deyillər ki… onlar da bizdəndi… bizimdi… yarımız Arazın bu tayında… yarımız da o tayında…

–Hərdənbir söhbət düşəndə onlar da belə deyirdi. – Umud nə fikirləşdisə əlavə etdi. – Yox, onlar ayrı cür deyirdilər. Deyirdilər ki, buralar o tayın olub… bir vaxtlar… Sonra Şahənşah Rusiya ilə cəngi aparıb ki, buraları qorusun, qoruyammıyıb. Urus güclü olub, cəngi qazanıb, buraları o taydan qoparıb. Yoxsa, indi buralar da İranın tərkibindəydi. Onda ermənini həddi nəyidi cəngi açsın, buralara hücum eləsin…

Mayor Orduxanov güzgüdə İsgəndərə göz vurdu…

–Umud, farslar belə danışırdı, yoxsa o taylı azərilər? –

İsgəndər soruşdu.

–Heç bilirsən ki, farslar hansıdı, azərilər, ermənilər hansı? – Umud qanrılıb arxaya baxa-baxa cavab verdi.

–Orda ermənilər də işləyir? – İsgəndər sual yağdırmaqda davam edirdi.

–Orda çoxunun familiyasının sonluğu yandır; ermənisinin də, farsın da, azərinin də… Bir də Təbrizin ən yaxşı həkimləri elə ermənilərdi. Onlar hər il xaricə gedib təhsillərini artırırlar. Azərilər də "bəsimdi, buna da şükür" deyib Allaha dua edir, yerlərində sayırlar. "Babam, bundan sonra gedib professor olmuyacam ki?"

–Hə… – Mayor söhbəti dəyişmək istədi, amma Umud imkan vermədi.

–Hə, bir də, çox xəsisdilər. – Umud qabağa çevrilib yola baxa-baxa söhbətinə davam etdi. – Əsl Hacı Qaradılar. Xəsis Culfa onların yanında toya getməlidi. İynəni də adama elə vururlar ki, elə bil qırx ildi onlardan borc alıb qaytarmamışıq. Cənab mayor, bizim hökumət onlara pul ödəmir ki, bizi müalicə etsinlər?

–İndi onun yeri deyil, Umud. Ola bilər ki, bizim hökumət hələlik pul ödəməyib. Müharibə aparan ölkə pul ödəməz, qonşulardan borc alar. Qayda belədir. Ancaq qoy, bu müharibə qurtarsın, bircə Qarabağ məsələsi həll olunsun.., bizim hökumətimiz… heç kimə borclu qalmayacaq… Hamının borcunu artıqlaması ilə, hələ desən faizi-sələmi ilə ödəyəcək. Biz güclü dövlət olacağıq; həm iqtisadi, həm də hərbi cəhətdən. Həm də…

Mayor Orduxanov nə fikirləşdisə, gerisini demədi. Onun nə deyəcəyini gözləyirmiş kimi nə İsgəndər, nə də Umud bir söz də olsun əlavə etmədi. Gözlədilər, gözlədilər, Orduxanovdan da səs çıxmadı.

Qabaqda Dövlət Yol Müfəttişliyi postu vardı. Postu keçənə kimi heç biri dinib danışmadı. Mayor Orduxanov güzgüyə baxırdı, görsün o biri maşın çox geridə qalmayıb ki…

–Umud, yaralandığın yadındadırmı? – Postu keçəndən sonra İsgəndər maraqlandı.

Umud çevrilib komandirə baxdı ki, görsün nə deyir. Mayor Orduxanov sükandan bərk-bərk yapışmışdı, gözü ancaq yolda idi, fikri, xəyalı bəlkə də Haramıda dolaşırdı.

–Qorxma, danış. – İsgəndər ürəkləndirdi. – Komandirinə niyə baxırsan? Qorxursan ki, danışmağına icazə verməyə? Burda nə var?! Bir də kənddə bostan oğurluğuna getməmişdin ki, cələyə düşüb qıçını qırasan. Ermənilərlə vuruşurdun, vətəni müdafiə edirdin, yaralandın.

–Yaralandığım yadımdadır. Siz düz deyirsiniz, döyüşdə yaralandım. Amma… yenə də… yaxşısını komandir bilir… – Umud təəssüf dolu baxışlarla başını buladı.

–Bəyəm komandir də sənin yanındaydı yaralananda? – İsgəndər inanmırmış kimi soruşdu.

–Bəli. – Umud qəti cavab verdi.

–Bəs axı sən sol cinahda yaralanmısan. Tabor komandirin də mərkəzdə hücumda olub.

–Bizim komandir ayrı komandirdi, o, hər yerdə olurdu. Neçə

ildir müharibədir, ermənilərlə davadayıq, mən üç döyüş bölgəsi dəyişmişəm, hələ belə komandir görməmişəm. Harda qızğın döyüş gedir, komandir tez özünü yetirir ora. Həmişə BMP-2-nin üstündədir. Bir dəfə bərk döyüş gedirdi. Erməni tankları başımıza od ələyirdi, mərmilər dolu kimi yağırdı. – Sanki Umudun dili açılmışdı. – Əsgərlər səngərlərdən baş qaldıra bilmirdilər. Biz tankçılar da nişan alıb atəş aça bilmirdik, elə allah umuduna hərdənbir birini ermənilər tərəfə atırdıq. Bir də gördük arxadakı təpənin üstündən hacıleylək dimdiyini şaqqıldatdı.

–Nə, Hacıleylək? Sənin kod adın beləydi? – İsgəndər mayordan soruşdu.

–İmkan ver, qoy danışsın.

–Ləzzət eliyir hə, əsgərin dilindən xoş sözlər eşitmək?

–Əsgərinin söylədikləri komandirin ən böyük mükafatıdır. Mənim kod adım “Zireh” idi. Əsgərlər PDM-2-yə öz aralarında “Hacıleylək” deyirdilər.

–Yaxşı, Umud, danış. Danış, görək, sənin bu komandirin daha hansı oyunlardan çıxıb ermənilərin qabağında.

–Ermənilər yaxşı bilirdilər. Komandirin hacıleyləyi şaqqıldıyan kimi dığalar siçan deşiyini satın alırdılar.

Umud bunu deyib dayandı.

–Hə, Umud, gərək belə olmayaydı, amma oldu. Görünür, Tanrının yazısı beləymiş. – Mayor Orduxanov danışmağa başladı. – Həmin gün biz “Bəytəpə” əməliyyatına hazırlaşırdıq. “Yarğan” sıra təpələrini alandan sonra ermənilər

“Bəytəpə” yüksəkliyində və oradan sağa-sola uzanan təpələrdə möhkəmlənmişdilər. Üç gün idi piyada qoşunumuz hücum edirdi, təpələri ala bilmirdi. Əmr olunmuşdu ki, tanklarla hücuma keçək. Sənin tankın da hücum qrupundaydı. Tam hazırlıq görüləndən sonra sizə dinclik verdim ki, yatasınız. Özüm isə səhərki döyüşü düşünür, döyüşdən az itgi ilə çıxmaq üçün bir daha hər şeyi götür-qoy edirdim. Bərk yorulmuşdum. Gecənin bir aləmində özüm də mürgüləmək istəyirdim ki, sən sayıqlamağa başladın. “Qoymayın! Məni burda qoymayın! Komandir!!!” Öz səsinə az qala özün oyanacaqdın, o biri əsgərləri də oyadacaqdın. Yaxınlaşıb əlimi alnına qoydum, qızdırman vardı, od içində yanırdın. Dərhal sənin tankını ehtiyata keçirmək barədə qərara gəldim. Xəbəriniz olmadan sağ cinahdakı üç tankdan birini mərkəzə gətizdirdim. Alaqaranlıqdan sizi yuxudan qaldırdıq. Sənin tankının ehtiyatda qalmasını tapşırdım. Döyüşə gedə bilməməyindən məyus oldun. Burnunu sallayıb kənara çəkildin. Mənim sözümdən çıxa bilmirdin, amma döyüşdən qalmaq da istəmirdin. Nə isə… Biz üç tank və mənim sərəncamımda olan PDM-2-nin dəstəyi ilə səhərin alatoranlığında hücuma keçdik. Elə birinci həmlədə itgisiz “Bəytəpə”ni götürdük. Birinci, ikinci motoatıcı taborlar sağ-sol cinahlardan hücumu genişləndirdilər. “Bəytəpə” dən sağda, yəni ikinci tabordan sonra dördüncü, solda, birinci tabordan sonra altıncı tabor olmaqla silsilə təpələri ermənilərdən aldıq. Səhər saat doqquz olmadan günün tapşırığı yerinə yetirilmişdi. Arada fürsətdən istifadə edib əsgərlərə səhər

yeməyi yedirtmək istəyirdik ki, ermənilər mərkəzdən əks-hücuma keçdilər. Güclü əks-hücum olsa da dəf edə bildik. Ermənilərin bir az zəif ikinci əks-hücumu dördüncü tabor istiqamətində oldu. Onu da dəf etdilər. Günorta yeməyi zamanı artıq tam arxayınlaşmışdıq ki, daha ermənilər möhkəmlənmək üçün yeni mövqe seçərlər, əks-hücuma keçməzlər. Bir də baxdıq ki, sol cinahımızda qırğındır. Elə bu zaman briqada komandiri ratsiya ilə bildirdi ki, ermənilər əks-hücuma keçib, altıncı taboru yeni aldıqları mövqedən çıxarıb. Mənə əmr edirdi ki, təcili həmin taborun döyüş mövqeyinə gəlim. Orada olan iki tankla və geri çəkilmiş taborun əsgərləri ilə yenidən hücum təşkil edim və erməniləri mövqedən çıxarım. Mən "Bəytəpə" istiqamətində hücumda iştirak edən tankçılara tapşırıq verib PDM-2 ilə geriyə, Umudun tankı duran yerə gəldim. Umud vurnuxur, özünə yer tapa bilmirdi, döyüşdən kənarda qaldığını özünə bağışlamırdı. Məsələni onlara izah etdim və birlikdə altıncı taborun döyüş mövqeyinə gəldik. Orada olan iki tankı və əllidən çox atıcı əsgəri cəmləşdirib hücum təşkil etdim. Elə dörd-beş yaylım atəşindən sonra ermənilər səngərlərdən çıxıb qaçdılar, biz bunu gördük. Sürətlə səngərlərə tərəf irəlilədik və səngərlərə əlli-altmış metr qalmış mən tanklara "dur" əmrini verdim. Səngərlərin qarşısında minalanmış sahə ola bilərdi. Sərəncamımızda olan altı nəfər istehkamçını göndərdim minaların olub-olmamasını yoxlamağa. Bu zaman Umud əlində avtomat tankın üstündən yerə atıldı və səngərə tərəf götürüldü. Onun arxasınca qışqırdım:

–Umuuud!!! Dayaaan!!!

Umud isə eşitmirdi, öz aləmindəydi. Döyüşə hazır vəziyyətdə qaça-qaça səngərin yanına gəldi və səngərin içinə tullandı. Onun səngərə tullanması ilə nəyinsə partlaması bir oldu. Mən heç nəyə məhəl qoymadan onun yanına qaçıb gəldim. Umud yerə uzanmışdı, çabalayırdı. Hər iki ayağı dağılmışdı. Şiddətli qan axırdı. Tez gödəkçəmin kəndirini dartıb çıxartdım və onun ayağının birini topuqdan yuxarı bağladım ki, qanaxma dayansın. Əsgərlər də o biri ayağını bağladılar. Onu qaldırıb tanklar duran yerə gətirdik. Rahib sanitar maşını döndərib hazır vəziyyətdə saxlamışdı. Umudu maşına qoyan kimi yerindən götürüldü.

–Umuuddd, tez qayıt! Bizi Umudsuz qoymaaa!!! – Tankçılardan kimsə arxasınca qışqırdı.

Bu zaman istehkamçılar gəlib dedilər ki, hər yer tərtəmizdir, mina yoxdur. Sən demə üç səngərdə ermənilər cəmi bir mina basdırıbmış, o mina da Umudun adına yazılıbmış…

Umud doluxsundu, elə mayor Orduxanov da pis oldu, amma bunu sezdirməmək üçün arxa oturacaqda oturan nivanın əsl sürücüsü Rahibə tapşırıq verdi:

–Komandirinə bir siqaret yandır!

Rahib tez döş cibindəki dəbdə olan "Prezident" qutusundan bir siqaret çıxartdı, alışdırıcı ilə yandırıb mayora uzatdı. Mayor Orduxanov siqaret sönməsin deyə alıb iki-üç qüllab vurdu və ciyərlərinə çəkdiyi tüstünü pəncərədən çölə üfürdü.

–O vaxt həm imkan olmadı, həm də soruşmağın yeri deyildi. – Mayor Orduxanov dilləndi. – Sən birdən-birə nə fikirləşdin ki, belə hərəkət etdin?

–Komandir, siz səhər-səhər də məni döyüşə aparmamışdınız, odur ki, özümə yer tapa bilmirdim. İndi də səngərin beş addımlığında “dur” komandası verdiniz. Dişim bağırsağımı kəsirdi. Əvvəlcə avtomatı götürüb yerə düşdüm. Səngərin lap yaxınlığında olduğumuzu gördükdə özümü saxlaya bilmədim. Mənə elə gəldi ki, səngərdə bir erməni əsgəri gizlənir. İndicə o, qalxıb qumbaraatanla tankımızı vuracaq. Onun üstünə qaçdım. Həm də qaçdım ki, ermənini məhv edib mövqeyə sahib çıxım. Düşündüm ki, bizim qələbəmiz mənim səngərə girməyimdən asılıdır. Odur ki, heç hara baxmadan, heç nə eşitmədən qaçdım. Heç sizin çağırışınızı da eşitməmişdim.

–Ola bilər! – Mayor Orduxanov təəssüflə bildirdi və siqaretindən dalbadal bir neçə qüllab vurub pəncərədən çölə atdı.

–Komandir, bizimkilər indi hardadır? – Qısa fasilədən sonra Umud soruşdu.

–Umud, sən oraları tanımazsan.

–Çoxmu qabağa getmisiniz? Kənd varmı orda?

–Təəssüf ki, bizim qismətimizə kənddə döyüşmək, kənd azad eləmək düşmədi. Aşağı Veysəlli kəndini azad edəcəydik ki, “atəşkəs” oldu.

–Daha döyüş getmir? Heç güllə də atmırlar?

–Yox, Umud, yox. İndi ermənilər öz səngərlərində oturub bizə baxırlar, biz də oturub onlara…

–Gözləyirik ki, görək başbilənlər o qanmazları nə vaxt başa salıb müharibəni bitirəcəklər. – Bunu İsgəndər əlavə etdi.

Nədənsə, söhbətin belə alınması heç birinin ürəyincə

olmadı. Diqqətlərini kirimişcə durub yolu nəzərdən keçirməyə yönəltdilər.

…Daşburun dördyolundan sağa döndülər. Buralar Umuda tanış gəldi. Tankları təmir edən səyyar dəstə Daşburunda yerləşdiyindən Umud bir dəfə tankını bura gətirmişdi. Qarşıda rayonun alaqapısı idi. Onlar qala divarlarına bənzər ala qapını geridə qoyanda Umudun həyəcanı bir az da artdı. Sanki, o, yenidən döyüşə yollanırdı. Mayor Orduxanov onun həyəcanını hiss edir, mənzil başına tez çatmaq üçün maşının sürətini artırırdı. O, istəyirdi ki, Umudu hərbi hissənin qərargahına daha tez çatdırsın. Ona göstərsin ki, döyüşçü dostları, briqadanın digər döyüşçüləri onun sağ-salamat qayıtmasını necə səbirsizliklə gözləyirlər. Hələ kənd camaatı…

–Komandir, deyirsiniz yəni, tam atəşkəsdir? – Umudun fikrinə nə gəldisə, birdən soruşdu.

–Elədi, Umud. – Mayor qısa cavab verdi.

–Yəni, snayperlə də erməni vurmaq olmaz? – Umud bu dəfə astadan dedi, elə bil komandirinin qulağına nə isə pıçıldayırdı.

–Nədi, Umud, qisas almaq istiyirsən? – İsgəndər bunu eşitcək müdaxilə etdi.

–Umudun qisası çoxdan alınıb! – Mayor Orduxanov Umuda ağzını açmağa imkan vermədi.

Dümağ rəngli “Niva” Daşburun – Beyləqan şossesindən üzü Allahyarlıya tərəf yön alanda onların arxasınca daha bir neçə maşın qoşularaq karvan yaratdı. Bəzədilmiş və hər birində bayraq qaldırılmış maşınları görəndə Umudun ürəyi dağa döndü.

Onların arxasınca gələn kolxoz sədri Rasimin xidməti maşını UAZ-ı Kamandar sürürdü. Elşən, Nabil, Mərkəz, Qəşəm və Seyfulla isə öz şəxsi maşınlarını sürərək siqnal verir, bununla da karvanı əzəmətli edirdilər.

Komendant bölüyünün komandiri Valeh siqnal səsini eşitcək qaçaraq nəzarət-buraxılış postuna gəldi. Şlaqbaumu qaldıraraq gələnləri hərbi qaydada salamladı. Postda növbədə duran üç əsgər isə onun sol tərəfində farağat vəziyyətində durdular, karvanı onlar da baxışları ilə müşaiyət etdilər.

Nəhayət, maşın karvanı kəndin girəcəyinə çatıb sola buruldu. Burada yol boyu kənd camaatı və məktəblilər düzülmüşdü. Maşın karvanı aşağı sürətlə onların qabağından keçib kolxozun inzibati binasında yerləşən qərargahın qarşısına gəldi. Burada onları musiqi sədaları altında qarşılayırdılar.

–Umud, bax, gör səni kimlər qarşılayır! Briqada komandiri polkovnik Cahangir Əliyev, kolxoz sədri Rasim, kənd icra nümayəndəsi Ərşad, qərargah rəisi, müavinlər, xidmət rəisləri. Görürsən də, böyüklər, vəzifəli şəxslər sənin pişvazına çıxıb.

Onlara yaxınlaşanda mayor Orduxanov maşını saxlayıb yerə düşdü. Geyimini sahmanlayıb komandirə yaxınlaşdı və hərbi salam verib məruzə elədi.

Umud maşında oturub həyəcandan bilmirdi neyləsin! Onu az qala qəhrəman kimi qarşılayırdılar, bəlkə elə, doğrudan da qəhrəman ulduzu veriblər. İndi Umud bunun fərqində deyildi. Qərargahın qabağında toplaşan mülki adamların arasında yaxınlarını, doğmalarını axtarırdı. O, çox göz gəzdirsə də heç

kimi görmədi. “Görəsən, bizimkilərə niyə xəbər eləməyiblər?” deyə düşündü.

Hərbi hissə komandirinin müşavirə otağında ziyafət süfrəsi təşkil olunmuşdu. Umudu komendant bölüyünün iki cüssəli əsgəri maşından götürüb içəri apardılar. Yuxarı başa keçirib masanın baş tərəfində, komandirin stulunun yanındakı stulda əyləşdirdilər. Ziyafət çox gözəl keçdi, yedilər, içdilər, ölənləri yad elədilər, qalanların da şərəfinə xoş sözlər deyib, sağlığına badə qaldırdılar. Atəşkəsdən sonra ilk dəfəydi ki, komandir bu qədər döyüşçü-zabit heyətini süfrə ətrafına toplamışdı.

Umud ziyafəti onunla vida mərasimi kimi zənn etdiyindən azca məyus da oldu. Ziyafətdən dərhal sonra komandir kapitan Hüseynova Umudun sənədlərini hazırlamaq tapşırığını verdi. Umud bu uzundraz kapitanı tanıyırdı, adı Zakir idi, özü də səfərbərlik-təşkilatçılıq işlərinə baxırdı. Onlar Ağdam cəbhəsindən Haramı cəbhəsinə döyüşə gələndə də kapitan Zakir Hüseynov qarşılamışdı, məlumatlarını iş dəftərinə qeyd eləmişdi.

Zabitlər, xüsusən də tanıdıqları bir-bir Umuda yaxınlaşır, görüşür, hal-əhval tuturdular. Darıxmasın, özünü yad hiss eləməsin deyə köhnə döyüşçü ilə şirin-şirin söhbətlər edirdilər. Yusif həkim də onların arasındaydı. Çiynində dörd parlaq ulduz olan Yusif həkim əslən Neftçala rayonundan idi, Umudla xeyli vaxt vardı ki, bir-birlərini tanıyırdılar. Demək olar ki, həmyerli kimi də isinişmiş, dostlaşmışdılar.

–Yusif həkim, indi hardasınız? – Umud maraqlandı.

–Xəbərin olsun, mənim vəzifəmi böyüdüblər. Birləşmə hospitalının rəisiyəm, bir ay olar ki, işə başlamışam. Sənin gələcəyin xəbərini eşidib çox sevindim. Gəldim görüşməyə.

–Nə gözəl, nə yaxşı! – Umud sevincini gizlətmədi.

–Yaxşı günün olsun! Gedək, bir müddət də bizim qonağımız ol. Hospitalda hər cür şəraitimiz var. On-on beş gün qalıb istirahət edərsən, sonra yola salarıq, gedərsən evə. – Yusif həkim təklif etdi.

–Yox, Yusif həkim! Bilsən ki, anamçün necə darıxmışam, belə deməzsən. Evə getmək istəyirəm. – Umud başını buladı.

–Ev həmişə yerindədi, anan da qaçmır ki! Istədiyin vaxt gedib görəcəksən. Amma bizim hospital şansın bir də ələ düşməyəcək. Sən çıxıb gedəcəksən, olacaqsan mülkü adam. Mən də mülkü adamı hospitala qəbul edə bilməyəcəyəm.

–Sağ ol, əziz ol. Elə bilirəm ki, beş-altı gün də sizin hospitalda dincəlmişəm. – Umud razılığını bildirdi.

–Ağlın o taydakı hospitala getməsin, başıbağlıların hamısının sifətindən zəhrimar yağır.

–Elə demə, onlar mənimlə də mehriban davranırdılar.

–Bizdəki kimi ola bilməzlər. Heç bilirsən necə şipşirin tibb bacıları var? Adam sifətlərinə baxanda feyziyab olur, dünyanın dərd-qəmini unudur. Qaymaq kimi, şokalad kimidilər. Bölgənin ən yaraşıqlı qızları bizdə tibb bacılarıdır.

–Məzən olsun, ay Yusif həkim. Dünya dağıla, vecinə deyildi. Varam da sənin xoş sifətinə. Allah güldürsün səni.

Xanməmməd həkim də əl çəkmədi.

–Yusif həkim gedəndən sonra yerini mənə verib. Umud, onun sözünü qəribçiliyə salma. Düz deyir. Hospitala getməsən də bir-iki gün bizdə qal. Bizim tibb məntəqəsində də şəraitimiz pis deyil. Yulya özü də məndən xahiş elədi ki, səni bir-iki günlüyə saxlayım. Heç bilirsən yazıq qız səndən ötrü necə dəli-divanədir? Adın dilindən düşmür.

–Biz sadəcə həmyerliyik, bir rayondanıq. – Umud təəssüflə çiyinlərini çəkdi.

–Nə deyirik ki? Elə biz də onu bilirik… Bir də… Yulyanın burda… səndən başqa… kimi var?

Kənarda kiməsə tapşırıq verib yola salan mayor Orduxanov yaxınlaşdı. Onun yaxınlaşması ilə başqa zabitlər bir az kənara çəkildilər.

–Umud, Yulyanın təklifi haqqında bəlkə yaxşı-yaxşı fikirləşəsən!

–Komandir, indi mən heç nə fikirləşə bilmirəm. Tez yola salardınız, evə gedib anamı görmək istəyirəm.

–Sən igidsən, döyüşçüsən, dözümlü olmalısan. Lap ana uşağı kimi danışırsan…

–Bunun ona dəxli yoxdur. Ana anadır…

–Demək istəyirəm ki, hər kişinin həyatında ona arxa, dayaq duracaq bir qadın olmalıdır. Mən sizin münasibətlərinizə çoxdandır diqqət yetirirdim. Yulyanın sənə qarşı olan hissləri çox safdır. Qızın qəlbini qırma.

–Komandir…

–Sözümü kəsmə! Onun münasibəti həmyerli, bir rayondan

olmaq münasibəti deyil, çox-çox yüksəkdədir.

–Bizim aramızda sevgi yoxdur. – Umud doluxsundu. – Bir də mən bu halımla onu necə xoşbəxt edə bilərəm.

–Həyatda möhkəm, uzunömürlü, pak sevgi-məhəbbət də elə bu cür münasibətlərdən yaranır.

Mayor Orduxanov da doluxsundu. “Ay zalım! Ay dilbilməz! Sənə həm də qulluq edəcək Yulya kimi tərbiyəli, savadlı, başıaşağı bir qız lazımdır. Ananın belinə əbədi yük olan deyilsən ki?! Beş-on ildən sonra arvad qocalacaq, onun qulluğunda duracaq birinə ehtiyacı olacaq. Bəs onda necə olacaq?”

Ha çalışdı ki, izah etsin, amma özü ilə bacarmadı, hıçqırığını, qəhərini boğazında boğdu. Umudu da doluxsunmuş görüb boynunu qucaqladı.

–Düz deyirsən, Umud. Ana anadır. Ana – ən müqəddəs varlıqdır.

–Mayor Orduxanov!

Hərbi hissə komandirinin içəri otaqdan gələn səsi onları fikirdən ayırdı. Mayor Orduxanov Umudun boynunu buraxıb komandirin yanına getdi.

–Umudun sənədləri hazırdır. İndi onu yola sala bilərik. Amma maliyyə xidməti rəisi burda olmadığından pul tapa bilməmişik.

–Nə qədər lazımdır?

–Yüz şirvan!

–Baxım görüm, Rasimlə Ərşad getməyiblərsə, deyim kənddən tapsınlar. Sonra maliyyə rəisi gələndə deyərik qaytarar.

Umud bu sözləri apaydın eşitdi. “Yenə də mayor Orduxanov!

Cəmi bir neçə yaş bizdən böyükdür, bəlkə də həmyaşıdıq. Hamımızın qayğısına qalırdı. Gör, məni necə qorumaq istəyib. Döyüşə göndərməyib. Sonra… sonra… sonra da…” Umud göz yaşlarına hakim kəsilə bilmədi…

–Hüseynov, bax ha!.. Neçə vaxtdır sənədlər yığışıb qalıb. Apar hamısını bircə-bircə kitaba işlə. Pravadnikliyinə salma.

Mayor Orduxanov hərbi hissə komandirinin otağından çıxandan sonra polkovnik Əliyev kapitan Hüseynova tapşırıq verirdi.

–Baş üstə, cənab polkovnik! Axşam sakitcə oturub sənədləri birbəbir kitaba işləyəcəm.

–Axşama saxlama, elə indidən get işlə.

–İndi alınmaz!

–Niyə alınmır?

–Gah siz çağırırsınız, gah qərargah rəisi çağırır, gah da müavinlərinizdən hansısa… Gündüz işləmək olmur.

–Yaxşı, axşam işləyərsən. Al, bunları da götür, gör masanın üstündə, daxılımda neçə qovluq sənəd yığışıb qalıb.

…Umudu evlərinə Seyfulla öz maşınında aparmaq istəyirdi. Bir taborda xidmət keçmişdilər, birgə döyüşlərdə olmuşdular. O, dura-dura başqasının aparması, bəlkə də, düzgün çıxmazdı. Hər halda Seyfulla belə düşünürdü. Amma polkovnik Əliyev bunu biləndə razılaşmadı, qəti etirazını bildirdi. “Seyfulla adi döyüşçü deyil, indi bölük komandiridir. Bölüyü başsız buraxmaq olmaz, qoy, başqası aparsın!” deyə mayor Orduxanova göstəriş verdi.

Çox düşünmədilər. Baş leytenant Nabil Orucovun maşınında

yola salmağı qərarlaşdırdılar. Xidmət rəisinin köməkçisi vəzifəsində çalışan Nabil həm etibarlı, təmkinli yoldaş idi, həm də maşını ehtiyatla idarə edirdi, sınanmış adamdı.

Umud maşına mindiriləndə bayaqkı təntənədən əsər-əlamət görmədi. Bir neçə saat əvvəl briqadanın qərargahı sanki bayram təntənəsində qaynayırdı. İndi isə yeyib-içməklərinə, əhvallarının xoş və yüksək olmalarına baxmayaraq, hər kəs öz işinin dalınca qaçırdı.

"Gələndə elə qarşıladılar ki, elə bil qəhrəmanı qarşılayırdılar. Gedəndə də, sanki, lazımsız bir adamdan canlarını qurtarırlar. Yaxşı ki, bu mayor Orduxanov var… Yoxsa, indi Allah bilir… bəlkə avtobusla yola salacaqdılar… bəlkə heç… eh, nə bilim e…" Umud düşüncələr içində ikən mayor Orduxanov yaxınlaşdı.

–Umud, sənə yaxşı yol… Get, istirahətini elə… Polkovnik Əliyev tapşırıb, sənədlərini rayonunuza göndərəcəklər. Orda sənə təqaüd kəsiləcək… bir də… özün başa düşürsən… atəşkəs olsa da… müharibə… müharibədir… İmkan düşdükcə, səninlə əlaqə saxlayacağıq… darıxmağa qoymayacağıq… – Bayaqdan az qala qırıq-qırıq danışan mayor duruş gətirə bilmədi, sarsıldı, tez də özünü düzəltdi. – Mənim nəsə deməyim yersizdir… Özün hər şeyi başa düşürsən… Kalyaska məsələsini də rayonda həll etməlidirlər… Yəqin ki, belə vəziyyətdə… sən tək deyilsən… Növbəyə yazarlar… vaxtın çatanda… səni də təmin edərlər… Di… yaxşı yol… – Mayor Umudun boynunu qucaqlayıb özünə sıxdı. Əlini üç dəfə kürəyinə vurdu. – Möhkəm ol!

Mayorun "Möhkəm ol" deməyi Umudu dirçəltdi, o, elə

bildi ki, komandiri onu evlərinə yox, yenə də döyüşə göndərir. Axı komandir onları döyüşə göndərəndə həmişə “möhkəm ol” deyərdi. Aya, günə bir bax!

Mayor Orduxanov üzünü Nabilə tutdu:

–Yolçu yolda gərək. Tərpənin ki, qaranlığa düşməyəsiniz. Erkən gedib kəndə çatasınız. Nabil, əvvəlcə maşını tibb məntəqəsinə sür. Xanməmməd həkim nə isə tapşırıq verəcək. Həm də sizə bir tibb təlimatçısı qoşacaq. Yolda köməyi dəyər.

Mayor Orduxanov əmin idi ki, tibb təlimatçısı artıq hazır vəziyyətdə yolda durub onları gözləyir. Bu barədə Xanməmməd həkim zəng vurub xəbər vermişdi. Özü qəsdən elə deyirdi ki, tibb məntəqəsinə dönsünlər. Bəlkə Yulya da Umudla görüşüb vidalaşmaq istəyirdi.

Nabil maşını ehmal-ehmal sürüb qərargahdan aralandı. Kolxozun digər inzibati binası yüz-yüz iyirmi metr aralıda idi. İndi briqadanın tibb məntəqəsi orada yerləşirdi.

Tibb məntəqəsinin qabağına çatan kimi Nabil maşını saxladı. Onlarla gedəcək təlimatçı maşın dayanan kimi qapını açıb oturmaq istədi.

–Tələsmə. – Nabil onu saxladı. – Gəl birlikdə içəri keçək. Görək Xanməmməd həkim nə deyir.

Nabil maşından düşdü və tibb təlimatçısı ilə birlikdə içəri keçdilər.

Tibb məntəqəsinin qabağında bir neçə əsgər o tərəf-bu tərəfə gəzişirdilər. Onlar lazaretdə olan yüngül xəstələr və sanitarlar idilər. Maşında oturub onlara göz qoyan Umuda heç fikir də

vermədilər. Umud gözlərini gəzdirib qeyri-ixtiyari qapıya zillədi. Elə bu vaxt Yulya çölə çıxdı. Umud gözlərinə inanmadı, sanki bir xəyal idi. O, Yulyaya heç vaxt belə diqqətlə baxmamışdı. Yulya maşına tərəf addımlayırdı, onunla görüşməyə, vidalaşmağa gəlirdi.

–Gedirsən?

Maşına yaxınlaşan kimi ilk sualı bu oldu. Yanaqları Quba alması kimi qızarıb pörtmüşdü, gözləri şişmişdi, qan çanağına dönmüşdü, elə bil səhərdən ağlayırmış.

–Həə… – Umud soyuq, bir az da könülsüz cavab verdi.

–Bəs həkim deyirdi ki, bir-iki gün qalacaqsan. Özün qalmaq istəmədin? – Yulya soruşdu. – Yoxsa heç təklif də eləmədilər?

–Deməyinə dedilər, özüm qalmadım. Anamdan ötrü çox darıxmışam.

–Məzuniyyətə çıxsam, sizə gələ bilərəm? – Qəfil sual Umudu çaşdırdı.

–Həə… Niyə gələ bilmirsən… Ünvanımı götür…

–Ehtiyac yoxdur…

Bu vaxt Nabil təlimatçı ilə qapıdan çıxıb maşına yaxınlaşdı, Yulya sözünün gerisini deyə bilmədi və aralanıb getdi.

"…Bundan sonra sənin ünvanını hamı tanıyacaq, Umud!" kimsə Umudun qulağına pıçıldadı bu sözləri. "İlahi, bu kimin səsiydi?! Yulyanın? Yulya ki, bunu deməyib getdi!"

Nabil maşını işə salıb yola düşdü. Kəndin alt tərəfindəki yola çıxıb sağa buruldu. Onlar gələndə kənd camaatı və məktəblilər bu yolda sıra ilə düzülüb qarşılamışdılar. İndi yolun kənarında

bircə nəfər də yoxdu ki, Umud əl eləyib sağollaşsın.

"…Getmə, Umud! Bizi Umudsuz qoyma!" Həmin səs idi, Yulyanın səsinə həm oxşayırdı, həm də yox. Yaralananda da bu səsi eşitmişdi…

Umud sağa dönüb tibb məntəqəsinə tərəf baxdı. Həyətdəki əsgərlər o tərəf-bu tərəfə gəzişməkdəydilər, Yulya isə onların yanında deyildi. Sıra ilə tibb məntəqəsinin pəncərələrinə baxdı ki, bəlkə Yulya hansısa pəncərədən onların arxasınca baxır, amma pəncərələrdən baxan yox idi. Yulya heç harda görünmürdü. Umud indi çox istəyirdi ki, Yulya onun arxasınca baxsın, əl eləsin. O, bir də buraları görəcəkdimi?

Umudun gözləri sulandı, tibb məntəqəsinin binası tor kimi görünməyə, həm də balacalaşmağa başladı. Deyəsən, xeyli aralanmışdılar.

…Umud bir də baxdı ki, sərnişin vaqonundadır. Elə bələdçinin kupesindən sonrakı kupedədir, daha doğrusu plaskartdadır, çünki vaqon plaskart olanda kupeyə də plaskart deyirlər. Bunu Umud qatarla tez-tez yol getdiyindən yaxşı bilirdi. Qəribəydi, bu vaqonun provodniki, yəni bələdçisi də Zakir Hüseynovdu. Umud onu görəndə elə bildi ki, başqa adamdı, amma ona çox oxşayır. Axı axırıncı dəfə onu hərbi mundirdə görmüşdü. Nə qədər olmasa da, mülki geyim adamı dəyişir. Diqqətlə baxanda əmin oldu ki, bələdçi odur, Zakir Hüseynovdur ki, var. Müharibə vaxtı bir hərbi hissədə olublar. Zakir o vaxt da vəzifədəydi, indi də vəzifədədir. Gərək ki, rütbəsi də vardı – kapitanıydı. "Bəs nə yaxşı indi

provodnik işləyir? Yəqin müharibə qurtarıb deyə buraxıblar. İndi müharibədir, yoxsa müharibə bitib?” Umudun başı keyimişdi. Heç nə vaxt, neçənci il, ayın günü də xatirində deyildi, huşdaydı, yuxudaydı, bilmirdi.

Qəribəydi, heç Zakir pravadnik də onu xatırlamırdı. Salamlaşanda tanışlıq versə də Zakir elə baxdı ki, elə bil birinci dəfəydi onu görürdü. Deyəndə ki, mənəm, Umud, filan vaxtı, filan yerdə yaralanmışdım, Zakir təəssüflə çiyinlərini çəkdi, onun ağzından ikicə kəlmə söz çıxdı: “ola bilər!”

Umud bircə onu bilirdi ki, evlərinə gedir. Hardan gəlir, nədən gəlir, fərqində deyildi. Birinci plaskartda alt yerdə necə oturtmuşdularsa, eləcə də oturub qatarın tərpənməsini, yola düşməsini gözləyirdi.

Elə ki, qatar fit verib yerindən tərpəndi, Umudun canına rahatlıq yayıldı. Adam elə bil min ilin yorğunuydu, min ilin yuxusuzuydu.

Qatar dayanacaqdan təzəcə aralanmışdı ki, Umudun canına üşütmə düşdü, rahatlıq birdən gəldiyi kimi bir anın içində də yoxa çəkildi. Birdən özü-özündən şübhələnməyə başladı. O, düzgünmü minmişdi qatara? Vaqondakıların danışığı heç onların danışığına oxşamırdı. Birdən vaqona səhv minər? Yaxşı, deyək ki, Umud səhv mindi, bəs bileti yoxlayanda pravadnik hara baxırdı?

Növbəti dayanacaqda Zakir bələdçi özü Umuda yaxınlaşdı.

–Umud! – dedi. – Gəl, səni ikinci polkaya qaldıraq. Bir qadın var, uşağı ilə birgə gedir. Onlar yuxarıda yerləşməzlər, yenə

aşağıda ana-bala baş-ayaq birtəhər keçinərlər.

–Nə deyirəm ki! – Umud razılaşdı.

Zakir bələdçi başqa bir pəzəvəngin köməkliyi ilə Umudu qaldırıb ikinci polkaya uzatdılar.

Daha bir dayanacaq getmişdilər ki, Zakir bələdçi yenə də gəldi.

–Mənim Umud qardaşım! – Yağlı dilini işə saldı. – Bir də bir kişi gəlib, yaşlı kişidi. Aşağı cərgələrdə yer qalmayıb, heç tualetin yanındakı bokovoy da boş deyil. Gəlsənə, icazə verəsən, onu qaldıraq sənin yerinə.

–Bəs mən harda uzanıb yatım? – Umud soruşdu və “deyəsən bunlar məni axırda döşəmənin üstünə uzadacaqlar” düşündü.

–Heç narahat olma, səni indi üçüncü polkaya qaldıracağıq. Sənin üçün nə fərqi var, təki yatmağa yer olsun. Axı sən keçmiş döyüşçüsən, canın bərkdir.

–Nə deyirəm ki! – Umud yenə də təslim oldu, amma bir şeyi başa düşə bilmədi, bilmədi ki, onun keçmiş döyüşçü olduğunu qiymətləndirirlər, yoxsa başına qaxınc eləyirlər.

Onu qaldırıb üçüncü polkaya uzatdılar. Yerinə uzundraz bir kişi çıxdı. O qədər uzun idi ki, ayaqları çöldə qalmışdı.

Bir az da getmişdilər ki, Zakir bələdçi yenə gəldi.

–A kişi, tez elə, yolpulunu ver. Ayaqlarını da yığ qarnına, az qala ortadan keçənin gözünü çıxarasan.

–Nağayırım, uzundu, yerləşmir.

–Heç olmasa revizorlar gəlib gedincə yığ.

Zakir bələdçi kişidən pulu alan kimi aşağıda uzanan arvada

təpindi.

–Tez elə, sən də pulu ver, görüm.

Arvad eşələnib harasındansa əzik pul çıxarıb ona uzatdı.

–Bu nədir? – Zakir bələdçi narazılığını bildirdi. – İki nəfərə iyirmi manat azdır. Heç olmasa otuz elə. Tez elə. İndi revizor gələcək. Uşağı da böyrünə elə uzat ki, başı adyalın altında olsun, revizorlar görməsin.

–Boğular axı… – Arvad etiraz elədi.

–Qolunu başının yuxarısından elə qoy ki, adyalın altına hava getsin, boğulmasın. Revizorlar gəlib gedəndən sonra çıxar.

–Bəs deyirdin, uşağa ayrıca yer verəcəksən?

–Yer oldu, vermədim! Revizorlar bir ucdan göndərirlər. Görmürsən polkalarda iki-iki yatırlar?

–Onda mən özüm revizora deyəcəm.

–De. De, görüm sonra nə olacaq. Ana-bala hərənizə əlli manat cərimə yazacaq, qalacaxsan cıvıldıya-cıvıldıya.

Zakir bələdçi təzəcə getmişdi ki, dediyi revizorlar gəldi. Adamları saya-saya vaqonu o başa gəzdilər, bu başa qayıtdılar, birdən üçüncü polkada uzanan Umudu gördülər.

–Aha, tapdıq, bezbilet burdaymış ki!

–Qalxıb üçüncü polkaya ki, görməyək.

–Tez elə, düş aşağı!

Elə bu an aləm qarışdı bir-birinə, qışqır-bağır vaqonu götürdü başına. Danqadurunq səsindən başı getdi, qulağı cingildədi…

…Umud bir də baxdı ki, heç nə yoxdu. “Bu nə yuxuydu, mən gördüm?”

Darvazanın danqıltısı bir də gələndə gözlərini tam açdı və anladı ki, gördüyü yuxuymuş, çünki qatarda deyil, öz yatağında uzanılıydı.

"Bu nə idi, yuxuydu, gerçəy idi?" Artıq səhər idi, hava işıqlaşmışdı. Umud hamısını qarışdırmışdı. İndi xatırladı ki, o, yuxudan ayılanda gecə yarı idi. Şirin xəyalları onu yaxın keçmişinə – döyüş yollarına, yaralanmasına, İranda müalicəsinə, ziyafət-vida məclisinə aparırdı. Bəs nə vaxt yenidən yuxuya getmişdi, bundan xəbəri olmamışdı.

Yaxşı ki, yuxudan tez ayılmışdı, bir az da gec ayılsaydı, yəqin ki, evlərinə gəldiyi günü görəcəkdi. Umud həmin günü xatırlamaq istəmirdi, heç xatirindən çıxardıb unuda da bilmirdi.

Anaya qarşı, bəlkə də ən böyük amansızlıqdı – balasının qapıya müstər, şikəst, dizdən aşağı ayaqları kəsili halda gətirilməsi, Umuda görə beləydi. Ölümün çarəsi vardı, gözün yaşı quruyanadək ağlamaqdı, səs batana qədər ağı deyib vay-şivən qoparmaqdı bunun çarəsi. Bəs şikəstliyin çarəsi nəydi? Umud elə hey fikirləşirdi, bunun cavabını tapa bilmirdi…

Həmin gün anası onu görən kimi yüz ilin palıd ağacı yerə yıxılantək tirtap torpağa döşəndi. Torpağı qucaqlayıb şivən qopardı. Onun ərşə qalxan ah-naləsi bir anın içində kəndi ayağa qaldırdı. Uşaqdan böyüyə hamı Umudgilin həyətinə toplaşdı, heç atası öləndə bir belə adam yığılmamışdı.

–İlahi, mən sənə neyləmişdim ki, cəzamı belə ağır elədin?!

–Aləmlərin rəbbi, övlad acısını anaya necə qıydın?

–Axı sən adilsən, ədalətlisən, rəhimlilərin ən rəhimlisisən…

Yox, yox…

Umud bu səhnəyə dözə bilmirdi, bir daha o günü xatırlamaq istəmirdi…

Dəmirin cırıltısından hiss elədi ki, anası darvazanı açdı.

–Oğlun hanı?

Gələnlərdən hansısa anasının üstünə elə qışqırdı ki, Umud dik atıldı. Qalxıb yerinin içində oturdu, arxasını divara söykədi. Pəncərəyə pərdə asmamışdılar deyə həyət apaydın görünürdü. Darvazanın ağzında iki, ya üç nəfər hərbi geyimli anası ilə danışırdılar. Danışılanları Umud eşidirdi.

–Umudu deyirsiniz?

–Sənin başqa oğlun da var?

–Yox, elə bircə oğlum var.

–Hardadı o?

–Harda olacaq, evdə.

–Arvad kimi qaçıb evdə gizlənib. Onun yoldaşları gecə-gündüz ermənilərlə üzbəüz səngərdədirlər. Bir an belə gözlərini qırpmadan vətəni qoruyurlar. Sənin oğlun isə fərarilik edib.

Umud bunu eşidəndə dəli oldu, hirs vurdu başına, yumruğuyla divarı döyəclədi.

–Ay bala, bu nə cür danışıqdır? Mənim oğlum da sizin kimi əsgəriydi, cəbhədəydi, müharibədəydi. Oğlum orda can qoyub.

–Nə vaxt gəlib oğlun?

–Az qalır doqquz ay olsun.

–Nə? Doqquz ay? – Hərbçi əlindəki siyahıya baxır. – Bu siyahını ki, bizə indi veriblər, burda bir ay əvvəl hərbi hissəni

tərk etdiyi yazılıb. Polkovnik Zakir Hüseynov özü qol çəkib siyahıya.

Zakirin adını eşitcək Umud havalandı: "O, özü məni yola salmadımı? Komandir ona dönə-dönə dedi ki, pravadnikliyinə salma, get sənədləri işlə! Axx, pravadnik, pravadnik!"

–Hə, bəlkə də bir az çox olar. Oğlum özbaşına gəlməyib ki, üstümüzə hücum çəkirsiniz…

–Kim icazə verib ona?

–Kim icazə verəcək? Böyüyü, komandiri…

–Biz onun arxasınca gəlmişik. De, öz xoşu ilə geyinsin, gəlsin, bizimlə getməlidir. Yoxsa zorla aparacağıq…

Arvadı qəhər boğdu.

–O, gedə bilsəydi, heç evdə oturardı… – Özünü saxlaya bilmədi, hönkürdü, yaylığı ilə gözünün yaşını sildi, ağzını tutdu. – Keçin… Keçin içəri… Özü ilə danışın.

–Düz deyirsən, çoxdan qaçıb rusetə getməliydi… – Onlardan biri kinayəli-kinayəli dedi.

Hərbi polisin zabiti əsgərin birinə astadan tapşırıq verdi:

–Mən belə şeyləri çox görmüşəm. Sən tez evin arxasına keç. Anası burda başımıza qatar, oğlu evin arxasından çıxıb qaçar.

Evin giriş qapısına yaxınlaşanda Umud birtəhər dirsəklənib pəncərədən onlara baxırdı. Ev kürsülü idi deyə ikimərtəbəli kimi görünürdü. Umudu görən kimi hərbi polisin zabiti dilləndi:

–Heç utanmırsan? Boyuna, buxununa bax bunun.

–Danışığını bil, mən döyüşəndə sən kənddə, kəsəkdə burnunun suyunu axıdırdın, yəqin…

–Uzun danışma, de görüm, sənə kim icazə verib?

–Mənə polkovnik Əliyev özü icazə verib.

–Polkovnik Əliyev e… Onu çoxdan çıxarıblar.

–Mayor Orduxanov şəxsən yola salıb.

–Onu da Murova, ağ ayıların yanına göndəriblər. – Nə fikirləşdisə başını buladı. – Axı onları çoxdan dəyişiblər. Bu siyahını isə bizə bir aydı veriblər. Qaçanları yığa-yığa gəlib çıxmışıq.

–Kim verib o siyahını sizə?

–Zakir Hüseynov. Bir də sənə nə dəxli var kim verib. Düş gəl, bizimlə getməlisən.

–Mən düşə bilmirəm.

–Necə yəni düşə bilmirəm? Bəs ora necə çıxmısan?

–Məni bura çıxarıblar. Dedim axı, mayor Orduxanov mənə iki nəfər qoşmuşdu. Gətirib qoydular burda, çıxıb getdilər.

–Bu, deyəsən, bizimlə məzələnir e… – Hərbi polisin zabiti üzünü əsgərə tutdu. – Qalx yuxarı, onu düşür aşağı.

Əsgər qaça-qaça evə girib Umudun otağına qalxdı. Qaça-qaça da geri qayıtması bir oldu. Rəngi ağappaq ağarmışdı.

–Nooldu? Niyə qayıtdın?

–Komandir, özünüz qalxsanız yaxşıdır.

Hərbi polisin zabiti də içəri keçdi. Umud pəncərədən yerə düşmüşdü, döşəmənin üstündəydi. Zabit ona baxdı… baxdı, sonra diqqətlə siyahıya göz gəzdirdi. Doluxsundu, deyəsən, gözləri doldu, siyahı gözündə axdı. Tutulan kimi oldu və asta səslə dilləndi:

–Bizi bağışla… amma başa düş… başa düşməyə çalış… Yuxarıdan qəti tapşırıblar, hamını yığmalıyıq, koru da, şikəsti də, lalı da, karı da… Qarabağ uğrunda elliklə hücuma keçəsiyik.

Umudun anası gəldi.

–Qoymaram oğlumu aparasınız…

Hərbi geyimlilərdən səs çıxmadı.

–Bəlkə kənd sovetindən arayış alıb verim?

–Yox, ana, getsəm yaxşıdır. Gəl, mənim əsgər paltarımı geyindir. Deyəsən, müharibə hələ davam edəcək. Piyada deyiləm ki, tankçıyam. Təki məni qaldırıb tanka oturtsunlar. Atıcının ayağa ehtiyacı yoxdur, orda hər şey göz və əl ilədir.

–Biz əmrə tabeyik. Bizdən olsa… özümüz hər şeyi gördük. Amma orda bizim sözümüzə inanmayacaqlar. – Hərbi polisin zabiti anaya başa salmağa çalışdı. – Əmr olunub ki, bu siyahıya adı düşənlərin hamısı qərargaha gətirilməlidir.

Hərbi geyimlilər dinməzcə həyətə düşdülər. Hərəsi bir siqaret yandırdı.

Anası ağlaya-ağlaya Umudu geyindirdi.

Sonra onlar yenidən yuxarı qalxdılar. Ana kənardan hərbi geyimli oğlunu süzürdü. Əsgərlərdən ikisi əllərini qoşalayıb Umudu çarpayının üstündən götürdülər. Zabitin işarəsi ilə aşağı düşürməyə başladılar.

Ana dözə bilmirdi, amma özünü sıxıb saxlamışdı, cıqqırı da çıxmırdı, gözlərindən isə su sel kimi axırdı.

–Qorxma, ana! – Umud ötkəm səslə dilləndi. Sən heç narahat olma, məni bu vəziyyətdə tutub türməyə basmayacaqlar ki!

Əgər vətənin bu gün mənim kimi döyüşçüyə ehtiyacı varsa, mütləq getməliyəm. Qoy məni aparıb pulemyotun arxasına oturtsunlar, tankın qülləsinə mindirsinlər. Görsünlər erməniləri necə biçirəm.

Oğlunun aparılmasını görməmək üçün üzünü divara çevirib məchul bir nöqtəyə baxan Ana isə bunları eşitmirdi, bu zaman onun başında bir uğultu, bir haray vardı. Bu haray ona tanış deyildi, heç vaxt, heç yerdə, heç kimdən belə bir haray eşitməmişdi…

"Bizi Umudsuz qoyma!" Kim idi bunu haraylayan? Ana başa düşə bilmirdi. Umudun ondan əziz, ondan yaxın, ondan məlhəm kimi ola bilərdi? Qəfildən geri çevrildi. Çevrildi ki, oğlunun arxasınca qışqırsın, amma artıq gec idi, Ana çevriləndə Umudu oturtduqları tünd göy rəngli hərbi maşın darvazanın ağzından uzaqlaşdı.

Umud onsuz qala bilməyən Vətənin harayına gedirdi. Maşının arxasınca bir müddət baxan Ana yaxşı ki, bunu başa düşüb sakitləşdi, yoxsa ürəyi partlayardı. Həyətə düşüb əllərini göyə qaldırdı, Tanrıya dua elədi: "Nə olar, ya rəbb, bizi də Umudsuz qoyma!"

# Sevgi və Borc

“Fəxr eyləmə, ey bülbülü şeyda ki, çəmənim var mənim,
Qoy, fəxr eyləyim mən ki, gözəl bir vətənim var mənim”
Əliağa Vahid

Bakı – Astara qatarı İydəli keçidində bir anlıq dayanıb tərpənəcəkdi. Keçid Masallı stansiyasından üzü Lənkərana tərəf beş kilometrlik məsafədə yerləşirdi. Nadir hallarda olsa da, keçiddə düşənlərə təsadüf edilirdi. Burada qatardan düşənlər, əsasən, sərhədçilər olurdu – bəlkə də keçidi onlar üçün nəzərdə tutmuşdular.

Qatar Masallıdan tərpənən kimi orta yaşlı bələdçi Samirə xanım yaxınlaşıb ara kupelərdən birində yatmış hərbçi sərnişinin çiynindən ehmalca tərpədərək oyatdı. Asta səslə:

–Qalxın! – dedi. – Beş dəqiqədən sonra İydəlidəyik.

Bələdçi gedən kimi leytenant Osman Osmanov yatağından qalxdı. Mələfələrini və balınc üzünü götürüb bələdçinin otağına getdi. Onun yuyunaraq kupesinə qayıtması heç iki dəqiqə də çəkmədi. Ehmal hərəkətindən heç kim oyanmamışdı – kupe yoldaşları hələ də mışhamıs yatırdılar. Əşya çantasını kürəyinə geyindi, sonra çamadanını götürüb asta addımlarla vaqonun çıxışına yollandı.

–Sən nahaq burda düşürsən, oğlum. – Bələdçi Samirə hər ehtimala qarşı ona etirazını bildirdi. – Buradan bir yana çıxmaq

çox çətindir. Heç olmasa gözləyib Qazmalar stansiyasında düşsəydin, oradan taksilərlə hara istəsəydin gedə bilərdin.

“Niyə bəs təlimatda İydəlini yazıblar? Əgər lazım olsaydı Qazmaları yazardılar. Yazıblarsa, deməli, burada qatardan düşmək lazımdır. Sərhədçi çekist kimi həmişə sərvaxt olmalıdır – xidmətdə də, mətbəxdə də, səyahətdə də, haradan, nə vaxt gəlib hara getdiyini heç kim görməməlidir. Yoxsa onun harası oldu sərhədçi?” Osman öz-özünə belə düşündü və fikirləşdi ki, İydəlidə düşməyi düzgündür, yoxsa iyirmi-otuz gözün vaqon qapılarına dikildiyi Qazmalarda düşmək sərhədçi işi deyil.

–Mən xidməti marşrutdan qırağa çıxa bilmərəm. Göndərişimdə də belə yazılıb. – Baş leytenant Osmanov könülsüz, lakin ciddi və rəsmi cavab verdi ki, bələdçi daha heç nə deməsin.

Bu zaman qatar sürətini azaltmağa başladı. Bələdçi açarını götürüb tambura gəldi və dayanmaqda olan vaqonun qapısını açdı, pilləkən avtomatik olaraq aşağıya uzandı. Samirə xanım kənara çəkilib düşmək üçün leytenanta yol verdi.

–Sağ olun! – Leytenant Osmanov dilucu sağollaşıb pilləkəndan yerə düşdü.

–Siz də sağ-salamat gedib çatın, həm də uğurlu xidmətlər olsun, oğlum! – Samirə xanım sanki bir ana nəvazişi ilə onun arxasınca xoş arzularını bildirdi.

Osman vaqondan üç-beş addım aralanmışdı ki, qatar yerindən tərpəndi, dayanması, bəlkə də heç beş-on saniyə çəkmədi. Gözləri dolmuş bələdçi, sanki doğma oğlunu əsgərliyə

yola salırmış kimi onun dalınca səsləndi, amma qatar sürət götürdüyündən relslərlə təkərlərin sürtünməsindən alınan, getdikcə gurlaşmaqda olan səslərə qarışan bələdçinin səsindən Osman heç nə anlamadı. Qatar bir anın içində şütüyüb keçdi və zülmət qaranlığın içində əriyib yoxa çıxdı.

Ayın işığında parıldayan relslərdən başqa ətrafda heç nə görünmürdü. Osman ətrafı diqqətlə nəzərdən keçirdikdə on beş-iyirmi addımlıqda bir taxta budka onun diqqətini çəkdi. Yavaş-yavaş budkanın yanına gəldi. Taxta budkanın qapısı bağlı idi. Yol təmiri işçiləri üçün nəzərdə tutulduğunu zənn edən Osman çamadanını budkaya söykədi. Əşya çantasını da çiyinlərindən düşürüb çamadanına söykədi. Sonra bir siqaret çıxardıb yandırdı. Gecənin bu vaxtı siqaretin tüstüsünə qarışıb ciyərlərinə dolan kənd havası ona xüsusi ləzzət verdi.

Siqaretini çəkə-çəkə nə edəcəyini, gecənin bu vaxtı haraya, hansı istiqamətə və necə gedəcəyini düşünməyə, düşüncələrində gələcək zastava həyatını müəyyənləşdirməyə çalışdı. Ola bilməzdi ki, onu qarşılamağa gəlməsinlər. Komandanın əmri ona verildiyi kimi mütləqdir ki, sərhəd dəstəsi qərargahına, sərhəd zastavasına da göndərilib. Kimsə onu qarşılamağa, zastavaya qədər müşaiyət etməyə gəlməliydi? “Bəlkə onlar da bələdçi kimi Qazmalarda düşəcəyimi zənn ediblər?”

Uzaqda, harda isə çaqqalların ulaşması gecənin sükutunu pozurdu. Osman budkanın qabağında siqaret çəkə-çəkə var-gəl edir, bir çıxış yolu tapmağı düşünürdü. Elə bu zaman ağaclıqda şıqqıltı eşidildi. Budkanın böyründə, ay işığının tutmadığı tərəfdə

yerə oturub dinləməyə başladı; kimsə yavaş-yavaş ona tərəf gəlirdi. Osman addım səslərini bir az da diqqətlə dinlədikdən sonra gələnin adam olduğunu yəqinləşdirdi. Tez siqaretini yerə atıb ayağı ilə söndürdü.

–Öhö…, öhhö…

Ağaclıqdan iki dəfə öskürək səsi gəldi, gələn adam həqiqətənmi öskürdü, yoxsa imitasiya elədi, bunu Osman ayırd edə bilmədi. Həmin səmtə diqqət kəsilib gələn adamın üzə çıxmasını gözlədi.

–Öhö…

Leytenant Osmanov lap yaxınlıqdan öskürək səsini eşidən kimi gələn adamın əhli-hal olduğunu yəqinləşdirdi, gələn hər kim idisə, özünü nişan verirdi. Dərhal cib fanarını çıxarıb hazır tutdu ki, yaxın məsafədə sifətini işıqlandırıb görə bilsin. Gələn hər kim idisə, onu qarşılamağa gələn sərhədçilərdən deyildi – bunu yəqin etdi leytenant Osmanov. Ən azından sərhədçilərin fanarı olmalıydı – belə qaranlıq gecədə fanarsız hərəkət etmək çox çətindi, hətta ərazini yaxşı tanıyan adam olsa belə, çünki ayın işığı hər yeri işıqlandırmırdı.

Növbəti öskürək səsini lap yaxın məsafədə eşidən leytenant Osmanov cəld cib fanarını yandırıb gələn adamın sifətini işıqlandırdı. Əynində gödəkçə, əlində kortəbii hazırlanmış əsa, başında isti qış papağı olan ahıl yaşlarında bir kişi onun beş-altı addımlığına çatıb dayandı.

–Tək gəlmisiniz? – İlk sualı qoca verdi.

–Siz kimsiniz? – Leytenant suala-sualla cavab verdi.

–Salam, oğlum. – Sanki indi nəfəsini dərirmiş kimi kişi leytenantı salamladı, ancaq ona əl uzatmadı. – Yəqin zastavaya gedəcəksən?

Osman qocanın sualı qarşısında duruxdu. "Qoca kimdir? Onun zastavaya gedəcəyini haradan və necə öyrənə bilərdi?"

Uzaqdan ulaşan çaqqalların səsi gücləndikcə gecə daha da vahiməli görünürdü. Bu qaranlıq gecədə keçiddə onların ikisindən başqa heç kim yox idi. İnansa da, inanmasa da leytenant onunla danışmalı, həmdəm olmalı idi. Osmanov qorxu hissi keçirməsə də ehtiyatlı olmağa çalışdı.

–Bunu siz hardan bilirsiniz?

–Bunu bilməyə nə var ki, oğlum? Sən burdan keçən nə birinci sərhədçi deyilsən, nə də axırıncı. Birinci dəfə gələnlər həmişə səhvən burda düşürlər. Elə ki, yolu-yolağanı öyrəndilər, sonra Qazmalarda düşüb oradan zastavaya taksi ilə, ya arxalarınca gələn maşınla yollanırlar.

"Bunu bələdçi də mənə dedi. Yaxşı, bəs belə olan halda niyə təlimatda zastavaya getmək üçün düşüləcək yer "İydəli" göstərilib?" Osman özlüyündə bir an götür-qoy edib qocadan soruşdu:

–Buradan zastavaya getmək olmaz ki?

–Yəqin ki, sən təzə zastavanı nəzərdə tutursan – Kilid zastavasını. Niyə olmur, olar. – Qoca suala aram-aram cavab verdi. – Əvvəlcə bu ərazilərin hamısına Salam Məlik zastavasından nəzarət edirdilər. Zastavaya da Qazmalardan gedirdilər. Kilid zastavasını təzə yaradıblar – heç bir il olmaz.

Oraya Qazmalardan da getmək olar, burdan da. Ancaq ən yaxın yol burdandır. İntəhası buradan maşın yolu-zad yoxdur, gərək piyada gedəsən.

–Nə qədər getmək lazımdır?

–Yaxşı getsən saat yarımlıq yoldur, on kilometrdən bir az artıq olar.

–Olsun, mən gedərəm. Təki siz mənə yolu göstərin.

–Tələsmə, oğlum. Hələ səhərin açılmasına çox var. Gedək, bizdə gecələyərsən. Səhər sübh tezdən atı verərəm, minib yoluna davam edərsən. At minə bilirsənmi? Narahat olma, Kəhər nadinc deyil, yolu da yaxşı tanıyır. Çəhlimə düşdü, qırağa çıxan deyil, birbaş səni zastavaya aparacaq.

–Atı indi verə bilərsənmi? Mən yoluma davam edərdim.

–Oğlum, səhərin açılmasına hələ üç-dörd saat var. Bir azdan ay dağın arxasına keçəcək, ətrafı zülmət qaranlıq bürüyəcək. Gedib qayadan uçarsınız, atı da, özünü də tələf edərsən. Gəl, görüm, gedək evə. Hava işıqlaşar, sonra yola salaram, gedərsən.

Osmanov daha bir söz demədən əşya çantasını götürüb kürəyinə geyindi. Çamadanını yerdən qaldırıb qocanın arxasınca addımladı. Ay, doğrudan da üfüqə yaxınlaşırdı, bəlkə də bir barmaq məsafəsindəydi. Qocanın danışığında bir doğmalıq, bir səmimiyyət hiss etsə də ürəyindəki şübhələr ona rahatlıq vermirdi. Amma başqa çıxış yolu da görmürdü.

Ağaclığın arasından keçib dəmir yol xəttindən çox da uzaqda olmayan, təxminən yetmiş-səksən addımlıqda bir evin qarşısında dayandılar. Birmərtəbəli balaca evin giriş qapısı üzərində yanan

zəif lampa ətrafı güclə işıqlandırırdı.

–Təkmi yaşayırsınız? – Qoca cibindən açar çıxardıb qapının üstündəki asma qıfılı açmaq istəyəndə Osmanovun ağlına gələn sual belə oldu.

Qoca təmkinini pozmadan qapını açdı, sonra üzünü qonağına tutdu:

–Xoş gəlmisiniz. Buyurun, evə keçək. – dedi. – İndi gəl, tanış olaq, oğlum. Mənim adım Savalandır – Savalan baba, eşitməmiş olmazsan. Bütün sərhədçilər məni belə çağırır.

–Mənim adım Osmandır.

–Lap yaxşı, bundan sonra bir-birimizi tanıyacağıq. Indi isə, buyur, keç içəri. – Savalan baba bunu deyib içəri keçdi və dəhlizin işığını yandırdı ki, Osman da içəri keçə bilsin. Elə ki, Osman içəri keçib çamadanını yerə qoydu, Savalan kişi qapının cəftəsini vurub dəhlizin başındakı otağa getdi. İşığı yandırıb elektrik çaynikini qoşdu. Osmanın dəhlizdə qaldığını görüb səsləndi.

–Yəqin, yorğunsan, yatmaq istəyirsən? Ancaq yol gəlmisən, bir stəkan isti çay içsək pis olmazdı. Keç, gəl bura. Çayımızı içək, durub yatağını göstərərəm.

Enli dəhlizdə paltar asmaq üçün divarlara hər iki tərəfdən asılqanlar bərkidilmişdi. Sağ və sol otaqların qapıları da dəhlizə açılırdı. Savalan kişinin göstərdiyi başdakı otağın – mətbəxin qapısı açıq idi, Osman çamadanı ilə səhra çantasını dəhlizin küncünə qoyandan sonra mətbəxə keçdi. Elektrik çaynikinin dızıltısı, pilətənin üstündə dəmə qoyulmuş qəfədanın

səsini üstələmişdi – otağın sükutunu pozan yeganə səs çaynik dızıltısıydı. Bir müddət qonağının duruxduğunu görən Savalan kişi ayağa qalxıb dəhlizin sol tərəfindəki qapını göstərdi.

–Buyur, əşyalarını ora keçir. – dedi. – Nəvəm Babəkin otağıdır.

Osman dəhlizə qayıdıb əşyalarını götürdü, Savalan kişinin otağına keçib onları küncə qoydu. Otaqda taxtadan qədimi çarpayı vardı – Osman heç vaxt belə yatacaq görməmişdi. Otağa ani göz gəzdirdikdən sonra mətbəxə qayıtdı. Savalan kişi çayları süzüb masanın üstünə qoymuşdu. Həm də nimçəyə bir neçə pryannik və peçenye qoyulmuşdu.

–Utanma, oğlum, babanın olanından, çayını şirni ilə iç.

Osman çayını rahat içsin deyə Savalan kişi çayından bir qurtum alıb danışmağa başladı.

–Hə, oğlum, mən əlli ildir ki, burda yaşayıram. Bir vaxtlar “Komuna” sovxozunun qarovulçusuydum – buralar sovxozun biçənək yerləriydi. Kəndimiz uzaq deyil, iki kilometrlikdə yerləşir. Uşaqlar məktəbə piyada gedib-gələrdilər. Elə ki, böyüdülər, çıxıb getdilər şəhərə. Nəvəm Babək mənimlə qalırdı. O da bu il məktəbi bitirib getdi şəhərə, deyir universitetə qəbul olub.

–Bəs yoldaşınız?

–Sara vəfasız çıxdı, on ildən çoxdur ki, dünyasını dəyişib. Torpağı sanı yaşasın, adını nəvəmə qoymuşam.

–Allah rəhmət eləsin! – Osman söhbətin mövzusunu dəyişməyə çalışdı. – İndi ki, sovxoz yoxdur, niyə gedib

övladlarınızın yanında rahat yaşamırsınız?

–Burda lap rahatdır mənim üçün. Tək deyiləm, tez-tez sənin kimi gəlib-gedən sərhədçi dostlarım mənə baş çəkir. – Savalan kişi çayından bir neçə qurtum içib özü söhbətin mövzusunu dəyişdi, elə bil xatirələri oyanmışdı. – Abasquluyevdən üzübəri zastavada xidmət keçən kim varsa hamısı məni tanıyır. Bir neçə saatlıq da olsa, nə vaxtsa qonağım olublar, çayımı içiblər. Sağ olsunlar, heç vaxt məni unutmayıblar, bayramlarda mənsiz masa ətrafına toplaşmayıblar, həmişə başda oturdublar, sağlığıma badə qaldırıblar. Gəlib-gedəndən də həmişə halımı xəbər alırlar.

"Abasquliyev, bizim generalmı? Sərhəd Qoşunları Akademiyasının rəisimi? Bəs onda, biləndə ki, mən bu zastavaya yollanıram, niyə mənə heç nə demədi? Axı özü məni təlimatlandırdı, cənab generalın?" Savalan kişi danışdıqca Osman fikir-xəyal aləminə daldı. Xəyallar onu bir ay əvvələ, buraxılış yığıncağına apardı.

…Hamı böyük iclas salonuna toplaşmışdı – məzunların seçim günüydü. "Kim harada istəyir, qoy xidmət keçsin. Sərhədlərdən başlanan vətən qanan, başa düşən, müqəddəs borcunu anlayan hər kəs üçün ölkənin hər yeridir". İlk dəfəydi ki, Komandan seçimi məzunların öz ixtiyarına buraxmışdı. Odur ki, Akademiyanın rəisi general Abasquliyev seçimdə özü şəxsən iştirak edirdi, bununla belə masanın üstünə sərhəd dəstələri və zastavaların adları yazılmış vərəqlər də düzülmüşdü. Kim ki, xidmət keçəcəyi zastavanı müəyyənləşdirə bilmirdi, o, bəxtəbəxt vərəq çəkməli olurdu. Həmin vərəqdə hansı zastava

göstərilirdisə, məzun da oraya təyinat alırdı.

Məzunlar arasında beş nəfər işğal olunmuş rayonlardandı ki, onlardan da biri Osmanovdu. Müdavimlərin təhsilinə xüsusi qayğı ilə yanaşan general seçimdə də iştirak edərkən xeyir-duasını, nəsihətlərini əsirgəmədi və seçimə məcburi köçkün uşaqlarından başladı.

–Kim harada xidmət keçmək istəyirsə, buyursun, söyləsin.

–Mən vərəq çəkəcəyəm! – Məzunlardan dördü xidmət etmək istədikləri yeri bildirsələr də növbə Osmana çatdıqda o, inadkarlığını bildirdi. – Təxminən bilirəm ki, ən vacib və ilboyu ekstremal şəraitlər yaşanan bir zastavaya təyinat alacağam. Bu mənim də ürəyimcədir. Vətən yolunda ən mürəkkəb şəraitlərə sinə gərsəm, ən çətin tapşırıqları yerinə yetirmək mənə tapşırılsa qəlbimdə rahatlıq taparam.

Osman vərəqi çəkib generala göstərdi. Abasquliyev vərəqdə yazılan zastavanın adını sanki oxumadı, birnəfəsə uddu. Onun sifət cizgilərindəki dəyişikliyi hiss etsələr də nə Osman, nə də dostları bir söz soruşmadı. General bir müddət vərəqə baxa-baxa qaldı.

–Cənab general, mən hazıram…

–Hə… – Osmanın sözü axır ki, generalı fikrindən ayırdı. – Sənə uğurlar olsun, oğlum. İydəli zastavası yenidir, əvvəllər həmin ərazilərin də keşiyini qonşu Qazmalar zastavası çəkirdi. Doğru fikirləşmisiniz, həmin ərazilər ilboyu ekstremal şəraitlərlə üzləşir, qışda boranı, çovğunu, yazda da şimşəyi, dolusu, leysanı əskik olmur. Orada ilk növbədə təbiətin şıltaqlığına sinə gərmək

gərəkdir. İydəlidə bir keçid olmalıdır – gərək ki, həmin keçiddən ancaq sərhədçilər istifadə edirlər. Qatar cəmisi beş-on saniyə dayanır. Qatarın həmin yerdən gecə keçdiyini nəzərə almaq, zastavaya xəbər göndərmək lazımdır ki, qarşılamağa gəlsinlər. Yoxsa, zastavanı gedib tapa bilməzsən.

…-Hə, oğlum, deyəsən, yuxun gəlir, yaman fikrə getmisən. – Savalan kişinin qəfildən dillənməsi Osmanı fikir-xəyal aləmindən ayırdı. – Çayını iç, get yat.

–Yaxşı. – Osman soyumuş çayını birnəfəsə içib yatmaq üçün otağa yollandı.

Otaqda çarpayıdan, tumboçkadan başqa bir dənə də şkaf vardı – yuxarı başda qoyulmuşdu. Universal şkafdı, paltar, əşya üçün nəzərdə tutulmuşdu, yoxsa kitab rəfiydi, bilinmirdi. Şkafın ortasında qoyulmuş güzgünün hər iki tərəfində nisbətən böyük ölçüdə götürülmüş şəkillər qoyulmuşdu. Osman həmin şəkillərin Savalan kişinin əcdadlarına məxsus olduğunu düşündü: “Savalan kişi ata-anasının şəkillərini niyə öz otağında saxlamır ki? Bir də valideynlərin şəklini böyüdüb ramkaya saldırmırlarmı?”

Məxsusi olaraq baxmaq istəməsə də ani olaraq nəzərini şəkillərə zilləyib çəkdi – şəkillər cavan adamların şəkilləriydi, sağ tərəfdəki qız, sol tərəfdəki isə oğlan şəkiliydi. “Axı Savalan kişi dedi ki, bu otaq onun nəvəsinin otağıdır. Hə, yəqin nəvəsi Babəklə onun arvadının şəkilləridir. Yox, yox, o ki, on birincini təzəcə qurtarıb, universitetə bu il qəbul olunub. Bu yaşda da adam evləndirərlər?” Şəkillərə bir də diqqətlə baxdı, qız ona yaman tanış gəlirdi. Osman şəkildən ona

boylanan qızı görmüşdü, amma harada görmüşdü, onu yadına sala bilmirdi. Heç paltarını da soyunmadan çarpayıya uzandı – elə şəkillərə baxa-baxa yuxuya getdi. Savalan kişinin otağa girib işığı söndürməyindən də xəbəri olmadı.

Səhərin alatoranlığında yola çıxdı. Savalan kişi dediyi kimiydi, dağların qoynuna doğru bir cığır vardı, kəhər at ancaq cığırla irəliləyirdi, onu sürməyə ehtiyac yoxdu, özü gedirdi. Çətini Bıtarın yamacını çıxıncaydı, oradan o tərəfə yol dolayılanırdı, həm də zastava ovuc içi kimi görünürdü. Zastavaya Qazmalar stansiyası tərəfdən gələn şosse yolu ilə heç bir yerdə kəsişməyən cığır, görünür, çox yaxın məsafədən keçirmiş. "Buranı piyada da gəlmək olardı" – gəlib çatandan sonra Osman belə düşündü. Ancaq piyada gəlməyə çamadanı və əşya çantası maneçilik törədəcəkdi.

Leytenant Osmanov zastavaya çatanda səhər bölgüsü aparılırdı. Nəzarət Buraxılış Məntəqəsinin (qısa olaraq NBM adlandırırlar) növbətçisi at belində gələn leytenantı görcək bildi ki, zastavaya gəlib, ya yoxlamadır, ya da xidmət yerinə təşrif buyurub. Odur ki, iti addımlarla yaxınlaşıb özünü təqdim etdi, heç imkan vermədi ki, leytenant atın belindən yerə düşsün.

–Cənab leytenant! Nəzarət Buraxılış Məntəqəsinin növbətçisi çavuş İbrahimov.

–Leytenant Osmanov. – Atdan düşüb o da özünü tanıtdı. – Zastava rəisinə xəbər ver.

–Zastava rəisi indi səhər bölgüsünü aparır. – Çavuş İbrahimov imkan vermədi ki, leytenant sözünü bitirsin. – Siz bir az səbr

edin, bölgü qurtarsın, mən özüm xəbər verəcəyəm.

Qaydanı bilirdi deyə leytenant Osmanov zastavanın ərazisinə keçməyə cəhd göstərmədi. Atı yaxınlıqdakı dəmirağacın alçaq budaqlarından birinə bağladı. Sonra çamadanını atın belindən düşürüb NBM budkasının divarına söykədi, əşya çantasını da onun yanına qoydu. Indi yadına düşdü ki, səhərdən bəri dilinə bir dənə də olsun siqaret dəyməyib. Cibindən bir siqaret çıxarıb yandırdı. Sonra telefonunu çıxarıb baxdı, saat səkkiz iyirmi beşi göstərirdi. Amma burada, deyəsən set tutmurdu, çünki antenanın göstəriciləri həm “Narmobil” də, həm də “Baksell” də şkalasız qalmışdı. Osman telefonunun cibində qalıb sıxıldığını, buna görə də setin itdiyini zənn edib telefonu silkələdi, silkələdi, düymələrini aşağı-yuxarı tərpətdisə də bir şey dəyişmədi. Dəniz səviyyəsindən, bəlkə də min beş yüz metr məsafədən hündür olan bu ərazidə ola bilməzdi ki, mobil telefon işləməsin. Görünür, hansısa qurğu ilə şüanı dayandırıblar. Axı bura mühüm bir yer, dövlət sərhədlərinin keşiyini və mühafizəsini təşkil edən sərhəd zastavasının ərazisi idi.

Siqaretini təzəcə çəkib qurtarmışdı ki, çavuş İbrahimov təngənəfəs gəldi.

–Cənab leytenant! – deyə müraciət etdi. – Mayor Bədəlov sizi gözləyir.

Leytenant Osmanov siqareti yerə atıb ayağı ilə söndürdü. Əl atıb çamadanı götürmək istəyəndə çavuş İbrahimov dilləndi:

–Narahat olmayın. Biz gedək. Mən tapşıraram, əşyalarınızı hara lazımdırsa gətirərlər.

Onlar bir-birinin ardınca NBM-dən içəri keçib zastava rəisinin dəftərxanası yerləşən birmərtəbəli binaya tərəf yollandılar.

Leytenant Osmanov qapını döydükdə ucadan "buyurun" sözünü eşidən kimi içəri keçdi. Mayor Bədəlov masanın arxasından çıxıb onunla görüşmək üçün qapıya tərəf addımlayırdı.

–Cənab mayor! Leytenant Osmanov xidmət keçmək üçün sizin sərəncamınıza gəlmişdir.

Tanışlıq çox da uzun çəkmədi. Leytenant Osmanov özü haqqında qısa məlumat verdikdən sonra mayor Bədəlov zastava növbətçisinə selektor vasitəsilə baş leytenant Əzimovu çağırmağı tapşırdı. Şəxsi heyət üzrə müavin olan baş leytenant Əzimov sanki qapının arxasında durub çağırılacağını gözləyirmiş.

–Cənab mayor! 18-ci nöqtənin yaxınlığında tutulan uşaqları danışdırdım. Şübhəli heç nə aşkar olunmadı. Uşaqlar qonşu Əvəlikli kəndindəndirlər. Dünən dərsdən sonra axşamüstü dağdağan yığmaq üçün meşəyə gedib əks istiqamətdə hərəkət edərkən qaranlığa düşüb azmışlar və sərhəd xəttinin yaxınlığında sərhəd naryadı ilə qarşılaşmışlar. Qorxub qaçmaq istəyərkən əsgərlərimiz onları yaxalayaraq zastavaya gətirmişlər. İcra nümayəndəsinə məlumat vermişik, valideynləri müəyyənləşdirilib.

–Neynək. İndi sərhəd dəstəsinin qərargahından xüsusi şöbənin zabiti gəlir, yoldadır. Biz bir şey aşkarlaya bilmədiksə, o, uşaqlarla söhbət edər. Bəlkə bir şey tapıb üzə çıxartdı. Sonra

da uşaqları ona təhvil verərik, qərargaha aparar.

–Yoldaş mayor! Burada xüsusi şöbəlik nə var ki?! İcra nümayəndəsinə məlumat vermişəm. İndi uşaqların arxasınca valideynləri gəlməlidir.

–Nə deyirəmsə, onu da elə. Burada məmə yeyəndən pəpə yeyənə kimi hər kəs bilir ki, ərazi sərhəd bölgəsidir. İndiyə kimi quş quşluğu ilə sərhəddin əlli-yüz metrliyində hərlənməyib. Yerli əhalidən heç kim sərhədçi görəndə qaçmayıb. Uşaqlar əsgərləri görəndə qaçmağa cəhd göstəriblərsə, deməli burada nə isə bir sirr var. Çünki meşədə azmış uşaqlar əsgərlərdən qaçmalı deyildi, onlara yaxınlaşıb kəndə qayıtmaq üçün kömək istəməliydi. Bax, bütün bunları aydınlaşdırmaq gərəkdir. Biz aydınlaşdıra bilmədiksə xüsusi şöbənin zabiti mütləq müəyyənləşdirər.

–Aydındır! – deyə yarıciddi, yarıkönülsüz cavab verdi baş leytenant Əzimov.

–Leytenant Osmanovu da özünlə götür, zastavadakı həyat barədə məlumat verərsən. Həm də otağın açarını verin, yerləşsin. Nahardan sonrakı bölgüdə şəxsi heyətə təqdim edərəm.

–Cənab mayor, bəs Savalan kişinin atı necə olsun? – Leytenant Osmanov maraqlandı. – Axı onu geri qaytarmaq lazımdır.

–Heç narahat olma. Gizir Yusifov bu gün məzuniyyətə gedəcəkdir. Savalan kişinin atını da o, aparar.

–Gedə bilərikmi? – Baş leytenant Əzimov lap tikan üstündə oturubmuş kimi dilləndi.

–Gedin.

–Oldu! – Baş leytenant Əzimovla leytenant Osmanov təzim edib otaqdan çıxdılar.

–Tanış olaq, mənim adım Vidadidir. – ilk olaraq baş leytenant Əzimov əl uzatdı.

–Osman! – Leytenant Osmanov onun əlini sıxdı.

–Sərhəd Qoşunlarının Akademiyasını bitirmisən?

–Hə, bəs sən?

–Mən Pedoqoji Universitetin psixologiya fakültəsini bitirmişəm. Əsgərlikdən sonra üç aylıq zabit kursu keçib hərbi rütbə almışam. Beş illik müqavilə əsasında xidmət keçirəm. Üç ilim keçib, qalıb iki ilim.

Onlar danışa-danışa gəlib baş leytenant Əzimovun dəftərxanasına çatdılar. Otağa daxil olan kimi uşaqların ikisi də yerlərindən dik atıldılar.

–Baxın, sizə axırıncı xəbərdarlığımı edirəm. Leytenant Osmanov sizin işinizlə bağlı Bakıdan gəlib. Indi o da sizinlə söhbət aparacaq. Əgər günahınızı boynunuza almasanız… işləriniz fırıxdır. – Baş leytenant Əzimov bunu deyib otağı tərk etdi, çıxanda leytenant Osmanova işarə verdi ki, söhbətini elə, indilərdə qayıdıram.

–Oturun! – Leytenant Osmanov uşaqlara asta səslə komanda verdi və özü də keçib onlarla üzbəüz əyləşdi. – Tanış olaq. – deyib əl uzatdı.

Uşaqlar bunu gözləmirmiş kimi devikə-devikə qaldılar, sonra bir-birlərinin ardınca leytenantla əl tutub salamlaşdılar.

–Habil.

–Cümşüd.

Uşaqlar adlarını deyəndə elə bil ağarmış bənizlərinin rəngi yerinə gəldi, sifətləri allandı. Bu, əlbəttə ki, leytenant Osmanovun nəzərindən yayınmadı, deməli, səmimi söhbət aparmaq olardı.

–Komandir, bəs bizi döyməyəcəksiniz?

–Kim dedi ki, sizi döyəcəyik? – Leytenantın sualına uşaqlar cavab verə bilmədi, sadəcə gözlərini döydülər.

–Bəs bayaqkı komandir deyirdi ki, bizi türməyə basdıracaq.

–Döymək nəyə lazımdır. – Leytenant Osmanov gülümsündü. – Biz cinayətkarı axtarırıq. Siz bu işdə gərək bizə kömək edəsiniz.

–Sizə necə kömək edə bilərik. Biz axı heç bir cinayətkar görməmişik və tanımırıq da. – Habil cavab verdi, Cümşüd də onun dediklərini başının işarəsi ilə təsdiqlədi.

–Uşaqlar, gözləməyə vaxtımız yoxdur. Siz sadəcə başınıza gələn əhvalatı danışın, ancaq heç nəyi gizlətməyin. Meşəyə nəyə getmişdiniz, orada nə gördünüz, kimi gördünüz?

–Meşəyə dağdağan yığmağa getmişdik. Birdən yağış yağmağa başladı. İslanmamaq üçün gizlənməyə yer axtarırdıq. Gördük kimsə qayanın dibindəki mağaraya tərəf gedir. Biz də onun arxasınca düşdük. Yaxınlaşanda gördük ki, Kor Miseyibdir. Çiynində də qara sumkası vardı. O, qayanın dibindəki mağaraya girdi. Qorxduq ondan, gözlədik ki, çıxıb getsin. Miseyib kənddə bizi görəndə həmişə qovalayır, onun uşaqlardan xoşu gəlmir.

Yağış güclənmişdi, biz islanırdıq, odur ki, birtəhər qayanın aşağı tərəfindəki iri daşların qarnına sığındıq. Yağış kəsəndə artıq qaranlıq düşmüşdü. Ha axtardıqsa gəldiyimiz yolu tapa bilmədik. Birdən yaxınlıqda səs eşitdik – elə bildik Kor Miseyibdir, bizi döyməyə gəlir. Qaçıb gizlənmək istəyirdik ki, üstümüzə işıq salıb tutdular. Sonra bildik ki, bizi tutan Miseyib kişi deyil, sərhədçilərdir. Komandir, vallah, biz heç nə oğurlamamışdıq, meşəyə dağdağan yığmağa getmişdik.

–O Miseyib dediyiniz doğrudan kordur?

–Hamı ona Kor Miseyib deyir, adamları görəndə gözünün birini qıyıb baxır.

Elə bu vaxt qapı açıldı və baş leytenant Əzimov qabaqda, onun arxasınca da mülki geyimli, orta yaşlı bir kişi otağa daxil oldular. Onları görən kimi uşaqların bənizi yenidən saraldı. Leytenant Osmanov başa düşdü ki, gələn xüsusi şöbənin zabitidir. Dərhal ayağa qalxıb özünü təqdim etdi:

–Leytenant Osmanov.

–Kapitan Seyfullayev, xüsusi şöbənin zabiti. – Qonaq əlini uzadıb görüşdü və tam ciddiyyəti ilə soruşdu: – Hə, nə aydınlaşdıra bilmisiniz?

–Uşaqlar meşədə Miseyib kişini görüblər – Kor Miseyibi. – Osmanov məlumat verdi.

–Miseyib kişini? – Kapitan Seyfullayev qulaqlarına inanmırmış kimi dəqiqləşdirmək istədi.

–Hə, hə, Miseyib kişini. Çiynində də balaca qara sumkası var imiş. Sıldırım qayalıqdakı mağaraya girib. Necə ki? Siz onu

tanıyırsınız?

–Heç. Belə birisi var, bizdə qeydiyyatdadır. On beş gündən artıqdır ki, onu görən olmayıb. Görəsən meşədə nə edirmiş? – Kapitan Seyfullayev üzünü uşaqlara tutdu: – Uşaqlar, həmin yeri bizə göstərə bilərsiniz?

–Biz meşədə azmışdıq, geriyə yolu tapa bilmirdik. – deyə Habil cavab verdi.

–Aydındır. – Leytenant Osmanov köməklik göstərdi. – Sizi sərhədçilərin tutduğu yerə aparsaq, oradan Miseyib kişinin girdiyi mağaranın yerini göstərə bilərsiniz?

–Onlar bizi tutanda qaranlıq idi. Heç özümüz də bilmirdik ki, ora necə gəlib çıxmışıq. – Cümşüd çiyinlərini çəkib dodaqlarını büzdü.

–Yaxşı, vaxt itirmək olmaz. – Kapitan Seyfullayev müzakirəyə son qoymaq istədi. – Gedək hadisə yerinə. Uşaqlar qaranlıqda çox gedə bilməzdilər. Onlar tutulan yerlə mağara bir-birinə yaxın olmalıdır.

Zabitlərin hər üçü ayağa qalxdı, uşaqlar da durdular.

–Sən qal. – Baş leytenant Əzimov leytenant Osmanova dilxoşluq elədi. – Həm təzə gəlmisən, həm də yol gəlib yorulmusan. Buraları da tanımırsan. Əvvəlcə zastavada şərait ilə, xidmət yerləriylə tanış olsan yaxşıdır. Mayor Bədəlov özü də belə dedi.

–Cənab baş leytenant! – Leytenant incik halda dilləndi. – Mən dincəlməyə yox, dövlət sərhədlərimizin müdafiəsində, mühafizəsinin təşkilində iştirak etməyə gəlmişəm.

–Niyə xətrinə dəyir. Mən sənə elə-belə sözgəlişi dedim. Getməyinə onsuzda mayor Bədəlov icazə verməyəcək.

–Əhsən leytenant! – Kapitan Seyfullayev gənc leytenantı ötərgi süzdü. – Yaxşı, gəl, mən mayor Bədəlovdan xahiş edərəm. Sənin də bizimlə getməyinə icazə verər.

Kapitan Seyfullayev özlüyündə: “Zəif zabitə oxşamır. Anadangəlmə belidirəklidir, deyəsən. Bundan yaxşı sərhədçi çıxacaq” deyə düşünərək otağı birinci tərk etdi. Onlar birlikdə mayor Bədəlovun otağına gəldilər.

–Vaxt itirmək olmaz. Əməliyyat şəraitini nəzarətə götürmək lazımdır. – Mayor Bədəlov zabitlərin niyyətini dinlədikdən sonra “xeyir-dua” verib onları yola saldı. – Mənimlə rabitə əlaqəsində olun.

Uşaqlar kənd uşaqları idi – sərhədçilərdən heç də geri qalmırdılar. Amma çox yorulduqlarından yoxuşun sərt yamacında dayanası oldular.

–Bəlkə bir az dincələk. – Baş leytenant təklif etdi, heç kimin dinmədiyini görüb qərarını açıqladı. – Pe-re-val.

–Pis olmazdı. – Kapitan Seyfullayev onunla razılaşdı və yerə oturdu, buna bənd imişlər kimi əsgərlər də tirtap göy otun üzərinə döşəndilər. – On beş-iyirmi dəqiqə nəfəsimizi dərib yolumuza davam edərik.

–Bir azdan gün qızacaq. Onda yoxuşu qalxmaq bizim üçün daha çətin olacaq. – Leytenant Osmanov öz fikrini bildirdi. – Məndən olsa yolumuza davam edərdik.

–Heç nə olmaz. Beş-üç dəqiqə dincimizi alıb güc toplasaydıq,

pis olmazdı. – Xüsusi şöbənin zabiti fikrini əsaslandırdı.

–Yol gəlmişik, bədənimiz qızışıb. Dayansaq halsızlaşa bilərik. – Leytenant inadından dönmədi.

–Sən heç bilirsənmi nə qədər yolumuz qalıb? Bir də bura sənə Sərhəd Akademiyasının idman meydançası deyil, Bıtarın dik yamacıdır. Axı sən hardan biləsən dik yoxuş nədir. – Baş leytenant azaylandı.

–Əgər dik yamacı qalxmaqda narahatçılıq çəkirsinizsə, onda yolumuzu dolayısı ilə davam edə bilərik.

–Yetər mübahisə etdiniz. – Kapitan Seyfullayev ayağa qalxdı və yerə döşənmiş əsgərlərə də qalxmaq işarəsi verdi. – Madam ki, gedəcəyik, gedək. Çavuş İbrahimov, indi də sən qabağa keç.

Onlar "hadisə yeri" nə çatanda günəş üfüqdən bir baş da yuxarı qalxmışdı.

–Uşaqlar, siz buraları tanıdınızmı?

–Gecə qaranlıq idi, heç özümüz də bilmədik ki, bura haradan gəlib çıxmışıq.

–Oraydı, cənab kapitan, oraydı. – Çavuş İbrahimov məlumat verərək əli ilə altmış-yetmiş addımlıqdakı ağaclığı göstərdi. – Biz sıldırım qayalıq tərəfdən sərhəd boyu baxa-baxa qayıdırdıq. Buradan keçəndə, bax, o yekə palıdın yanında şıqqıltı eşitdik. Fanarla palıdın yan-yörəsini işıqlandırdıq və uşaqların qaraltısını gördük. Dərhal: "tərpənməyin, əllər yuxarı" komandasını verdim. Uşaqlar isə bizi eşitməyib meşənin dərinliyinə tərəf qaçmağa başladılar.

–Biz ağacın arxasında gizlənmək istədik. Qaranlıqda necə

qaça bilərdik? – Habil sanki indi özünə gəlirmiş kimi çavuşun sözünə etirazını bildirdi.

–İndi mübahisə etməyin yeri deyil. Hadisə ilə bağlı nə bilirsinizsə danışın. Bir azdan gec ola bilər. Əməliyyata başlamaq lazımdır. – Kapitan Seyfullayev təklif etdi. – İki qrupa bölünürük. Baş leytenant Əzimov iki əsgərlə bir-iki kilometrlik sağ tərəfdə – sıldırım qayalıq istiqamətində yoxlama-müşahidə aparır. Leytenant Osmanovla mən isə çavuş İbrahimovun üç əsgəri ilə bərabər uşaqların dağdağan yığdıqları yeri tapmaq üçün meşənin dərinliyinə doğru irəliləyəcəyik.

Baş leytenant Əzimovun dəstəsi öz xidməti vəzifəsini yerinə yetirmək üçün deyilmiş istiqamətə yollandı. Onlar gedəndən sonra kapitan Seyfullayev soruşdu:

–Görürəm, diribaş zabitə oxşayırsan. Sənin təklifin nədir?

–Heç şübhəsiz ki, Kor Miseyib yığdığı meyvələri mağarada gizlətmir, onun gizlətdiyi hər nədirsə daha qiymətli və əngəlli bir şeydir. Odur ki, biz onu tapmalıyıq. Bunun üçün bir-birimizdən əlli-altmış addımlıqda meşəni cəzirələyirmişik kimi dərinliyə doğru addımlamalıyıq. Ola bilməz ki, o, buralarda hər hansı bir iz buraxmasın.

–Heç olmasa dağdağan yığdığınız yerdə yadınızda bir şey qalıbmı? – Kapitan Seyfullayev uşaqlardan soruşdu. – Meşə qalın idi, seyrəkdi? Ağaclar hündür idi, yoxsa alçaqdı?

–Ağaclar alçaq idi və seyrəklikdi. Dağdağan ağacları çox idi, amma hər ağacda meyvə yoxuydu. – deyə Habil cavab verdi.

–Aydındır! Getdik. – Kapitan Seyfullayev komanda

verdikdən sonra dəstə hərəkətə keçdi.

On-on beş dəqiqə olardı ki, axtarış başlamışdı. Kapitan Seyfullayevin arxasınca gedən Habil tanış ərazi görüb dilləndi.

–Oraydı. – Əli ilə qarşıdakı təpənin ətəyini göstərdi. Sonra yaxınlaşıb qarşıdakı kolun yanına düşmüş dəsmalı qaldırdı. – Biz orada dağdağan yığırdıq. Bu da mənim əl dəsmalımdır. Əlimi cibimdən çıxardanda düşüb.

–Bəs mağara hansı tərəfdədir? – Kapitan Seyfullayev xüsusi maraqla soruşdu.

–Elə ki, yağış yağmağa başladı, onda hələ qaranlıq düşməmişdi, biz sıldırım qayalığa doğru getdik ki, böyük daşlardan birinin dibində gizlənib yağışdan qorunaq. – Habil danışır və əli ilə oraları göstərirdi. – Bir az getmişdik ki, Kor Miseyibin tələsə-tələsə sıldırım qayalığa tərəf yüyürdüyünü gördük. Çağırmağa qorxsaq da, onun arxasınca yollandıq. Əyilə-əyilə boz daşın dibindəki mağaraya girdiyini görüb dayandıq. Sonra daha irəli getməyib elə buradakı daşların dibində gizləndik ki, islanmayaq.

–Kor Miseyibin haradan gəldiyini görmədiniz?

–Yox. Biz onu qəflətən gördük, onda da mağaranın yaxınlığındaydı. Hə, daşın dibində nə qədər uzandığımızı bilmirəm, bir də ayağa qalxdıq ki, yağış kəsib, qaranlıq da düşüb. Ha axtardıqsa, gəldiyimiz yolu tapa bilmədik. Heç özümüz də bilmədik ki, sərhəddin qırağına necə gəlib çıxmışıq.

Uşaqların danışığından kapitan Seyfullayev təxmini də olsa mağaranın yerini müəyyənləşdirdi.

–Mağaranın yanına hamılıqla getməyimiz məsləhət deyil. – Leytenant Osmanov öz fikrini bildirdi. – Yaxşı olar ki, siz burada qalıb müşahidə aparasınız. Əsgərlərdən birini çıxardın, ağacdan müşahidə aparsın ki, bizim də hərəkətimizi izləyə biləsiniz. Mən çavuş İbrahimovla mağaranın dəqiq yerini müəyyənləşdirməyə yollanıram. Sonra qayıdıb gələrəm, bir plan cızarıq.

Kapitan Seyfullayev razılaşdı. Əsgərlərdən birini müşahidə üçün ağaca çıxartdıqdan sonra yarpaqları daha sıx olan qoca ulas ağacının kölgəsində göy otun üstünə döşəndilər.

Leytenant Osmanovla çavuş İbrahimov isə ardınca uşaqların göstərdiyi istiqamətə yollandılar. Onlar gəlib qəflətən düz mağaranın üstünə çıxdılar. Geri qayıtmaq, gizlənmək mümkün olmadı, mağaranın ağzında oturmuş yekəpər biri ilə üz-üzə qaldılar. Yekəpər onlarla rastlaşacağını yəqin eləməsə də hər hansı təhlükəyə qarşı hazırlıqlı vəziyyətdəydi. Sərhədçilərə silahlarını qaldırmağa aman vermədən əlindəki dəyənəyi leytenantın başına endirdi. Osmanov bunu gözləmədiyindən avtomatı buraxıb əlbəyaxa döyüşün qaydalarına uyğun əlləri ilə dəyənəyi tutub qaytarmağa cəhd etdi. Ancaq iş-işdən keçmişdi, dəyənək leytenantın başına dəyib onu yerə yıxdı. Leytenantın yerə yıxıldığını görən yekəpər qaçmağa üz tutdu. Hadisə o qədər ani oldu ki, çavuş İbrahimov özünü itirdi, bilmədi yekəpərin arxasınca getsin, yoxsa nə etsin.

–Cənab leytenant, sizə nə oldu? – Yaxınlaşıb leytenantı ayağa qaldırmağa çalışdı.

Leytenant Osmanov gözlərini açıb bir də yumdu, dünya-aləm

onun başına fırlandı. Ani olaraq fikirlərini cəmləşdirib gözlərini açdı və ayağa qalxdı. Dəyənək başına dəyməyinə dəymişdi, ancaq xoşbəxtlikdən əlləri ilə zərbənin qarşısını ala bilmişdi.

–Hansı tərəfə qaçdı?

–Bu tərəfə. – Çavuş İbrahimov əli ilə yekəpərin qaçdığı səmti göstərdi.

–Çavuş, yekəpərin dalınca! – Leytenant Osmanov komanda verdi. – Çox da uzağa gedə bilməz. Gördünsə xəbərdarlıq atəşi aç. Harda olsa tutacağıq.

–Cənab leytenant, bəlkə qayıdıb kapitan Seyfullayevə məlumat verək?

–İndi qayıtmaq vaxtı deyil. Yekəpər aradan çıxa bilər. Biz mütləq onu yaxalamalıyıq.

Çavuş İbrahimov yekəpərin qaçdığı istiqamətdə yerindən götürüldü. Leytenant Osmanov da özünü cəmləşdirib həmin istiqamətdə yol aldı.

Ağacın başından ətrafı müşahidə edən sərhədçi əsgər sıldırımlı qayalığın ətəyi ilə bir nəfərin qaçdığını görüb kapitan Seyfullayevə xəbər verdi.

–Boz böyük daşın aşağısından bir nəfər meşəyə tərəf qaçır.

–İrəli! – deyə kapitan Seyfullayev komanda verdi və özü qabağa düşüb müşahidəçi əsgərin göstərdiyi istiqamətdə qaçmağa başladı. Onlar sıldırımlı qayalığın sonuna gəlib çatanda leytenant Osmanovla yekəpər əlbəyaxa döyüşürdülər. Bu an leytenant Osmanov yekəpəri fırlayıb necə fəndə saldısa o, tirtap yerə yıxıldı və qalxmadı.

–Birdən ölüb eliyər ha… – Xüsusi şöbənin zabiti təngənəfəs olsa da zarafatından qalmadı. – Zalım oğlu elə yıxıldı ki, elə bil yüz illik palıd kötüyü yıxıldı.

–Narahat olmayın. – Leytenant əlinin dalı ilə alnını tərini silib tövşüyyə-tövşüyyə dilləndi. – İt ölər, parax ölməz, – deyiblər. Şər işlərlə məşğul olanların hamısı it canlıdır. Zalım oğlu elə bil palıd kötüyüdür, yerə kök atıb.

Xəbərləri özlərindən tez çatmışdı zastavaya. Başda mayor Bədəlov olmaqla hamı əməliyyatda iştirak edən sərhədçiləri gözləyirdi. Təzə gəlmiş leytenantın qəhrəmanlığı da öz yerində. Əsgərlər bir-birinə onun fəndlərindən bəhs edirdilər. Çavuş İbrahimov az qala özünü təzə gəlmiş leytenantın dostu – yaxın qohumu kimi aparırdı.

Çevik sərhədçi manqasından ayrılmış üç nəfərin müşaiyəti ilə xüsusi şöbənin zabiti kapitan Seyfullayev Kor Miseyibi sərhəd dəstəsinin qərargahına apardı. Hərtərəfli araşdırma aparmaq üçün mağarada gizlədilmiş qara torbanı da özləri ilə götürdülər. Onlar gedəndən sonra mayor Bədəlov zastavanın şəxsi heyətini cərgəyə düzüb təzə gəlmiş leytenantı onlara təqdim etdi.

–Düzlən! Farağat! – deyə komanda verdi. – Sərhəd Qoşunları Komandanının əmri ilə dövlət sərhədlərinin müdafiəsi və mühafizəsinin təşkili məqsədilə xidmət keçmək üçün leytenant Osmanov bizim zastavaya göndərilib və zastava rəisinin döyüş hazırlığı üzrə müavini vəzifəsinə təyin olunub. O, elə ilk gəlişi ilə öz şücaətini və bacarığını göstərdi. Onu sizə təqdim edirəm. Zastavada xidmət keçən bütün gizir, çavuş və əsgər

heyətinin ona tabe olmasını, əmr və göstərişlərini sözsüz yerinə yetirməsini nəzərinizə çatdırıram. Eyni zamanda cinayətkarın yaxalanmasında göstərdiyi şücaətə görə təşəkkür elan edirəm.

–Azərbaycan Respublikasına xidmət edirəm! – Leytenant Osmanov sağ əlini gicgahına dayayaraq hərbi salam verdi.

–Azad! – Bundan sonra mayor Bədəlov komanda verdi. – İndi sərbəstsiniz, dağılışın.

Əsgər və çavuşlar cərgələrdən çıxıb dağılışaraq xidmət yerlərinə yollandılar.

–Siz isə gedin, istirahət edin. Nəyə ehtiyacınız olarsa baş leytenant Əzimovdan soruşun, çəkinməyin. Axşam yeməyinə də gecikməyin. Aşbaza tapşırmışam, sənin masana iki nəfərin payını qoyacaq. Sən axı səhərdən bir şey yeməmisən.

–Oldu!

Leytenant Osmanov indi hiss etdi ki, başında şiddətli ağrılar var. Əvvəlcə tibb məntəqəsinə yollandı. Orada başına buz qoydurub yarım saatadək uzandı. Sonra ona ayrılmış xidməti otağına gəldi. Səliqə-sahman yaradıb uzandı.

Səhər tezdən onu yuxudan qapının tıqqıltısı oyatdı.

–Cənab leytenant! – Qapının arxasından çaparın gur səsi eşidildi. – Sizi mayor Bədəlov çağırır.

Tez yataqdan qalxıb paltarını geyindi. Otaqdan çıxıb iti addımlarla mayor Bədəlovun dəftərxanasına yollandı.

–Cənab mayor!

Gəlişi haqqında məlumat vermək istəyəndə mayor Bədəlov onu saxladı.

–Osmanov! Kənd məktəbində sərhədçilərlə bağlı tədbir təşkil ediblər.

–Bu çox yaxşı işdir, cənab mayor. Dünən bu barədə mən sizə təklif vermək istədim, ancaq fikirləşdim ki, birdən yersiz olar. Siz illərlə qazandığınız təcrübəyə uyğun nə etmək lazım olduğunu məndən də yaxşı bilirsiniz. – Leytenant bir az fasilə verib sonra sözünə davam etdi. – Tədbirdə çıxış edib Habillə Cümşüdü "sərhədçilərin dostu" elan etmək lazımdır. Qoy onlar bundan sonra sərhədçiləri görəndə qorxub qaçmasınlar. Ərazidə rastlarına çıxan bütün şübhələr barədə dərhal sərhədçilərə məlumat versinlər.

–Bax, bunları gedib məktəbdə, toplantıda söyləyərsən.

–Cənab mayor, mən təzə gəlmişəm. hələ ki, zastavanı, qoruduğumuz ərazini düz-əməlli tanımıram. Bəlkə görüşə baş leytenant Əzimovu göndərəsiniz.

–Mən də istərdim baş leytenant Əzimovu göndərəm. Ancaq icra nümayəndəsi zəng edib müəllim və şagirdlərin səni görmək istədiklərini bildirdi. Çavuş İbrahimova tapşırmışam, özü ilə iki nəfər nümunəvi xidmət keçən əsgər götürəcək. Səhər yeməyindən sonra yola düşərsiniz. – Mayor Bədəlov bunu deyib sürmədən iki ədəd döş nişanı çıxartdı və onları leytenanta uzatdı. – Al, bunlar "sərhədçinin dostu" döş nişanıdır, Habillə Cümşüdün yaxasına taxarsan.

–Cənab mayor, o nişandan varsa, birini də verin.

–Üçüncü nişanı neyləyəcəksiniz?

–Bəlkə məktəbdə, ya kənddə elə bir fəal tapıldı ki, onun da

yaxasına nişan taxası olduq.

–Yaxşı, qoy olsun. – Mayor Bədəlov siyirmədən daha bir döş nişanı çıxardıb leytenanta verdi.

Kənd çox da uzaqda deyildi – zastavanın iki kilometrliyində yerləşirdi. Leytenant Osmanov sərhədçi əsgərlərlə məktəbə çatanda saat doqquzu keçmişdi. Növbətçi müəllim onları qarşılayıb müəllimlər otağına apardı – otaq çatışmadığından məktəb direktoru da müəllimlər otağında otururdu. Direktor və müəllimlər sərhədçilərin gəlişinə çox sevindilər, ayağa qalxıb onlarla çox mehriban, lap doğmaları kimi görüşdülər. Leytenant Osmanov burada heç kimi tanımasa da, bir doğmasını axtarırmış kimi diqqətlə hamını nəzərdən keçirdi. Direktor oturduğu masadan bəridəki masanın arxasında əyləşən qarayanız suyuşirin qız ona yaman xoş gəldi, harada, nə vaxt gördüyünü, yaxud qarşılaşdığını xatırlamağa çalışdı. Deyəsən, müəllimə qız da ona altdan-altdan göz qoyurdu. "Bu nədir, yoxsa mən vuruluram, aşiq oluram?" deyə leytenant tez də nəzərlərini həmin müəllimə qızdan yayındırmağa çalışdı.

Toplantı həyətdə təşkil olundu. Əvvəlcə məktəbin direktoru çıxış elədi. Çox danışmadı, toplantıya yığcam giriş verdi. Onun ardınca iki-üç nəfər müəllim çıxış nitqi söylədi, şagirdlər sərhədçilərin şəninə yazılmış şeirlərdən parçalar oxudular. Leytenant Osmanovun nəzərləri izdihamın içində həmin o qız müəlliməni gəzirdi ki, çıxış üçün söz ona verildi.

–İndi də çıxış üçün söz dil-ədəbiyyat müəllimi Sara Bəydəmirovaya verilir.

Sara söhbəti tələbəlik illərindən saldı, tez-tez hərbi məktəblərdə təhsil alan müdavimlərlə görüşlərindən bəhs etdi, bir dəfə Sərhəd Qoşunları Akademiyasında keçirdikləri görüşdən, ayrılmaq istəmədiyi xoş təəssüratlardan danışdı.

O, danışır, leytenant Osmanovun xəyalları isə geriyə qayıdırdı, onu həmin xoş günlərə səyahətə aparırdı. Osmanov bayaqdan diqqət yetirdiyi həmin qızı xatırlayırdı, özü də yaxşı xatırlayırdı.

–İndi də söz sərhəd zastavasının nümayəndəsi leytenant Osmanova – dünənki günümüzün qəhrəmanına verilir. – Alqışlar içində ani olaraq fikir-xəyal aləmindən ayrılan leytenant Osmanov özünü cəmləşdirməyə çalışsa da tər onu basdı, birtəhər iki addım atıb qabağa çıxdı.

–Həmvətənlərim! Dövlət həm də mükəmməl qorunan sərhədləri ilə tanınar. Sərhədləri qorumaq isə millətin ən vacib vəzifəsidir. Biz sərhədçilər dövlət sərhədlərinin müdafiəsini təşkil edirik. Bu işdə hamının köməyi olmalıdır. Necə ki, dünənki əməliyyatda, Kor Miseyibin tutulmasında Habillə Cümşüd bizə lap yaxından köməklik göstərdilər. Onlar olmasaydı cinayətkar belə tezliklə yaxalanıb ifşa edilməyəcəkdi. Kim bilir, bundan sonra o, dövlət sərhədlərini neçə dəfə pozmağa cəhd göstərəcəkdi, daha hansı fitnə-fəsadlar törədəcəkdi. Zastava rəisinin əmri ilə Habil və Cümşüd "sərhədçinin dostu" döş nişanı ilə təltif olunurlar. Buyursunlar.

Alqış sədaları altında Habillə Cümşüd leytenanta yaxınlaşdılar. Osmanov əvvəlcə Habilin, sonra Cümşüdün

yaxasına döş nişanlarını taxaraq onların əlini sıxıb təşəkkürünü etdi.

–Hər kəs çalışmalıdır ki, Habillə Cümşüd kimi sərhədçilərə kömək etsin. – Habillə Cümşüd daha gur alqış sədaları altında cərgədəki yerlərinə qayıtdılar və alqışlar kəsildi, gözlər leytenanta dikildi, o, çıxışını yekunlaşdırmalıydı ki, toplantı başa çatsın. – Sizin aranızda sərhədçilərin daha bir dostu var. – Leytenantın son kəlməsi izdihamı təlatümə gətirdi, hamı onu axtarmağa çalışdı. Onun kim olduğunu cərgələrdə axtardılar, leytenant susdu. Tapmadıqda sual dolu baxışlar yenidən leytenanta dikildi. Hamı həyəcanla gözlədi ki, görəsən leytenant kimin adını çəkəcək. – O insan hamınızın yaxşı tanıdığı Sara xanım Bəydəmirovadır. Onun sorağını mən hələ Akademiyada oxuyanda almışdım. Fədakar qızcığaz müdavimlərə çox köməkliklər göstərirdi, kitabxanalardan öz adına kitablar, lazım olan ədəbiyyat dərslikləri tapıb gətirirdi, vətənpərvərlik disputlarında fəal iştirak edirdi, tələbələrlə müdavimlər arasında mövzu mübadilələri təşkil edirdi. Hamımızın sevimlisinə çevrilmişdi Sara. Heç təsəvvür etməzdim ki, burada, ucqar bir dağ kəndində onunla rastlaşa bilərəm. Sara Bəydəmirova da “sərhədçinin dostu” adına layiqdir. Buyursun!

Sara xanım cərgədən çıxıb şux addımlarla leytenantın qabağına yeridi, bir anlıq baxışdılar. “Bu ki, Savalan babanın evindəki şəkilin özüdür” yadına düşdü Osmanovun, ürəkdən gülümsündü Saranın üzünə, Sara da ona gülümsündü, harda isə o da Osmanovu xatırlayırdı deyəsən.

Xəyallardan ayrılan leytenant Osmanov Saraya tərəf yarım addım atıb üçüncü nişanı onun yaxasına taxdı. Həzin əsən mehin güclə tərpətdiyi palıd yarpaqlarının yaratdığı xışıltıya bənzər qırıq-qırıq səslər çıxartdılar, yalnız ikisinin güclə eşidə biləcəyi tərzdə, yəni dodaq tərpənişindən anlaşılacaq kimi pıçıldaşdılar.

“Tanıdın?”

“Tanıdım…”

“Əhsən!”

“Xoş gördük!”

Nişan taxılma mərasimində çox qısa, amma günəşin özü qədər isti dialoq alındı aralarında. Bu isti hər ikisinin sifətini qarsdı, yanaqlar allandı. Toplantı bununla da dağıldı. Məktəb direktoru Güloğlan müəllim onları nahara dəvət etsə də qalmadılar. Leytenant Osmanov zastavaya qayıdıb olanları mayor Bədəlova danışmağa tələsirdi. Kənddən yenicə aralanmışdılar ki, o, dayandı. Ürəyi özündə deyildi deyə ayaqları getmirdi. Ona elə gəldi ki, məktəbin pəncərəsindən Sara onun arxasınca baxır. “İlahi, bu nədir, olmaya eşqə düşmüşəm, vurulmuşam? Görəsən, eşqə düşmək necə olur?” Geri qanrılıb kəndə, məktəbə, bir də açıq səmaya baxdı… “İlahi, mənə vətəni sevdirdin, vətəni sevməyi özümə borc bildim. Vətən borcu canıma, qanıma elə hopdu ki, başqa nəyəsə yer qalmadığını düşündüm! Borcumu yerinə yetirməyə gəldim, burda da qarşıma sevgimi çıxartdın!”

Kənddən xeyli aralanmışdılar, məktəb bir kibrit qutusu boyda görünürdü, pəncərələr isə nöqtə kimiydi, gözün bəbəyindəki

nöqtədən də balaca. “Sara, mən sənə bunu çoxdan demək, ürəyimi açmaq istəyirdim, lakin sən bir daha qarşıma çıxmadın. Heç kim inanmaz ki…”

“… gör necə gözəl vətənim var. Borcunu yerinə yetirmək üçün ən ucqar yerə yollanırsan, orda da sevgin qarşına çıxır…”

# Başdaşındakı şəkil

İran tərəfin gömrük məntəqəsini keçəndən sonra əlli-altmış addım gedib dayandım. Günəşdən qorunurmuş kimi əlimi gözlərimin üstünə tutdum – bu, mənim adətimiydi, gün oldu, olmadı baxanda belə eliyirdim. İndi də ərazidə sıra ilə, sırasız dayanan maşınlara göz gəzdirdim.

–Təbriz…

–Ərdəbil…

–Əhər…

Dəllalların bir-birinə qarışan səsi baş-beynimi apardı. Lap istədim əllərim ilə qulaqlarımı tıxayım, həmişə qarmaqarışıq yerlərdən kənar gəzərdim, səs-küyü heç uşaqlıqdan xoşlamazdım. Həyatımda bir neçə dəfə belə yerlərə tuş gəlsəm də öyrəşə bilmirdim, haray-həşir, vurçatlasın mənlik deyildi. Tez bir tanış maşın tapıb aradan çıxmaq, bu qaraguruhçu dəllalların baş-beynimi aparan qarğa-quzğun səslərindən canımı qurtarmaq istəyirdim.

Tanış deyəndə ki, başqa bir ölkədə mənim nə tanış maşınım olacaqdı? Burda – aləmin bir-birinə qarışdığı, beş tümən qazanc yolunda qonşusunun da hulqumunu üzməyə, ayaqlarının altına salıb tapdalamağa hazır olan yüzlərlə “ac-yalavac” ın arasında kimi tanıyırdım?

İrana gedişim üçüncü, ya dördüncü dəfəydi, dəqiq yadımda deyildi. İlk dəfə Xudafərindən, qalan vaxtları Biləsuvardan

keçmişdim. Heç hansında problemim olmamışdı, gedəndə də, gələndə də rahatlıqla adlamışdım, basırığa, cığan-vığana düşməmişdim. Amma nədənsə, bu dəfə yaman ehtiyat edirdim. Elə bilirdim ki, biz tərəfi adlasam da İran tərəfi keçə bilməyəcəyəm. Gömrük işçiləri nəyi isə bəhanə gətirib məni saxlayacaq, saatlarla sorğu-suala tutub zəhləmi tökəcək, sonra da geri qaytaracaqlar, qoymayacaqlar gedib niyyətimi hasil eyləyim.

İncəvara, bu dəfə də rahatlıqla keçdim, heç bir əngəl-filan olmadı.

…Məndən altmış-yetmiş metr aralıda dayanmış bir maşın diqqətimi çəkdi. Şüşəsində bizim dildə, yəni latın əlifbası ilə "Culfa" yazılmışdı. Görən kimi tanışını, qohumunu tapmış adam təki sevindim. Neçə dəfə gedib-gəlməyimə baxmayaraq İran hərflərinə alışa bilmirdim. Heç danışıqlarına da alışammırdım, baxmayaraq ki, eynən bizim kimi danışırdılar, amma bir az sözləri uzadırdılar. Köhnə kişilər demiş, o taydakılara quşum qonmurdu…

Gəlmə olduğumu görüb hər tərəfdən üstümə düşdülər. Çağırmaqlarına baxmayaraq əhəmiyyət vermədən maşınların arası ilə keçib getdim. Arada hətta biri qolumdan tutub dartdı.

–Babaamm, haraa belə tələsirsən? İndi səni hara gonlun istəsə apararıq. Tez və rahat… Day bizi bəyənməyib yanımızdan niyə düz keçirsən?

–Babam, sizin hərflərlə yazmışıq ki, bilasıınz. Xoşun çəkir latın oxu, xoşun çəkir kiril.

Çənə döyməmək, onsuz da başa düşməyəcək, ya da başa

düşmək istəməyəcəkdi deyə uzun-uzadı nəyi isə izah eləməmək, özümün də zəhləmi tökməmək xətrinə yavaşca qolumdan tutanın qolunu kənara itələyib yoluma davam etdim.

Sürücü podpresində "Culfa" yazılmış maşının yanında dayanıb üzü mən tərəfə baxırdı, bəlkə də elə mənə baxırdı, uzaqdan ona tərəf gəldiyimi görməmiş deyildi. Dəqiqləşdirmək üçün bir də podpresə baxdım. İndi nəzərimə çatdı ki, iki dəfə "Culfa" yazılıb, biri kiril, biri də latın hərfləri ilə. Gülməkdən özümü güclə saxladım; az qala on il olacaqdı ki, kirill hərflərinə "əlvida" deyib latın hərfləri ilə yazıb oxuyuruq, amma kiril hərfləri hələ də ekrandadır.

Sifətindən oxunurdu ki, sürücü Arazın bu tayındandı, bəlkə də mənə elə gəlirdi, özü də danışmasa belə naxçıvanlı olduğunu düşündüm. Nədənsə, fikirləşdim ki, Arazın Güney tayındakılar daha xoşsifət, daha məsumdular. Sovet hakimiyyəti, rustəbiətli davranış, təlim-tərbiyə onları geridə qoysa da fel-fırıldaqdan, bic-bicəngəlikdən də nisbətən kənarda saxlamışdı.

–Salam! – Yaxınlaşan kimi ucadan salamlaşdım.

–Əleyküməsalam. – Sürücü bildiyim şəxs sakitcə, lap quyunun dibindən gələn güclə eşidiləcək səslə salamımı cavabladı. Mənə elə gəldi ki, o, haray-həşirlə müştəri toplayanlardan çəkindiyi üçün astadan salamlaşır, qorxur ki, yeganə müştərisini də gəlib əlindən alacaqlar. Ancaq yüz o taylı gəlsə də mən onların heç birinin maşını ilə gedən deyildim.

Maşına nəzər saldım, salonda oturanlar vardı.

–Culfaya gedirikmi? – Podpresdəki yazıya işarə elədim.

–Allahın köməkliyi ilə Naxçıvana. – Sualımı sürücü eyni tərzdə astadan cavabladı.

–Sizdə sıxlıq olar… – Xalaxətrin qalmasın astadan pıçıldadım.

–Babam, sizdə sıxlıq olar. – Sürücü dillənməmiş qulağımın dibindən kimsə səsləndi, zalım oğlu elə bil məni güdürmüş, yana çevriləndə onu gördüm, ələngənin, yekəpərin biriydi.

Sürücü gülümsündü, nə cavab vermədi, nə də əhəmiyyət… Sonra keçib sükan arxasında əyləşdi. Mən də maşına yaxınlaşdım. Bir nəfər qabaqda, iki nəfər arxada oturmuşdu. Arxa qapını açdım, bir kişi, bir arvad idilər.

–Salam. Mən də otursam narahatçılıq olmaz ki? – Hər ehtimala qarşı soruşdum.

Onlardan səs çıxmadı.

–Həmişəki kimidir. Niyə narahatçılıq olsun ki? – Sürücü kefikök vəziyyətdə gülümsündü.

–Onda nəyi gözləyirik? – Məntiqsiz də olsa soruşdum.

–Sizi. Buyurun, əyləşin, gedək.

–İstəyirsiniz, mən arxaya keçim. – Qabaq oturacaqda oturan, məndən beş-altı yaş cavan olmasına baxmayaraq da, on-on beş kilo ağır görünən kişi təklif etdisə də razılaşmadım.

–Eyb etməz.

Salona keçib oturdum, yerimi rahatladım. Heç birimiz bir-birimizə mane olmurduq.

–Süleyman. – Tanışlıq verdim, amma heç biri buna əhəmiyyət vermədi.

–Siz Culfaya gedirsiniz? – Əvəzində sürücü heç nə eşitmirmiş kimi az qala pıçıltı ilə soruşdu.

–Yox. Üçdibinə gedirəm.

–Onda Səfərlidə düşəcəksiniz, yoxsa Tüəlidə?

–Səfərlidə.

Maşın yerindən tərpəndi.

Məhərrəm əminin qırx mərasiminə gedirdim. O, Üçdibində yaşayırdı – o taylı qohumlarımızdandı.

Şərəfnisə qocam Üçdibin qızıydı. Əslində, Şərəfnisə qocamın babasıgil Üçdibinə bizim Sürtün kəndindən köçüb getmişdilər, bunu Şərəfnisə qocam böyüklərindən, biz də ondan eşitmişdik.

Babam Hüseyxan kişi Şərəfnisə qocamı bahar bayramı vaxtı, Üçdibinə, qohumlarıgilə bayramlaşmağa gedəndə görüb bəyənib. Ailə qurandan sonra Sürtün kəndində yaşamalı olublar, daha doğrusu, Şərəfnisə qocam bura gəlin gəlib.

Kəndin başqa sakinləri kimi təsərrüfatla məşğul olurmuşlar, mal-heyvan saxlayırmışlar. Qışı Araz qıraqlarını, Hasanı bağı, Sığırt düzlərini otarır, yayı Alçalıya, Əvəlikliyə, Miyandərə yaylağına qalxarmışlar. Şərəfnisə qocamın dediyinə görə, üç yüzdən çox qoyun-keçiləri, on-on beş sağılan iribuynuzlu mal-qaraları varıymış. Sovet hökumətinin dalğası onları yaylaqdan enəndə vurub. Kiçik kəndlərin birləşdirilməsi, kollektiv təsərrüfatın yaradılması məsələsi ortaya çıxanda Hüseyxan babama bolşevik dostlarından kimsə qabaqcadan xəbər gətirib. Deyib bəs nə durmusan, təzə hökumət gəlir, əlində nəyin var, hamısını alacaq, özünü də kulak damğası ilə damğalayıb Sibirə

sürgün eliyəcək. Hüseyxan babam da ha yenişə-yoxuşa fikirləşir, bir çarə tapa bilmir. Hökumətlə hökumətlik eliyəsi deyil ha… Gözün baxa-baxa on illərlə zəhmət çəkib təsərrüfat yaradasan, gəlib qapından yığıb aparalar, cıqqırını da çıxarda bilməyəsən, bir söz deyəmmiyəsən. Bununla da qane olmayalar, adının qabağına bir kulak nallayıb özünü göndərələr gedər-gəlməzə, xaraba qalmış Sibirə. Nə sənin ailə-uşağından xəbərin ola, nə onların səndən… Sonra da kim harda öldü, öldü…

“Ağıllı fikirləşincə, dəli vurub çayı keçər” deyiblər. Hüseyxan babam da fikirləşməklə çıxış yolu tapa bilməyəcəyini görüb gecə ilə təsərrüfatını sürür Arazın o tayına. Şərəfnisə qocama da tapşırır ki, hazırlaşın, bir gecə də gəlib sizi aparacam. Şərəfnisə qocamın da elə o vaxtdan gözü yolda, qulağı səsdə qalır, amma nə Hüseyxan babam onları aparmağa gəlir, nə də bir xəbərini alırlar…

Rus qaradovoyları Araz boyu mühafizəni elə gücləndirirlər ki, nə o taydan bəri, nə bu tərəfdən o taya bir adam gedə bilir. Sonra da üç-dörd yerdən tikanlı məftillər çəkib birdəfəlik əlaqəni kəsirlər. Hüseyxan babam o tayda qalır, Şərəfnisə qocam da iki körpə uşaqla bu tayda.

–Deyəsən buralara birinci dəfədir gəlirsiniz? – Sürücünün səsi məni fikirdən ayırdı.

–Necə ki? – Sualın mənasını başa düşmədiyimdən dəqiqləşdirmək istədim.

–Heeçç! Belə görünürsünüz. – Sürücü cavabladı. – Fikriniz, diqqətiniz geridədi. Elə hey Araz tərəfə baxırsınız…

–Hə… elədir… Fikir-xəyal insanı rahat buraxır ki…

–Hələ xeyli yol gedəcəyik. Bir istəyiniz olsa, utanmayın, deyin. Çay-filan, ayaqyolu…

Dinmədim. Bayaqdan heç fikir verməmişdim, indi baxdım ki, böyrümdəki arvadla kişi xısın-xısın danışırlar. Qabaqda oturan da, maşallah, div yuxusuna getmişdi, bir xorultu-nərilti salmışdı ki… Deyirdin bəs, bu dəqiqə maşının hava filtirlərini sorub içəriyə gətirəcək.

Başa düşdüm ki, sürücüyə söhbət eləmək üçün yol yoldaşı lazımdı, amma bu, indiki halda mənlik deyildi. Heç bir söz demədən üzümü bayaqkı səmtə çevirdim. Sürücü də, deyəsən, bunu başa düşdü və daha heç bir söz demədi.

…Şərəfnisə qocam ömrünün sonunadək səksəkə üstündə yaşadı, gecə də, gündüz də gözü Xaçamaş yalında, qulağı xoş xəbər sorağında qaldı. Səksənbeşi adlayıb, doxsanı haxlayanda artıq nə dizində təpər qalmışdı, nə ürəyində yağ. Əti də ərimişdi, bir sümük, bir dəriydi. Amma ümidini üzməmişdi, elə hey gözü yol çəkirdi, bayatılarla özünə təskinlik verirdi: “Hamının gedəni gəldi, bəs mənim gedənim hanı?”

…Bir gün xəbər gəldi ki, bəs hamı Arazın qırağına toplaşsın, tikanlı məftilləri qırıb dağıdacaqlar. Hökumətin zəif vaxtlarıydı, ölkə daxildən dağılırdı. Bir tərəfdən də ermənilərlə dava qızışmaqdaydı. Ancaq heç kimin ağlına gəlməzdi ki, tikanlı məftillər qırıla bilər. Yatsaydın, heç yuxuna da girməzdi bu. Amma bu beləydi, sən demə, tikanlı məftillərin qırılması ilə də hökumətin dağılmasının sürətlənməsi başlayacaqdı.

Hamımız Araz çayının qırağına toplaşdıq. Qonşu kəndlərdən də axışıb gəlmişdilər, uşaqlı-böyüklü bir neçə yüz adam olardıq. Bununla belə, cürətimiz nə idi ki, tikanlı məftillərə yaxın gedək. Təsəvvür etdiyimiz kimi deyildi, tikanlı məftillər boyunca sərhədçi əsgərlər də düzülməmişdi, yalnız sərhədçi qülləsindən bir əsgər durbinlə bizi müşahidə edirdi.

Sərhəd xofu hələ də canımızdaydı. Biz heç vaxt sərhəddə yaxın getməzdik. Məcburiyyət qarşısında sərhəd boyu addımlayanda da o taya – İran tərəfə baxmaz, heç qolumuzu belə tərpətməzdik. Dəfələrlə belə hal olduğundan sərhədçilər mal-heyvan otaran kəndlini tutub zastavaya aparmış, sorğu-sualla zəhləsini tökmüşdülər.

“Ay, nə bilim, sən İrana işləyirsən, agentsən, şpionsan. Əlinlə İrana işarə verirdin. De, görüm harda, kiminlə görüşürsən? Sənə nə qədər pul verirlər?” Bir sözlə, başını aşağı salıb kəndçiliyini edənin də beş dəqiqənin içində kəndçiliyini burnundan gətirir, bu işıqlı dünyaya gəldiyinə peşman qoyurdular.

İndi bizim cürətimiz nə idi ki, sərhədə yaxın gedək, ya tutalım, əlimizə kəlbətin alıb tikanlı məftilləri qıraq, dirəkləri aşıraq. Çox da ki, yuxarıdan sifariş gəlib. Gözləyək, qoy özləri gəlib çıxsınlar. Görək tikanlı məftilləri necə qırırlar.

Arazın o tayında da xeyli adam toplaşmışdı. Bizdən fərqli olaraq onlar daha şən görünürdülər; səs-küy salır, ucadan nə isə deyib qışqırışırdılar, amma sərbazlar gözə dəymirdilər.

Elə bu vaxt sərhədçilərin VİLLİS və çadırlı QAZ-66 maşınının bizə tərəf gəldiyini gördük. İstər, istəməz canımıza

bir üşütmə düşdü. İndicə avtomatların şaqqıldayacağı, bizi qırıb çatacaqları anın yaxınlaşdığını düşündük. Ancaq heç kim yerindən tərpənmədi, dişimizi dişimizə qıcayıb durmuşduq. Arazın sərt silyanı da bir yandan əhədimizi kəsirdi. Maşınlar yaxınlıqda dayandılar və içindəki adamlar yerə tökülüşdülər, onlar mülki vətəndaşlardı, bu da bizə bir az toxtaqlıq gətirdi. Gələnlərdən kimsə səsgücləndirici vasitəsilə nə isə deyirdi. Səs həm çox boğulurdu, həm də tunelin üstündəki Dəvəboynu dağlarında əks-səda verirdi deyə heç nə başa düşüb anlamaq olmurdu.

Adamlar maşından tökülən kimi sərhədə tərəf cumdular və əllərindəki kəlbətinlər və digər kəsici alətlərlə sərhəd dediyimiz tikanlı məftilləri doğrayıb yerə tökməyə başladılar. Sərhədçi qülləsindən müşahidə edən əsgər güllə atmadı – bu hal bizə çox qəribə göründü və biz də cürətlənib dirəkləri aşıranlara tərəf köməyə getdik. Gələnlər arasında iki, ya üç sərhədçi zabit vardı, onlar da qüllədən baxan əsgər kimi dayanıb müşahidə edirdilər.

Bir neçə yerdən tikanlı məftilləri qırıb özümüzə yol açdıq və elliklə keçib düz çayın qırağına getdik. Araz çayı çox sakit axırdı, elə bil ki, laldı, ya da günahkar uşaqlar kimi səsini çıxartmağa qorxurdu. Bir xalqı ikiyə böldüyündən, bəlkə də, qohumları bir-birindən ayrı saldığına görə utanırdı. Hər halda mənə belə gəlirdi.

Burdan o taylı qardaşlarımızın səsini daha aydın eşidirdik. Kimisi əllərini yudu, kimisi də şaxtaya, sazağa baxmayaraq corablarını çıxardıb ayağını suya saldı.

–Oxxayy! – dedi. – Əhd eləmişdim. Axır ki, əhdimə çatdım.

Sonra ara qızışdı, o taylı-bu taylı danışıqlar başladı. Camaat bir-birindən qohumlarını saraqladılar.

Hüseyxan babamın ölüm xəbərini də onda eşitdim. Kişi gəlib ailəsini aparmaq üçün çox cəhd edib, amma alınmayıb. Əlacı hər yerdən üzüldükdən sonra Üçdibin kəndində Şərəfnisə qocamın çox gənc ikən dul qalmış xalası qızı ilə evlənib. Hazırda Üçdibində Məhərrəm adlı bir oğlunun öz ailə-əyalı ilə ata ocağında yaşadığını da o taydan dedilər.

Bu xəbər mənim üçün böyük üzüntü idi. Üzünü görməsəm də Hüseyxan kişi dost-doğma babam idi. Onun başqa arvaddan olan oğlu Məhərrəmin və ailəsinin mənimlə necə qohumluq əlaqələrinin yaradılacağına, ümumiyyətlə ünsiyyətimizin alınacağına az ümid bəsləyirdim. O taylı-bu taylı, qismən də olsa yaxınlaşmaq təskinliyi ilə axşam şər qarışanda kəndə qayıtdıq. Ertəsi gün yenidən görüşəcəkdik, özü də təzə tapdığımız qohumları da çağıracaqdılar.

–Yorulmadın ki! – Gözüm baxa-baxa sürücünü az qala Məhərrəm əmi zənn edəcəkdim.

–Necə bəyəm?

–Deyirəm, yoruldunuzsa, yol üstü bir çay içək…

Baxdım ki, qabaqda oturan adam öz xornasındadı, zalım oğlu, elə bil iki günlük gecə növbəsindən çıxıb. Böyrümdəki kişi də arvadı elə qucaqlayıb başını çiyninə qoyub, elə bil min ilin tamarzısıdı, day bilmədim arvadıdı, oynaşıdı, elə də xısın-xısın pıçıldaşırdılar ki, bir kəlmələrini də eşidib başa düşmək

olmurdu. Odur ki, onları “narahat” etməmək naminə astadan dilləndim.

–Hələ sür! Qabaqlarda bir yerdə oturarıq.

–Necə məsləhətdi! – Sürücü könülsüz mızıldandı, salondakı ab-hava ona da ləzzət eləmirdi, görünür, havasını dəyişmək istəyirdi.

…Dirəklərin aşırıldığı, tikanlı məftillərin qırıldığı vaxtlar, o tayla əlaqələrin yaranhayaran çağında Şərəfnisə qocamın ürəyi lap üzülmüşdü, yatağa girmişdi, durub gəzməyə taqəti qalmamışdı. Ədəbxanadan başqa heç hara apara bilmirdilər, getmirdi. “Məni rahat buraxın, bir havır dincimi alım, bərk yorulmuşam” deyirdi. Yorulacaqdı da, bir ömür durmadan işləmişdi, dünyanın ac-yalavac vaxtında iki yetim böyütmüşdü, sonra da nəvələrinin yolunda kül-torpaq etmişdi özünü. Kənd yerində nə ki, xırda-xuruş iş vardı, hamısına əl atmışdı. Ömür vəfa etsəydi, özünü yüzə də çatdırardı.

Neçə gün idi yataqda idi Şərəfnisə qocam, sudan başqa heç nə dilinə vurmurdu. Öləcəyini bilirdik, özü də hiss eləmişdi, hayana ola, dünyagörmüş arvaddı, kənddə neçəsinin gözünü basıb çənəsini çəkmişdi. Amma rahatlanıb canını tapşıra bilmirdi, ta ki, o taydan Hüseyxan kişinin ölüm xəbəri gəldi, elə bil arvadın da gözünə işıq gəldi. Göz yaşı sel-suya dönüb yanağı aşağı axdı. Toxtaqlığın mənası yoxdu, hamımız ona qoşulmuşduq. Havayı deyildi, altmış il idi xəbər gözləyirdi. Kimin ürəyi partlamazdı ki.

Gözlərinin yaşı quruyandan sonra dəsmalla sir-sifətini sildim.

Gözlərini açıb məzlum-məzlum mənə baxdı, güclə eşidiləcək səslə soruşdu:

–Məhərrəm dedikləri adamı öz gözünlə gördün? – Qocama hardansa güc gəlmişdi, ötkəmləşmişdi.

–Həə! – Həm cavab verdim, həm də başımı tərpətdim.

–Çox oxşuyurdu babana… – Qocamın çənəsi titrədi, sanki kişinin o tayda evlənməsini, oğul sahibi olmasını bu yaşında da qəbul edə bilmirdi.

–Hə. – Babamı harda görmüşdüm ki, mən, şəkilinə baxmışdım, o da sinədən yuxarı, bozumtul şəkilinə. Yalandan da olsa təsdiqlədim ki, arvadın gözü yoldan yığışsın.

–İmkan düşən kimi… gedərsən. Qəbrini taparsan… deyərsən ki… qocam… halallığını verib… rahat yat…

Şərəfnisə qocam bu an gözlərini bərəldib mənim gözlərimə zillədi, bilmədim xəbərə görə təşəkkürmü edir, yoxsa yalan, ya doğru danışdığımı gözlərimdən öyrənmək istəyir. Əllərini güclə də olsa yataqdan yuxarı qaldırdı, dodaqlarını tərpədib nəsə demək istədi, dedi də, amma mən eşidə bilmirdim, sanki Tanrı ilə öz aralarında nə isə pıçıldaşırdılar. Sonra qollarını aşağı saldı və başını azacıq o tərəfə əydi.

Arvadın səsi xırıldadı… bəlkə də boğazında xırıltılı səs eşidildi… tam hərəkətsiz qaldı… Sifətindəki son həyat işarəsi çəkilməyə başladı.

–Qoca… qoca… – dedimsə də… artıq gec idi, Şərəfnisə qocam boynunu büküb gözlərini bərəltmişdi.

İndi mənə çatdı ki, arvad canını tapşırıb. Bu, çox qəribə

göründü, xəstə adamın qüvvətlənməsi, danışması və… bir anın içində… ölməsi… İnanmaq istəməsəm də çıxdım ki, qadınlar arvadı rahatlasınlar.

Ertəsi gün mən Arazın qırağına gedə bilmədim. Şərəfnisə qocanın dəfni ilə məşğul olduq, onu İslam adəti ilə son mənzilə yola saldıq. Qışın soyuğuna baxmayaraq Arazın qırağına getmək, artıq adət şəklini alırdı. Adamların sayı azalsa da çayın qırağına toplaşırdılar.

Axşam çayın qırağından gələnlər otaylılar arasında Məhərrəmin də olduğunu, məni soruşduğunu dedilər. Şərəfnisə qocamın ölüm xəbəri onu da sarsıdıbmış.

Çox keçmədi ki, o taya gediş-gəliş başladı. Adamlar daha çayın qırağına toplaşmırdılar, kim o taya getmək istəyirdisə, gedib adını yazdırırdı. Xudafərində məntəqə yaratmışdılar, o taya getmək istəyənləri qeydə alırdılar. Sovet hökumətinin yeni qanunlarıydı, nə viza lazım idi, nə də xarici pasport. İran tərəf də Sovetin qırmızı pasportunu nəzərə alırdı.

Dağlıq Qarabağ və ətrafdakı rayonlar, xüsusən də Arazqırağı ərazilər işğal olunana kimi o taya Xudafərin körpüsündən keçib gedirdik. O taylı soydaşlarımız isə bu körpüdən keçib gəlməzdilər, həmişə Arazı gizlində keçib gələrdilər. Bilmirəm, onların hökuməti icazə vermirdi, yoxsa özləri belə istəyirdilər. Bir də görürdün ki, gecənin bir aləmində kimsə qapını döydü. Kənd yerində qapı döyməzdilər, eləcə aralıdan səslənərdilər ki, ev yiyəsi kimin gəldiyini səsindən tanısın. Durub qapını açırdın – görürdün iranlı dayanıb qarşında.

–Babam, gecənin bu vaxtı nə şəbbə-xeyir?

Deyirdi:

–Xeyirdi, babam. Allah qonağıyam, özü də Məhərrəm əmindən salam gətirmişəm.

Məhərrəm əmi özü heç vaxt Arazın bu tayına adlamazdı – nə gizlin, nə də hökumət yoluynan. Babamdan daha çox anasına oxşamışdı, sakit təbiətliydi, elə bil əsəbləri yoxdu, atasının yurdu ilə heç maraqlanmazdı. Bizə bir az oxşamışdı – həm qanundan qorxurdu, həm də çaydan…

İlk vaxtlar iki dəfə Xudafərindən keçib o taya getdim, axtarıb qohumlarımı tapdım, onları yaxından tanıdım, əlaqəmizi gücləndirdim. Amma dədə-baba yurdumuz işğal olunandan sonra getmədim, gedə bilmədim. Hansı üzlə durub öz yerlərimizə baxacaqdım?

tayda dayanıb həsrət-həsrət doğma yurd yerlərimizə baxmağa ürəyim dözməzdi. Necə olsa da, dəmir, daş deyildi ürəyim, yumruq boyda bir parça ətdi, dözməyib partlaya bilərdi.

Arada necə oldusa, bir dəfə üzə salıb məni də apardılar. Burdan elə çıxdıq ki, şəvinik düşəndən, şər qarışandan sonra gedib çatdıq ora. Gecə vaxtı ha baxsan da təbiət elə təbiətdi, istər Zəngilan dağları olsun, istər Xızı, istər Qusar, istər Qax dağları, istərsə də Savalan, ya Aslandüz, bir fərq görməzsən.

Həmin axşam bütün qohumlar yığışdı başımıza. Hərəsi bir söz soruşur, bir şey danışırdı. Babamın qohum-əqrəbası mənə elə şirin gəlirdi ki, hamısını qucaqlayıb bağrıma basmaq istəyirdim. Gecə yarısı olmasına baxmayaraq heç kim bizdən ayrılıb yatmaq

istəmirdi, çox maraqlı vaxt keçirirdik.

Yatmaq vaxtı gələndə Məhərrəm əmi, mən, bir də mənimlə gələn dayoğlu Səməd bir otaqda yatmalı olduq. Axşamdan qızışan söhbət zamanı heç nə soruşmayan, heç nə də danışmayan, ancaq oturub matdım-matdım baxaraq bizi dinləyən Məhərrəm əmimin lap astadan – hiss etdim ki, Səmədin eşitməsini istəmir, soruşması nəsə mənə çox qəribə təsir bağışladı, elə bildim ki, babamın nə isə mühüm bir sirrini açacaq.

–Qağa, biz qohum deyilik?

Onun belə soruşması mənə lap sirli göründü. Fikirləşdim ki, yüz faiz babamın qızılı olub-olmadığını soruşacaq. Kişi çox güman ki, onlara olmayan "qızılının" yerini deyib. Mən də hazırlaşırdım cavablamağa. Deyəm ki, bəs bu neçə illər nə ilə dolanmışıq? Babam mal-heyvanı yığıb bura adladanda quru yurdda qoydu bizi. Bir həsirimiz vardı, onu da Sovet hökuməti alıb kolxoza baydaq tikdirdi.

–Necə qohum deyilik? – Qəfildən ağzımdan çıxdı deyə səsimi azaltdım. Babamın nəvəsi mənəm, oğlu da sənsən, əmim sayılırsan. Mən Şərəfnisə arvadından olan oğlunun oğluyam, sən də Lala arvadından olan oğlusan… Bəs neçə vaxtı bunları aydınlaşdırmışıq axı… İndi bu nə məsələdir, soruşursan?

–Hirslənmə, sözümün canı var…

–Di nə durmusan, de… Babamın qızıllarının yerini soruşacaqsan? – Yenə də özümü saxlaya bilmədim.

–Biz qohumuqsa, deməli, bir xalqıx, bir millətik. Elə deyilmi? – Məhərrəm əmi, deyəsən, dediklərimin heç birinə

əhəmiyyət vermirdi.

–Əlbəttə, elədir.

–Sən oxumuş adamsan. Yaxşı, onda mənə cavab ver, görüm, biz necə eyni xalq, eyni millətik ki, bizə türk, sizə azərbaycanlı deyirlər?

–Elə türk də azərbaycanlı, azərbaycanlı da türkdür dayna!..

–Yox, baba nəvəsi, mən burda səninlə razı deyiləm. Nə Məhərrəm əmin Süleyman deyil, nə Süleyman Məhərrəm əmin ola bilməz. Burda nə isə başqa bir şey var, böyüklərimiz bizdən gizlədirlər.

–Hamımız Azər adlı bir kişinin törəmələriyik.

–Hələ bilmək olmaz ki, bu Azər də kimin uydurmasıdı.

–Bu söhbətlər bizlik deyil. Yaxşı olar ki, yataq. – Astadan dilləndim. – Yat, Məhərrəm əmi, gecə yarını çoxdan keçib. Səhər obaşdan durub Kəleybərə gedəcəyik. Gərək yatıb dincələk ki, getdiyimizə görə o dağlara çıxa bilək.

Səhər obaşdan qonşunun taksi maşınında yola çıxdıq. Kəleybərə çatanda hər tərəf qatı duman idi, günün hansı vaxtıydı, bilmədik, heç saata baxıb müəyyənləşdirmək də istəmədik, nəyimizə lazımdı, gəzintiyə çıxmışdıq. Maşını Kəleybərdə qoyub yolumuza piyada davam etməli olduq. Babəkin qalasına qalxan yol cığır kimiydi, insafən, bu cığırı da yaxşı düzəltmişdilər, iki nəfər qabaq-qabağa gələndə rahatlıqla keçə bilirdi. Məhərrəm əmi asta yerisə də bizdən geridə qalmırdı, arabir dayanır, bizi də dayandırır, nəfəsini dərə-dərə müəyyən söhbətlər danışır, sonra yolumuza davam edirdik.

Babək qalasına yüz-yüz əlli metr qalmış qatı duman təbəqəsini yarıb keçdik. Duman dənizi bizdən aşağıda qaldı. İlahi, bu nə mənzərəydi, göz istəyirdi ki, tamaşa eləsin. Bir az da bizim Daşkəsən yaylalarına oxşayırdı, xüsusən də Xaşbulağa, Qoşqar zirvəsinə. Qoşqarın zirvəsi də çox zaman duman, bulud təbəqəsindən yuxarıda olardı.

Qəşəng də gün çıxmışdı. Səməd telefonu ilə bir neçə şəkil çəkdi. Bizdən başqa da qalanı ziyarət edənlər vardı, onların arasında iki gənc diqqətimizi cəlb etdi, görünür, universitet tələbələriydi. Bizim gəlmə olduğumuzu onlar da hiss etmişdilər, arabir nə isə soruşur, bu tay ilə maraqlanırdılar.

–Sənin o telefonun üçümüzün bir yerdə şəklini çəkə bilərmi? – Məhərrəm əmi nə fikirləşdisə, Səməddən soruşdu.

–Niyə çəkmir? Çəkər! Lap beşimizin də şəkilini bir yerdə çəkər. – Səməd sualı başa düşdü, düşmədi, deyə bilmərəm, gülümsəyərək belə cavab verdi.

–Onda ver uşaqlardan birinə, bizim şəkilimizi çəksin.

Səməd qalanı ziyarət edən oğlanlardan birinə telefonu ilə necə şəkil çəkmək lazım olduğunu izah etdi. Biz üçümüz obyektivin qabağına keçdik. Məhərrəm əmi ortada dayandı, mən sağında, Səməd isə solunda durduq, qollarımızı onun kürəyində çarpazladıq. Cavan oğlan iki dəfə çıqqıldadıb şəkillərimizi çəkdi, sonra telefonu Səmədə verdi ki, baxsın. Səməd ekrana baxıb razılıqla başını tərpətdi.

–Təşəkkürlər! Yaxşı düşmüşük.

Məhərrəm əmi ekrana baxandan sonra dönüb mənə baxdı, elə

diqqətlə baxdı ki, elə bil birinci dəfəydi görürdü, bəlkə də bu, mənə belə göründü. Baxdı, baxdı və birdən boynumu qucaqladı.

–Dədə balası, – dedi, – ölmədim, bu günümü də gördüm. Sən mənə dədəmin əmanətisən, dədəmin yadigarısan.

Məhərrəm əmi başını çiynimə qoymuşdu, tərli boynumdan nəfəs alırdı.

–Dədəmin iyini səndən alıram. Sən ona daha çox oxşayırsan. Elə bil özüsən ki, varsan.

Özümüzlə yemək götürmüşdük, qalanın yanında, elə ayaqüstü adama bir tikə yeyib geri döndük.

İndi istəməsin, Şərəfnisə qocam məni yaman çox istəyirdi. Həmişə boynumu qucaqlayıb bağrına basardı, boyun-boğazımı iyləməkdən doymazdı. Lap ot biçməkdən, odun yarmaqdan tərli-tərli gələndə də belə edərdi. Deyirdim, ay qoca, tərliyəm, imkan ver, gedim yuyunum, paltarımı dəyişim. Bıldır-bıldır göz yaşı axıdardı. Deyərdi, bala, Hüseyxan babanın iyini səndən alıram, mənə çox görmə bunu. Deyirdim, bəs o biri qardaşlarım, axı onlar da səninlə Hüseyxan babamın nəvələridi… Deyirdi, yox, ay bala, onlardan babanın iyini alammıram…

Razılaşırdım, bir də baxırdım ki, tərim soyuyub, gedib yuyunmağa, paltar dəyişməyə ehtiyac qalmayıb. Kənd həyatının qayğıları olduğu kimi öz gözəlliyi də vardı. Bir də bu genetik kod, nəydisə, mən bilmirdim, heç indi də doğru-dürüst izah edən olmadığından tam anlamamışam. Amma babaların ruhu kimin canına hopursa, onun bütün xüsusiyyətləri də onun canında yaşayır. Beş barmaq bir olmadığı kimi bütün qardaşlar da eyni

ola bilmir…

İndi Məhərrəm əmimin bunu necə duyması, hiss etməsi mənə qəribə gəlirdi. Məhərrəm əmim Şərəfnisə qocamı görməmişdi ki, deyəsən o, öyrətmişdi. Bunu necə bilmək olardı? Bəs, mən niyə bilmirdim.

Ertəsi gün geriyə dönəndə hamı ilə görüşüb öpüşdükdən sonra Məhərrəm əmim məni bir də qucaqlayıb bağrına basdı. O üzümdən, bu üzümdən öpdü, boynumu iylədi. Mən aralanmaq istədim, buraxmadı, elə bil hiss etmişdi ki, bir daha görüşməyəcəyik. Astadan qulağıma pıçıldadı:

–Süleyman, sən dədəmin özüsən ki, varsan. Səndən onun iyini alıram. Bizi unutma, imkan düşən kimi gəl.

Aralaşıb maşına minmək istəyirdik ki, bir də səsləndi.

–Şəkil yaddan çıxmasın.

Biz Təbrizə gəlib telefondakı şəkilləri çıxartdırdıq, bir neçəsini Seyfulla adlı qohumumuz vasitəsilə Məhərrəm əmiyə göndərdik, qalanlarını isə özümüzlə gətirdik.

vaxtdan on ildən çox keçib, bəlkə də on beş il. Ancaq bu müddət ərzində mən bir daha o taya gedə bilməmişəm.

–Çatdıq!

Sürücünün səsi məni xəyallar, xatirələr aləmindən ayırdı. Mənə elə gəldi ki, sürücü əyləci möhkəm basıb, ya da maşını yavaşdan nəyəsə çırpıb. Çünki maşın dayananda özümdən asılı olmayaraq qabağa getdim və alnım qabaqdakı oturacağın söykənəcəyinə toxundu. Bununla da qabaq oturacaqda oturanın xorultusu xırp kəsdi.

–Çay içəcəyikmi? – Ayılan kimi dərhal soruşdu.

–Rəhmətliyin oğlu, yolboyu yatmısan, dünyadan xəbərin olmayıb. – Sürücü deyindi. – Yolda iki dəfə çay içmək imkanı olub, demişəm. Ya eşitməmisən, ya da eşidib özünü yuxuluğa vurmusan. Səfərlidə çayxana var ki, çay içək?

Sakitcə maşından düşüb sürücünün pulunu verdim.

–Azdı. – dedi. – Beş manat da əlavə elə. Sən olmasaydın, başqa müştəri götürəcəkdim. Mən Culfanın qiymətini alıram.

Heç bir söz demədən beş manat da verib, onlardan aralandım. Keçiddə pul dəyişsəm də taksi sürücüsü bu taylı olduğundan ona özüm Azərbaycan pulu verdim, əslində elə onun üçün də bir fərqi yoxdu.

Artıq axşamüstü idi, havanın tam qaranlıqlaşmasına az vaxt qalardı.

Gecəni Mustafanın evində qaldım, mərhumun evinə getmək istəmədim. Gedib nə edəcəkdim ki? Başsağlığını sabah versəydim yaxşı olmazdımı? Yenə ölən kimi xəbər tutub gəlsəydim, başqa məsələ…

Mustafa Məhərrəmin bacısı Suqra xanımın oğluydu, ailəsi ilə Səfərlidə yaşayırdı. Kənddə böyük bir dükanı vardı, topdansatış kimi fəaliyyət göstərirdi. Fərasətli adamıydı, hamıyla dil tapa bilir, ünsiyyət qurmağı bacarırdı. Hesab-kitabını da yaxşı bilirdi. Culfadan Biləsuvaradək hamının ona borcu olurdu, Arazboyu bütün dükanlara nisyə mal buraxır, ayın sonunda ya özü düşüb yığır, ya da dükan sahibləri gətirərdilər. Mustafa əsl tacir idi – elə İran taciri…

Narahat hisslərlə yerimə girdim, elə bil yatağıma qor doldurmuşdular. Bircə səhər tez açılaydı…

…Qarışıq bir ərazidəyik. Deyəsən, bura qəbiristanlıqdı. Gah xeyli adam izdihamına rast gəlirəm, gah da ikimizdən başqa heç kimi görmürəm. Adamlar çox olsa belə heç kimi tanımıram, tanıdığım bircə adam varsa, o da Mustafadır.

Diqqətlə baxıram, hə, bura qəbiristanlıqdır. Tez qəbirlərin arasında Məhərrəm əmimin qəbirini axtarıram. Aram-aram qəbirlərin arası ilə keçirəm, Mustafa isə fərqinə varmır, alçaq, torpaq qəbirlərin üstündən adlayıb keçir. Belə olmaz axı, qəbirləri tapdalamaq, üstündən adlamaq günah sayılır. Bunun dinə aid olub-olmadığını bilmirəm, insanlığa yad bir şey kimi qəbul edirəm. Mustafanın qabaqda inamla addımlamağı məni arxayınlaşdırır, çalışıram ki, ondan geridə qalmayım. Və… qəfil yer ayağımın altından qaçır, özümü havadan asılı kimi hiss edirəm, nəfəs almağa havam çatışmır. Səndərləyirəm, başım hərlənir, sonsuzluğamı, havasızlığamı düşmüş kimi müvazinətimi itirirəm. Gözümə qaranlıq çökür, qaramat basır məni. Yan-yörəmə boylanıram, vahimələnirəm. Elə bil Mustafa da qeybə çəkilib.

–Süleyman dayı, sənə nə oldu, qəbristanlıqdanmı qorxdun?

Dilim söz tutmurdu, birtəhər başdaşını göstərdim.

Qəbirlər arxasında hündür başdaşılı bir qəbir var idi, o qəbirin başdaşından bizə işıq düşürdü. Bu nə işıq idi, nə vaxtdan qəbiristanlıqda işıq yandırırlar…

Birtəhər gözümü açdım, qan-tər içindəydim… Otaqda işıq

yanırdı, özü də düz gözümə düşürdü. Mustafa düz otağın ortasında namaz qılırdı. Divardakı saata baxdım, beşin yarısıydı.

İlahi, nə vacibdi ki, namazı bu vaxta salmısan? Olmazdımı ki, hava işıqlaşanda insanlar namazını qılıb işlərinin dalınca gedərdilər…

Yox! Yox! Mən bunu heç vaxt edə bilmərəm. Etmərəm də… Namaz qılsam belə gecə yarısı durub işığı yandırmaz, kiminsə yuxusuna haram qata bilməzdim.

Özümü yuxuluğa vurdum, elə Mustafaya da bu sərfəli idi. Dəstəmazı yığışdırıb işığı söndürdü, soyunub yatağına girdi.

Səfərlidən Üçdibinə maşınla yarım saatlıq yoluydu. Biz səhər yeməyi yeyəndən sonra Mustafa dükanına getdi.

–Uzağı bir saata gəlirəm. – dedi.

Dükanında başqa işçiləri – nəzarətçi, satıcılar, fəhlələr olsa da vacib işi çıxdığını hələ axşamdan demişdi. Odur ki, bir saat gözləməli oldum. Sonra dərsə ikinci növbədə gedəcək oğlundan dükanın yerini soruşub evdən çıxdım.

–Bəlkə aparıb göstərim? – təklif eləsə də:

–Lazım deyil, özüm taparam. – deyib getdim.

Onun, doğrudan da işi çox idi, bir saata yekunlaşdıra bilməmişdi. Nə isə hesabat aparır, xırda tacir dostlarına mal buraxırdı.

–Dayı, – o, mənə dayı deyə müraciət edərdi, – sən Allah, incimə! Bu tacirləri başa salmaq çətin məsələdir, gərək bir batman beçə balıynan xar tut doşabı qarışdırıb yeyəsən, sonra gəlib bunlarla çənə döyəsən. Bilirlər ki, bu gün dayımın qırxıdı,

hüzrdə olmalıyam, amma bununla belə, yığışıb gəliblər. Həm nisyə götürdükləri malın pulun gətiriblər, həm də yeni mal götürməyə gəliblər. “Gərəkdirsə, yenə də pul verək, dayının hüzurunu yola ver” deyirlər. Bir az səbr elə, bunları başımdan cəhənnəm eliyim, gedax.

Mustafa ilə birlikdə Üçdibindəki yas mağarının qabağına çatanda camaatın çoxu çöldəydi.

–Deyəsən, məclisə indi gəliblər. – Astadan səsləndim.

–Yox. İndiyə kimi bir havır “Quran” oxunub, çay içilib. Tam vaxtında gəlmişik, indi məzarıstana getməyə hazırlaşırlar. Bizdə qayda belədi. Günorta namazından sonra ehsan veriləcək. Ona qədər gedib məzarıstanı, dayımın qəbrini ziyarət edib qayıtmalıyıq.

Maşından düşüb camaata qoşulduq. Mustafa bir-iki nəfərlə əl tutub görüşdü, mən də… Burda kimi tanıyırdım ki… Bir dəfə gəlmişdim, o da lap çoxdan. Məhərrəmin ana qohumlarından kimi görmüşdümsə də indi adları da, sifətləri də yadımdan çıxmışdı.

Molla qabaqda, camaat da arxasınca qəbiristanlığa yol aldıq. Girişdə o, dayandı və ucadan salavat çevirdi.

–Cəmi qəbiristanlıq əhlinə bir salavat çevirək!

–Allah rəhmət eləsin, yerləri behiştlik olsun! – Molla ilə bərabər salavat çevirdikdən sonra yerbəyerdən səsləndilər. – Amin!

Sonra mollanın arxasınca qəbiristanlığa daxil olduq. Qəbirlər, xüsusən də başdaşılar mənə öz ölkəmizdəki lap köhnə qəbirləri

xatırlatdı. Bizdə də nemes müharibəsinə qədər qəbirlərə alçaq başdaşı qoyar, şəkil vurulmazdı. Ərəb hərfləri ilə mərhumun adını, soyadını yazardılar, hətta təvəllüdünü miladi ilə deyil, ya hicri-qəməri, ya da şəmsi-qəməri tarixi ilə göstərərdilər. Bu yazılardan nə orda mənə bir şey aydın olmuşdu, nə də bu qəbirlərin başdaşlarındakı yazılardan bir şey anladım.

Birdən gözüm təzə qəbrin uca başdaşına sataşdı. Təzə qəbir bir az aralıda salınmışdı. Qara paltarlı adamlar həmin qəbiri dövrələməyə başladılar. Havanın buludlu olmasına baxmayaraq qəbirin başdaşındakı şəkil gözümü qamaşdırırdı, sanki günəşin şüaları güzgüdən əks olunurdu. Gözlərimi qıyıb baxdım, anlamadım. Gözlərimi yumub açdım, başımı silkələdim… Ola bilməzdi… İlahi, bu nəydi gözlərimi qamaşdıran?

Bu qəbir niyə o biri qəbirlərdən aralıdaydı, təkdi, tənhaydı? Qərib idimi? Hələ bir buna bax! Başdaşındakı şəkilə bax! Başqa qəbirlərin başdaşlarına şəkil vurulmayıb axı… Bəs bu kimin şəklidir? Bu ki, mənəm. Bu ki, mənim şəklimdi. Güzgüdəmi baxıram özümə? Yox, yox, bu güzgü deyil, başdaşındakı şəkildir. Mənim şəklimi niyə başdaşına vurublar? Qara paltarlı adamlar niyə məni dövrəyə alıblar. Məgər mən ölmüşəm?

“Ay camaat, mən ölməmişəm, mən sağam. Burda…ayam!” – qışqırmaq, haray-həşir qoparmaq istədimsə də, səsim çıxmadı. Qollarımdan bərk-bərk tutmuşdular, nə qədər çabaladımsa da əllərindən çıxa bilmədim, az qalırdı ürəyim partlasın. Sanki qəbirdən xortdayıb çıxacağıma, qaçıb hər tərəfi bir-birinə qatacağımdan qorxurdular.

Yaxşı, bəs səsim niyə çıxmırdı, ağzımı ki, tutmamışdılar…

“Məən… mən ölməmişəm… sağam… burdayam…” – bir də qışqırmaq, buradakı adamlara özümü göstərmək istədim, cəhd etdimsə də yenə heç nə alınmadı. Eləcə ışqıra-ışqıra qaldım, sakitləşdim, süstləşdim, bir tikə kəsilmiş ət parçasına döndüm.

Adamlar öz işlərindəydi, qəbri dövrəyə almışdılar, kimsə yerdən balaca daş götürüb mənim şəklim vurulmuş, özü də mənə baxan başdaşını döyəcləyir, nə isə deyir, ağlaşırdılar. Molla nə isə oxuyur, əllərini üzünə çəkir, xorla onun dediklərini təkrarlayırdılar.

Yavaş-yavaş sakitləşdim, özümə gəldim. “Yaxşı, bəs mən nə vaxt öldüm ki, xəbərim olmadı? Mən axı müharibədəydim, ermənilərlə vuruşurdum, vətənimizi, torpaqlarımızı, min illər boyu məskən salıb yaşamış, ölmüş əcdadlarımızın qəbirlərini, bizə miras qoyduqları yurd yerlərini qoruyurdum.

Bəs necə oldu öldüm?

Mən axı ölməməliydim!

Mən axı söz vermişdim.

Müharibəyə yollananda generala söz vermişdim ki, ölməyəcəyəm. Atamı, yaxınlarımı arxayın etmişdim ki, ölməyəcəyəm. Atəş səslərinin tüğyan etdiyi zamanda ilk övladımı dünyaya gətirənə, sonralar elə övladlarıma da söz vermişdim ki, müharibədə ölməyəcəyəm. Söz vermişdimsə, deməli, ölməməliydim. Ölə bilməzdim.

Bəs bu necə oldu? Yox, bu ola bilməz, mən ölməmişəm!

–Dayı! – Mustafa astadan qolumu tərpətdi. – Sizdə

qəbiristanlığa getmirlər?

–Niyə soruşdun, bacıoğlu? – Lap astadan dilləndim və hiss etdim ki, səsim gəlir, batmayıb.

–Heeç… elə-belə soruşdum.

–Mənə noolmuşdu? – Onun mənə çox qəribə və təşvişlə baxmasından səbəbini öyrənmək üçün astadan pıçıldadım.

Çiyinlərini çəkib gülümsədi.

Qəbiristanlıqdan çıxan izdihama qoşulduq. Ürəyimdən keçsə də qəbirə yaxınlaşa bilmədim. İndi hamıdan geridə qalmaq, başdaşına öz şəklim vurulmuş qəbirə yaxınlaşmaq, elə baxmaq istərdim ki… Məhərrəm əmimin qəbrinin başdaşını qucaqlayıb hönkür-hönkür ağlamaq, uzun illərdən bəri yığılıb qalmış nigilimi mənə doğma olan adamın sığındığı torpağa boşaltmaq, yüngülləşmək keçirdi ürəyimdən. Özümü çox ağır hiss edirdim, elə bil dünyanın yükünü çiyinlərimə yükləmişdilər, çəkə bilmirdim, yeridikcə ayaqlarım torpağa batırdı.

Mustafanın arxasınca ağır-ağır addımlayırdım.

Çadırın önündə dövrə vurub toplandılar. Ovuclara gülab suyu səpildi. Molla nə isə oxuduqdan sonra çadıra doluşduq. Uzunluğu hardasa iyirmi metrə yaxın olan çadırın baş tərəfindəki şəkil içəri girən kimi bərq vurub gözümü qamaşdırdı. Başım gicəlləndi.

Bu nədir, yenəmi məni qaramat basır?

Özümü cəmləşdirib Mustafaya nəsə demək istədimsə də deyə bilmədim. Çənəm əsməyə başladı, qəhər məni boğurdu, bilmirdim Məhərrəm əminin ölümünə heyfslənirəm, yoxsa…

Addım-addım çadırın ortasına tərəf getdim, boş yerlərdən birinə sığınıb oturdum. İndi divardakı şəkili aydınca görürdüm – həmin şəkil idi, bizim Babək qalasında çəkdirdiyimiz şəkil. Maraqlıdır, Məhərrəm əmimin bundan başqa şəkili yoxdurmu? Onun heç pasport şəkili də olmayıb? Yaxşı, bəs onda bu şəkildə niyə onun şəkilini ayırıb böyütməyiblər?

Özümü sorğuya tutdum, sual yağışına qərq etdim, deyəsən canım islanır, yavaş-yavaş özümə gəlirdim.

–Camaat! – Molla danışmağa başladı. – Hər insanın axirətə yollanmazdan qabaq bir vəsiyyəti olur. Bu vəsiyyəti o, özü demir, mələklər dedirdirlər. Rəhmətlik Məhərrəm özünü burada qərib sayırdı, deyirdi ki, əsl vətənimiz Arazın o tayıdır. Deyirdi, əvvəlcə orda qohum-əqrəbamız yaşasa da, ortada tikanlı məftil olduğundan gedə bilmirdik, sonra tikanlı məftilləri qırıb dağıtsalar da erməni gəlib işğal elədi, bizə gözdağı çəkdi. Bu necə vətəndə yaşamaqdır, adam da öz vətənində qərib olar? Bu vəsiyyətinə də əməl edib bir az aralıda basırdıq, qərib kimi… Bir də vəsiyyət etdi ki, bax, bu başımızın üstündə gördüyünüz şəkili böyüdüb həm mağara, həm də qəbrinin başdaşına vuraq.

Həyəcanım yavaş-yavaş azalırdı, deyəsən qabağıma çay qoydular. Stəkanı götürüb dodaqlarıma yaxınlaşdırdım, isti çay canıma ılıq məlhəm yaydı.

–Düzdür, bizdə qəbirin başdaşına şəkil vurulmur. İslamda bu barədə heç bir qadağa da yoxdur, yəni vurmaq da olar, vurmamaq da. Amma rəhmətlik Məhərrəm deyirdi ki, atası Hüseyxan kişinin yarısı o tayda qalıb. Özü cismən bu tayda

yaşasa da ruhu o taydaydı. Elə Məhərrəmin bu şəkli də rəhmətliyin o tayda yaşayan qohumları ilə birlikdə çəkdirdiyi yeganə şəkildir. Məhərrəm deyirdi ki, bizi heç olmasa şəkildə ayırmayın, qoyun birlikdə olaq.

Molla çayından bir qurtum içdi.

–Yaxşı adam idi Məhərrəm, əlindən mərdimazarlıq gəlməzdi. Onun gül camalına bir salavat çevirək.

Əllər sifətlərə çəkildi.

–Yeri behiştlik olsun! – Molla ucadan səsləndi.

–Amin! – Yerbəyerdən səsləndilər.

Gözüm şəkildə qalmışdı, bilmirdim şəkildəki Məhərrəmdi, yoxsa özüməm…

Məclisə ehsan gələndə siqaret çəkmək üçün çadırdan çıxdım.

Yarım saatdan sonra Mustafa qolumdan tutanda ayıldım. Məhərrəm əmimin qəbrinin başdaşını qucaqlayıb ürəyimi boşaltmışdım.

Qaradinməz Məhərrəm əmimlə o ki, var dərdləşdim.

Şərəfnisə qocamla da söhbətləşdim, yaman qəribsəmişdim.

Üzünü görmədiyim Hüseyxan baba da burdaymış, onunla da danışıb xeyli yüngülləşdim.

Sən demə, hamısı burdaymış, aralarında bir mən yox idim, o da öz ayağımla gəlmişdim.

Mustafa qolumdan tutub dartırdı, amma heç getmək istəmirdim…

…bir neçə addımdan sonra dönüb baxdım, başdaşındakı şəklim də elə baxırdı ki… elə bil məni ilk dəfəydi görürdü…

# Qurd Ağzı

“Gözlənilməz hallarda səbr etmək çarəsizlikdən yaxşıdır”. El deyimi

Ucqar bir dağ kəndində yaşayırdım. Kəndimiz iyirmi bir evdən ibarət idi. Çox mehriban dolanırdıq, daha doğrusu, o vaxtlar mehribançılığın nə və necə olduğunu bir o qədər də dərindən dərk etmirdik, yəni mehribançılığı elə o vaxtkı ölçülərə görə qiymətləndirirdik. Həm uşaqlıq, yeniyetməlik çağlarımız idi, qayğısız və şən böyüyürdük, mehribançılığı bundan artıq dərk etmək qabiliyyətində deyildik, həm də hər bir ailə öz fərdi təsərrüfat işləri ilə məşğul olurdu. Birinin başqasına işi düşmürdü ki, görsün münasibəti necə olacaq. Işi düşəndə də ya deyəcəkdi, gəl, heyvan növbəsini dəyişək, ya da su növbəsini ver mənə.

Kəndin əsas qayğılarından biri mal-heyvan növbəsi idi. Nə vaxtsa kişilər bir yerə toplaşıb belə bir növbə müəyyənləşdirmişdilər. Ballı qarı inək saxlamırdı deyə onu mal növbəsinə daxil etməmişdilər. İnək saxlamırdı deyəndə, bəlkə də bir az düz gəlmir. Kənddə yaşayasan, özü də inək saxlamayasan, kənd adamının işinin, gücünün adı nədir ki, inək saxlamasın? Sadəcə, Ballı arvad oturaq xəstəydi, inəyə baxa bilməzdi, qızı çolaq Qızyetər də bir əlilə inəyi necə sağacaqdı? Ancaq ki, qoyunları birtəhər rahlayırdı.

Beləliklə, növbəlik iribuynuzlu mal-qara üzrə 20, kiçik davar, yəni heyvan üzrə 21 gündən bir dövrə edirdi. Heyvan növbəsini

kəndin aşağısındakı evdən – Alməmməd kişidən, mal növbəsini kəndin yuxarı başındakı evdən – Nəriman kişidən başlamışdılar.

Bizim ev kəndin aşağı məhəlləsində, həm də ortada yerləşirdi. Heyvan növbəsi İlahi, Səlim, Qurban, Mikayıl, Nağı, mal növbəsi isə Nağı, Mikayıl, Qurban, Səlim, İlahi ardıcıllığı ilə fırlanırdı. Uzun müddət dövr etdiyindən bəzən növbələr toqquşurdu, yəni bir adamın hər iki növbəsi eyni gündə düşürdü. Onda qonşular öz aralarında müəyyən razılığa gəlirdilər ki, növbələri ötüşdürsünlər. Bəzən də hər kəsin öz vacib işləri olurdu deyə qonşusunun növbə kəsişməsin ötüşdürmürdü, ötüşdürə bilmirdi. Heyvan növbəsi ağır hesab olduğundan evin kişisi heyvan növbəsinə, qadını isə uşaqlarından biri ilə mal növbəsinə yollanırdı. Ya da iki yeniyetmə oğlan uşağı birlikdə naxırı haraylayıb örüşə, otarmağa aparırdılar.

Yaxşı yadımdadır, yayın birinci ayı idi, məktəbdən tətilə buraxılmışdıq. Əvvəlcədən hesablamışdıq, nədənsə həmin vaxt hər iki növbə bizdə kəsişirdi. Hamının başı ot biçininə qarışdığından növbələri heç kimlə dəyişdirə bilmədik. Onda mən yeddinci sinifdə oxuyurdum. Dədəm (atama “dədə” deyə müraciət edirdik) işdə olduğundan məndən üç yaş balaca qardaşımla heyvan növbəsinə biz gedəsi olduq. Naxırı isə nənəm (anaya da “nənə” deyirdik) dərə aşağı, nisbətən rahat örüşə hayladı. Kənddə iş yeri olmadığından kişilər Qafana, Qacarana, Mehriyə, Qərçivana, Ordubada gedirdilər. Yaxşı halda həftədə bir dəfə gəlib evə dəyirdilər. Elə də olurdu ki, ayda bir dəfə, o da maaş alandan alana gəlib dəyir, elə gecə ilə də qayıdıb qatarla

gedirdilər. Kənddə maaş almaqla dolanmaq olmurdu, təsərrüfat saxlamaq üçün isə çətin illər idi.

Qardaşımla mən heyvan sürüsünü kəndin qənşərindəki Şah bərəsi yuxarı, hər yerdə yalın sol tərəfi ilə otara-otara günortanı Rəsul çeşməsinə mağala yığdıq. Günortadan sonra da yenə apardığımız örüşlə otara-otara geriyə qaytardıq. Çünki Şütürü dərəsi, Mizard, İmanqulu yurdu, Sağaltop, Sürtün və digər ərazilər zəmi yerləri sayılırdı, yəni biçənək idi və hələ biçilib yığışdırılmamışdı ki, sürünü oralarda otarmaq mümkün olsun.

Əlqərəz, heyvan kənddə qapılara dağılışandan, əl-ayaq çəkiləndən sonra "şaq-şaq Fatı" nın vay-şivəni aşağı məhəlləni bürüdü. Danışanda pulemyot kimi şaqqıldayırdı, elə bil dəyirmandır, üyüdüb tökür. Çörək yeyəndə yanında oturmaq olmurdu, çənəsi elə şaqqıldayırdı ki, deyirdin bəs, hacıleylək başının üstündə dimdiklərini bir-birinə vurur. Ona görə də üzünə deməsələr belə, daldada hamı onu "şaq-şaq Fatı" adlandırırdı.

"Şaq-şaq" başladı, nə başladı. Üzünü çəpərdən üzü bizə tərəf tutub hay saldı ki, bəs erkəyimi itirmisiniz. Bərk narahat olmağa başladıq. İnsafən, növbə rahat keçmişdi, sürü bizə korluq verməmişdi. Qabağımıza canavar yox, heç çaqqaldan, tülküdən də çıxan olmamışdı. Heyvan heç hürkməmişdi də, deyək ki, ilan çalıb, harda isə kola ilişib, yıxılıb, biz görməmişik.

Nənəm bərk hirsləndi, bir partiya dədəmin qarasına deyindi. Sonra da bizi qınadı ki, otara bilməyəcəydiniz, getməzdiniz, siz malı aparıb hərləyərdiniz, mən özüm heyvanı otarmağa apparardım. Nənəm dediyini edən arvadlardandı, kişi kimi

qadındı. Heyvan növbəsi onun üçün nə ağır iş idi? Odur ki, "işi" yarıtmadığımıza görə hirslənib özündən çıxmışdı.

Bu hələ başlanğıc idi, nənəmin hirsi-hikkəsi hələ qabaqdaydı. Gözləyirdi ki, birimiz dillənib nə isə deyək, yəni onun sözün qaytaraq sonra qızışsın, arvad əməlli-başlı hirs dağarcığıydı. Dinmirdim ki, onu özündən çıxartmayım, çünki axırıncı dəfə nənəm məni altıncı sinifdə oxuyanda döymüşdü. Döymək deyəndə bir tərs sillə vurmuşdu, arvadın əli ağırdı, sillənin yeri bir saat göynəyəcəkdi, bəlkə barmaqlarının yeri göyərəcəkdi. Sonra da qucaqlayaraq: "daha yekə kişisən, bundan sonra səni döymək yaramaz" deyib hönkür-hönkür ağlamışdı.

Nənəm hikkəli qadındı, həm də çox qürurluydu. İstəmirdim, bir söz deyib onu qıcıqlandıram. Ancaq nənəm dözə bilmir, hər dəfə "şaq-şaq Fatı" nın səsini eşidən kimi yenidən coşurdu, nə onun cavabını verə bilirdi, nə də biz dinmədiyimizdən, bizə bir söz deyirdi. Birdən qayıtdı ki, erkək tapılmasa, ətinizi şişə taxacam. Birinci dəfəydi belə hədə-qorxu eşidirdim.

Həmin axşam dilxorçuluğumuzdan nə yediyimiz bilindi, nə içdiyimiz. Gecəni birtəhər keçirtdik. Tezdən obaşdan məni durquzdular ki, dur, get erkəyi tap. Dayım Səlimin arvadı Təzəgül dostumun yazığı gəlmişdi, oğlu Fazili də mənə qoşdu. Qardaşım Şakir isə südəmər quzuları, çəpişləri otaracaqdı.

Hər yerdə heyvanı apardığımız çəhlimlərlə getdik axtarmağa. Heç bir yerdə nə qoyun tükü, nə də sümüyü qarşımıza çıxdı. Mizardın bəri başında oturub nəfəsimizi dərdik, bir az dincəldik. Elə orada heybəmizdəki çörəyi çıxardıb yedik, yəni atüstü

"nahar" elədik. Sonra yalın beli ilə geriyə addımladıq.

Dəfələrlə ovçulardan eşitmişdim, canavarlar, adətən yalın belində marığa yatar, şikarının hərəkətini izləyərdilər. Xüsusən də yanında çobanı olan kəndin mal-heyvanını belə güdərdilər. Elə ki, şəvinik düşürdü, çatdırıb vaxtında kəndə qayıda bilməyən mal-heyvanın başının üstünü kəsir, ovlayırdılar. Odur ki, yalların belini üzü Abuseyid dərəsinə, Sarı güneyə, Qaşqa kolavata, Sağaltopa, Fındıqlı çeşməyə tərəfə qayıdaraq güman gələn və gəlməyən hər yeri axtardıq. Axşama yaxın yorulub əldən düşmüş, üzgün halda özümüzü kəndə çatdırdıq. Fatı arvad boş qayıtdığımızı görsə də bizə tərəf gəlmədi, eləcə çəpərin o tərəfindən səsini başına atdı:

–Sizə deyirəm, mənim erkəyimi tapın, verin. Canavar yeyibsə ölüsünü, yeməyibsə dirisini tapın, göstərin. Yoxsa yaxanızdan əlimi çəkən deyiləm.

Elə yorulmuşdum ki, cavab verəsi halda deyildim. Heç kimə məhəl qoymadan evə gəldim. Bacımın stola düzdüklərindən bir az yedim, üstündən də bir çay içib yatmağa getdim. Gecəni daş kimi yatdım, dünyadan xəbərim olmadı. Tezdən obaşdan nənəm yenə də məni dümsüklədi.

–Dur, get Fatının erkəyini axtarmağa. Tapılmasa, əl çəkən deyil, oturub, durub zəhləmizi tökəcək. Bir toyda deyəcək, beş dəfə də vayda.

Sözü çevirə bilməzdim. Bizi belə tərbiyə etmişdilər. Düz on gün də dalbadal göndərsəydilər, getməliydim.

Bu dəfə Şütürü dərəsi yuxarı getdim. Dedim, bəlkə Fatının

erkəyi biçənəklərin yaşıl otuna allanıb, yenib dərəyə. İmanqulu yurduna qədər gedib çıxdım, Taxtalardan yuxarı hələ heyvan ayağı dəyməmişdi. Mizarda qalxdım. Durbinlə Alçalı yurdunu, Böyük Zəmini, Təkə daşını, Ulabı; o həndəvərlərdə güman gələn hər yeri gözdən keçirdim. Gözümə nəinki Fatının erkəyi, nə bir cüyür, nə bir dağ keçisi, nə bir canavar, ümumiyyətlə, heç bir çöl heyvanı dəymədi. Yenə də heybəmdə olan çörəyi yeyib geri qayıdası oldum. Bu dəfə güney tərəfi; Əyri dərəni, Ağdaştöküləni, Minaqızöləni, Qaradaşlığı, Qırmızıtili ələk-fələk elədimsə də bir şey tapa bilmədim. Fatının erkəyi yağlı əppək olub göyə çəkilmişdi.

Evə çatanda Fatı arvad çəpərdən göründü, elə bil məni güdürmüş, geri qayıtmağımı gözləyirmiş.

–Gedib Oruc dərəsindən cic eliyib qayıdırlar bəri, elə bilirlər xəbərim yoxdur. Adın da qoyurlar erkəyi axtarmağa gedirik. Mənim erkəyimi axtarın, tapın. Yoxsa, yaxanızdan əl çəksəm şümrünün qızıyam.

–Yaxşı da, bəsdir uşaqları bağırdalaq elədin. Qoy, dədələri işdən gəlsin, gəl hansı erkəyi aparırsan, qat qabağına apar. – Axır ki, nənəm dilləndi, yoxsa şaq-şaq Fatı hələ çox baş aparacaqdı.

–Mənə sizin erkək lazım deyil. Mən öz erkəyimi istəyirəm. Mənim erkəyim erkək yox e.., öəc idi, düz beş ildir bəsləyirdim, oğlumun toyuna kəsəcəkdim.

Axşam çörək yeyəndən sonra nənəm xəbər aldı ki, sabah axtarmağa getməyə heyim qalıb, ya yox. Şaq-şaq Fatının atmacası, deyəsən, onu da almışdı, guya, mən gedib Oruc

dərəsində gizlənib, axşam düşəndə geri qayıdıram. Düzdür, nənəm ona yox, mənə inanırdı, bilirdi ki, mən heç vaxt belə hərəkət etmərəm. Ya axtarmağa getməzdim, deyərdim ki, yorulmuşam, ya da gedirdimsə, gümanım gələn hər yeri axtarmalıydım. Odur ki, nənəmin sorğusuna sözlə cavab vermədim, eləcə başımı bulayıb "yox" işarəsi verdim.

–Onda dur get, Nağı kişiyə de, qurdun ağzın açsın.

Yadıma düşdü ki, erkək itən gecəsi Nağı kişiyə qurd ağzı bağlatmışdıq.

Gümrahlığına baxmayaraq, yaşı altmışı keçmiş olsa da yaşından daha yaşlı görünən Nağı kişi kəndin "qurd ağzı bağlayanı" idi. Birinin itiyi itən kimi axtarmağa Nağı kişinin evindən, qurdun ağzın bağlatdırmaqla başlayardılar. Elə ki, Nağı kişi, bir vaxtlar Tehranda ruhani təhsili almış, köhnə fars əlifbasını bilən, bölgədə yeganə savadlı adam olan Əli əmisindən öyrəndiyi "qurd ağzı bağlamaq" duasını tiyəsi qara şəfdən olan qövsvari bıçağına oxudu və bıçağı yarıyadək qatlayıb taxçaya qoydu, o dəqiqə itik sahibinin yönbəri düşürdü yerinə. Ayın-arxayın durub gedirdi itiyini axtarmağa, bəzən də heç getmirdi. Evinə gedib səhərin açılmasını gözləyirdi. Itiyi ya gecəyarıya yaxın özü gəlirdi, ya da səhər açılanda gedib dərələrin birində sağ-salamat tapırdılar. Bizim də başımıza belə bir hadisə gəlmişdi. Payız axşamlarının birində boz eşşəyimiz örüşdən qayıtmamışdı. Eşşək neyləsin, güneydə ot az, payız günü də kasıbın dili kimi gödək, ha yeyir ki, qarın dolsun, dolmur. Yığdığımız otu da ancaq inəyə, qoyun-keçiyə yedizdirərdik, özü

də eşşəyin gözünün qabağında, eşşək də qalırdı baxa-baxa.

Qaranlıq düşənə kimi güney tayı Kaha dərəsi, Hava dərəsi boyunca xırman yerinədək axtardım, tapa bilmədim. Qayıdıb Nağı kişiyə dedim ki, eşşəyimiz itib, qurdun ağzın bağla, yeməsin. O da harda itdiyin soruşdu. Öyrənəndən sonra durub getdi əlini sabunlayıb yudu, sərhədçilərdən aldığı ağappaq dəsmalla quruladı. Sonra gəlib həmin bıçağını taxçadan götürdü və duasını oxuyub Kaha dərəsi, Hava dərəsi boyunca “qurdun ağzın bağladı”.

Səhər sübh tezdən nənəmlə ikimiz eşşəyi axtarmağa getdik. Aşağıları axtarmışdım deyə birbaşa Kaha dərəsi yuxarı getdik. Bürünc daşının dibinə yüz əlli-iki yüz metr qalmış kəmərəliklər başlayırdı, kəmərəliyin birinin ətəyində nənəmin gözü nəyi isə aldı.

–Bala, mənim gözüm alacalanır. Sən yaxşı bax, gör, orda nə görürsən? – deyə məndən soruşdu.

Orda nə vardısa nənəm məndən əvvəl görmüşdü, onun gözlərinin itiliyinə söz ola bilməzdi. Görünür gördüyünü dəqiqləşdirmək istəyirdi, odur ki, mənim də həmin yerə baxıb nə gördüyümü eşitmək istəyirdi. Diqqətlə baxdım və gördüm ki, orda nədirsə iki-üç tərpənti var. Alatoranlıqdı deyə, itdi, çaqqaldı, canavardı, inəkdi, eşşəkdi, nədisə ayırd edə bilmədim, çünki aramızdakı məsafə çoxdu. Dedim:

–Hə, nənə, orda nə isə var, ancaq ayırd edə bilmirəm nədi.

Yerişimizi yeyinlətdik, amma yoxuşu getmək çox çətindi. Hardasa on-on beş dəqiqə getdikdən sonra kəmərəliyin dibinə

yaxınlaşdıq. Hava da xeyli işıqlaşmışdı, hər yer apaydın görünürdü.

–İndi necə, görürsənmi? – Nənəm məndən bir də soruşdu.

–Görürəm. – Tam ayırd edə bilməsəm də cavab verdim.

Bir də diqqətlə baxdıqda arxasını kəmərəliyin daşına söykəyən eşşəyimizi gördüm. Boz eşşək qabaq ayaqlarını gen qoyaraq başını aşağı əyib qulaqlarını şəkləmişdi. Ağəmmədin iti Toplan boyda iki çaqqal eşşəyin qabağında sağa-sola tullanırdılar.

–Ay iit! Ay it, tuuut! Alabaş heeyy! Toplan heey! Bozdar heeyyy!

Nənəm qışqırıb haray-həşir salmağa başladı, mən də onun səsinə səs verdim. Çaqqallar bizim səsimizə qaçıb aradan çıxdılar. Biz yaxınlaşana kimi eşşək yerindən tərpənmədi, üstündə bircə diş yarası da yoxdu. Nağı kişi ağızlarını necə bağlamışdısa çaqqallar eşşəyi dişləyə bilməmişdilər.

–Yəqin təzəcə tapıblarmış ki, biz gəlib çıxdıq. – Nənəm handan-hana dilləndi və əlindəki çubuqla eşşəyi o ki, var çırpdı.

…Nağı kişinin qurd ağzı bağlamasına bütün kənd əhli inanırdı. O, ki, qurdun ağzın bağladı, həmin gecə qurd itən heyvanı parçalaya bilməzdi. Odur ki, nənəmin sözü ilə Nağı kişinin yanına getdim. O, əvvəlcə məndən heyvanı haralarda otardığımızı bir də soruşdu. Haralardan keçdiyimizi bitdə-bitdə danışdım. Sonra haraları və necə axtardığımı, havada qarğa-quzğunun dolaşıb-dolaşmadığını xəbər aldı. Onu da danışdım. Mizardı, Böyük Zəmini, Təkə daşını da durbinlə müşahidə

etdiyimi söyləyəndə saxladı. Dedi:

–Day bəsdir. Erkək belə tezliklə basıb oralara gedə bilməz. Ya canavar yalquzaq olub, erkəyi boynuna qaldırıb çox uzağa aparıb, ya da şaq-şaq Fatı yalan danışır, erkək sizin nobatda itməyib.

Nağı kişinin dediklərin arvadı Fəryad da eşitdi.

–Ə kiri! – deyə ona çəmkirdi. – Söz sənnən çıxmasın, gedib Fatının qulağına çatar, ayıbdır. Sən öz işini gör.

Nağı kişi başını bulaya-bulaya durub taxçaya yaxınlaşdı. O, həmişəki odun tiyəli əyri bıçağını götürmək istəyəndə dayandı, elə bil hansısa qüvvə onu saxladı, geriyə qanrılıb mənə baxdı. Sanki mənim nə deyəcəyimi gözləyirdi, nənəmin sifarişini yox.

–Bəlkə bu gün açmayasınız? – Özümdən asılı olmayaraq tir-tir əsirdim, elə bil qurd bu gecə Fatının erkəyini yox, məni parçalayacaqdı, kim nə deyir desin, canavar vahiməli heyvandır, onu görən yox, adını eşidənlər belə qorxu hissi keçirirlər.

–Qurbanın oğlu, məni bərkə salırsan haa… Onda… mən günaha batmış oluram. Qurd da Allahın yaratdığıdı. O da bir şey tapıb yeməlidir, ya yox? İki gündür ki, onu ac saxlayıram. – Nağı kişi dodağının altında mızıldana-mızıldana bunları dedi, mənim titrəməm isə kəsmək bilmirdi.

–Nağı dayı, qurd canlı olar, deyiblər. – Axır ki, özümdə cəsarət tapıb dedim. – Üç gün ac qalmaqla acından ölməz. Sən bircə gün də səbr elə, mən sabah Fatının erkəyini yerə batmış olsa da tapıb gətirəcəyəm. – İndi də yaman diri-diri danışdım, elə bil öz əlimlə qoymuşdum, gedib gətirəcəkdim. Özümə bir arxayınçılıq gəlmişdi.

–Yaxşı, nə deyirəm ki, qoy, sən deyən olsun. Ancaq günahı sənin boynuna.

–Kaftar kişidir, utanmır, günahı uşağın boynuna yazdırır. – Fəryad xala yenə ərinin abrını ətəyinə bükdü.

Evə qayıtdım, yaxşı ki, nənəm qabağıma çıxıb heç nə soruşmadı. Yavaşca gedib yerimə girdim.

Səhər sübh tezdən yuxudan oyandım. Heç kim bilməsin deyə sakitcə paltarımı geyinib çıxmaq istəyirdim ki, nənəm qabağımı kəsdi.

–Obaşdan hara gedirsən? Çay içib çörək də yeməmisən.

–Hara var, hara gedəm? Gedirəm Fatının erkəyini axtarmağa.

–Qardaşın Şakir xəstələnib, xoruzəng olub. Sən gedirsən, bəs quzuları kim otaracaq? Bir erkəkdi, itib itib də. Dədən gələr, əvəzinə başqasını verər. Çörəyini ye, quzuları ac, apar otarmağa.

Tələsik çörəyimi yeyib həyətə düşdüm. Hələ heyvan örüşə açılmamışdı. Tez quzuları açıb Kaha dərəsi yuxarı apardım.

Bölgədə iki əzəmətli qayadan biri sayılan Bürünc qayası kəndin yuxarısında, iki kilometrliyində yerləşirdi. Kaha dərəsi də daxil olmaqla Tapan, Arxac, Yaz yurdu, Qumluyal, Hava, Qırmızıtil, Qaradaşlıq dərələri başlanğıcını Bürünc qayasının dibindən alır və quru dərə hesab olunurdular. Təkcə Kaha dərəsində sızqa çeşmə var idi. Havayı gəlməsin, həmin çeşmənin suyu ilə güney tayda yerləşən on bir ev bostan saxlayırdı.

Bürünc daşının başından kəndin bütün ərazisi; biçənəkləri, örüş yerləri, meşələri, çuxurları, dərələri ovuc içi kimi görünürdü. Məqsədim gün qızanadək Bürünc daşının zirvəsinə

qalxıb ətrafı seyr etmək idi. Harda bir canlı tərpənsəydi, görünəcəkdi. Bir neçə dəfə Bürünc daşının zirvəsinə çıxmışdım. Yalan olmasın, çox uzaq məsafələrdə hərəkət edən kiçik canlıları seçmək olurdu. Zəmi yerində koramalın hərəkətini özüm müşahidə etmişdim. Çalağanlar, qartallar, quzğunlar oradan qıy vurub səmaya qalxır, şikarın dalınca gedirdilər.

Quzuları otara-otara yolun yarısınadək gedib çıxdım. Körpələr çeşmənin gözündən doyunca su içəndən sonra üzüyuxarı getmək istəmədilər, dolaylandılar. Məcburən mən də səmtimi dəyişdim. Fikirləşdim ki, qayanın zirvəsinə çatıb çıxa bilmirəm, çünki quzuları tərgidib gedə bilməzdim. Həm də o tərəfləri axtarmışam, indi də kəndin güney tayı üzrə günçıxan və aşağı tərəflərini axtararam. Quzuları üzüdolayı otara-otara gəlib çıxdım Yuxarı Zişdi deyilən yerə. Buralar bir vaxtlar babamın biçənəyi olmuşdu. İndi də ot adama boy vermirdi. Mən quzuları qabağa buraxıb üzü yuxarı – Bürünc daşına baxırdım. Birdən quzular hürküb mənə tərəf qaçdılar. Onların nədən hürkdüyünü öyrənmək üçün qabağa getdim. Bir az getmişdim ki, qırx-əlli metrlikdə heyvan gördüm. Qoyun, ya erkək olduğunu ayırd etmək üçün yeyin addımlarla irəlilədim. Yaxınlaşanda gördüm ki, buynuzlu, kürən bir erkək, daha doğrusu, toğludur, başı keçib zinc ağaclarının arasına, buynuzları ilişdiyindən nə qabağa gedə bilməyib, nə də geri çəkilməyi bacarmayıb. İki, ya bəlkə də üç yaşı olardı. Ancaq ya yaxşı süd əmə bilməmişdi, ya da sava olmuşdu deyə şaqqalı deyildi. Hər halda yaxşı bəslənməmişdi, yoxsa üç gündü ac qalmışdı, nəydisə, gözümə çox balaca və arıq

göründü. Döl vaxtı da deyildi ki, belə arıq olsun. Odur ki, Fatının erkəyi olub-olmadığına qərar verə bilmədim, çünki o, beş illik erkəkdən, öəcdən dəm qılırdı.

Buynuzları çox iri olduğundan başı zinc ağaclarının arasına girmiş, qayıdıb çıxa bilməmişdi. Tapıntı erkəyin başını ehmalca yuxarı qaldırdım. Ağacın birini yana çəkməklə onu düşdüyü vəziyyətdən xilas etdim. Əvvəl-əvvəl hürkdü, sonra sanki o da quzulardan biriymiş kimi körpələrə qoşulub otlamağa başladı. Həyəcanlı olsam da kəndə qayıtmağa tələsmədim. Daha bir neçə saat quzuları otardım. Günortaya yaxın quzuları da götürüb kəndə qayıtdım. Kəndin qənşərinə çatanda qışqırdım ki, camaatın diqqətini çəkim.

–Ay camaat, heeyyy!.. Fatının… erkəyini tapmışam… heeyyy…

Bir neçə dəfə çağırandan sonra adamların təndirin yanına toplaşdığını gördüm, Kaha dərəsinə gedən yol təndirin yanından başlanıb çəpərlərin arası ilə üzüyuxarı uzanırdı. Məhlüqa, Mələk, Nağı, Fəryad, Fatan, Telli, Fatı, Gülqız; nə bilim, onadək adam təndirin yanına toplaşdı ki, Fatının erkəyinə baxsın, hər halda, mənə belə gəldi.

–Aaz, Fatı, budumu sənin erkəyin? – Quzular onların bərabərinə çatar-çatmaz Nağı kişi arıq toğlunu göstərib soruşdu.

–Həə, çər dəysin buna, neçə gündür yazıq uşaqları bağırdalaq eliyib, xalxınan da üz-göz olmuşuq.

İstədim deyəm ki, ay Fatı xala, bəs deyirdin beş illik erkəkdir, bəslənmədə saxlanılan öəcdir, amma özümü saxladım,

heç nə demədim, heyvan göz qabağında idi. Fatı arvad erkəyin boynundan tutub aparmaq istəyirdi ki, Nağı kişi bir də dilləndi:

–Nə hə, aaz? Qurbanın oğlu heyvanı Şütürü dərəsi yuxarı aparıb, ordan da geriyə qaytarıb. Sənin erkəyin də Yuxarı Zişdidə tapılır. Bunu necə başa düşək?

–Hə də. Yəqin axşam heyvan gələndə uşaqlar hürküdüblər, erkək də qaçıb gedib bu tərəfə.

Mən məqamı yetişdiyini hiss edib erkəyi hansı vəziyyətdə tapdığımı yerli-yataqlı danışdım, buynuzlarının zinc ağaclarının arasına necə keçdiyini dedim.

–Yekə arvadsan, heyvanına diqqət elə də. – Nağı kişi Fatıya açıq-aşkar təpindi, Fəryad xala gözünü ağartsa da dayanmadı, sözünün dalını gətirdi. – Xəbərin olsun, sənin erkəyin itibsə də, Qurbanın nobatından bir gün qabaq itib.

–Fəxrəddin heyvan itirməz. – Anası Məhlüqa arvad eyhamı başa düşüb Nağı kişini qabaqladı.

–Erkək itibsə də Fəxrəddinin nobatında itib. – Nağı kişi bu dəfə qəti və daha kəskin dedi. – Heyvanı Güneydə, Yuxarı Zişdidə o, otarıb. Sən də düşmüsən Qurbanın uşaqlarının üstünə.

Bizdən bir gün qabaq Səlim kişinin növbəsiydi. Mikayılın oğlu Fəxrəddin növbəni onlarla dəyişə bilmişdi, bəlkə elə ona görə də mal və heyvan növbələri ikisi də bir gündə gəlib bizə çatmışdı. Ani olaraq hamısı duruxdular, bu fırtınadan qabaqkı sakitçiliyə bənzəyirdi, bir az da dursaydılar, yeni həngəma, Nağı, Fatı, Məhlüqa arasında dava qızışa bilərdi. Odur ki, sükutu pozmaq qərarına gəldim.

–Nağı dayı, indi get, qurdun ağzını aç, yazıqdır, qoy, gedib bir şey tapıb yesin, acından ölməsin. Günahı nə sənin, nə mənim üstümdə qalsın.

–Vay, dədəm vaayyy! – Fatı durdu, durdu, birdən erkəyi buraxıb dizlərini döyəcləməyə başladı. – Üç günün ac canavarı indi harda olsa tapıb sürünü parçalayacaq.

Fatı elə huy vurdu ki, elə bil üç günün ac canavarı sürüdəki qoyunları yox, qoyunları otaran çobanı yeyəcək. Kənddə əlinə dəhrə, yaba, dəyənək alan kim vardısa, "pəpə yeyəndən mama deyənə"dək hamısı Abuseyid dərəsi yuxarı götürüldü. Sən demə, bu gün heyvan nobatı Fatıgilin imiş, fərsiz oğlu asan olsun deyə sürünü Abuseyid dərəsi yuxarı otarmağa aparıbmış.

# Alış-veriş yardımçısı

Hərbiyyə nazirinin qərarı ilə Bədheybət poliqonunda təlim-tədris mərkəzi yaradılmışdı. Cəbhə bölgəsindən çağrılan zabitlər mərkəzdə təkmilləşdirmə kursu keçəcəkdi, daha doğrusu türk subayları onlara NATO taktiki təlim üsullarını öyrədəcəkdilər. Guya ki, Rusiyada ali hərbi təhsil almış zabitlərin biliyi erməni dığaları ilə döyüş aparmaq üçün yetərli deyildi. Başbilənlər belə məsləhət görmüşdülər. Bu münasibətlə Türkiyədən mütəxəssislər dəvət olunmuşdu. Onlar yeni sistemin öyrənilməsində yaxından köməklik göstərəcəkdilər.

Mərkəzin rəhbəri polkovnik Axundov idi. Ehtiyac ucbatından yetmiş yaşlı kişini yenidən hərbi xidmətə çağırmışdılar, daha etibarlısını tapa bilməmişdilər. Onun əsil adını əhatəsində olanlardan, bəlkə də, heç kim bilmirdi. Çox gənc yaşlarından “baba” ləqəbini qazanmışdı. Aram-aram, bir az da eyhamla danışırdı, bəziləri bunu astagəllik, bəziləri isə müdriklik əlaməti hesab edirdi. Elə zabit yoldaşları, tabeçiliyində olanlar da xəlvətdə “baba”, üzdə “baba dayı” deyə müraciət edirdilər. Zabit təkmilləşdirmə kursuna gələnlər elə bilirdilər ki, mərkəz rəhbərinin adı elə Babadır. Baba adı Türkiyədən gələnlərin də xoşuna gəlmişdi.

Türkiyədən beş nəfər gəlmişdi. Yarbay Mətin Çətin qərargah işlərinə rəhbərlik edəcəkdi. O, tabeçiliyində olan iki uzman çavuşu ilə mərkəzin bütün hərəkətlərini nəzarətdə saxlayacaqdı.

Uzman çavuşu Fikri Ocaqçı bilgisayarda zabitlərin dərsə davamiyyətini, məşğələlərdə qazandıqları puanlarını (ballarını, xallarını) toplayacaqdı ki, xüsusi şifrə altında saxlanılan məlumatlara heç kim müdaxilə edib dəyişdirə bilməsin. Digər uzman çavuşu onbaşı İsmayıl Yorğançı isə maliyyə, ərzaq, sursat məsrəfləri; bir sözlə lojistik hesablamalarını aparacaqdı. Beləliklə, mərkəzdə ağızdan içəri ötürüləndən kanalizasiya borusuna axıdılanadək hər şey nəzarətdə saxlanılacaqdı.

Tədris taborunun şərti komandiri minbaşı Fəhmin bəyin tabeçiliyində cəmi bir nəfər vardı, yüzbaşı Yıldırım Haqsız ki, o, kursa gələn zabitlərin bölüyünə rəhbərlik edəcək, onların sıra hazırlığını, NATO ordu nizamnaməsinin öyrənişini, günün rejiminə necə əməl olunmasını öyrədəcək və nəzarətdə saxlayacaqdı.

–Zabitlər qüvvətli və kalorili qidalanmalıdırlar. – deyə ilk görüşdə Fəhmin bəy mərkəz rəhbərinə təklif verdi. – Bəzi ərzaqları bazardan almalıyıq. Onları aslan kimi, qaplan kimi bəsləməliyik ki, Qarabağa, ermənilərin üstünə, quzu kimi mələyə-mələyə getməsinlər. Elə getsinlər ki, onların hayqırtısından ermənilər Zəngəzuru da, Göyçəni də buraxıb İrəvanadək qaçıb getsinlər.

Heç bir problem yox idi, əlavə ərzaq məhsulları almaq üçün pul da ayrılmışdı.

Polkovnik Axundov dünyagörmüş adamdı, pulla, ərzaq məhsulları ilə davranmağın necə məlhəm, həm də çətin olduğunu yaxşı bilirdi. Minbaşı Fəhmin bəyə alış-veriş

yardımçısı təyin etməyə seçimdə çətinlik çəkmədi, çünki bir nəfərdən başqa adamı da yox idi. Bu iş çox incə işdi, kimə tapşırsaydı, yarıtmayacaqdı, yəni becərəmməyəcəkdi. Burda təkcə intizamlı olmaq azdı, həm də riyazi hesablamaları barmaq üsulu ilə öyrənmək gecdi, bunları, yəni bazarı beş barmağın kimi bilməliydin. Odur ki, qəbuluna çağırdığı gizir Dibirovu bir də başdan ayağadək müştəri gözü ilə süzüb son tapşırıqlarını verdi:

–Bax ha, Dibirov, bu iş sənə asand gəlməsin.

–Ağlım kəsəndən evin bazarlığını eləmişəm, bazar alverçilərini yaxşı tanıyıram. – Dibirov imkan vermədi ki, polkovnik sözünü bitirsin.

–Ola bilər ki, bazar dəllallarının dilini biləsən, amma türklərlə çətin bacarasan. Onlar tutduqlarına Nuh deyər, peyğəmbər deməzlər.

–Heç bir problem yoxdur, yoldaş polkovnik. Ölkədə qarmaqarışıqlıq düşən kimi qaçıb getdim İstanbula. Üç il Laləlidə alver elədim. Abiləri, ablaları pis tanımıram. Onlarla lap tez dil tapacam.

–Bir də onlar sənə toplan, alabaş, erkək-filan desələr, incimə. Bu söyüş deyil, onların danışıq tərzi belədir.

–Mən bunlara öyrəncəliyəm. Bir də qazandığımız çörəyin xətrinə toplan, alabaş yox, lap it oğlu it də desələr, gərək dözək.

–Ay maşallah, di onda nə durmusan? Tez qoş-qoş Fəhmin bəyin hüzuruna. De ki, alış-veriş yardımçısı təyin olunmusan.

Gizir Dibirov “baş üstə” deyəcəyindən sevincəyə düşüb “əmr et, komutanım” dedi. Tələsdiyindən sol əvəzinə sağ çiyni üstə

geri döndü, amma dönməyi ilə də tez özünü düzəltdi, sol ayağı ilə hərəkətə başlayıb otaqdan çıxdı. Əvvəlcə dəhlizdə dayanıb bir siqaret yandırdı. Həyəcandan lap ciyəri yanırdı, dalbadal beş-altı qüllab vurub tüstünü qarnına sümürdü. Sonra burnundan tüstünü parovoz kimi buraxaraq əlindəki siqaret kötüyünü zibil qabına tulladı və dəhlizin baş tərəfindəki otağın qapısına yaxınlaşdı. Qapını döydü və heç bir icazə gözləmədən otağa daxil oldu. Olduqca gur səslə:

–Komutanım! – dedi və əlini gicgahına aparıb məruzə etməyə başladı. – Assubay Dibirov sizə alış-veriş yardımçısı təyin olunub. Əmr et, komutanım!

Minbaşı Fəhmin bəy dərhal hiss etdi ki, gizir Dibirov elə onun arzuladığı adamdır.

–Gəl, qoçum, gəl! – Oturmaq üçün ona yer göstərdi. – Mən bir kərə söyləyəcəm, sən alıb sırğatək qulağından asacaqsan. Bu işdə yalan yox, tamam?

–Anladım, tamam.

–Yarın tezdən parayı məndən alacaqsan, mənim arabamla bazara yollanacaqsan. Alış-veriş yapıb dərhal geri qayıdacaqsan. Gözünün ucu ilə də sağa-sola baxmaq yox, anladınmı?

–Tamam, tamam, anladım.

Ertəsi gün gizir Dibirov minbaşı Fəhmin bəydən pulu götürüb onun üçün ayrılmış xidməti maşında bazara yollandı. Siyahıda göstərilən ərzaqların ən yaxşılarından alıb yeşiklərə doldurdu və maşının yük yerinə qoydu.

–Sən maşından düşmə. – Sürücüyə qəti tapşırdı. – Maşını

sahibsiz görüb evakuatorla apara bilərlər. Sonra da gəl, düş Bakının cərimə meydançalarını axtarmağa.

Təlim mərkəzinə qayıdan kimi ərzağı yeməkxanaya boşaltdırdı, baş aşbaza təhvil verib minbaşı Fəhmin bəyin yanına yollandı. Fəhmin bəy diqqətlə qiymətlər yazılmış siyahıya baxdı, qeyd dəftərçəsinə nə isə yazdı və bundan sonra ərzaq alınmış siyahının üstünə imza atdı.

–Apar karargaha, ver İsmayıl Yorğançıya. Qoy, onbaşı kaytları bilgisayara işlasın.

–Oldu, komutanım!

–Haydı get, aslanım. – Minbaşı Fəhmin bəy arxadan onun boyunu oxşadı.

Növbəti gün gizir Dibirov bazardan aldığı ərzağın siyahısını minbaşı Fəhmin bəyə təqdim edəndə onun qaşları çatıldı.

–Ya bu nə? Gecə infilyasiyamı baş vermiş? Dünən apelsin yetmiş qruş olmuş, bu gün bir manat yetmiş qruş. Olurmu ya?

–Olur, komutanım, olur. Lap üç manata da olur. Burası bazar, dəllallar nə istəyər, neçəyə istəyər, o qiymətə də satarlar. "Alırsan al, almırsan, onda xoş getdin", deyərlər.

Fəhmin bəy başını bulaya-bulaya qeydlərini apardı.

Beləliklə, günlər gəlib keçdi, həftələr ötdü və ay tamam oldu. Gizir Dibirov sonuncu siyahısını uzman çavuşu onbaşı İsmayıl Yorğançıya verib minbaşı Fəhmin bəyin yanına qayıtdı.

–Bir istəyin varmı? – Minbaşı sordu.

–Minbaşım, alın, qoyun cibinizə. Bu, sizə çatasıdır. Halal xoşunuz olsun. – Gizir Dibirov cibindən bir topa pul çıxardıb ona

uzatdı.

–Bu nə ya? – Pulları görcək minbaşının gözləri bərəldi. – Qoçum, sən qurd ürəyimi yemisən, mənə rüşvət təklif edirsən? Heç qorxmuyorsanmı ki, səni savçıya verərəm?

–Komutanım, nə iş yapırıq ki, buna rüşvət deyirsiniz? Bir də burada savçıya nə gərək? Buranın savçısı da, ədaləti də Baba dayıdır.

–Olsun! Baba dayın bilsə ikimizi də cəzalandırar. Məni hörmətsiz edər, sənin də rütbəni söküb ordudan qovar.

–Qovmaz. Baba dayı ağıllı adamdır. O, çörəyinin düşməni deyil.

–Onda onun da payını böl.

–Heç narahat olmayın. Ona da Baba deyərlər. O, adamı vəzifəyə təyin edəndə parasını konvertin içində alır.

–Deməli, sən onu görmüsən?

–Elə ona görə də arxayın hərəkət edirəm. – Gizir Dibirov qımışdı. – Alın, utanmayın, bu sizin halal qazancınızdır.

–Aslanım, nasıl olur bu halal qazanc? – Minbaşı ürəyində bir az rahatlansa da özünü o yerə qoymadı, əriyini azdırmağa başladı.

–Mən hər gün bazara gedirəm. Dəllallarla çənə döyüb sizin siyahıda yazdırdığınız ərzaq məhsullarını alıram.

–Təbi, subaylar toplanlar kimi bəslənməlidir, sonda qaplanlar kimi Qarabağa yollanmalıdır.

–Siz bazarı tanımırsınız. Bazarda qiymətlər hər gün dəyişir, təbii ki, qalxır. Mən də nə qiymətə desələr, almağa məcburam.

Soruşuram, neçəyə satırsan? Deyir, bu qiymətə. Deyirəm, ucuz elə, alım. Dil tapıb, bir az ucuz qiymətə alıram. Ortada dəllalın dediyindən endirdiyim qiyməti qoyuram qırağa. Elə bilin, dəllalın dediyi qiymətə almışam. Hərgah, dəllallarla danışıb, çənə döyüb qiymət endirməyə də bilərəm. Onlar dediyi qiyməti ödəyib gələrəm. Ancaq bunun nə sizə, nə mənə bir qara quruş qədər faydası olmaz. Mən özümdən çox sizi düşünürəm. Axı siz ailənizi uzaqlarda qoyub bizə yardım etməyə gəlmisiniz. Biz də hər hansı formada sizə təşəkkür etməliyik, ya yox? Alın, alın, utanmayın, bu sizin halalınızdır, lap alın təri ilə qazanılmış halal pul kimi.

–Gəl bir öpüyüm səni, aslanım. – Minbaşı pulu alıb cibinə dürtüşdürdü və ayağa qalxdı. – Sən əsl mənim arzuladığım yardımçısan. Bundan sonra səni əsla buraxmam. Kıprıza, Güney Doğuya, Orta Asiyaya, lap Madaqasqara; məni hara göndərsələr səni də özümlə aparacam. Sən dünyanın ən iyi, qosqoca "alış-veriş yardımçısı" san. Səni doğan ananın əllərindən öpürəm.

# Böyrək daşı

Qatarda Bakıya gedirdim. Kupedə ikimiz idik. O, pərdənin qırağını çəkib yolboyu hey gözünü pəncərədən çölə zilləmişdi. Qaranlıq düşdüyündən hiss edirdim ki, məqsədi təbiəti seyr etmək deyil, mənimlə, və yaxud hər hansı bir başqa adamla ünsiyyətdən qaçmaqdır. İndi çoxları belədir; yolboyu söhbət etmək əvəzinə bir-birinə mesaj yazırlar, xüsusən də yeni tanışlıqlardan qaçırlar. Mən isə söhbət etmək istəyirdim. Şübhəsiz ki, kupedə ikimizdən başqa heç kim olmadığından onunla söhbət etməliydim. Hazırlaşırdım ki, müraciət edib onu fikirlərdən ayırım, söhbətə tutum, elə bu vaxt kupenin qapısı açıldı. Bələdçi xanım özünü göstərib soruşdu:

–Sizə çay gətirimmi?

Çay içmək fikrim olmasa da bələdçi xanımı qırmaq istəmədim.

–İki stəkan zəhmət olmasa. – dedim.

–Mənim çayımı açıq rəngli, yəni rəngini lap az edin. – Kupe yoldaşım dərhal bildi ki, ikinci stəkanı onun üçün sifariş edirəm, laqeyd qala bilmədi, çevrilib münasibətini bildirdi.

Bələdçi getdi, mən maraqla ona baxdım, nə isə danışacağını güman etdim. O isə çölə baxmaqda davam edirdi. Bir azdan bələdçi iki stəkan açıq rəngli çay, qənd və iki ədəh limonlu konfetlə geri qayıtdı.

–Buyurun, ağız şirinliyi ilə için. – Gətirdiklərini masanın

üstünə qoyub çıxdı.

–Gəl, tanış olaq. – Mən daha dayana bilmədim, ilk olaraq təklif edib əlimi uzatdım. – Adəm.

–Şikar. – O, könülsüz olaraq əlimi sıxdı və süni gülümsündü.

Qısaca tanış olduq. Özümdən asılı olmayaraq şəhərə getməyinin səbəbini soruşdum.

–Həkimə gedirəm. – dedi və başına gələn bir hadisəni danışdı, amma bir müsibət kimi danışdı.

…Həmin gün Mərkəzi Klinikanın Gəncə şəhərində yeni açılmış bölgə şöbəsində izdiham müşahidə olunurdu, toplaşanların hamısı Bakıdan gəlmiş Firdovsi həkimin qəbuluna düşməyə can atırdı.

–Ay balam, nə xəbərdir? – Yaşlı mühafizəçi basırıq yaradanlara bir neçə dəfə təpinsə də xeyri yox idi, adamlar bir-birini basıb içəri keçmək istəyirdilər. – Niyə qırğın salırsınız? Firdovsi həkim sizi bir-bir qəbul edəcəkdir. O, Bakıdan elə bunun üçün gəlib də… Hamını qəbul etməyincə nəinki Bakıya qayıtmayacaq, heç nahar fasiləsinə də çıxmayacaqdır.

Firdovsi həkim ixtisasca uroloqdu, Bakı şəhərində fəaliyyət göstərən Mərkəzi Klinikada işləyirdi. Əhali arasında daha çox cərrah-uroloq kimi tanınırdı. Qəbuluna gələn xəstələri inandıra bilirdi ki, böyrək daşını yalnız əməliyyat yolu ilə oradan çıxarmaq olar. Elə indicə analizlərinin cavabını laboratoriyadan götürüb gələn Fəxrəddinlə söhbətində də bunu vurğulayırdı.

–Həkim, bəs deyirlər, müxtəlif üsullarla böyrək daşını salmaq mümkündür?

–Mən bir həkim kimi səni inandırıram ki, belə bir üsul mümkün deyil. Kim deyirsə, yalan deyir, camaatı aldadır.

–Qonşuluqda İbrahim adlı bir kişi var. Ağdamdan gələn məcburi köçkünlərdəndir. Deyirlər ki, rayonda feldşer işləyib, yeddi para kəndin doxturu olub. Böyrəyində daş olana çoxlu piyvə içirdir, sonra onu salır isti vannaya. İynə vurur, sistem qoşur, böyrəyindəki daşı salır.

–Sən ki ona belə inanırsan, niyə onun yanına getməyib mənim yanıma gəlmisən? Elə gedərdin İbrahim doxtur sənin də böyrəyinin daşını salardı.

–Qorxdum onun yanına getməyə. Dedim birdən alınmaz, pristup-zad verər.

–Bax, düz eləyib qorxmusan. Ola bilər ki, daş böyrəkdən aralanıb kanala düşsün. Bu daha da dəhşətlidir. Böyrək yoluna düşən daş kanalı bağlayar, pristup verər və bir anın içində böyrəyi sıradan çıxardar, lap ölümlə də nəticələnə bilər. Onda sənə heç kim kömək edə bilməz. Yaxşı halda əməliyyat etdirib sıradan çıxmış böyrəyinlə vidalaşacaqsan.

–Bəs pis halda?

–Dedim axı, pristup ölümlə də nəticələnə bilər. Onda da ehsanını yeyib, goruna söyəcəklər ki, qıymadı canına pul xərcləməyə, getdi torpağın altına.

–Həkim, olar, bir şey də soruşum?

–Soruş, soruş. Madam ki, səni dinləyirəm, nə istəyirsən, soruş.

–Bəs o ot çayları içənlər var ha, onlar necə? Ot çayları

böyrəkdə olan duzu, kristal daşları yuyub təmizləyə bilməz?

–Divara yaxılmış əhəngi su ilə yuyub təmizləmək olur?

–Çətin.

–Bax, böyrəkdə yığılan duzu, kristalları da belə. Heç bir daşqapanla, ot çayı ilə böyrəkdə olan duzu yuyub təmizləmək olmaz. Bununla sən ancaq öz vəziyyətini ağırlaşdıra bilərsən.

–Yaxşı, həkim, onda mən nə vaxt gəlim əməliyyata?

–Həftənin birinci günü olursan Bakıda. Ödənişini edirsən, sonra nə lazımdırsa, mən orda deyəcəyəm. İnşallah, ikinci gün əməliyyat edərəm, dördüncü gün də evə yazaram. Dur, get hazırlaş.

Fəxrəddin çıxan kimi qapıda duran növbəti xəstə içəri soxulmağa cəhd göstərdi, lakin Firdovsi həkim əli ilə gözləmək işarəsi verdi.

–Gözlə, indi çağıracağam. – deyə üzünü asissentə tutdu. – Yadındadır, keçən ay buradan bir nəfərin böyrəyini əməliyyat etmişdik?

–Hə, yadımdadır.

–Tez onu tap. De, təcili qəbula gəlsin. Böyrəyindən çıxartdığımız daşları da gətirsin.

–Bəlkə heç daşları saxlamayıb, tullayıb?

–Tullamaz, hələmhəlbət özünə tapşırmışdım.

–Soruşsa ki, daşları neyləyirsiniz? Ona nə deyim?

–Başını işlət. Bir şey fikirləşib de. – Firdovsi həkim əlindəki qələmlə başını qaşıyıb fikirləşməyə çalışdı. – Hə, hə, tapdım. De ki daşları Almaniyaya göndərəcəyik. Orada daşları müayinə

edib resept yazasıdırlar. Həmin reseptə uyğun dərmanlar qəbul olunmalıdır ki, böyrəkdə bir daha daş yığılmasın.

Asissent qeyd dəftərçəsini götürüb içəri otağa keçdi. Firdovsi həkim isə qapıda duran cavan oğlana buyruq verdi:

–Növbəti xəstəni burax, gəlsin.

Dəhlizdə Firdovsi həkimin qəbuluna düşmək istəyən adamların arasında Şikar adlı ortayaşlı, ortaboylu bir adam vardı. Şikar o tərəf-bu tərəfə gəzişir, özünü çox sakit aparır, içəri keçməyə cəhd göstərmirdi, elə bil heç həkim qəbuluna gəlməmişdi. Saçlarının dümağ olması onun yaşına da uyğun gəlmirdi. Hərəkətlərindən bir narahatçılıq keçirdiyi hiss olunurdu. Bununla belə o, basırıq yaradanlara qoşulmasa da içəriyə keçməyə maraq göstərməsi özünü azacıq büruzə verirdi. Bəlkə də hara isə tələsirdi, vaxtı az olduğundan ümid etmirdi ki, qəbula düşə bilsin.

Şikar fikir-xəyal içində vurnuxaraq o yan-bu yana var-gəl etməkdə idi ki, telefonuna zəng gəldi.

–Alo, eşidirəm.

–Şikardır?

–Bəli, özüdür. Eşidirəm.

–Siz keçən ay Bakıda, Mərkəzi Klinikada Firdovsi həkim tərəfindən böyrəyinizdən əməliyyat olunmusunuz?

–Bəli. Bunu siz hardan bilirsiniz?

–İndi bunun əhəmiyyəti yoxdur. Deyin görüm, böyrəyinizdən çıxan daşları neyləmisiniz?

–Dünənə qədər saxlayırdım. Səhər-səhər evdən çıxanda uşağa

tapşırdım ki, tullasın.

–Bəs həkim sizə tapşırmamışdı ki, saxlayın?

–Nə olsun demişdi. Düz qırx gündür ki, əməliyyat olunmuşam. Həmin daşları göstərmədiyim adam qalmayıb. İş yerində, qohum-əqrəba arasında, bəlkə də beş yüz nəfərdən çox adama Firdovsi həkimi tanıtdırmışam. Daşları bundan artıq saxlayıb neyləməliydim ki?

–Ay səni, Şikar müəllim! – Telefonla danışan adam bir an duruxdu, nəyə isə təəssüflənirdi. – Bəs indi biz nə edək?

–Siz kimsiniz axı?

–Mən Firdovsi həkimin asissentiyəm.

–Böyrəyimdən çıxan daşlar onun elmi işinə, müdafiəsinə lazımdır?

–Yox. Daşlar Firdovsi həkimə lazım deyil. Ona lazım olsaydı elə özündə saxlayardı, sizə niyə verirdi. Daşlar sizə, sizin sağlamlığınıza lazımdır.

–Bundan sonra böyrəyimdən çıxan daşlar mənim nəyimə gərəkdir?

–Əslində siz maraqlı olmalıydınız ki, biz həmin daşları Almaniyaya göndərək. Almaniyada böyrək daşları analiz olunacaq, öyrəniləcək ki, belə daşlar hansı səbəbdən böyrəkdə əmələ gəlir və müvafiq resept yazılacaq. Siz də həmin reseptə uyğun həblər qəbul edəcəksiniz ki, böyrəklərinizdə bir daha daş əmələ gəlməsin.

–Mən indi evlə əlaqə saxlayaram. Əgər daşları zibil qutusuna atmayıblarsa, gətirərəm.

–Daşları tapan kimi bizə dərhal xəbər verin, vaxtımız azdır.

"Buna bax, hələ bir vaxtımız azdır, deyir. Qırx gün məstan pişik kimi xorhaxor yatıblar, heç Şikarın böyrəyindən çıxan daşlar yadlarına da düşməyib, indi durub gəliblər ki, daşları Almaniyaya müayinəyə göndərməliyik. Elə bil qırx günü mən yox, onlar gözləyiblər. Odur ki, dilləri də var, vaxtımız azdır, deyir".

Şikar telefonunu yenidən işə salıb oğlunun nömrəsini yığdı.

–Alo, İslam, hələ məktəbə getməmisən? Yaxşı, de görüm, mənim böyrəyimdən çıxan daşları tullamısan? Tullamısan? Necə tullamısan? Elə salafanda zibil torbasının içinə qoyub küçədəki zibil qabına atmısan? Qaç get ora, gör zibildaşıyanlar zibili aparmayıblarsa, axtar, öz zibilimizi tap. İçindəki daşları çıxart, mənə xəbər elə.

"İşə bir bax! Qırx gün idi ki, daşları saxlayırdım. Deynən bir gün də saxla da… Axı mən hardan biləcəkdim ki, Firdovsi həkim bu gün gələcək?"

Küncdəki oturacağa yaxınlaşıb əyləşdi. Daşlar tapılmayınca həkimin qəbuluna girməyin mənası yoxdu. Kaş ki daşlar tapılaydı. O, başını əlləri arasına alıb dərin fikrə qərq oldu. Böyrək əməliyyatı ətrafında olub-keçənlər bir kino lenti kimi gəlib keçdi Şikarın gözünün qabağından.

…Böyrəyində daş olduğunu biləndə Şikar əvvəl-əvvəl fikir vermədi. "Nə olasıdır? İndi böyrəyində daş olmayan varmı?" deyə düşündü və xəstəliyini ciddiyə almadı. Amma ağrıları artdıqca narahat olmağa başladı. Həm də belindəki küt ağrının

səbəbini böyrək daşının ayağına yazdı və müalicə olunmaq qərarına gəldi.

–Həkimə getmək lazım deyil. – Şikar qərarını Bakıda yaşayan qardaşına açıqladıqda o, baltanı lap dibdən vurdu. İndiki həkimlər daşürəklidirlər, yəni manqurtdurlar, xəstələrə heç yazıqları gəlmir. İstənilən xəstəyə müştəri gözü ilə baxırlar. Onu elə vəziyyətə düçar edirlər ki, uzun müddət get-gələ salıb əlində olan pulunu çəkə bilsinlər. Sonra da nə olar, olar. Onsuz da indi yaxşı, bir az da insaflı həkim tapmaq müşkül məsələdir.

–Sən də kömək etmək əvəzinə düzələn işə mız qoyursan. – Həyat yoldaşı Yasəmən etirazını bildirdi.

–Siz niyə məni başa düşmək istəmirsiniz. Həkim birinci növbədə böyrəkdə daşın yaranma səbəbini müəyyənləşdirməli və bunu aradan qaldırmaq üşün tədbir görməlidir. Yoxsa, pulunu alıb əməliyyat edəcək, daşı oradan çıxardacaqdır? Bir müddətdən sonra böyrəkdə yenidən daş əmələ gəlsə necə olacaq? Bax, bunu demək istəyirəm.

–Bəs mən nə edim? Ağrılarım günü-gündən artır. – Şikar bir əlac istədi qardaşından.

–Mən indi “Xalq təbabəti” kitabına baxıb sənə bir-iki ot dəmləməsi deyəcəm. Bir həftə başqa maye qəbul etmədən gündə üç dəfə ancaq ot dəmləməsi içərsən. Sonra bazara gedib daşqapan kökü alarsan. Onu yaxşıca qaynadarsan ki, həlimə çevrilsin. Ilıq vəziyyətdə hər yarım saatda bir armudu stəkan içərsən. Elə ki, dörd saat tamam oldu vannanı isti su ilə doldurub girərsən içinə. Daş parça-parça olub gəlib töküləcək.

Şikar evə dönən kimi qardaşının dediklərinə əməl etməyə başladı. Dördüncü gün idi ki, ot dəmləmələri içirdi, sol böyrəyindəki ağrılar şiddətləndi. Ağrıkəsici dərman atsa da xeyri olmadı. Böyrəyi elə dəhşətli ağrılar verirdi ki, Şikar az qalırdı huşunu itirsin.

–Özünə yazığın gəlmir? Niyə telefonu götürüb təcili yardıma zəng vurmursan? – Axşam saatlarında arvadı baxdı ki, Şikar bu gecə ağrılara dözə bilməyəcək ona acıqlandı.

–Görmürsən halım yoxdur, sancıdan doğranıram? Təcili yardıma özün zəng vur. – Şikar hirsli-hirsli tapşırıq verdi, bir növ tənəli sözlərinə görə arvadına təpindi.

"Nahaq qulaq asdım qardaşıma. Gərək həkimə gedərdim. İndi pristup versə, daş kanalı bağlasa, böyrəyimi partlatsa necə olacaq? Kim mənə kömək edəcək? Bəlkə qardaşımın da dediklərində bir həqiqət var. Ancaq ilkin mərhələdə, daş böyrəkdə təzə-təzə formalaşanda, kiçik ölçüdə olanda. Mənim böyrəyimdə isə çoxdandır özünə yuva salıb, böyüyüb. İndi onu tərpətməkmi olar?"

Təcili yardım stansiyasına iki zəng eyni vaxtda oldu. Növbətçi tibb bacısı qeyd dəftərinə yazdıqdan sonra çağırışın ünvanlarını bir vərəqə köçürüb Könül həkimə uzatdı. O, dərhal çantasını götürüb maşının yanına yollandı.

–Getdik! – Maşına oturan kimi mürgüləməkdə olan sürücüyə göstəriş verdi. – Yatmaq vaxtı deyil. Natiq, al bunu. Bu ünvanlara gedəcəyik. – Ünvanlar yazılmış vərəqi sürücüyə uzatdı.

Natiq maşını işə salıb mühərrikin azacıq qızmasını gözlədi.

Gözü ilə vərəqə baxdı ki, görsün hansı ünvanlara gedəcəkdir. "Sukonnaya 24, mənzil 41 və Tereşkova 38, mənzil 48" ünvanlar vərəqəsində beləcə də qeyd olunmuşdu.

–Birinci hansı ünvana sürüm? – deyə Natiq soruşdu.

–Hansına istəyirsən sür. Ancaq bir az tez ol.

–Tereşkova həm yaxındır, həm də əvvəllər orda yaşamışam. Bu, çağırış verən hər kimdirsə mənim köhnə qonşularımdandır. – Sürücü Natiq aydınlıq gətirdi və ayağını qaza qoyub maşını hərəkətə gətirdi.

Beş-altı dəqiqə keçməmiş təcili yardım maşını "Tereşkova 38" ünvanında yerləşən beşmərtəbəli binanın qarşısında dayandı. Pəncərədən baxan Şikarın oğlu İslam həkimi qarşılamağa çıxdı.

–Düz gəlmisiniz. Atamın vəziyyəti ağırdır. Tez gəlin! – İslam bunu deyib həkimi birinci mərtəbədə yerləşən evlərinə apardı.

–Xəstə kimdir? – İçəri keçən həkimin sorğusuna Şikarın həyat yoldaşı divanda uzanıb ağrıdan gözlərini yummuş ərini göstərdi.

Həkim onun əlindən tutub oturtdu və nə baş verdiyini soruşdu. Şikar əhvalını danışana kimi onun təzyiqini ölçdü.

–Nahaq həkimə getməmisiniz. – Həkim dərhal narazılığını bildirdi. – İndi mən iynə vuracam, vəziyyətiniz düzələcək. Ancaq səhər mütləq həkimə gedin.

Könül həkim Şikara sakitləşdirici iynə vurub getdi. On-on beş dəqiqədən sonra vəziyyəti yaxşılaşan Şikar səhər mütləq həkimə gedəcəyini qərarlaşdırdı.

–Şükür Allaha! Nə yaxşı həkim çağırdıq. İndi gözlərimə işıq

gəldi. Böyrək ağrısı nə amansız ağrı imiş. Dünya-aləm başıma fırlanırdı.

Şikar sübh tezdən yuxudan oyandı, ağrıyıb-ağrımadığını yoxlamaq üçün elə yataqdan qalxmadan o tərəf-bu tərəfə çevrildi. Sonra yataqdan qakxıb otaqda gəzişdi. Kəskin ağrı olmasa da küt ağrı hələ də bədənini tərk eləməmişdi. Telefonu götürüb mətbəxə keçdi ki, səs salıb uşaqları narahat etməsin. Əvvəlcə dərs hissə müdiri Tərifə müəllimənin nömrəsini yığdı.

–Sabahınız xeyir! Bağışlayın ki, belə tezdən müraciət edirəm. Böyrəyim pristup verib, gecə evə təcili yardım çağırmışdım. Gəlib iynə vurdu. Ancaq ağrılarım keçməyib, dərsə gələ bilməyəcəyəm, həkimə gedəcəyəm. Qoy, Həbib müəllim məni əvəz etsin, keçən aydan mənə borcludur. Yaxşı, lap özüm də zəng vurub deyərəm.

Sağollaşıb telefonu söndürdü və Həbib müəllimin nömrəsini yığdı. Məktəb tərəfdən arxayın olandan sonra qayıdıb yerinə uzandı. Hələ tezdi, həkimə getmək vaxtı deyildi.

Şikar yoldaşı ilə xəstəxanaya gələndə saat doqquzu təzəcə keçmişdi. Qeydiyyat otağının balaca pəncərəsinə yaxınlaşıb ambulator kartasını istəyəndə qeydiyyatçı Şəhla xanım, deyəsən onu tanıdı.

–Siz Şikar müəllim deyilsiniz?

–Bəli. – Şikar əlüstü cavab verdi. – Necə bəyəm?

–Gərək ki, bir həftə əvvəl yenə də gəlmişdiniz?

–Hə, gəlmişdim, aparata düşüb böyrəklərimi yoxlatdırdım.

–Deyirəm axı. Mən sizi görən kimi tanıdım. 26 nömrəlidə

işləyirsiniz, Kənanın müəllimisiniz.

Qeydiyyatçı ilə Şikar müəllimin danışığı həyat yoldaşı Qönçənin diqqətini cəlb etdi. Şəhla xanımın belə şirin-şirin danışması, ona heç bir məhəl qoymaması Qönçənin ürəyinə az qala şübhə toxumları səpəcəkdi ki, Şəhlanın son açıqlamasından sonra bir az toxtadı.

–Kənan sizin nəyinizdir? – Növbəti sualı Şikar müəllim verdi.

–Bacımın oğludur. Elə hey sizi tərifləyir. Deyir mən də məktəbi bitirəndən sonra hərbçi olacağam.

–Sağ olsun. Kənan ağıllı oğlandır. İnşallah arzusuna çatar.

–Hə, bağışlayın. Başınızı boş söhbətlə qarışdırıb vaxtınızı aldım. – Şəhla bunu deyib balaca korobkadan Şikarın kartasını çıxardaraq ona uzatdı. – Buyurun! Heç demədiniz axı… nə məsələdir. Sizi ən çox narahat edən nədir? Bəlkə tanıdığımız həkimlərdən birinə yönəltdik.

–Böyrəkləridir. – Şikar ağzını açmamış Qönçə dilləndi. – Neçə vaxtdır heç rahatlıq vermir. Bir az ot-əncər müalicəsi almaq istədi, o da alınmadı. İndi pristup verib. Heç bilmirik neyləyək. Bəlkə də daş parçalanıb kanala düşüb. Gəldik ki, UZİ-yə saldırıb öyrənək.

–Sizi istədiyimdən deyirəm, yüngül olsaydı, xahiş edərdik, öz həkimlərimiz bir şey yazardı. Ciddi xəstəliklərə baxası bizdə fərli-başlı həkim yoxdur. Özünüzü nahaq əziyyətə salıb axtarmayın. Bağmanlara gedin. Mərkəzi Klinikanın təzə açılmış filialında həm yaxşı həkimlər var, həm də dəqiq analiz edən bahalı aparatura quraşdırıblar. Deyirdilər bu gün Bakıdan

məşhur uroloq gələsidir. Bir həftə qabaq qəbula yazırdılar. Bu, bəlkə də sizin bəxtinizədir. Bir də havayıdan burda pul xərcləyib aparata düşməyin. Di durmayın, gedin.

–Allah köməyiniz olsun. – Qönçə təşəkkürünü bildirib pəncərənin ağzından aralandı, Şikarın əlindən tutaraq çıxış qapısına tərəf çəkdi. – Gəl, gedək, burda vaxt itirməyə dəyməz.

O, işdən nahar fasiləsinə qayıdanda qardaşı Şikarla arvadı Qönçəni evlərində görüb təəccübləndi.

–Xeyirdimi, qardaş? – deyə təəccüblə soruşdu. – Getdiyin heç on gün olmaz. Ot dəmləmələrinin bir xeyri oldumu? Bəs niyə xəbərsiz gəlmisiniz? Bir iş-zadmı olub?

–İnşallah, xeyir olar. – Şikar həmişəki təmkinini pozmadan cavab verdi. – Ot dəmləmələrindən bir az içdim.

–Bəs sonra nə oldu? – Orxan baxdı ki, qardaşı sözlü adama oxşayır.

–Əvvəlcə sən paltarını dəyiş, gəl otur. Bir stəkan çay iç, rahatlan, mən də yavaş-yavaş danışım.

Orxan istədi yataq otağına keçib paltarını dəyişsin, amma tez də fikrindən vaz keçdi. “Bəlkə şəhərə qayıtmalı olduq. Şikar yəqin ki, elə-belə gəlməyib, işi çıxdığı üçün gəlib. Yoxsa nə ola bilər?”

Vanna otağına keçib əl-üzünü yudu, dəsmalla qurulayıb otağa qayıdanda arvadı masaya yemək düzürdü. Elə yemək süfrəsi arxasında Şikar böyük qardaşına ot dəmləmələri ilə başlanan başına gələnləri yerli-yataqlı danışdı.

–Saat üçdə Mərkəzi Klinikada, Firdovsi həkimin yanında

olmalıyıq. Pulu çatdırmalıyıq ki, sabah əməliyyata götürsün.

–Neçəyə danışmısınız?

–Min səkkiz yüz manata.

–Allah onun evini başına uçurmasın, balaları yazıqdır. Belə baha da böyrək əməliyyatı olar? Bəlkə başqa yerdə əməliyyat etdirək? Biz bütün işlərimizi Sumqayıt həkimləri ilə görürük. Həm keyfiyyətli, həm də Bakı həkimlərinə baxmış, ən azından iki dəfə ucuz.

–Yox, lazım deyil, bu iş artıq danışılıb.

–Yaxşı, nə deyirəm ki. Təki xeyirli olsun. – Orxan baxdı ki, qardaşı inadından geri çəkilən deyil, razılaşdı. – Durun, getdik.

Mərkəzi Klinikanın həyətinə çatan kimi Şikar Firdovsi həkimə zəng vurdu.

–Salam, həkim, biz gəlmişik. Gəncədən. Böyrək əməliyyatına, Xəstəxananın həyətindəyik. Hə, Klinikanın. Yaxşı, yaxşı. – Telefonu bağlayıb məlumat verdi. – Deyir ki, mən Klinikada deyiləm, kənardayam. Qalxın ikinci mərtəbəyə, indi tapşıraram, mənim asissentim sizə yaxınlaşar, nə etmək lazımdır, deyər.

–Mən deyirəm də, bunlar başdan-ayağa fırıldaqdılar. Dillərinə bir kəlmə də olsun düz söz gəlmir. Görüş təyin eləmisən saat üçə, canın çıxsın otur yerində, gələnini qəbul elə. Mən nə tanıyıram sənin asissentin kimdir. Mənə sənin özünlə görüşüb danışmaq lazımdır, görüm nə qarantiya verirsən.

–Daha danışmağın yeri yoxdur. – Şikar təəssüfdoğurucu tərzdə dilləndi. – Bura qədər onun adına gəlmişik. Qalxaq

yuxarı, görək asissenti nə deyir. Geri qayıdası deyilik ki.

–Qalxaq deyirsən, qalxaq. Görək asissenti hansı qəzəli oxuyacaq bizə. – Orxan azaylandı.

O, min dəfə özünə söz versə də ki, heç kimin işinə qarışmayacaq, özü-özü ilə bacara bilmirdi. Belə xasiyyətinə görə böyük qardaşı, həyat yoldaşı da irad tutmuşdu ona. Amma hər dəfə söz versə də yenə əmələ gəlmirdi. Elə ki, bir fırıldaq işə urcah oldu, dərhal xarakterini ortaya qoyub kəskin münasibət bildirirdi. Çoxları onun bu münasibətinə deyirdilər ki, düzələn işə qulp qoyur. Qulp qoymağın necə olduğunu isə o, bilmirdi. Deyərdin ki, filan işə bir qulp qoy, vallah, bacarmazdı. O, elə-belə, boş-boşuna heç nəyə irad tutmazdı, ta ki, özü həmin əyər-əskikliklə rastlaşmasaydı. İndi də belə.

Üçü də özlüyündə deyinə-deyinə binaya daxil oldular. Şikar qabağa düşüb liftə tərəf addımladı. Amma ekranda 8 rəqəmini görüb istiqamətini dəyişdi, pilləkənə tərəf addımlayan Orxanın arxasınca getdi.

İkinci mərtəbəyə qalxıb pilləkənin sağ tərəfində yerləşən gözləmə salonuna keçdilər. Gözləmə otağında onlardan başqa heç kim yox idi. Televizordan və bir neçə dəmir süzgəcli oturacaqdan ibarət gözləmə otağında təzəcə oturmuşdular ki, 26-28 yaşlarında cavan, görünüşcə “tirpaş” bir oğlan otağa daxil olub onlara yaxınlaşdı.

–Gəncədən gələnlər sizsiniz? – Salamsız-kəlamsız ilk soruşduğu bu oldu.

–Əvvəlcə salam vermək lazımdır, cavan oğlan. – Orxan

iradını bildirdi. – Görəsən bizim millət nə vaxt mərifətə, qanacağa öyrəşəcək.

–Mərifətimizə, qanacağımıza nə gəlib? Prosto gün ərzində yüzlərlə adamla rastlaşırsan, salam verməkdən çənəm ağrıyır.

–Bir söz artıq deməklə çənə ağrımaz. Həm də sizin dolanışığınız müştərilərdən çıxır. Məcburən onlarla nəzakətli davranmalısınız.

–Hə, Gəncədən gələn bizik. – Şikar tez müdaxiə etdi ki, mübahisə uzanmasın.

–Mən də Firdovsi həkimin asissentiyəm. Gedək, göstərim pulu hara ödəmək lazımdır.

–Deyirəm də, sizin düşündüyünüz ancaq puldur. – Orxan qəzəbləndi. – Firdovsi həkim özü hanı? Onu görməyənə kimi biz heç bir pul-zad ödəməyəcəyik.

–Firdovsi həkim burda yoxdur.

–Zəng edin gəlsin. Saat üçə görüş təyin edib, gəlmişik. Zəhmət çəkib gəlsin. Özü burda olan vaxta görüş təyin edərdi. Biz gözləyirik.

–Onun işi var, bu gün gələ bilməyəcək. Həm də mən ona zəng edə bilmərəm. Lazım olanda o, özü mənə zəng vurub nə etmək lazımdırsa deyir.

–Necə yəni zəng vura bilmərəm? Bəlkə əməliyyat etdiyi xəstənin halı pisləşdi, onda da zəng vurmayacaqsan?

–O mənlik deyil.

–Onda xudafiz. Biz gedirik başqa klinikaya.

–Özünüz bilərsiniz. – Asissent kobud tərzdə bunu deyib

otaqdan çıxdı.

–Bəlkə beş-on dəqiqə də gözləyək. – Şikar acizanə tərzdə təklif etdi.

–Mən sənin ağrılarına üzülürəm. Amma bu əclafları da pis tanımıram. Yüz faiz əminəm ki, o, burdadır, bəlkə də kamera ilə bizi görür. Mən belə dələduzlarla az rastlaşmamışam. Durun, yavaş-yavaş düşək aşağı. Gözləmək istəsəniz, bir az da aşağıda gözləyərik. Ancaq mənə elə gəlir ki, gözləməyə ehtiyac olmayacaq.

–Niyə? – Şikar yenə də üzücü tərzdə soruşdu.

–Ya biz Klinikadan çıxmadan o, bizə yaxınlaşacaq, ya da uzaqlaşmadan zəng vuracaq ki, qayıdın geri, mən gəlmişəm, klinikadayam.

–Sən buna əminsənmi?

–Min səkkiz yüz manatı kim əldən buraxar?

Yavaş-yavaş otaqdan çıxdılar. Liftin ağzında iki qadın və bir cavan oğlan dayanmışdı, deyəsən liftin yuxarıdan qayıtmasını gözləyirdilər.

–Firdovsini Allah öldürsün! – Qadınlardan biri o birisinə deyirdi. – Kişinin ürəyini əməliyyat etdiyi heç üç gün deyildi. Yazıq heç ayağa qalxıb işıqlı dünyaya axırıncı dəfə göz dolusu baxmadı, elə yataqdaca canını tapşırdı. İndi də qaçıb gizlənir. Deyirəm bir ətək pul vermişəm sənə, insafın olsun, heç olmasa yarısını qaytar. Daş atıb göyə, başını tutur altına ki, vallah, billah, o puldan mənə hələ bir qəpik də çatmayıb. Hamısını kassaya ödəmisiniz.

Bu söhbəti Şikarla Orxan yaxşı eşitməsə də onların arxasınca ayağını sürüyüb bir az geri qalan Qönçə təfsilatı ilə dinlədi. “Bu boyda klinikada başqa həkim yoxdur ki, ürəyi də, böyrəyi də Firdovsi canı yanmış əməliyyat edir” deyə öz-özünə sual verdi Qönçə.

Qardaşlar birinci mərtəbəyə düşüb Qönçənin gəlib çatmasını gözlədilər. Sonra üçü də birlikdə giriş-çıxış qapısına doğru addımladılar. Bir addımlığında qapı avtomatik olaraq onların qarşısına açıldı. Bu zaman kimsə arxadan çağırdı:

–Şikar müəllim!

Hər üçü geriyə qanrılıb baxdılar. Liftin ağzından orta yaşlı, ucaboy, başının ön hissəsi dazlaşmış bir kişi onlara tərəf addımlayırdı. Şikarla Qönçə dərhal tanıdılar. Bu Firdovsi həkim idi. Odur ki, geriyə dönüb ona tərəf addımladılar.

–Firdovsi həkim! – İlk olaraq Şikar əlini uzadıb onunla görüşdü, rəngi-rufu dərhal yerinə gəldi, elə bil xilaskarını tapmışdı. – Gəl çıx də. Az qala çıxıb getmişdik.

–Şikar müəllim, siz zəng edəndə, vallah, laboratoriyada idim. Analizlərin cavabını yoxlayırdıq. Ona görə də çıxa bilmirdim. Elə indicə işimizi yekunlaşdırdıq ki, dərhal sizin yanınıza gəldim.

“Ay aferist. Bəs biz pulu ödəsəydik, necə? Yenədəmi işini qurtarıb dərhal bizim yanımıza gələcəkdin?” Orxan sual dolu baxışlarını bir anlıq Firdovsi həkimin gözlərinə zillədi. “İnan ki, siz çıxıb getsəydiniz od vurub atamı yandıracaydılar. Mənim adıma gəlib, kameralara düşəndən sonra pul ödəməyib geri

qayıdan xəstəyə görə başımı sığallamayasıdırlar ki!” Firdovsi həkimin gözlərində aferistliklə, fırıldaqla yanaşı bir yazıqlıq, məzlumluq rüşeymləri də vardı – zamanın məcburiyyəti qarşısında divarın küncünə qısılmaq məzlumluğu.

Onlar söhbət edə-edə yenidən ikinci mərtəbəyə qayıtdılar. Gözləmə otağına keçən kimi yenə də üstünlüyü əlində saxlayıb ilk dillənən Firdovsi həkim oldu.

–Vaxtım azdır. Getməliyəm. Deyin, görüm sizi narahat edən nədir? Biz axı Gəncədə hər şeyi danışmışıq. Vallah, bu qiymətə heç kim həmin əməliyyatı boynuna götürməz. Mən eyni vaxtda iki əməliyyat edəcəyəm. Böyrəkdə olan daşı çıxardacam. Sidik kanalına düşmüş daşı isə əzəcəyəm. Qırıntılar sidik kanalı ilə axıb töküləcək.

–Mənə sizin qarantiyanız lazımdır, həkim. – Orxan, özü də bir az əsəbi halda söhbətə qoşuldu. – Biz sənə bir ətək pul veririk.

–Mənə vermirsiniz, kassaya köçürürsünüz. Buranın qaydası belədir. Mərkəzi Klinika ölkənin ən yüksək səviyyəli klinikasıdır. Mən hələ sizinlə çox ucuz danışmışam. Özəl klinikalara gedin, görün bu əməliyyatı eləməyə üç min manatdan aşağı razılaşarlarmı?

–Birincisi, qiyməti siz müəyyənləşdirmisiniz, burada klinikalıq bir şey yoxdur. Min səkkiz yüz əvəzinə min beş yüz də deyə bilərdiniz. İkincisi, Sumqayıtda daha ucuz eləyən yüksək səviyyəli həkim tanışlarımız var. Söhbət bunda deyil. Madam ki, Şikar sizinlə danışıb, eybi yoxdur, əməliyyatı siz aparın.

–Əməliyyatdan sonra üç gün də klinikanın palatasında

qalacaq. Günü yüz manatdır, amma siz ödəməyəcəksiniz, bu mənim boynumadır.

–Elə olmasın ki, əməliyyatdan sonra yoxladaq, yenə də böyrəyində daş olsun.

–Başa düşmədim, siz soruşursunuz ki, yenidən daş yığılacaq, yoxsa yox?

–Mən hər iki variantı nəzərdə tuturam. Həkim var, əməliyyat aparır, sadəcə dərini kəsib tikir. Daxili orqanlar üzərində heç nə eləmir, hamısı pul qopartmaqdan ötrüdür. Eyni zamanda, əməliyyatdan sonrakı mərhələdə, daş götürüləndən sonra ləyəndə yenidən qalıqlar yığılıb daşa çevriləcək, ya yox? Bax, məni ən çox narahat edən də elə budur.

–Mən buna cavabdehəm.

–Bəs həmin yerə yenidən daş yığılarsa…

–İnşallah, olmaz. Müalicə yazarıq, xəstənin özündən də çox şey asılıdır. Pəhrizini saxlamalıdır. Heç narahat olmayın, əməliyyatdan sonra hər şeyi yazıb verəcəyəm. Nəyi necə etmək haqqında tam bir təlimatınız olacaqdır.

Firdovsi həkim bunu deyib ayağa qalxdı.

–Məni bağışlayın, təcili getməliyəm. Siz də narahat olmayın. – Firdovsi həkim Şikarın əlini iki əli ilə sıxıb gülümsündü. – Möhkəm ol.

O, bunu deyib çıxışa doğru getdi, biz də onun arxasınca otaqdan çıxdıq. Liftin önündən keçib sola buruldu.

–Kassa burdadır. – Firdovsi həkim əli ilə liftin o tərəfindəki pəncərəni göstərdi. – Ödənişinizi edib çekinizi alın. Axşam və

səhər heç nə yemirsən ki, qarnın boş olsun. Saat doqquzda burda olmalısınız. Ayrı sözünüz varmı?

Sağollaşıb ayrıldıq. Firdovsi həkim liftə minib getdi. Şikarla Qönçə pulları sayıb kassaya ödədilər. Min səkkiz yüz manat az pul deyildi – bəlkə üstünə beş yüz manat da əlavə etsəydin Şikarın bir illik müəllim maaşına bərabər olacaqdı. Sağ olsun, Firdovsi həkim, bir günə müəllimin bir illik qazancını qazanırdı. Görəsən, onu kim yetişdirib? İnanmaq olmur ki, hər hansısa müəllim gələcəkdə onun bir illik məvacibini bir dəfəyə əlindən alacaq şagird yetişdirsin.

Ertəsi gün günorta saatlarında klinikaya xəbər yayıldı ki, Firdovsi həkimin hər üç əməliyyatı uğurla keçib, o cümlədən Şikar da əməliyyatdan yaxşı çıxıb. Üç gün klinikada saxlandıqdan sonra onu evə yazdılar. Hələ ki, kanalı qoşmamışdılar, o, qardaşıgilə böyründə sallanan sellafon torbası ilə birlikdə yollandı. Ayrılanda Firdovsi həkim ona bir-birindən fərqli iki daş verdi. “Böyrəklərindəki daşlar budur, hər ikisini çıxartmışam, bundan sonra rahatlıq taparsan”, dedi. Böyrəklərdən çıxan daşlardan biri çarpanaq, digəri isə lal idi. Firdovsi həkim dedi ki, çarpanaq daş bir az da böyüsəydi, böyrəyi deşib zədələyəcəkdi, bəlkə də sıradan çıxaracaqdı. Lal daş isə böyüyüb böyrək kanalını tutacaqdı, hətta, kanalı partlada da bilərdi. Qarın boşluğu nahiyəsinə sızan sidik tezliklə qana keçə bilər və heç şübhəsiz ölümlə nəticələnəcəkdi. Bir sözlə, Şikar müəllimin anası namaz üstəymiş ki, vaxtında onu Firdovsi həkimə urcah edib. Yoxsa…

Qardaşıgildə özünə gəlib rahatlıq tapandan sonra Şikar bütün bunları maraqla Orxana danışdı. Onu diqqətlə dinləyən Orxan, nəhayət ki, dilləndi:

–Bəs sidik kisəsinə düşən daş necə oldu?

–Hansı daş? – Şikar təəccüblə onun üzünə baxdı.

–Bəs demirdinizmi ot dəmləmələri vaxtı böyrəyin birindəki, gərək ki, sağ böyrəkdəki daş sidik kanalına düşüb. Müayinə vaxtı Firdovsi həkim özü də bunu müəyyənləşdirib. Səninlə də razılığa gəlib ki, sol böyrəyindəki çarpanaq daşı çıxardacaq, sağ böyrəyindən böyrək kanalı ilə sidik kisəsinə axıb gedən daşı isə xüsusi cihazla elə orada əzəcəkdir. Həmin daşın qırıntıları sonra sidiklə bərabər axıb töküləcəkdir.

–Doğrudan ha… – Narkozdan sonra özünü çox da yaxşı hiss etməyən Şikarın elə bil nə isə yadına düşdü və o, başını balınca dayayıb huşa getmək istədi.

–Sənin kürəyində yarıq neçə yerdəndir?

–Bir. – Şikar çox sakitcə cavab verdi. – Sol tərəfdən.

–Deməli bir böyrəyini əməliyyat edib. Ola bilməz ki, həkim sol tərəfdən girib sağ böyrəkdəki daşı da çıxartsın. Əgər o, bunu bacarsaydı, mütləq Nobel mükafatına layiq görülməliydi.

Şikar daha heç nə demirdi, heç deyilənləri də eşitmək istəmirdi.

–Dur gəl bura. – Kənardan söhbəti izləyən Yasəmən Orxanın əlindən tutub dartdı. – Görmürsən Şikara dincəlmək lazımdır? Nə düşmüsən onun üstünə?

Şikar bir neçə gün qardaşıgildə qaldı. Xüsusi pəhriz

yeməklərlə qidalanır, daha çox təbii şirələr içirdi. Sidik ifrazı katetir vasitəsilə xaricə axırdı. İki gündən sonra katetir işləmədi. Evdə narahat olmağa başlasalar da Orxan onları sakitləşdirdi.

–Heç narahat olmayın, katetir müvəqqəti əvəzedicidir. Katetir sidik ifraz etmirsə, deməli orqanizmi təbii yolla sidik ifrazını bərpa edib. – Üzünü Şikara tutub dedi: – Təbrik edirəm, sən sağaldın.

Növbəti gün Firdovsi həkimin yanına son təlimata gedəndə o da eyni şeyi demiş və katetiri çəkib çıxartmışdı. Bir gündən sonra Gəncəyə qayıdan Şikar həftənin birinci günündən işə çıxmağa başladı.

–Ortada Diaqnostika Mərkəzinə baş çəkməyi unutma. Yoxlat, gör, əməliyyatdan bir ay sonrakı vəziyyətin necədir? – Ayrılanda qardaşı Orxan belə məsləhət görmüşdü.

Təxminən bir ay keçəndən sonra Orxan evdə oturub kitab oxuyurdu ki, qardaşı Şikar zəng vurdu.

–Mən bu işə lap mat qalmışam. – deyə təəccübünü bildirdi.

–Nə olub yenə? – Orxan tam soyuqqanlılıqla maraqlandı.

–Bu gün getmişdim Yeni Gəncəyə, Diaqnostika Mərkəzinə. UZİ-yə düşüb böyrəklərimi yoxlatdım. Həmin həkim yenə də dedi ki, böyrəklərində daş var. Mən axı təzə əməliyyat olunmuşam. Bir ay müddətində nə tez yığıntılar daş bağladı və böyüyüb həmin ölçüdə oldu?

–Ola bilər ki, əməliyyatdan sonra yara tam sağalmayıb. Həmin daşların yeri bərpa olunmayıb, ləyən kimi qalıb. Ona görə də aparat belə göstərir.

–Elə mən də UZİ həkiminin yanından Firdovsi həkimi yığdım. O da sən deyənləri dedi. Amma aparat həkimi razılaşmadı. Dedi ki, mən özümü aldada bilmərəm. Mənə nə düşüb ki, yalan deyəm. Hər iki böyrəyində lal daş var, ölçüləri də bu razmerdə. Demirəm ki, duzdur, kristaldır, yığnaqdır, nəhayət çarpanaq daşdır.

–Nə bilim, ay Şikar. Onlar professional doxturlardı, biz isə fərziyyə söyləyirik. Yenə də özünü qoru, görək. Çalış, böyrəyinə dinclik ver. Sudan ehtiyatla istifadə et. Duzdan bir müddət imtina elə. Acını, şirini birdəfəlik unut. Çörəyi ləğv elə, keç qara çovdar çörəyinə.

–Bəs həkim deyirdi ki, suyu, çayı bol elə. Gündə ən azından üç litr su içməlisən.

–Özün fikirləş. Böyrəyin əməliyyatdan çıxıb, yaralıdır. Heç sağlam adamın böyrəyi üç litr suyu süzə bilmir, xəstə, yaralı böyrək bunu necə süzsün?

… Bütün bunlar bir anda Şikarın gözünün önündən gəlib keçdi. Telefonunun zəngi onu fikir-xəyaldan ayırdı.

–Ata, muştuluğumu ver, daşları tapmışam. – Danışan oğlu İslam idi, sevinə-sevinə danışırdı, ancaq daşların tapılması da Şikarı sevindirmirdi.

–Nəyi tapmısan? – Şikar sanki indi yuxudan ayılırdı.

–Böyrək daşlarını, böyrəyindən çıxan daşları.

–Onlar itmişdi ki, tapasan?

–Onlar itməmişdi, səhər-səhər zibil torbasına qoyub tullamışdım. Sən zəng edəndən sonra gedib baxdım ki,

zibilyığanlar məhəllənin zibilini hələ aparmayıblar. Yeşiyi gücbəla ilə aşırdım yerə. Səhərdən zibilin içində eşələnirəm, öz zibil torbamızı axtarırdım. Axır ki, tapdım.

–Onları gətirə bilərsən, yoxsa mən özüm gəlim?

–Hara gətirim?

–Heç olmasa univermağın qabağına gətir, gəlim, alım. Yoxsa sən dərsə gecikirsən?

…Şikar başına gələn əhvalatı bura qədər danışdı və fikrə getdi.

–Nə oldu, Firdovsi həkim daşları görəndə tanıyıb sevindimi?

–Sevindi nədi, hətta, sevincindən yenicə eşqə düşmüş qız kimi gözləri parıldadı.

–Bəs sonra nə elədi? Daşları Almaniyaya göndərdimi? Almaniyadan nə cavab gəldi?

–Bax, elə məni də düşündürən odur. Daşlar o gedən getdi. Beş il keçməsinə baxmayaraq Almaniyadan hələ də bir cavab yoxdur. Hər dəfə Firdovsi həkimə zəng vurub soruşanda, deyir ki, narahat olma. Bu axşam internetə girib yenə də soruşacam. Harda olsa on-on beş günə cavab gəlməlidir. Almanlar axı, belə səhlənkar millət deyillər. Olmaya bizimkilərlə əməkdaşlıq edə-edə… onlar da dəyişiblər.

–Bakıya gedib nə edəcəksən? Bəlkə heç arxasınca düşməyəsən bu məsələnin?

–Firdovsi həkimin yalan danışdığını mən çoxdan hiss eləmişəm. Amma səbrlə işin axırını gözləyirdim.

–Səndə səbr nə imiş. Düz beş ildir gözləyirsən, danışırsan və

inanmadığını büruzə vermirsən.

–Mən Firdovsi həkimi tapıb deyəcəyəm ki, mənim yanımda internetə gir, daşı kimə göndərmisən nəticəsini ondan soruş, yazdığı resepti də internetlə al və mənə ver.

–Nə qədər də sadəlövhsən. Elə bilirsən Firdovsi utanacaq? Səni aldatdığına görə üzr istəyəcək? Sənin kimi neçələrini aldadıb, aldadır və aldada-aldada gələcəyə doğru gedir.

–Mən sadəcə onun gözlərinə baxmaq istəyirəm. Çünki onun ucbatından doğma qardaşımın gözünə baxa bilmirəm. Axı qardaşım elə ilk gündəcə onun necə fırıldaqçı olduğunu aşkar elədi. Mən isə doğma qardaşıma inanmaq istəmədim.

Şikarın gözləri yaşardı. O, pəncərənin pərdəsini azacıq aralayıb çölə baxdı. Adəm başa düşdü ki, qaranlıqda təbiəti seyr etmək olmaz, amma Şikar müəllim “seyr edir”.

# Möhlət

Elin baş taciri can üstəydi, ölürdü, ölə bilmirdi. Uca dağların bumbuz bulaqlarından su gətirib dodaqlarını yaşlayırdılar, damcı-damcı boğazına damızdırırdılar, yanğısı sönmürdü. Barlı-bəhərli bağların növbənöv meyvələrindən yedirdirdilər, laləzər çəmənlərin tər çiçəklərindən dərib burnuna tuturdular, qoxlayırdı, amma heç bir faydası olmurdu.

Baş tacir səhər açılandan ta axşam düşənədək, gecə də sübhədək zarıyırdı, nə ailə üzvlərinə, nə də qul-qaravaşa rahatlıq verirdi. Gah nəfəsi daralırdı, gah da gözləri qaralırdı, dünya-aləm başına fırlanırdı. Mürəkkəb dolanbaclar içində, zülmət qaranlıqlar aləmində baş tacir onu cənnətə aparacaq süd kimi ağappaq yolu axtarırdı, ruhunu haqqın dərgahına səsləyəcək iynə ucu boyda ağ işartını gözləyirdi, tapa bilmirdi.

Sonrakı günlərin birində səhər-səhər elə bil güc gəldi canına, gözlərində işıq, qolunda təpər, səsində bir gümrahlıq hiss etdi, dərhal oğlunu çağırtdırdı yanına. Atasının dirçələcəyindən əlini üzmüş oğlu Bayandur az qala qaça-qaça gəldi çağırışa, atasını gümrah görcək lap uşaq kimi sevindi, istədi qışqırıb car çəksin hər yana.

–Oğul! – dedi baş tacir, təmkinlə, eyhamla. – Sübh tezdən Cənabi-Əzrayıl gəlmişdi ocağımızın başına. Dedi ki, Tanrı daha bir gün möhlət verib mənə. Sabah gəlib canımı alacaq. – Gözləri doldu baş tacirin, elə Bayandurun da sifəti aşağı axan sevinc və

kədər damcıları bir-birinə qarışdı. – Siz hazırlığınızı görün.

–Bu nə möhlətdir, ata?! – Bayandurun sözlərində hər şey bir-birinə çulğalanmışdı, səsi boğula-boğula çıxırdı boğazından, qəhər və mərdlik qüruru sanki əlbəyaxa olmuşdu.

–Halallıq möhlətidir, oğul. Tanrı buyurub ki, tacir gözü görə-görə, ağlı yerində ikən ailə üzvlərini, nökər-naibini, qul-qaravaşını bir yerə toplayıb onların halallığını alsın.

Baş tacir üzünü o yana çevirmişdi ki, məğrur böyütdüyü oğlunun göz yaşlarını görməsin. Bayandur da atasının son halını görməyə səbri, dözümü çatmadığından mətləbi yarı-yarımçıq anlayan kimi otaqdan çıxdı. Çıxan kimi də özünü cəmləşdirib ilk olaraq anasının yanına gəldi. Məsləhətləşib qul-qaravaşa qonaq otağını hazırlamaq tapşırığını verdilər.

–Onun böyüklüyü və qüdrəti sayəsində biz nə karəyik, oğul, yenə də məsləhətinə şükür. Yox yerdən xəlq elədiyi kimi vaxtı-vədəsi çatanda da yaratdığını bir anın içində yoxa çevirir. İndiyə qədər kim onun hökmünün qabağında nə edə bilib ki, biz də bir şey edək?

Geniş, işıqlı qonaq otağında qul-qaravaş məmləkətin baş tacirinə elə bir taxt hazırladılar ki, o, həm rahat uzana, həm də hüzuruna toplaşanları görə biləcəkdi. Otaq hazır olan kimi baş tacirin əyninə onun ən çox sevdiyi Təbriz jaketini geyindirib taxtına uzatdılar. Sonra ailə üzvləri, qul-qaravaş, nökər-naib; bir sözlə, baş tacirin əhatəsində və ixtiyarında kimlər vardısa, hamısı gəldi.

–Mənim əzizlərim. – Xırıldaya-xırıldaya olsa da baş tacir

danışmağa başladı. – Neçə vaxtdır ki, yataq xəstəsiyəm. Sağalıb ayağa duracağıma daha ümid yoxdur.

Yerbəyerdən qadınlar şivən qopardılar, şappıltı ilə dizlərinə vurub qiyyə çəkdilər. Kişilər “off” eləyib qəhərlərini boğmağa çalışdılar.

–Ağlamayın! İnnən belə ağlayıb-sısqamağın heç bir mənası yoxdur. Ağlayıb məni də üzürsünüz. Ulu Yaradan artıq hökmünü verib. Cənabi Əzrayıl sübh tezdən xəbər gətirmişdi. Həyatın qaydası belədir. Bir gün gələn, bir gün də getməlidir. Şükür Allaha, nəyimiz yoxdur, hər şeyimiz var. Atamdan qalan var-dövləti ən azından on dəfə artırmışam. Siz də məndən sonra Bayandurun ətrafında möhkəm cəm olun. Elə mehriban olun ki, heç bir yağı düşmən aranıza nifaq sala bilməsin. Onda hamınızın dolanışığı da olar, xoş güzəranı da. – Baş tacir sözünün bu yerində bir az fasilə verdi, boğazını təmizlədi, dili ilə dodaqlarını yaşladı və aram-aram sözünə davam etdi. – Neçə gündür yuxum ərşə çəkilib. Bu səhər gözümə təzəcə yuxu gəlmişdi, mürgüləyirdim ki, Cənabi-Əzrayıl məni yuxudan oyatdı. O dəqiqə tanıdım, Əzrayılı tanımamaqmı olar? Dedim: “Xoş gəlmisən, ağa. Gəl, canımı al, mən də rahat olum, qulluğumda duran fağır-füğəra da bu zillətdən azad olsun”. “Yaradan sənə daha bir gün möhlət verib, – dedi. – Hamını yığ başına, halallıqlarını al. Sonra gəlib rahatlanmış ruhunu Tanrının dərgahına aparacağam”. – Baş tacir şəhadət barmağının qatlanacağı ilə gözünün yaşını sildi. – Vaxt olub ki, sizi haqsız yerə danlamışam. Yorulub əldən düşənədək işlətmişəm, dinclik

verməmişəm. Əl qaldırıb döydüyüm, qamçıladığım günlər də olub. İşlədib haqqınızı ödəmədiyim günlər bir yana, ac-susuz işlətdiyim vaxtlar elə hey gəlib durur gözümün qabağında, mənə rahatlıq vermir. Daha olan olub, keçən keçib. Keçənə güzəşt deyib babalarımız. Siz də keçin mənim günahlarımdan. Halallıq verin, qoyun rahat canımı tapşırım. – Baş tacir sözünün axırını deyər-deməz qəhər onu boğdu, sifəti aşağı göz yaşları axıb getdi.

Onu heç vaxt belə zəif, üzüntülü görməmişdilər. Yazıqları gəldi tacirə.

–Nə əziyyətini çəkmişik, halal-xoşun olsun! – Yerbəyerdən elə dedilər ki, xorla alındı, səs otağın tavanına dəyib çiliкləndi, divarlarda sınıb parça-parça olaraq üstlərinə qayıtdı, qorxunc bir əks-səda yaratdı.

Baş tacirin qəhərləndiyini, zarın-zarın, hıçqıra-hıçqıra ağladığını görən Bayandur çıxmaq işarəsi verdi. Hamı çıxandan sonra Bayandurun anası bir neçə qul-qaravaşla otaqda qaldı. Göz yaşlarını silib özlərinə gəldikdən sonra baş taciri öz yataq otağına apardılar, xəstələnəndən bəri həmişə uzandığı çarpayısında uzatdılar. Sonra hər kəs öz işinin arxasınca getdi. Hərdənbir, növbə ilə xanımın ayırdığı qul-qaravaşlardan biri sakitcə baş tacirin otağına gəlib onun hərəkətlərinə göz qoyurdu ki, görsün tacir canını tapşırıb, ya yox. Bu minvalla axşama qədər gözləsələr də baş tacir həyatla vidalaşmadı. Yaxınlarından halallıq alandan sonra daha əvvəlki kimi zarımırdı, elə bil ağrıları göz yaşları ilə bərabər axıb getmişdi, bütün üzüntüləri bir anın içində yoxa çıxmışdı, bircə qüvvəsi çatmırdı ki, güc verib ayağa qalxsın.

–Yəqin ki, bu gecə canını tapşırar.

Gecə yarıdan keçəndən sonra Bayandur atasının yanında növbətçi qoyub yatmağa yollandı. Amma tezdən yataqdan qalxanda ona xəbər verdilər ki, atası hələ də canını tapşırmayıb, hətta dünənki vəziyyətindən də gümrahdır. Dərhal onun yanına yollandı.

–Sabahın xeyirlə açılsın, ata! – Bayandur ucadan səsləndi ki, atasının könlü bir az da xoş olsun. – Bir istəyin varmı?

"Allahın möcüzəsinə nə var? Bir də gördün kişini sapsağlam eləyib qaldırıb ayağa. O da qamçısını əlinə alıb, yenidən düşüb nökər-naibin üstünə, vur ki, vuracaqsan".

Baş tacir bir söz demədən əli ilə işarə verib oğlunu yaxınına çağırdı. Bayandur onun bir arşınlığında olanda astadan dedi:

–Əzrayıl yenə də gəldi, getdi, oğlum.

–Bu dəfə nə dedi? – Bayandur maraqla, bəlkə də maraqdan çox təəccüblə soruşdu.

–Dedi ki, Yaradan daha bir gün möhlət verib.

–İndi nə buyurur qurban olduğumuz?

–Buyurub ki, baş tacir indi də ixtiyarında olan heyvanların halallığını alsın.

–Onların halallığını necə almaq olar, ata? Biz ki, heyvanların dilini bilmirik.

–Çapar göndər, Buzlubeldən Ovçu Pirimi tapıb gətirsinlər. Sultan Süleymandan sonra bütün quşların, heyvanların dilini yalnız o, bilir. Sən də günorta mağalına heyvanları toplatdır.

Bayandur Ovçu Pirimin arxasınca çapar göndərəndən sonra

çobanı, naxırçını, bir də mehtərləri yanına çağırdı. Onlara tapşırdı ki, günorta heyvanın mağal vaxtı naxırı da, sürünü də Cəfərqulu çuxurundakı arxaca toplasınlar.

Elə ki, Ovçu Pirim gəlib çıxdı, onunla görüşüb hal-əhval tutdu, elə bil baş tacirin çiçəyi çırtladı, canına bir az da qüvvət gəldi. Özü dirsəklənib qalxmağa cəhd göstərdi, amma bacarmadı. Tez qul-qaravaş ona qalxmağa kömək göstərdilər, kürəyinə iri yastıqlar düzdülər ki, söykənə bilsin. O, Ovçu Pirimlə xeyli söhbətləşdi, iki dünyagörmüş qoca dünyanın gərdişini bir də ələkdən keçirdilər, keçmişdən gələcəyə uzun bir səyahət etdilər.

Gün ortaya gələndə onu gəcavəyə mindirib Cəfərqulu çuxuruna gətirdilər. Baş tacir aram-aram danışmağa başladı, heyvanlara müraciət etdi. Halallıq almaq üçün ilk əvvəl heyvanlardan ən böyüyü olan dəvədən başladı.

–Ən çox səni işlətmişəm, ay peyğəmbər heyvanı. Bəzən naxələflik edən eşşəyin yükünü də sənə yüklətmişəm. Olub ki, günlərlə yemləməyib, su verməmişəm. İndi elədiyim zülmlərə görə can verə bilmirəm.

Baş tacir növbə ilə Xallı camışdan, Xumar inəkdən, Qumral qoçdan, Mavrı pişikdən, Bozdar köpəkdən, Qara eşşəkdən, Boz qatırdan; bir sözlə ixtiyarında olan bütün heyvanlardan halallıq aldı. Axırda növbə gəlib çatdı Kəhər Ata. Ovçu Pirim baş tacirin dediklərini Kəhər Ata çatdıranda atın gözlərindən iki gilə göz yaşı sifəti aşağı süzərək gözlərinin altından sanki şehli zəmidəki kimi çəhlim saldı.

–Ölüm pis şeydir. – Kəhər At ölüm xəbərini eşidən kimi şahə qalxdı, kişnəyib dağları lərzəyə gətirdi, sanki sahibinin ölümünə qarşı üsyana çıxdı. – Heç kimə, hətta qatı düşmənimiz Yalquzaq Canavara da ölüm arzulamaram. Sən bizim sahibimizsən, üstümüzdə haqqın vardır. Tanrı bizi minilmək, ot, odun, yük daşımaq üçün yaradıb. Ömrü boyu sənin qulluğunda durmuşam, halal xoşun olsun. Bir dəfə də olsun, sənə, ailənə qarşı naxələflik eləməmişəm, harda olmuşamsa sahibimə dönük çıxmamışam. Amma sən mənim başıma bir oyun açmısan, ha çalışıramsa, onu heç unuda bilmirəm. Yadındadırmı, uzaq bir səfərə gedirdik?

–Yadımdadır. – Baş tacir Ovçu Pirimin tərcüməsindən sonra gülümsəyib Kəhər Atın sözünü cavablandırdı.

–Uzaq yolda bir bulaq üstünə gəlib çatdıq. Hər tərəf yamyaşıl idi, ot, qanqal adama boy vermirdi. Bulağın üstündə süfrə açdırdın. Dəvəylə eşşəyin, bir də qatırın qabaq qollarına cidar vurdurub çəmənliyə buraxdırdın. Bunu sən özün mehtərlərə tapşırdın, öz qulağımla eşitdim. Mənim qabaq qollarıma da cidar vurdurdun. Amma bununla kifayətlənmədin. Mənim yüyənimi eşşəyin quyruğunun altından keçən iyli quşqununa bağlatdırdın. Dəvəyə, qatıra, eşşəyə inandın, mənə inanmadın. Yüyənimi dəvənin palanına bağlasaydın, yenə başa düşüləsi idi. Eşşək kim idi ki, məni ona tapşırırdın?! Sənin qarşında o hansı xidmətləri ilə etibar qazanmışdı? Bax, illər keçib, ancaq sənin bu əməlini heç unutmamışam, unuda da bilmirəm.

… – Baş tacir hönkürdü, ailəsi, qul-qaravaşı, nökər-naibi də ona qoşuldular.

–Demirəm ki, səndən, ailəndən, yeddi dönənindən qisas alacağam. İy deyənindən kimisə yerə çırpıb öldürəcəm, öldürə bilməsəm də qol-qıçını qırıb şil-küt edəcəyəm. Xeyr! Mən sənə həmişə sadiq olmuşam, ölüncə də ailənin qulluğunda duracağam. Ancaq nə etməli? Olanları geri qaytara bilməzsən. Məni də bu cür yaradıb Ulu Yaradan. Kinli, qisasçı olmasam belə bağışlamağı da bacarmıram.

# Yağlı bəhanə

Hətəm evdən çıxan kimi əl telefonu ilə iş yoldaşı Telmana zəng atdı. Onların danışıqları əvvəldən belə idi, səhər-səhər işə gedəndə evdən hansı tez çıxsaydı o birisinə “çağırış” atırdı. Sonra öz aralarında müəyyənləşdirdikləri kimi transformatorun yanında görüşər, dairəyə qədər piyada gedib oradan keçən avtobuslardan birinə minərək iş yerlərinə yollanardılar. Transformatorun yanından dairəyə qədər olan məsafədə hal-əhval tutar, dünən ayrıldıqdan sonra eşitdiklərini, gördüklərini, televiziya kanallarından seyr etdiklərini müzakirə edər, daha doğrusu, öz aralarında qısa məlumat mübadiləsi aparardılar.

Həmin gün Hətəm transformatorun yanına gəlib çatanda Telman artıq orada idi, evləri yaxın olduğundan bir az əvvəldən gəlib onu gözləyirdi. Elə aralıdan Hətəm onun sifətinə baxan kimi sözlü adama oxşadığını hiss etdi. “Yaman sözlü adama oxşayır. Yenə nə isə var. Onsuz da ağına-bozuna baxan deyil, ağlına gələni uydurub deyəcək. İnandılar, inanmadılar, vecinə deyil. Sözünün əvvəlini, axırını heç vaxt fikirləşməyib, heç fikirləşməyəcək də. Belə yaşamağa nə var! Araz aşığındandı, Kür topuğundan!” – deyə fikrindən keçirdi. Odur ki, əlini uzadıb görüşən kimi soruşdu:

–Telman, səndən çıxmayan iş, nə yaxşı bu gün belə tez gəlmisən?

–Bu gün evə tez qayıtmalıyam. Gərək saat on ikidə evdə olam.

–Arvad yenə nə əmr verib?

–Ə.., nə arvad? Axşam Qulam zəng eləmişdi. – Telman yalnız bunu deyib söhbətinə ara verdi, eyham vurdu ki, nə isə Qulamla əlaqəli iş çıxıb ortaya.

Qulam Telmanın böyük qardaşıydı, Ukraynada yaşayırdı. Polisdə işləyib təqaüdə çıxmışdı. Heç vaxt dilinə düz söz gəlməyən Telman onun gah Ukraynanın paytaxtı Kiyevdə, gah Poltavada, gah da Kiyevin iki yüz kilometrliyində çay sahilində yerləşən hansısa əyalət şəhərində yaşadığını söyləyərdi. Hətəm dəqiqləşdirmək istəyəndə Telman inadkarlıq göstərib deyirdi ki, nə fərqi var, Kiyev də Ukraynadır, Poltava da. Telman həm də Qulamın imkanlarının geniş olduğunu, ikimərtəbəli həyət evinin, çay kənarında daçasının varlığını ağızdolusu danışardı.

Qulamın həyat yoldaşı Nadya Telmana görə, ya tatar qızıydı, ya da xoxluşkaydı, bu onun üçün fərq etməzdi, əsas o idi ki, ukraynalıydı. "Nə fərqi var, Ukrayna vətəndaşıdısa, deməli ukraynalıdı. Ukraynalıdısa, deməli xoxluşkadı" deyib dirəşirdi. Amma Qulam oğlu Ramili də, nəvəsi Vovanı da Azərbaycana gətirib İslam qaydası ilə sünnət elətdirmişdi. Telman onu da deyirdi ki, uşaqları sünnət elətdirməyə Qulamı arvadı vadar eləyib. Bəlkə elə buna görə də Nadyanın tatar qızı olduğu bir az inandırıcı görünürdü. Lakin Nadya, Vova adları tatarlara heç uyğun deyildi, o ki qaldı azərbaycanlı adlarına oxşasın.

–Hə, Qulam niyə zəng vurmuşdu, nə deyirdi? – Hətəm Telmanı intizarda qoymadı, dərhal maraqlandı, çünki

xasiyyətinə bələddi, bilirdi ki, soruşmasa danışmayacaq.

–Qızı Svetaya toy edir. Bizi toya çağırır. – Toya çağırmaq məsələsini deyəndə Telmanın səsindəki Allah əzabını Hətəm dərhal hiss etdi.

–Allah xoşbəxt eləsin. Çağırır, gedin də. Burda nə var ki? Bir də Qulam qızını kimə ərə verir?

–Sveta milyonçunun oğluna ərə gedir.

Hətəm neçə il idi ki, Telmanı tanıyırdı, bilirdi ki, onu ancaq məsələnin pul, var-dövlət hissəsi maraqlandırır, başqa tərəfləri ilə işi yoxdur.

–Oğlanın milləti nədir, tatardır, azərbaycanlıdır, yoxsa ukraynalıdır?

–Onu bilmirəm.

–Heç soruşmadın?

–Nəyimə gərəkdir soruşam. Qulam özü dedi ki, oğlan Amerikada yaşayır, çox varlıdır. Bəlkə toydan sonra Qulam da köçüb Amerikaya getdi. İndi Ukraynada da vəziyyət yaxşı deyil, dolanışıq yoxdur.

–Bəs Qulam köçüb Amerikaya getsə Azərbaycana necə gəlib gedəcək?

–Bilmirəm.

Qulam qardaşlar arasında, bəlkə də ən qohumcanlısı idi. Hər ay zəng edib hal-əhval tuturdu. İldə bir dəfə qohum-əqrəbanı görmək üçün Azərbaycana gəlirdi. Gələndə də Telman ortaya bir iş atar, böyük qardaşını qara zənci kimi işlədirdi. Bir il həyətin hasarın çəkdirdi, o biri il evin qabağında örtük (Telmanın dilincə

desək “karma”, “naves”, “besedka”) düzəltdirdi, sonrakı il qapıya beton tökdürdü, nə bilim, hər il ortaya bir iş çıxartdırdı ki, Qulamın başı iş ilə qarışsın. Həyət evi belədir də, insan ölüncə işi qurtarmaz.

Karma deyəndə Telman evinin qabağındakı həyətində düzəltdirdiyi uzunluğu on beş, eni beş metrlik, üstü dəmirlə örtülmüş yeri nəzərdə tuturdu. Qulama demişdi ki, gələn il Vovanı sünnət elətdirəndə qonaqlarımızı yığmağa qapımızda yerimiz olsun. (Guya ki, Telman toy edəsiydi Qulamın nəvəsinə, əlli-altmış nəfər qonaq yığasıydı başına) Odur ki, bu işə Qulam nəinki canı-dildən girişdi, hətta xərcin hamısını özü çəkdi. Telmana Qulamın həm də yazığı gəlirdi, iş qura, dolanışıq tapa bilməməsinə acıyırdı. Gələndə iş olsa işləyər, olmasa üç yüz, beş yüz dollar Telmana dolanışıq pulu verər və çıxıb gedərdi Sabirabada, birinci arvadından qalan qohumluq əlaqəsini üzməyən bacanağının yanına. İstəməzdi qalıb Telmana yük olsun.

Qulamın birinci arvadı Səfurə Sabirabad qızı idi. O, öləndən sonra Qulam çıxıb Ukraynaya getmiş, milis sistemində işə düzələrək qalıb orada yaşamışdı. Birinci arvada görə bacanağı olan Vidadi, insafən, yaxşı insan idi, Qulamı bircə o, başa düşürdü. Kənd adamı olsa, kasıb dolansa da ürəyi açıq adamdı, yeyib-içməyindən qalmazdı. Ayın-şayın gün keçirməyi xoşlayırdı, Telman kimi bədgüman, qaraqabaq, xəsis deyildi. Elə buna görə də Qulam vaxtının çoxunu Sabirabadda, bacanağıgildə keçirər, getməyinə bir-iki gün qalmış Bakıya qayıdar, birtəhər

Telmangildə vaxtını ötüşdürər və çıxıb Ukraynaya gedərdi. İndi onun qızına toy etmək məsələsi çıxmışdı ortaya. Bircə dəfə də olsun Ukraynaya getməyən, qardaşı Qulamın yaşayışı ilə maraqlanmayan, onun evini tanımayan, bir dəfə telefonu götürüb zəng vurmayan Telmanı dərd götürmüşdü; toya necə gedəcəkdi.

–Xeyirdimi işdən saat on ikidə qayıtmaqda, ay Telman?

–Arvadı miqrasiyaya aparacam, pasport düzəltdirməyə.

–Neynirsən arvadı, özün tək get. Həm xərcin az çıxar, həm də sərbəst olarsan. Bəlkə toyda qabağına əhlihal bir xaxluşka çıxdı, qucaqlayıb tans oynadın, sonra da xoşuna gəldin, səni bağrına basıb evinə qonaq apardı. – Hətəm iş yoldaşının xasiyyətini yaxşı bilirdi deyə atmacasından qalmadı.

–Qardaşımın qızının toyudur, mütləq arvadla getməliyəm. – Telmanın danışığından hiss olunurdu ki, bu toy məsələsi onu heç açmır, qanı elə qaradır ki, lap it qanıdır.

–Toy nə vaxtdır?

–Ayın beşi.

–Yəni fevralın beşi, on gündən sonra, eləmi?

–Hə, belə çıxır. – Telman nə düşünmüşdüsə, qanqaraçılığı getmək üzrəydi.

–Miqrasiyada pasportu bir aya düzəltdirmək qırx dörd manatdır. On günə düzəltdirmək üçün isə yüz iyirmi manat pul ödəməlisən. On gündən tez düzəltmirlər.

–Yox, öyrənmişəm, bir həftəyə də düzəldirlər.

–Lap bir həftəyə düzəltsələr belə gedib çatmazsan. Yaxşısı budur, arvadsız get, həm də az xərcin çıxar. Yüz əlli manat

pasport pulu, üç yüz manat yol pulu…, daha nə bilim, nə pulu. Sən pul xərcləyənsən?

–Sən nə danışırsan? Qardaşımın bir qızı var, arvadı toya mütləq aparmalıyam.

–Sən onsuz da elə-belə heç yerə gedən deyilsən. Güclə əlinə şans düşüb. Tək get, toydan sonra da bir həftə qal, necə lazımdırsa istirahət elə. Arvadı aparmaq sənə baha başa gələcək. Mən bilirəm axı, sən o boyda pulu ömrü boyu xərcləməzsən. Səndən pul çıxınca canın çıxsa yaxşıdır.

–Ahey, ölmüşdü xandadaş. – Telman barmağı ilə fışqırıq çalıb qımışdı. – Axşam dərhal Zahirə zəng vurdum.

Zahir Telmanın həmkəndlisi, həm sinif yoldaşı, həm də dostu idi. Bizneslə məşğuldu, Binə Ticarət Mərkəzində mağazaları vardı. Canına qulluq etməyi sevərdi. İldə iki dəfə Ukraynanın Xarkov şəhərinə gedib oradakı sanatoriyaların birində dincələr, müalicə alardı. Deyəsən, elə ora ilə də biznes əlaqələri qurmuşdu. Gələndə Xarkovdan elektrik avadanlıqları gətirərdi, gedəndə də özü ilə nə isə apарardı, ticarətçiydi, boş-boşuna gedib-gəlməyi xoşlamazdı. Həm yol pulunu, həm də müalicə pulunu çıxarardı.

–Səni öz canın, zəng vurdun, yoxsa “vızov” atdın?

–Fərqi nədir, “vızov” atdım, o, özü zəng elədi.

–Deyirəm axı, sən zəng vuran deyilsən. “Vızov” ı da elə verirsən ki, elə bil krısa “vızov” ıdır. Zəng gedib çatmadan kəsirsən. Qorxursan ki, birdən konturunu tutarlar. Hə, Zahirlə nə danışdın?

–Xarkova kimi onunla birlikdə gedəcəyik. Yeməyimizin xərcini o, çəkəcək.

–Həm arvadınla gedirsən, həm də deyirsən ki, xərcinizi Zahir çəksin. Belə də iş olar?

–Niyə olmur. Zahirin milyonu var, biznesmendir, bir az mənə xərcləsə, kasıb düşməz.

–Bəlkə Zahirin indi getmək fikri yoxdur?

–Yox, gedəcək. Dedi, bir az alacaqlarım var, alım, gedək.

–Lap yaxşı. İki dost qoşulub bir-birinizə gedərsiniz. Arvad artıqdandır. Nə qədər xərc çəkməsən arvadı özünlə aparıb gətirməyə beş yüz manatın çıxacaq.

–Qulam dedi ki, pula görə narahat olma, sən təki gəl, beş yüz dollar verəcəm, yol pulun çıxsın.

–Qulam da mənim kimidir, intuisiyası var. Bilir ki, getməyəcəksən. Belə deyir ki, bəlkə beş yüz dolların eşqinə şirnikib gedəsən.

–Yox, canım üçün mütləq gedəcəm. – Telman nə fikirləşmişdisə kefi açılmışdı, bu beş yüz dollar temperaturu deyildi, nə məsələydisə, başqa şey idi.

–Gəl, mənə nağıl danışma. Səni yaxşı tanıdığıma görə deyirəm. Nə toya gedənsən, nə arvad aparan, nə də arvada xarici pasport düzəldən. Qulamı da girinc eləmisən, Zahiri də. İndi də mənə nağıl danışmaq istəyirsən. Sən, beynində götür-qoy edirsən ki, necə edəsən, Qulam beş yüz dollar yol pulu göndərə. Onu da alıb qoyasan cibinə, heç toya da getməyəsən.

Onlar beləcə söhbət edə-edə gəlib dairəyə çatdılar. Heç üç-

beş dəqiqə gözləmədən şəhərə gedən avtobuslardan birinə minib çıxıb getdilər işə. Daha Hətəmin xəbəri olmadı, Telman evə tez qayıtdımı, arvadını Miqrasiyaya apardımı, yoxsa bunları elə-belə sözgəlişi deyirdi…

Ertəsi gün Hətəm işə getmək üçün görüş yerinə gələndə yenə də Telmanı orada gördü. Kefi yaxşıydı, üzü gülürdü, deyəsən, gecə başını işlədib bir şey fikirləşmişdi.

–Nə oldu, arvadı miqrasiyaya apardın pasport düzəltdirməyə?

–Yox, aparmadım, plan dəyişdi. – Telman qımışdı, altdan-altdan Hətəmi süzdü, sonra da barmaqlarını bir-birinə sürtüb fıştırıq atdı.

–Tək gedəsi oldun? Yoxsa qlobusunu fırladıb nə isə başqa bir şey fikirləşdiniz?

–Heç özüm də getməyəcəyəm.

–Gördün, dünən mən nə dedim? Dedim axı, sən Ukraynaya toya gedən deyilsən.

–Yox, qardaş canı gedəcəkdim. Arvad dedi ki, gedirsən, tək getmə, məni də apar. Məni aparmırsansa, özün də getmə. Mən də ha çalışdım başa salam ki, çox xərcimiz çıxacaq, alınmadı. Deyirəm, ilin-günün bu vaxtı, haramıza yaraşır min manat xərcləyib Ukraynaya toya getmək, anlamır. Həm də toya geyiləsi təzə paltarım yoxdur. Bilmirəm köhnə kostyumumu geyim, yoxsa gedib özümə cins şalvar alım. Yəqin ki, orada cins moddadır.

–Getməməyin heç yaxşı iş deyil. Qulama nə cavab verəcəksən?

–Deyəcəm ki, telefonda yaxşı eşitməmişəm. Ayın beşi deyəndə elə bilmişəm ki, martın beşini nəzərdə tutub.

–Bicbalasan ki, bicbala. Qulam sənin üçün hər şey edir, yeri gələndə dəridən-qabıqdan çıxır, siz də ona… badalaq vurursunuz.

Növbəti gün Hətəm transformatorun yanına çatanda Telman aşağıdan başılovlu gəlirdi. Elə gəlirdi ki, elə bil Hadrutun qırx erməni dığası əllərində qumbara onun dalınca düşüblər. Gəlib çatan kimi "gül" ağzını açdı.

–Axşam Qulam yenə zəng eləmişdi.

–Deməli, dünənki bəhanən işə keçməyəcək. Təzə bir şey fikirləşməlisən.

Hətəmin zarafatından Telman bir az alınan kimi oldu.

–Di yaxşı, Qulam indi nə deyirdi?

–Toya getməyimizlə maraqlanırdı. Qatarla, yoxsa təyyarə ilə gedəcəyimizi soruşurdu. Gedəcəyimiz vaxtı öyrənirdi ki, oğlu Ramilə bizi qarşılamağı tapşırsın.

–Bəs sən nə dedin?

–Dedim ki, hələ bilmirəm, neçə nəfər olacağıq. Bir də gəlsək, qatarla gələcəyik. Əvvəl Xarkova gəlib ordan da baxarıq, ya avtobusla, ya da qatarla yolumuza davam edərik.

–Əlbəttə, getsəniz yaxşı olardı. Arvadı ixtisara sal, get.

–Hə, arvadın getməyi keçdi. Həm əyin-başı yoxdur, həm də artıq xərcdir. Ancaq mən mütləq gedəcəyəm. Axşam zəng edib öyrənim, görüm Aqşin də gedəcəkmi? Getsə, iki qardaş bir-birimizə qoşulub gedərik.

–Sən necə qardaşsan? Hələ Aqşinə deməmisən? Mən sadəcə olaraq sənin hərəkətlərinə təəccüblənirəm. Elə bil heç əsgərlikdə olmamısan, ruset görməmisən.

–Qulam deyir ki, bir gün də tez gəlin.

–Düz deyir, yaxın qohumlar toydan qabaq bir yerdə olmalıdırlar. Yoxsa, toy günü hamı gələ bilər. Bir de görüm, qatara bilet almısan?

–Qatara bilet almaq problem deyil. Onların böyüyü bizim kəndçimizdir, Elyara zəng vuracam, tapşıracaq. Lap idarənin bron yerlərini götürəcəm.

–Birdən Elyar işdə olmadı? Bəlkə məzuniyyətə çıxıb? Sən niyə əvvəlcədən gedib biletini almırsan?

–Katibəsi məni tanıyır. Deyəcəm qohumuyam, kəndçisiyəm, zəng vurub tapşıracaq.

–Bilirsənmi ki, qatar Xarkova iki gündən bir çıxır. Əgər siz sabah çıxsanız, fevralın üçü olacaqsınız Xarkovda. Həmin gün ancaq ki, gedib Kiyevə çata bilərsiniz. Bəlkə də çatmazsınız. Yox, əgər sabah, qatar olmasa, birisi gün çıxsanız, gedib toya çatarsınız.

–Toy restoranda olacaq. Qapıda qurulan palatka toyu deyil ki, kənddəki kimi dirək basırıb, çadır çəkəsən. Sonra da işıq çəkib peç qurasan. Restoranda hər şey qabaqcadan hazır olur.

Fevralın biri Hətəm evdən çıxanda Telmana zəng vurmadı. Özünü inandırmağa çalışdı ki, o, bu gün işə çıxmayacaq. Amma gəlib transformatorun yanına çatanda yenə də Telmanı orada gördü. Bu dəfə lap kefi yüz biri vururdu. Barmaqları ilə çırtıq

çalıb şənlənirdi, az qalırdı ki, toy havasına indidən qol qaldırıb oynasın. Elə bil ki, Elyar Xarkova kimi və geriyə qatar biletini ona pay eləmişdi, üstündə də cibinə yüz dollar pul qoymuşdu.

–Kefin nə yaman yaxşıdır? Hə, işlər necədir? Bu gün çıxırsınızmı? Yəqin biletləri Elyardan havayı, özü də vağzala getmədən, internet vasitəsilə almısan?

–Toy məsələsi birdəfəlik həll olundu. – Telman sevincək cavab verdi.

–Necə həll olundu? Toy təxirə salındı?

–Yox, toy olacaq, ancaq mən gedəsi olmadım.

–Sağ ol, Telman. Sən hər gün sərsəm-sərsəm sayıqlayırdın, mən isə bunun belə olacağını əvvəlcədən bilirdim.

–Sənin o əziz canın üçün gedəcəkdim, ancaq belə alındı.

–Arvadla birləşib nə bəhanə uydura bildin?

–İndi Ukraynada qar dizdəndir, yarıb yerimək olmur. Mənim nə işim var orda ki, ayağımı soyuq aparsın, burnumu, qulağımı don vursun. Həm də mən getsəm burda korluq çəkəcəklər. Kim kombiləri yandırıb söndürəcək? Işıq sönər, qalarlar yaman gündə, evdə də körpə uşaq var.

–Bu bəhanələr keçməz. Sənsiz də keçinərlər. Kombilərə qardaşın da baxa bilər, o boyda yekə oğlun var.

–Hə, bir də, xəbərin yoxdur, axşam televizorda verirdilər, Ukraynanı donuz qripi götürüb başına, bir ucdan qırılırlar. Ötən gün ərzində yeddi nəfər ölüb. İlin-günün bu vaxtı mənim nə işim var Ukraynada. Gedib özüm donuz qripi tutam, sonra da gətirib salam evdəkilərə, bütün nəsil qırıla.

“Avara nəsilin qalmağındansa qırılmağı yaxıdı. Xata olub, yetmiş milyonluq Ukrayna kimi böyük bir ölkədə yeddi nəfər donuz qripindən ölüb. Onsuz da hər il soyuqdan donub ölənlərin sayı onu keçirdi. Fərqi nədir, ya donuz qripindən ölmüş, ya da elə-belə, müxtəlif şəraitdə?”

–Pah atonnan baş yiyəsi! Gör fikirləşib necə gözəl bəhanə tapıblar eee… – Hətəm qəflətən fikirdən ayrıldı, özündən asılı olmayaraq əllərini bir-birinə vurub qəşş elədi. – Telman, bu, yaman yağlı bəhanə oldu ha, lap donuzun salası kimi.

# Qız Təvəkgülün brend ayaqqabısı

Gün çoxdan günortanı keçmişdi. Evdə tək idim, divanda oturub televizorda gedən verilişlərdən hansınısa seyr edirdim. Reklamlar başladı, ticarət mərkəzindəki ayaqqabıların sərgisini göstərdilər. Jurnal masasının üstündəki pultu götürüb başqa kanallarda nə getdiyini yoxlamaq istəyirdim ki, pəncərə döyüldü:

–Tak, tak…, tak, tak, tak…

Danqıltıdan hiss elədim ki, gələn qonşulardandır; ya Bahəddindir, ya da uzaq qohumlardan olan Təvəkgül.

Hündür binaların arxasında yerləşən ərazidə yaşayırdıq, burda hamı bir-birini tanıyırdı. Qaçqınçılıqdan bir-neçə il sonra, hardasa iyirmi il bundan əvvəl salınan məhəllə elə kəndə oxşayırdı. Kənddə hamının hər şeydən xəbəri olduğu kimiydi. Burda Bahəddinin başına nələr gəlməmişdi, zarafata salıb deyirdilər, bircə ağıldan savayı. O da kəmhövsələ və hüttülümlüyündən irəli gəlirdi. Nə deyilənləri eşidirdi, nə də öz düşüncəsi vardı. Yaşı yetmişi haqlasa da əlindəki çəliklə qapı-pəncərəni elə döyürdü ki, elə bil durduğu yerdə havalanıb, davaya gəlib. Az qalırdı ki, şüşələr cilik-cilik olub yerə tökülsün. Adamı çağıranda balaca uşaq kimi çağırırdı, çağırırdı yox e.., cavab verilənədək dayanmadan çağırırdı.

–Həsən, ay Həsən. Həsən, ay Həsən. Həsən…, Həsən…

Gözləmək yoxdu ki, çağırdığı adam qapıya çıxıb hay versin.

Təvəkgülün də onunla oxşar cəhətləri çoxuydu. Bircə fərq

onda idi ki, Bahəddin özünə təzə bir şey alanda onu bir müddət gizlətməyə çalışırdı, Təvəkgül isə həmin dəqiqə əyninə geyinib qapı-qapı gəzər, hamıya; qonum-qonşuya, dost-tanışa, qabağına çıxan hər kəsə təzə aldığını göstərərdi. Bahəddin Pişik ilində dünyaya gəlmişdi, amma bürcünü özü də bilmirdi. Gah yayın cırhacırında doğulduğunu söyləyər, pələng, şir olduğunu car çəkir, gah da qışın oğlan çağında doğulduğunu bildirər, "məndən heç kim baş açmaz, dolçayam" deyərdi. Təvəkgül isə qız bürcündə dünyaya göz açmışdı, işi-gücü güzgüyə baxmaq, özünə bəzək-düzək vurmaqdı. Məhlədə hamı onların bu xasiyyətlərinə öyrəşmişdi.

Molla Əsgər deyirdi ki, məmləkətdə ərəblərdən qalma bir adət var, uşağa ad qoyanda onun qulağına "Quran" duası oxunur, sonra da adına layiq olmaq tapşırığı tövsiyyə edilir. Bahəddinə ad qoyan qulağına necə üfürübsə yetmiş ildir ki, onu qulağından çıxardıb ata bilmir. Kim ona nə deyirsə, nə danışırsa, doğruluğuna, yalanlığına fərq qoymur, dinləyir və sonda şübhəylə yanaşır:

–Baah!

Təvəkgülün də atası evlilikdən sonra uşağının olmamasından bərk narahatçılıq keçirib. O yer qalmayıb ki, müalicəyə getməsin. Axırda ona məsləhət görüblər ki, arvadını da götürüb bir molla yanına getsin. O, inanmasa da buna əməl edib. Molla "Allaha təvəkgül" deyib yola salandan sonra atasının beynində bir fikir hakim kəsilib: "Uşağım olsun, adını Təvəkgül qoyacam" və niyyəti hasil olub.

…Odur ki, dərhal ayağa qalxıb dəhlizə çıxdım ki, evin giriş qapısını açıb gələn qonağı qarşılayım. Qapını açan kimi qarşımda Təvəkgülü gördüm. Tez onu başdan ayağadək süzdüm ki, görüm üst-başında nə yenilik var.

Həmişəki kimi idi – şux duruşdaydı, səliqəli geyimindən, bir də saçını arxaya daramasından hiss olunurdu. Saçı səliqəli olsa da bu günlərdə bərbərxanaya gedənə oxşamırdı. Gözündəki qara eynək də təzə deyildi, ötən ilin payızında da həmin eynəyi Təvəkgülün gözündə görmüşdülər. Əla pencəyi, güllü köynəyi, enli dəri qayışı, boz mil-mil butulka şalvarı; əynində nə vardısa hamısı köhnəydi. Köhnə deyəndə, yəni bir müddət əvvəl alınmışdı, artıq neçənci dəfəydi geyilirdi. Ayaqqabısına baxdım, amma ayırd edə bilmədim. Təvəkgül paltarını çox səliqəli geyinirdi, ayaqqabısını da tərtəmiz parıldadandan sonra ayağına taxardı. Hətta şotka ilə təmizləyib kremləyəndən sonra da geyinməzdi, ya məxmər, ya da keçə parçası ilə sürtüb par-par parıldatmayınca rahatlıq tapmazdı.

–Salam, Təvəkgül. Niyə qapıda durmusan? Keç içəri.

Xalaxətrin qalmasın təklif etdim, gəlməsə də təklif etməyəndə inciyirdi. Bir həftə üzü o tərəfə gedirdi. Bir həftə də gileylənər, sonra sakitləşərdi.

–Qonağı belə qarşılayarlar?! – Təvəkgül nəyə isə eyham vurdu, təxmini bilsəm də ayırd edə bilmədiyimdən heç nə demədim.

–Sənə yüz kərə demişəm ki, pəncərəni elə döymə. – Mən onu qabaqladım. – Bir də gördün şüşəsi sındı. Mart ayında soyuqda

qalmalıyıq ki? İndi…

–Sən axı köhnə çekistsən, gözündən tük də yayınmamalıdır. – Təvəkgül durub baxdı, baxdı, bir də eyham vuranda bildim ki, təzə nə isə alıb.

–Ee…, ay Təvəkgül! – Sağ əlimi sağa-sola hərlədim. – Vallah, istəyirdim deyəm, ancaq nədənsə saxladım.

–Yaxşı, görək. Bircə öncə görənlik edib “ayaqqabı darlıqdır” demə. Bircə bu ilaxır çərşənbəsinə xatır köhnə fikirlərini unut. Ayaqqabının heç bir darlığı-filanı yoxdur. Ayaqqabı ki, ayağa rahat oturdu, canın elə rahatlaşır ki, elə bil dünyanın rahatlığını yığıb sənə veriblər. Lap cənnətdəki kimi özünü hiss edirsən. Bircə huri-mələklərin çatışmır.

–Ədə, yenə huri-mələklər?! – Yarıciddi, yarızarafat sifətimi bozartdım Təvəkgülə. – Sənin bu köhnə fikirlər deyə nəzərdə tutduqların min illərin sınağından keçib, özünü doğruldub. Bunlar elə-belə deyim deyil axı.

–Bəlkə o vaxtın ayaqqabıları rahat deyilmiş, darrıq gətirirmiş?

–Ə, sən nə danışırsan? O vaxtın ayaqqabıları ən rahat ayaqqabılarımış. O vaxt çarıq geyirmişlər, çarıq.

–Sən indi mənim ayaqqabımı qeyd eləməyəcəksən?

–Əlbəttə edəcəyəm. Ancaq əvvəlcə pəncərədən şotka ilə kremi götür, təzə ayaqqabılarını tərtəmiz təmizlə. Axı mən sənin ayağında heç vaxt tozlu, çirkli ayaqqabı görməmişəm.

–Mənim xasiyyətimə bələd deyilsən? Mağazadan təzə aldığım ayaqqabıya ən azı üç gün şotka, krem vurmuram ki, parlaqlığı pozulmasın.

–Üç gün e.., üç günə bir bax. Sən özünü harda hiss edirsən? Parisdə, Londonda, Berlində, Tokioda, yoxsa Pxenyanda? Bəlkə Amerikada? Bəlkə Rusiyanın, Ukraynanın yamyaşıllıqlarla əhatələnmiş mərkəzi şəhərlərində? Yəqin sən unutmusan ki, küləklər və liman şəhəri Bakıda yaşayırsan. Bakıda üç gün yox, heç üç saat da ayaqqabını təmiz saxlamaq mümkün deyil. Mən də baxdım ki, Təvəkgül ayaqqabısını harda belə toza, torpağa batırıb. Sən axı hərdənbir xoşlayırsan təzə tikilən hündürmərtəbəli binaların həndəvərində fırlanıb, nə vaxtsa həmin binalarda özünə mənzil almağına xəyal qurasan.

Danışa-danışa içəri keçdik. Mətbəxdə, qazın zəif xodunda dızıldayan çaynikdən hər ikimizə açıq rəngli çay süzdüm. Çay içə-içə söhbətimizi davam etdirdik.

–Bilirsən ki, mən hər ayaqqabını ayağıma taxmaram. Mənim geydiyim ayaqqabı ancaq brend mal olmalıdır.

–Əlbəttə, əlbəttə. Mənim kimi dəyirmanın arxasındakı sexdən Elxanın tikdiyi dermantin ayaqqabılardan alıb geymirsən ki…

–Elxan da yaxşı ayaqqabı tikir. Onda bəzən dəriəvəzedicilər də olur. Ancaq.., mənlik deyil, onun tikdiyi ayaqqabılar mənim zövqümdə olmur.

–Təzə aldığın ayaqqabı Türkiyənindir, yoxsa Kitayın?

–Yalan nə deyim. Özün bilirsən ki, indi ancaq Türkiyədən, bir də Çindən mal gətirirlər. Kim də deyir ki, Dubaydan, İndoneziyadan, Avropadan mal gətirirəm, bil ki, yalan deyir. İndi Çində bütün dünya mallarının poddelkasın hazırlayırlar. Mənim

ayaqqabım da Kitaydan gəlib, amma təmiz fabriçnidir, brenddir.

–Təvəkgül, mənim də ayaqqabım köhnəlib. Təzəsini hardan ala bilərəm?

–Botinkanı deyirsən?

–Bundan belə botinka geyəcəm? Bu gün-sabah istilər düşür, əlbəttə ki, tufli almaq istəyirəm.

–Mən sənə bir yaxşı yer deyim, get, ürəyin istədiyi ayaqqabını, özü də başqa yerdə satılan qiymətdən xeyli ucuz al.

–Allah köməyin olsun, de.

–Gedirsən "Karvansaray" ticarət mərkəzinə. Axtarıb tapırsan, ikinci cərgə, 73-cü mağaza. Deyirsən ki, Təvəkgülün qohumuyam.

–Kimə deyirəm?

–Kimə deyəcəksən, satıcıya. Mağazanı iki qardaş işlədir, kəndçilərimdir. Böyük qardaşın adı Anardı, kiçik qardaşın adı Arif. Dindar uşaqlardı, namaz əhlidirlər. Çox yaxşı qardaşlardır, milyonerdilər.

–Hə, hə, deyəsən, Anarı tanıyıram. Bir-iki dəfə hüzür məclislərində görmüşəm. Bunu mənə özü də deyib. Həmişə gileylənir ki, Şiştəpə camaatı gəlib bizdən alver eləmir, gedib başqalarından alır.

–Düz deyir də. Şiştəpə camaatı qırx mindən çoxdur. Hər kəs azından ildə üççə cüt ayaqqabı geyir. Hamı gedib Anarın mağazasından ayaqqabı alsaydı, heç bilirsən nə olardı?

–Nə olacaqdı?

–Anar beş ilə milyarder olardı.

–Bəlkə bankrot olardı?!

–O da ola bilər. Anar axı ayaqqabıları özününkülərdən hamıya güzəştlə satır.

–Yaxşı, görək. İndi elə alverçi qalıb? Ola bilər ki, Şiştəpə mahalında yaşayanda xətir-hörmət var idi. Gör, ermənilər o – suyu saf, havası təmiz, təbiəti gözəl səfalı yerlərdən neçə ildir qovub çıxarıb. Düz iyirmi beş ildir. Ötən bu iyirmi beş ildə hamı dəyişib. İndi şiştəpəlilərdən heç bir şiştəpəlilik qalmayıb.

–Elə demə. Dur, get, ayaqqabını al, özün görəcəksən ki, Anargil necə şiştəpəlidir.

–İndi çataram? – Mənə elə gəldi ki, Təvəkgül belə deməkdə nəsə bilir, inanmaq istədim.

–Niyə çatmırsan? Ticarət Mərkəzində mağazaların bağlanmağına hələ iki saat qalıb.

İkimiz də ayağa qalxıb evdən çıxdıq. Avtobus dayanacağına qədər birlikdə getdik. Təvəkgüldən ayaqqabısını necə aldığını, neçəyə aldığını qəsdən soruşmadım. Bilirdim ki, necə olsa özü danışacaq. Elə darvazadan çölə çıxmışdıq ki, dilləndi:

–Mənim ayaqqabımdan alacaqsan?

Bilirdim ki, qız Təvəkgül bunu da soruşacaq. Ona qalsaydı bütün məhəllənin kişilərinə öz ayaqqabısından aldırardı. Sonra da qürrələnib deyərdi ki, baxın, bu ayaqqabıları məhəlləyə mən mod salmışam. Qız Təvəkgül ki, qız Təvəkgül. Hər kim ad qoymuşdusa, Allah qəni-qəni rəhmət eləsin, diriyə də rəhmət düşür, torpağı sanı yaşasın, özüydü ki, vardı.

–Yox. Mən ondan ala bilmərəm, sən axı bahalı ayaqqabı

geyinirsən.

–Heç bilirsən ayağımdakı bu ayaqqabılar neçəyədir?

–Ən azından yetmiş-səksən manat olar.

–Anargil bunu altmış manata satırlar.

–Müəllim babayam. Mən altmış manata ayaqqabı ala bilmərəm. Bəs sən neçəyə aldın? Deyirsən ki, Anargil həmyerlilərimizə güzəştlə satırlar?

–Deyəcəm, inanmayacaqsan.

–Sən de, mən inanaram.

–Arif mənim əsgərlik yoldaşım olub. Gecələr hərbi hissənin yeməkxanasında birlikdə o qədər kartof, ət, balıq qızardıb yemişik. Hə, indi də üç gün əvvəl getmişdim ayaqqabı almağa. Arif snikerslə çay təşkil elədi. Oturub çay içə-içə söhbət edirdik. Müştərilər də gəlib-gedirdi. Onları Anar yola salırdı. Gözüm bir ayaqqabını tutmuşdu. Tələsirdim ki, ayaqqabını alıb gələm. Arif isə əl çəkmir, söhbəti uzadırdı. Qorxurdum ki, kimsə gəlib həmin ayaqqabını alar. Anarın xasiyyətinə bələdəm, hər ayaqqabıdan bir cüt gətirib qoyur vitrinə. Həmin ayaqqabı satılmayınca anbardan yenisini gətirmir. Birdən mağazaya bir oğlan gəldi, kopya mənə oxşayırdı, boyumuz da eyni olardı, tanımayan olsaydı, deyərdi əkiz qardaşımdır. Vitrindəki ayaqqabılara baxmadan gəlib durdu həmin ayaqqabının yanında. O dəqiqə ürəyimə damdı ki, ayaqqabıları alacaq. Bilirsən də, həmişə mənim ağlıma gələn başıma gəlir. İstədim durub qışqıram ki, ayaqqabılara dəymə, onları özüm alacam. Elə bil məni eşitdi, götürüb baxdı və sonra da ayağına geydi. Bir az o

tərəfə getdi, bir az bu tərəfə gəldi, rahatlığını yoxladı. “Əladır, götürürəm” deyib pulunu ödədi və köhnə ayaqqabılarını bir sellafon torbaya qoyub çıxıb getdi. Əlim qaldı ağzımda.

–Neçəyə satıldı həmin ayaqqabı?

–Altmış manata.

–Alıcı bazarlıq eləmədi?

–Nəyin bazarlıq eliyəcək? Görmür ki, brend ayaqqabıdır. Dərhal pulunu çıxardıb verdi.

–Deyirəm də. Hər ayaqqabı sənin xoşuna gəlməz, zövqün əladır.

–Hə. Arif narahatçılığımı dərhal hiss elədi. Juk uşaqdı, sözü serçənin dimdiyindən yox, gözündən tutur. Soruşdu ki, niyə narahat oldum. Dedim, heç. Ayaqqabıya diqqətlə baxdığımı hiss etdiyini bildirdi. “Day, nəyə soruşursan, gördün ki, ayaqqabıdan xoşum gəldi” dedim. Gülə-gülə dedi ki, narahat olma, sənə də taparıq. Ayağa durdu, gedib pərdənin dalından bir korobka gətirdi, qoydu qabağıma. “Aç yoxla” dedi. Korobkanı açanda gözlərimə inanmadım. Həmin model, həmin rəng, mənim ayağımın razmerində. Gördü ki, baxa-baxa qalmışam, Anar dilləndi. “Təvəkgül, sən özümüzünküsən, Arifin dostusan. Səndən artıq pul ala bilmərik. On üç manat mayasıdır, ikicə manat da qoy üstünə, mağazanın yer pulu, apar, can sağlığıynan gey”, dedi. Sevincimdən bilmirdim neyləyim, Arifi qucaqladım, tələsdiyimdən eləcə başından öpdüm.

Söhbət edə-edə gəlib dayanacağa çatmışdıq. Mən Ticarət Mərkəzinə gedən avtobusa minib yola düşdüm.

“Karvansarayda" müəyyən bir qanunauyğunluq vardı; birinci iki cərgə ayaqqabı, sonrakı iki cərgə qadın, uşaq paltarı, sonra kişi geyimləri, xırdavat və digər ləvazimatlar üzrə sıralanırdı. Dərhal ikinci cərgəyə daxil oldum. Çoxdandır gəlmirdim, vitrindəkilər hamısı mənim üçün yeni ayaqqabılardı. Xəbərim olsun deyə yeni modellərlə, qiymətlərlə maraqlanmağa başladım. Gəlib Anarın mağazasına çatanda artıq xeyli məlumatım vardı, mənə münasib hansı ayaqqabının neçəyə satıldığından xəbərdardım. Anar mağazada yoxdu, ona oxşayan başqa adamla qarşılaşdım, görünür qardaşıydı, bəlkə də Təvəkgülün dostu Arifdi. Bir neçə ayaqqabı göstərib qiymətlərini soruşdum. Satıcının dediyi qiymətlər çox yuxarıydı, əlimdəki ayaqqabını tez vitrinə qoydum, istisi az qala əlimi qarsacaqdı. Dodaq büzüb narazılığımı bildirdim. O da qiymətlərdən xəbərdar olduğumu hiss elədi.

–Siz başqa mağazalardakı qiymətlərə baxmayın. Onların hamısı ya kitayskidi, ya da sex məhsuludu, özü də dəriəvəzləyici sırtıq dermontindən tikilib. Bizim mağazadakı ayaqqabılar isə hamısı türk malıdır, fabriçnidir, həm də brenddir.

Ayaqqabılara bir də nəzər saldım, əksəriyyəti sex malıydı, özü də Elxanın sexində tikilən ayaqqabılara oxşayırdı. Sex olanda nə olar? Guya ki, sex malı əl ilə tikilir? İndi hər yerdə maşınla tikirlər, bir fərq ondadır ki, usta işinə nə qədər diqqətlə yanaşır.

Nəhayət, tanışlıq verdim, onsuz da ayaqqabı almağa gəlmişdim, razılaşıb münasib qiymətə bir ayaqqabı almalıydım.

–Onda Anarı çağırım. – deyə satıcı bildiyim oğlan, yəni Arif,

pərdənin arxasına keçib pilləkənlə yuxarı qalxdı və heç bir dəqiqə keçmədən Anarla qayıtdı.

–Hə, müəllim, xoş gəlmisən. – Tanıdı, elə aralıdan hal-əhval tutdu, bir az da yuxulu-yuxulu danışdı.

–Xoş gününüzə gəlmişəm.

–Ayaqqabı almaq istəyirsən?

–Həə. Özün gileylənirsən ki, gəlib səndən ayaqqabı almırıq. Mən də gəlmişəm almağa, amma ala bilmirəm.

–Xeyir ola, ala bilmirsən? Xoşuna gələn ayaqqabı yoxdur?

–Əksinə, xoşuma gələn ayaqqabılar çoxdur. Amma elə qiymətlər qoymusunuz ki, müəllim maaşı ilə belə ayaqqabılar geyməyə çatdıra bilməzsən.

–Eee…, ay müəllim, indi kimdə pul var ki? Pul bir “Atabank” dadı, bir də müəllimlərdə.

–Bax, bu ayaqqabını götürmək istəyirəm. – Xoşuma gələn ayaqqabını göstərdim.

–Nə olar, götür. Neçə razmer geyirsiniz?

–Baxmışam. Bu ayaqqabı elə mənim ayağımın razmerindədir, 43-dür.

–Bəlkə bir də geyib baxasınız?

–Ehtiyac yoxdur, yoxlamışam.

–Baxın, müəllim. Siz bəyəndiyiniz ayaqqabının satış qiyməti 60 manatdır. Amma biz həmyerliyik. Təsəvvür edək ki, siz ayaqqabını indi yox, 20 gün əvvəl almısınız, yəni sonuncu bahalaşmadan əvvəl. Onda qiyməti 35 manat idi. Siz də köhnə qiymətlə ödəyin, demək olar ki, maya dəyərinə.

“Bu nə danışır? Bəs Təvəkgül deyirdi ki, maya dəyəri 13 manatdır”. Öz-özümə düşündüm.

–Lap beş manat da biz güzəştə gedərik. – Anar çox düşündüyümü görüb dilləndi. – Bu gün axı əziz gündür, ilaxır çərşənbədir. Bayrampayı olsun.

Başımı buladım, dilucu sağollaşıb geriyə qayıtdım. “Day bura nəyə gəlirdin? Gedib dəyirmanın arxasında Elxanın sexində iyirmi manata alardın də!” Anar arxamca astadan mızıldasa da dediklərini eşitdim, amma əhəmiyyət vermədim. Birinci mağazada eyni ayaqqabını 25 manata vitrinə qoymuşdular. Həmin mağazaya qayıdıb satıcı ilə bir az çənə döyəndən sonra iyirmi manata razılaşıb aldım. Mağazadan çıxmaq istəyirdim ki, telefonuma zəng gəldi.

–Alo, eşidirəm.

–Nə oldu? Çatdırıb ayaqqabı ala bildin? – Qız Təvəkgül idi, səsindən tanıdım.

–Hə, elə sənin ayaqqabından aldım.

–Neçəyə?

–On manata. Anar dedi ki, dəriyə oxşasa da dəri deyil, sırtıq dermontindir. – Özüm qəsdən belə dedim. – Maya dəyəri səkkiz manatdır. İki manat da yerpulu ver, götür.

–Ax, əclaf. Deməli, məni də aldadıb? Bu da mənim həmyerlim, əsgərlik yoldaşım.

–Nə olub, dostluğunuz elə bura qədərmiş?

–Sabah gətirib qaytaracam, başına dəysin brend ayaqqabısı. Üç gün deyil geydiyim. İndi baxıb görürəm ki, böyrü sökülüb.

# Əlimdən pul iyi gəlir

Qatar rayon mərkəzinə lap obaşdan çatdı, hava təzəcə işıqlaşırdı. Onlar qatardan düşən kimi birbaş polis idarəsinin qabağına gəldilər. “Hikməti bilmək olmaz, bir də gördün yataqdan qalxan kimi elə yuxulu-yuxulu durub işə gəlib. Qoy, bizi qapının ağzında görsün, belə yaxşıdır. Rəis adamdır, sonra müşavirə keçirər, qəfildən harasa gedəsi olar… Boşuna vaxt itirməyə dəyməz…” Qafur fikrini belə bildirdi, hər ehtimala qarşı işlərini ehtiyatlı tutmağı tövsiyyə etdi. Nə olsun ki, haçansa bir yerdə işləyiblər, indi o kim, bu kim… əmoğlu deyil, dayoğlu deyil…

Hikmət rayon polis idarəsinin rəisi idi, polkovnik rütbəsini təzəcə almışdı, üç-dörd ay olardı, ya olmazdı, necə deyərlər, hələ paqonları par-par parıldayırdı, gün vurub bozartmamışdı… Qafurla birlikdə Qarabağ uğrunda ermənilərlə gedən döyüşlərin birinci mərhələsində iştirak etmişdi. Döyüş əməliyyatları dayandırıldıqdan sonra Qafur polis sıralarından çıxmış, Hikmət isə qulluğunu davam etdirmək üçün sistemdə qalmışdı.

Qafur qismən yaradıcılıqla məşğuldu, son vaxtlar xatirələrini, xüsusən də müharibə xatirələrini yazırdı. Başqa döyüşçü yoldaşları kimi Hikmətin də bundan xəbəri vardı. “Mənim də şücaətlərimi işıqlandır, gəl, kitabın çapına kömək edəcəm”, demişdi. Qafur da bundan xeyli fərəhlənmiş, neçə ildir dostluq, yoldaşlıq etdiyi Vaqifi də götürüb gecə ilə qatara minib Hikmətin

polis rəisi işlədiyi rayona yola düşmüşdülər.

Düzdür, rayona çıxmazdan əvvəl zəng vurub əlaqə saxlamağı da unutmamışdı. Hikmət sadəcə "gəl" demişdi. İndi Qafurun uçmağa qanadı yox idi, axır ki, onun da işini bəyənən, dəstək duran tapılmışdı. Yoxsa o birilər kimi… hərə ağzını bir tərəfə tutub gileylənmişdilər. "Sənin də işin-gücün yoxdu deyəsən, oturub köhnə palan içi tökürsən… Vallah, buna görə heç kim sənə "sağ ol" deməyəcək…"

…Taksidə rahat otura bilmirdi, elə hey vurnuxurdu Qafur, elə bil iynə üstündəydi. "Yəqin ki, beş yüz manat verər… Polkovnik adamdır… Qəpik-quruşdan ötrü mənə o boyda yolu "gəl" deməzdi ki…" Qafur düşünür, özlüyündə götür-qoy edirdi. Vaqif də onun xasiyyətini yaxşı bildiyindən elə hey ürək-dirək verirdi. "Sən polisdə işləsən də onları yaxşı tanımırsan. Polislər pul hərisi olurlar. Qazanmaqda həris, xərcləməkdə xəsisdirlər. Sən heç olmasa min manat istə ki, o da beş yüz manat versin. Yoxsa beş yüz desən, heç üç yüz manat da ala bilməyəcəksən…"

–Yaxşı görək… Sən də səhər-səhər qara bağlama… Hikmət əlaçıq adamdı, çörək verəndi. Təkcə onun özündən yox e.., danışanda səsi gəldiyi telefondan da həmişə çörək ətri gəlir. Döyüşlər gedən vaxtı da beləydi. Həmişə bizə beş-on manat çörəkpulu verib deyirdi: "Uşaqlar, bu avansdı. Mənim işim çıxdı, bir kəndə düşüm, gəlirəm. Həm də yaman qaşınma tutub məni. Gedim çimim, paltarımı dəyişim, görüm nədir belə…? Siz mənim əvəzimə də postda durarsınız…" Növbədən qayıdan kimi də həmişə bizə qonaqlıq verərdi. Biz onda heç vaxt xəsislik

görməmişik. Sağlıq olsun, indi özün də görəcəksən.

–Nə deyirəm ki…? Təki, sən deyən kimi olsun. Amma zamanı qarışdırma. O vaxt döyüşlər gedirdi, heç nədən adamın bədəninə üşütmə düşürdü, bit-birə yeyirdi, indi sakitçilikdir, əmin-amanlıqdır…

Onlar polis idarəsinin qabağına çatanda darvazanın ağzında yaşı yetmişdən yuxarı, saçları pambıq kimi dümağ olan arıq, uzunsov kişidən başqa heç kim yox idi. Vaqif taksi sürücüsünün bir manatını verib yola saldı.

–Sabahın xeyir, ağsaqqal. – Qafur kişini mehribancasına salamladı. – Hikmət müəllim gəlibmi?

–Aqibətiniz xeyir. – Kişi astadan onların salamını cavablayıb zəndlə baxdı. Bu sabah-sabah onların kimliyini müəyyənləşdirməyə çalışsa da bir şey anlamadı, amma yəqinləşdirdi ki, bura adamı deyillər, hər kimdilərsə, gəlmədilər. – Bir az olar gəlmişəm, deyirlər ki, Babayov hələ gəlməyib.

Qafur indi xatırladı ki, onu heç o vaxt da adı ilə çağırmırdılar, hamı Babayov deyirdi. Amma indi böyümüşdü, adlı-sanlı polis rəisi olmuşdu, havayı deyildi, polkovnik rütbəsini almışdı. Polis polkovniki olmaq hər kəsin hünəri deyil. Mənəm-mənəm deyən kişilər iyirmi beş il, otuz il polisdə can qoyurlar, ancaq polkovnik rütbəsinin həndəvərinə də düşə bilmirlər. Hikmət isə bunu bacarmışdı. Bacardığı kimi də insanların ona olan münasibətini əks istiqamətə çevirə bilmişdi. Bir vaxtlar yuxarıdan “Babayov” çağıranlar indi “Hikmət müəllim” deyib qabağına yüyürürlər,

az qala əlini öpməyə çalışırlar. İndi hər adam ona "Babayov" kimi müraciət etməyə ürək eləməzdi. Qocanın belə diri-diri danışması Qafurun xoşuna gəlmədi, sifətini turşudub soruşdu:

–Xeyirdimi? Siz də onu gözləyirsiniz?

–Həə… Dünən oğlumu naxır otardığı yerdə tutub gətirib dama basıblar.

–Bilmirsən, nə üstündə?

–Heç nə… Adını qoyublar ki, Fatmanın sarı inəyini sağırmış.

–Elə isə… heç narahat olma. Hikmət müəllim yaxşı adamdır, ədalətlidir, gələr, kömək eliyər.

–Deyəsən… – Kişi tərs-tərs Qafuru süzdü, – siz onu yaxşı tanımırsınız…

–Nə bilim, biz də adını eşitmişik. – Vaqif Qafuru qabaqladı ki, ağzını Allah yolunda qoyub qurd-quran açmasın, başqa söz danışmasın, deməsin ki, bəs bağ belə, bostan belə… – Bir işlə bağlı gəlmişik, görək bizə nə kömək eliyəcək…

–Xudaya Pərvərdigara heç kimin işini ona salmasın, gavurun biridi. Babayov rəis gələndən sonra rayonda şərlənməyən başıpapaqlı qalmayıb. Beş-altı ayağısürüşkən qancığı tovlayıb tələyə salıblar. Mahalda kişi qoymayıblar. Beş dəyqənin içində qancıqları dirəndirirlər üzlərinə, tutub salırlar dama. Dərilərini soymayınca buraxmırlar.

Qafur yavaşca Vaqifin qoluna toxundu.

–Bir az aralaşsaq yaxşıdır. Bu səfeh qoca hələ çox sarsaqlayacaq. Hikmət müəllim də bunu tanımamış olmaz, gəlib bizi qocanın yanında görsə, yaxşı düşməz.

Sakitcə ikisi də yolun o biri tərəfinə keçdilər. Qoca da arif adamdı, dərhal bunu hiss edib susdu, daha heç nə demədi.

Rəisin maşını döngədən görünəndə düz ona on beş dəqiqə qalırdı. Qara “JEEP"də Hikmət qabaqda oturmuşdu, keçmiş qarnıyoğun kolxoz sədrləri kimi də sağ əli ilə yuxarıdan tutmuşdu. Tutmuşdu yox e, az qala qarnını saxlamaq üçün lap sallaşmışdı, amma Hikmətdə, deyəsən, qarın bir o qədər də böyük deyildi. Sol əlində telefon tutmuşdu qulağına, kiminləsə danışırdı. Bəlkə də elə belə tutmuşdu, heç danışmırdı. Qafur uzaqdan onu görən kimi tanıdı.

–Necə də yeyib şişib. Sifəti Qaradağ kubiki kimi dümdüzdür. – Vaqif Qafurun işarəsindən gələnin Hikmət olduğunu bildi.

–Maşallah olsun de! – Qafur təsibçəkənlik elədi. – Hardan tanıdın? Sən axı onu heç görməmisən…

–Sənin hərəkətlərindən tanıdım.

Darvaza dərhal açıldı və qara “JEEP” gəldiyi sürətlə idarənin həyətinə daxil oldu. Heç gözünün ucu ilə də darvaza ağzında dayananlara tərəf baxmayan Hikmət eləcə telefon qulağında maşından endi. Qapının ağzında dayanan növbətçi qabağına yeriyib məruzə etsə də rəis əhəmiyyət vermədi, görünür, kiminləsə çox vacib bir işlə bağlı şirin-şirin danışırdı.

Birdən nə oldusa sağollaşmadan cəld hərəkətlə telefonu aşağı endirib cibinə qoydu. Sağ əlinin içini üç dəfə öpüb gözünə sürtdü, alnına yapışdırdı.

–Gördün?! – Qafur sevincək dilləndi.

–Nəyi? Kimi? – Vaqif təəccüblə soruşdu.

–Doğrudan görmədin? – Qafur bir də soruşdu. – Səni dədəyin goru, görmədin?

–Yoox!!!

–Sən nə maymaq adamsan! Adam gərək dördgöz olmalı, ətrafında nə varsa, hər şeyi görməlidi.

–Görmədim də… Öldürəcəksən məni? Hələ bir utanmırsan, gora da and verirsən…

–Gözü kor olasan ki, belə mənzərəni görməyəsən! – Qafur şaqqanaq çəkib güldü. – Görmədin Hikmət necə əlini öpüb alnına qoyur, mərcan gözlərinə sürtür? Eşitməmisənmi, müdrik bir el məsəli var. Deyirlər sağ əl qaşınanda bil ki, pul gələcək. Dərhal öpüb alnına qoymalısan, gözlərinin üstünə sürtməlisən ki, pul əzizlənəcəyini görüb gəlsin, yoxsa, gəlməz.

–Həə, nə olsun!

–Necə yəni nə olsun? Sən belə şeyləri başa düşməzsən, ay yazıq, ömrü boyu quruca dövlət maaşına işləmisən. Sən axı kənardan qazanılan pulun dadını hardan biləsən. Geridəqalmış kəndçinin birisən…

Onlar sözləşincə Hikmət gözdən itib binaya daxil olmuşdu. Heç onlara əhəmiyyət də verməmişdi, görməyinə yəqin ki, görmüşdü. Neçə illərin təcrübəsini çiynində daşıyan polis rəisi kimi darvazanın ağzında dayananları nəzərdən keçirməyə bilməzdi.

–Zəng elə, yadına sal. İndi otağına keçəcək. Səhər-səhər qaymaqlı kofe içəcək. Sonra da bir müşavirə keçirə bilər. Sonra

da… nə bilim… sonra… sonra… – Vaqif deyindi. – Biz heç yadına da düşməyə bilərik.

–Sənə dedim ki, səhər-səhər qara bağlama. Səni mən gətirmişəm, mən də qaytarıb aparacağam Bakıya. Mənimlə hara getsən ac qalmazsan. Qayıdanda da, heç qorxub eləmə, cibimdən də olsa qonorarını verəcəm. – Qafur arxayın-arxayın dilləndi.

–Nə deyirəm ki… təki, sən deyən kimi olsun.

On beş dəqiqə gözlədilər. Heç biri dinib danışmadı. Hikmətdən bir xəbər çıxmadı.

–Sənə deyirəm zəng elə. Böyük bir rayonun polis rəisidir, yüz işi, yüz problemi var. Elə bilirsən yadında qalmısan?

Qafur telefonu çıxardıb yığdı, qulağına tutub dinlədi. Zəng getdi… getdi… amma cavab verilmədi.

–Gördünmü? İndi də qaçıb gizlənəcək. Əvvəlcə telefona cavab verməyəcək, sonra da ümumiyyətlə telefonu söndürüb qaçıb gizlənəcək. – Vaqif yenə də deyindi.

–Nə danışırsan e, sən? İçəridə qalmayacaq ki! Nahara çıxanda özümü maşının qabağına ataram. Mənə də dəli Qafur deyərlər, üç yüz əlli kilometri havayıdan gəlməmişəm ki…

–Zəng elə. Bir də zəng elə, qoy dəng olub cavab versin.

Qafur əsəbi halda bir də zəng elədi. Bu dəfə zəngə dərhal rədd cavabı verildi.

–"Otboy" verdi! – Bu dəfə Qafur təəccüblə dilləndi, ən azından onun zənginə Hikmətin reaksiya verməsindən rahatlandığı hiss olunurdu. – "Deməli, xəbəri var ki, burdayıq, gözləyirik…"

–Bəs sən nə bilmişdin! Yaxınlaş giriş qapısına, bir də xatırlat. Qoy, xəbər veməyiblərsə, desinlər. Xəbər veriblərsə, bir də desinlər. Bəlkə yadından çıxıb! Bəlkə başqa işlərə başı qarışıb…

İkisi də birlikdə giriş qapısına yaxınlaşdı. Bayaqkı qoca kişi kiminsə qarasınca deyinirdi, Hikmət hələ ki, onu da qəbul etməmişdi. Qocaya əhəmiyyət verməyib növbətçinin pəncərəsinə yaxınlaşdılar.

–Bizim məsələmiz nooldu? – Qafur növbətçi serjantdan soruşdu.

–Məlumat vermişik. Köməkçi deyir ki, gedib nahardan sonra gəlsinlər. Hikmət müəllimin nahara qədər onları qəbul etməyə vaxtı olmayacaq. İndi təcili müşavirə keçirir. Bir azdan çıxacaq – Bakıdan general gəlir, onu qarşılamağa gedəcək.

Elə bu vaxt darvaza açıldı, idarənin UAZlarından biri xüsusi nəriltili səs çıxara-çıxara çıxış qapısına yaxınlaşırdı.

–Kiminsə evi yıxıldı… Kiminsə tifağı dağıldı. Əlqəmə BTR-lə kiminsə komasını uçurtmağa gedir. Allah, sən özün saxla, sən özün kömək ol… – Qoca deyinməyində idi.

Tüstüboğucunun nasazlığından UAZ-469 ZTR kimi nərildəyə-nərildəyə asta-asta darvazadan çıxıb yol ilə getməyindəydi. Qabaq oturacaqda, sürücü ilə yanaşı bir qırmızısifət polis kapitanı oturmuşdu. Gözlərində qara şüşəli eynək vardı. Telefon qulağında, siqaret də damağındaydı, – kefi kök görünürdü.

–Babayova pul lazımdır! – Qoca deyinməyində davam edirdi. – Bu şərəfsiz, atsifət Əlqəmə də onun qoç əsgəridi.

Kim xoşhaxoşluqla gətirib pul vermirsə Əlqəməni qısqırdır onun üstünə.

Vaqif təəccüblə qocanı süzdü.

–Böyükləri deyirəm, idarə müdirlərini, bazarkomu, mağaza sahiblərini. – Qoca aydınlıq gətirdi. – Öz xoşları ilə hər ay hesabı gətirməyəndə Əlqəmənin broneviki işə düşür. Qancıqlarından birini götürüb üzə dirəndirir.

–Axı nə deyib üzə dirəndirir? – Vaqif inanmırmış kimi təəccüblə soruşdu.

–Əşşi, mən nə bilim nə deyir… Deyirlər işə düzəlmək üçün idarəyə getmişdim, müdir ələ saldı, əxlaqsız təklif elədi. Eh, nə bilim… elə bil heç bu zamananın adamı deyilsiniz…

–Kəndçisən ki, kəndçi. – Qafur Vaqifin qolundan dartdı. – Gəl bəri, özünü qocaya güldürmə.

Yenə də qocadan ayrılıb yolun o biri tərəfinə keçdilər. Birdən Hikmətin binadan çıxdığını gördülər. O, cəld addımlarla qara "JEEP" ə yaxınlaşdı və arxa oturacaqda əyləşdi. Darvaza taybatay açıldı və qara nər həyətdən çıxıb küçənin o biri tərəfinə yön aldı. Hikmət telefonu qulağına tutmuşdu, dodaqlarının hərəkətindən kiminləsə astadan danışdığı hiss olunurdu, heç onlar duran tərəfə baxmırdı da.

–Nə durmusan? Di özünü at da maşının qabağına… – Vaqif inadla təklif etdi. – Saxlatdır da maşını… Gör heç biz tərəfə baxır…

–Başın xarabdı? Görmürsən generalı qarşılamağa gedir? Maşını saxlatdırıb nə deyim?

–Nə bilim nə deyəsən. Heç olmasa özü saxlatdırıb bir söz deyəydi… Deyəydi ya gözləyin, ya gözləməyin… Nə bilim… nəsə deyəydi… Biz də işimizi biləydik…

–Yaxşı, hirslənmə, gəl gedək çayxanaya… İndi burda durmağın heç bir mənası yoxdur…

Polis idarəsindən aralanıb çox da uzaqda olmayan, yaşıl reklam lövhəsi göz oxşayan kafeyə getdilər.

…Gün ərzində bir neçə dəfə zəng vurdularsa da telefona cavab verən olmadı…

–Mənə də dəli Qafur deyərlər. Dədəmin oğlu deyiləm, bu gün burdan boş qayıtsam. Axşama qədər gözləyəcəm. Qəbul etdi, etdi, etmədi özüm gedəcəm yanına. Baxım, görüm onun polisləri mənim qabağımı necə kəsir… – Qafur lap qəzəbləndi, gözləri hədəqəsindən çıxdı.

Axşam saat altıya qədər, bəlkə on beş dəfə kafe – polis idarəsi marşrutu üzrə yolu arşınladılar, o baş-bu başa ölçdülər, nəticəsi olmadı. Səhərki deyinən qoca iki dəfə evinə gedib gəlmişdi.

Nəhayət, saatın əqrəbləri yeddinin yarısını göstərəndə Qafur Hikmətin nömrəsini bir də yığdı. Üçüncü fitdən sonra cavab verildi.

–Alo…

Səs o qədər zəif idi ki, Qafur elə bildi, quyunun dibindən gəlir. Odur ki, ucadan danışmağa başladı.

–Axşamınız xeyir, Hikmət müəllim. – Qafurun sifətinə bir təbəssüm qondu.

–Hikmət müəllim deyil, köməkçisidir. Eşidirəm.

Qafurun sifəti bozardı, tündləşdi, Vaqif hiss etdi ki, nəsə, yaxşı deyil.

–Biz… – Qafur sözünün gerisini deyə bilmədi, udqundu, rəngi-rufu qaçdı, halı pisləşdi. – Biz Bakıdan gələn yoldaşlarıq. Dünən özü ilə əlaqə saxlamışıq…

–Bir az gözləyin, özünə xəbər verim, görüm nə deyir…

Telefon əlaqəsi kəsildi. Beş… on… dəqiqə keçdi, bir xəbər çıxmadı… Qafur on beşinci dəqiqənin tamamını güc-bəla ilə gözləyib bir də zəng elədi. Zəngə cavab verən olmadı. Elə bu vaxt növbətçi serjant qapıdan çıxıb onları səslədi.

–Bakıdan gələn yoldaşlar sizsiniz?

–Bəli! – Qafur cəld cavab verib ona tərəf getdi.

–Bəs niyə demirsiniz? Bəs niyə tanışlıq vermirsiniz? Sizə görə Hikmət müəllim səhərdən bizi danlayır, ağzına gələni deyir…

–Necə deməmişik? Sübh tezdən gələn kimi məlumat vermişik. Gün ərzində bəlkə on beş dəfə qapıya yaxınlaşmışıq. Orda oturan serjanta demişik. – Vaqif də irəli yeriyib içəri baxdı. İstədi, şüşənin arxasında oturan totuqsifət serjantı göstərsin, baxdı ki, yerində yoxdur, orda başqa birisi oturub.

–Mənə heç kim heç nə deməyib. – Şüşənin arxasında oturan gənc serjant çiyinlərini çəkdi.

–Bəs kimə demisiniz? – Onları səsləyən serjant bir də soruşdu.

Vaqiflə Qafur bir-birinə baxdılar. “İşə bir bax! Bunları nə vaxt dəyişdilər?”

–Yaxşı, gəlin, keçin. Bir də belə eləməyin. Gələn kimi

yaxınlaşıb məlumat verin. – Serjant onları borclu çıxartdı. – Hikmət müəllim sizi gözləyir.

–Bunlarda min sifət var, Qafur. Gördünmü, axırda özümüzü günahkar çıxartdılar. – Gedə-gedə dodaqaltı mızıldandı Vaqif.

–Deməli, bizim burda olmağımızdan Hikmət müəllimin xəbəri olmayıb. – Qafur dedi bunu.

–Onlar dedi, sən də inandın. Mənə kəndçi deyirsən, gör, özün necə sadəlövhsən… Onlar qəsdən növbətçiləri dəyişdilər, lap bazar alverçiləri kimi. Nəsə bir şey alırsan, xoşun gəlmir, sabah aparırsan dəyişməyə, görürsən ki, başqa satıcıdır. O da dik dirəşir üzünə ki, onlardan almamısan…

–Qəsdən dəyişməyiblər. Saat altıda növbə dəyişir. Köhnələr çıxıb gedib, təzələrə heç nə deməyiblər. Bax, belə ola bilər. İndi bunun heç bir əhəmiyyəti yoxdur. Əsas odur ki, Hikmət bizi gözləyir.

Qəbul otağında yaşlı bir polis serjantı onları qarşıladı.

–Xoş gəlmisiniz! – dedi və rəisin qapısını göstərdi. – Buyurun, keçin!

Nəzakət xətrinə qapını döyüb içəri keçdilər.

–Booy, xoş gəlmisiniz! – Kresloda oturan polkovnik ayağa qalxıb qollarını açdı və onlara tərəf gəldi, hər ikisi ilə qucaqlaşıb görüşdü.

–Bu yoldaşı tanımadım…

–Vaqif də bizimkilərdəndi. – Qafur tanışlıq verdi. – Ermənilərlə dağın bir tərəfində biz vuruşurduq, o biri tərəfində Vaqifgil. Yadındadı, Tarix kişinin gəlinini zorlayıb, öldürüb

atmışdılar qamışlığa. Cinayətkar dağın o tərəfindəki könüllülərə qoşulmuşdu ki, tapa bilməyək. Rəis məni göndərdi araşdırmağa, cinayətkarı tapıb gətirməyə. Bax, onda Vaqif mənə çox kömək elədi. Mərd oğlandı, elə o vaxtdan da dostluğumuz başlayıb.

Keçib əyləşdilər, hal-əhval tutdular. Ortaya çay gəldi. Hikmət peçenyeni ağzına basıb çaydan bir qurtum içdi.

–Qafur, inan inandığına, səhərki şirin çayın üstündəyəm. Heç olmasa, siz bir şey yemisinizmi?

–Hə, biz qarşı tərəfdəki kafedə nahar eləmişik, adama bir dolu qab borş yemişik. Bəs nə yaxşı siz bir şey yeməmisiniz? İndi də döyüş getmir ki, vaxtınız olmasın. Canınıza niyə qəsd edirsiniz? – Qafur canıyananlıq elədi. – Mədədən muğayat olun, ac saxlamayın.

–Vallah, bu gün heç vaxtım olmayıb, bütün günü ora-bura qaçmışam. Həm də… polisi bilmirsən… gərək pul gələ ki, iştah da açıla… Cibə pul girmədi, öldür, boğazımdan tikə keçməz…

“Nə havayı yemək ola, görüm loxma-loxma tıxırsan, ya yox!” Vaqif özlüyündə düşündü.

–Biz də səni deyib gəlmişik. – Qafur mətləb üstünə gəldi.

–Bəs kitab hanı?

–Kitabı yazmışam, hazırdı. Pul lazımdır ki, verək, çap eləsinlər.

–Heç olmasa, qaralamasını gətirərdin, görərdim məndən nə yazmısan…

–Arxayın ol. Hamının döyüş fəaliyyətini yaxşı yazmışam, yüksək səviyyədə qiymətləndirmişəm.

–Vallah, üstümdə bir manat da olsun, pulum yoxdur. Səhərdən cibimə bir manat pul girməyib. Oturun, birlikdə gözləyək. Bəxtinizi çağırın, görək, nə çıxır. Nə olsa, hamısı sizindir.

Hikmət bunu deyib ciddiləşdi, üzbəüz stuldan qalxıb kreslosuna keçdi. Qarşısındakı kompyuterin monitoruna diqqətlə göz gəzdirib düyməni basdı. Köməkçi dəstəyi qaldırdı.

–Bəli. – Selektordan səs gəldi.

–Orda məni kim gözləyir?

–Mirzəyevdi.

–Nə istəyir?

–Bakıya getmək üçün üç günlük icazə istəyir.

–Bakıya?

–Bəli. Ailə vəziyyəti ilə əlaqədar…

–Gəl, görüm nə məsələdi…

Qapı açıldı. Bayaqkı yaşlı serjant əlində kağız içəri keçdi. Düz rəisin yanına getdi. Əlindəki kağızları masanın üstünə qoydu.

–Rəis, mənə deyib, vacib lazımdır. Mirzəyev Bakıya getməlidir – ailə vəziyyəti ilə əlaqədar. Köməkçi "ailə vəziyyəti ilə əlaqədar" sözünü xüsusi vurğu ilə elə dedi ki, sanki Mirzəyev bu gecə Bakıya getməsə, tufan qopacaq, aləm bir-birinə qarışacaq, dünya dağılacaq.

–Axı nə məsələdir? – Hikmət ciddiləşdi.

–Soruşmadım. Eləcə ailə vəziyyəti ilə əlaqədar deyib.

–Gərək soruşub öyrənərdin. Nədi? Anası ölüm ayağındadı? Zarıncı qalıb, oğlunu görməyincə can verə bilmir?

–Bilmirəm…

–Yoxsa arvadı xərçəng xəstəliyinə tutulub, səhər əməliyyat olunmalıdır? Bəlkə Mirzəyev həkimlə bərabər əməliyyata girməyə gedir? Gedir ki, bıçağı həkimdən alıb arvadını özü əməliyyat eləsin?

–Bilmirəm, rəis. Mirzəyev ancaq bunu deyib, mən də sizə çatdırıram. – Köməkçi növbəti dəfə günahkar uşaqlar kimi yazıq-yazıq dilləndi.

–Nə deyirəm ki… amma bilməliydin, gərək soruşub öyrənəydin. – Rəis qolundakı saata baxdı və sifət cizgiləri dəyişdi, deyəsən bir az mülayimləşdi. – Lazımdı, deməli lazımdı… – Rəis qolundakı saata baxdı. – İndi on doqquz on doqquzdu. Qatar Bakıya saat iyirmi üçdə yola düşür. Üç saatdan artıq vaxt var. Çıxsın Quzanlı yoluna, alverçilərin şəhərdən qayıdan vaxtıdı. Üççə yüz manat pul gətirsin, məzuniyyət vərəqini verib yola salarsan.

–Deyim, görüm nə deyir. – Köməkçi otaqdan çıxdı.

Təxminən iki-üç dəqiqədən sonra geri qayıtdı. Bu vaxt ərzində üçü də gərginliklə köməkçinin cavabını gözlədilər, heç biri dinib danışmadı.

–Dedim. – Köməkçi qeyri-müəyyən cavab gətirdi. – Çiyinlərini çəkdi. Dedi ki, yola çıxmağına çıxım. Həddim nədi rəisin əmrini yerinə yetirməyim, amma gedim, görüm nə edə bilərəm.

Hikmət sevincək sənədləri imzaladı, möhür vurub köməkçiyə uzatdı.

–Göstər, qoy ürəkli hərəkət eləsin.

Köməkçi sənədləri götürüb otaqdan çıxdı.

–Bax belə! – Hikmət əlindəki qələmi qələmdana qoydu, sonra sağ ovcunu üç dəfə öpüb gözlərinə sürtdü, lap səhər elədiyi kimi. – Qismətinizdə bir şey varmış. İndi sizin də işiniz düzələr, mənim də… Deyirəm axı… əlimdən pul iyi gəlir.

Hikmət gülə-gülə kreslodan qalxıb bayaqkı yerinə qayıtdı. Peçenyeləri iştahla yeməyə başladı. Soyuyub buza dönmüş çayını hortahortla içdi.

–Hə, danışın görək, şəhərdə daha nə var, nə yox…

Bir saata yaxın sakit-sakit söhbət elədilər. Arada Hikmət telefon zənglərinə cavab verir, sonra yenə də söhbətə qoşulurdu. Qafurun ürəyi açılmışdı, dəxli oldu, olmadı, ağlına və ağzına gələn nə vardısa, hamısını danışırdı. Birdən rəisin əl telefonuna mesaj gəldi. Hikmət mesajı oxuyan kimi sifət cizgiləri dəyişdi, tez ayağa qalxdı.

–Evdəndi, təcili çıxmalıyam. Siz bayaq oturduğunuz kafedə oturub gözləyin. Köməkçiyə tapşıracam, sizi yola salacaq.

–Qatara gecikmərik ki? – Vaqif narahat-narahat soruşdu.

–Rayon yerində ucuzluqdu. Hansı taksiyə bir manat versəniz, aparıb qatara çatdıracaq. Bakıya baxmayın, rayon yerində pul yoxdur.

Sağollaşıb ayrıldılar.

Vaqif narahatçılığından bilmirdi neyləsin. Daha dinib danışmağın heç bir mənası yox idi. Gözləməkdən başqa çıxış yolu qalmamışdı.

Kafedə çay içib gözlədilər. Təxminən iki saatdan sonra

növbətçi serjant qaça-qaça gəldi.

–Hardasınız? Köməkçi səhərdən sizi axtarır.

Qafur qabaqda, Vaqif onun arxasınca iti addımlarla polis idarəsinin giriş qapısına gəldilər. Köməkçi göy rəngli “Niva” maşınında oturub onları gözləyirdi. Qafurla Vaqif gəlib çatan kimi maşından düşdü.

–Əyləşin, sizi vağzala çatdırım. Qatara gecikərsiniz.

Yolboyu heç biri dinib danışmadı. Köməkçi dəmir yolu vağzalında onları maşından düşürdü və cibindən konvert çıxarıb Qafura uzatdı.

–Buyurun! Bu da sizə çatacaq.

Köməkçi bunu deyən kimi sağollaşıb getdi.

–Tez elə, aç görüm, neçədir? – Vaqif Qafuru dümsüklədi.

–Kəndçisən ki, kəndçi. Bir imkan ver, köməkçi çıxıb getsin. Dönüb arxaya baxar, deyər görməmişdilər.

–Elə onun yanında baxmaq lazımdı. Mən hiss edirəm ki, biz dediyimiz kimi deyil.

–Yaxşı, görək.

–Aç! Köməkçi getdi, özü də günahkar adamlar kimi arxaya baxmadan getdi.

Qafur konverti açdı.

–Heç rəis dediyi kimi də deyil! – Qafur təəssüflə dilləndi, elə bil başına bir polis dəyənəyi ilişdirdilər.

–Bəs kim dediyi kimidir? İki yüz manatdır? – Vaqif səbirsizliklə Qafuru tələsdirdi.

–Yoox! – Qafur sızıldadı. – Yüz manatdır.

Qafur bunu deyib konvertdən sarı əlli manatlıq əskinası çıxartdı və əli əsə-əsə Vaqifə uzatdı.

–Elə buu?! – Vaqif ucadan soruşdu.

–Yox. Biri də var… – Qafur mızıldandı.

Vaqif pulu alıb iylədi.

–Bəs deyirdin puldan çörək ətri gəlir… Bundan heç kağız iyi də gəlmir…

# Zəncinin dərsi

Təzə gətirilib şəhərə doldurulmuş kartlı, qırmızı rəngli "BakıBUS" avtobusundan universitetin qabağında düşdü. Səkidə tələbə əlindən tərpənmək olmurdu, yaman basırıq idi. Hamısı da şən görünürdü, deyib-gülür, bir-birləri ilə zarafatlaşıb keçirdilər.

"Hələ ki, qayğıdan xəbərsizdilər, iş-güc düşünmürlər, axtarmırlar" ani olaraq fikrindən keçirdi. Yeraltı keçidi iti addımlarla addımlayıb yolun o tərəfindəki parka çıxdı, "BP" şirkətinin ofisi parkın o başındakı iyirmi mərtəbəli "Makron Plaza" nın on dördüncü mərtəbəsində yerləşirdi. Zərdüşt bunu əzbər bilirdi, çünki iyirmi ikinci dəfədən işə götürüldüyünü də nəzərə alsaydı bu, onun ofisə əlli birinci gəlişiydi, düz əlli bir dəfə bura ayaq döymüşdü, hamısını da birbəbir yadında saxlamışdı. İnsanda həvəsə bir bax!

Giriş qapısının dördrəqəmli şifrəsini də, liftin düyməsinin yerdən hansı məsafədə yerləşdiyini də əzbərdən bilirdi, lap gözüyumulu qapının üstündəki ingilis kilidinin şifrəsini yığa, liftin düyməsini basa bilərdi.

Zərdüşt 22 yaşında cavan bir oğlandı, rayon yerində doğulsa da şəhərdə böyüyüb boya-başa çatmış, orta məktəbi də burada oxumuşdu. Təhsildə yüksək göstəricilərə nail olduğundan Ali Neft Məktəbinə üz tutmuşdu. Yeni açılan ali təhsil ocağının statusu Neft Akademiyasından da yüksək sayılırdı. O vaxt ali təhsil ocağına qəbul olanda sevincinin həddi-hüdudu yox idi –

imtahandan 697 bal toplamışdı – ölkə üzrə ən yüksək bal 700 hesab olunurdu, ən yüksək bala çatmaq üçün cəmi bircə sualı cavablandıra bilməmişdi. Prezident təqaüdünə düşmüşdü, əlaçı tələbə kimi dörd il 150 manatlıq təqaüd almışdı.

İşlə təmin edəcəklərinə söz versələr də məktəbi bitirəndə rəhbərlik vədinə xilaf çıxmışdı. "Hələ bir gedib vətənə borcunuzu ödəyin, əsgərliyinizi çəkin, sonrasına baxarıq" – rektoratlıqda elə beləcə də demişdilər. Onda Zərdüşt də başqa məzunlar kimi hərbi xidmətə yollanmışdı. Bir illik əsgərliyini başa vurub geri qayıdan kimi oxuduğu təhsil ocağına üz tutmuşdu.

–Ə, sən nə qır-saqqız olub yapışmısan yaxamızdan?! – Axırda prorektor əsəblərini cilovlaya bilməmişdi. – Nə olsun ki, söz vermişdik. O vaxt elə deyirdilər, indi də belə deyirlər. Neft Şirkətində boş yer yoxdu, vakansiya yoxdu, başa düşürsünüz? Gərək bizə sorğu, sifariş gələ ki, biz də sizdən birinizi o yerə göndərək. Gedin, özünüz şirkətlərə müraciət edin. Lap istəyirsiniz xarici şirkətlərə üz tutun, bəlkə onlar bizimkilərdən insaflı ola. Bir də ki, niyə olmasın. İngiltərədən adi işçi gətirib ayına beş min ödəyincə, elə sizi işə götürüb ayınıza min – min beş yüz ödəyər də…

Bu söz Zərdüştün beyninə batmışdı, odur ki, prorektorun nə dediyi onun vecinə deyildi.

–Bizim işimiz sizi oxudub diplom verməkdi. Sonrasını özünüz bilərsiniz, bizlik deyil…

Amma nə oldusa, birdən geri qayıtdı Zərdüşt:

–Mən axı hamı kimi oxumamışam, əlaçı olmuşam. Dörd il dövlətdən Prezident təqaüdü almışam. Dövlət heç olmasa məni işlə təmin etməlidir, ya yox?

–Elə ona görə də dövlətə “çox sağ ol” deməlisən, oğlum! – Prorektorun səsində bir yumşaqlıq hiss olunurdu, hiss olunurdu ki, o da Zərdüştün halına yanır, amma bir şey etməkdə acizdir, mövcud sistem şirkətlərə fövqəladə səlahiyyət verib, heç nə etmək mümkün deyildir.

–Bəs iş? – Zərdüşt də astadan deyindi.

–İşi özün tapmalısan. – Prorektor bir qədər ciddiləşdi.

–Bəs mən bir mütəxəssis kimi dövlətə lazım deyildimsə, niyə təqaüd verib oxutdururdu?

–Necə lazım deyilsən? – Prorektor özü də mat qalmışdı, vəziyyət haqqına qalanda Zərdüşt dediyi kimi idi, amma ki, bu da prorektorluq deyildi, bəlkə heç rektorluq da deyildi. – Əlbəttə lazımsan. Siz hamınız lazımsınız, ancaq baxır harda.

–Harda?

–Əlbəttə ki, ilk növbədə ölkənin neft sektorunda. Yox, əgər bu sahədə iş tapa bilməsəniz, onda harda iş tapsanız, orda. Cavansınız, enerjilisiniz, savadlısınız… Belə adamlar necə lazım olmaya bilər?..

…Elə təzəcə yeraltı keçiddən çıxıb park ilə irəliləyirdi ki, tələbə yoldaşı Raminlə rastlaşdı.

–Ramin!

–Zərdüşt!

Zərdüştün görüşəndə öpüşməkdən zəhləsi gedirdi, eləcə

əl tutub aralaşmaq istəyirdi ki, Ramin üzündən öpdü. Geri çəkilmək istəyirdi ki, Ramin o biri üzündən də ördü.

–Görüşəndə gərək türk kimi görüşəsən, türkün həm bu üzündən öpəsən, həm o üzündən.

Ramin iki dəfə öpüşməyinə haqq qazandırdı, Zərdüşt isə əhəmiyyət vermədi.

–Nə xoş təsadüf! Ramin, sən buralarda nə veyllənirsən?

–Ramin yox, Ramil.

–Adını dəyişmisən?

–Yox, mənim adım elə əzəldən Ramil olub.

–Doğrudan sənin adın Ramildir? Bəs axı jurnalda Ramin yazılırdı…

–Nə olsun… Ruslarda da sənəddə Aleksandr yazılır, sonra oğlanı Saşa, qızı Şura deyə çağırırlar.

–Ədə, bura Rusiya, biz də rus deyilik.

–Nə fərqi var, indi hamı avropalılaşır. Bilirsən, Ramin adı… belə… bir az yaxşı səslənmir e… Ramil, Ramel, Ramilçik… lap elə avropasayağı səslənir, onların da dilinə yatır. Baxmırsan, parkın da adını dəyişiblər.

–Hansı parkın?

–İndi mən gəzdiyim parkın.

–Doğrudan?

–Bəs nə.

–Əvvəlki adı necəydi ki? Heç fikir verməmişdim.

–Sovetlər vaxtı Puşkin parkıydı. Müstəqillik illərinin ilk dövründə bizimkilər dəyişib Cəfər Xəndan elədilər. Bilirsənmi

Cəfər Xəndan kimdir?

–Hə, bilirəm, tənqidçi olub. Şairlərdən hansısa ona şeir də qoşub.

Cəfər Xəndan, Cəfər Xəndan,
Bit yerisin yaxandan.

–Ədə, kimsə deyəndə, de ki, Bayram Bayramov yazmışdı. Yoxsa qorxursan onun adını çəkməyə?

–İndi bunun heç bir mənası yoxdur, qorxdun, ya qorxmadın, adını çəkdin, ya çəkmədin. Əsas odur ki, adını dəyişiblər.

–Elədir. Axır ki, bu parka layiqli ad tapıb qoyublar – Con Braun parkı. Sən öl, adın dəyişən kimi park özü də dəyişib. Bilirsən adama necə ləzzət eliyir? Gəzdikcə gəzirsən. Havası sərin və təmiz. Qızlar da ki, maşallah, biri-birindən gözəl, cazibədar. Lap elə bilirsən Avropanın göbəyindəsən, Londonun, Parisin ecazkar küçələrini dolaşırsan. Park da ki, adı dəyişən kimi məşhur olub. Qızlar selfi çəkdirib qoyurlar internetə. Dünyanın hər yerindən onları izləyirlər…

–Yaxşı, de görüm nə işlə məşğulsan?

–Dayımın dükanını işlədirəm. İşlədirəm deyəndə axşamlar gedib kassadan vıruçkanı götürüb dayıma gətirirəm. Dayım da ki, sağ olsun, başa düşən adamdır. Bilir ki, cavançılıqdır, hər gün bir əlli manat basır cibimə. Mən də şellənirəm özümçün.

–Xoşbəxt adamsan, Araz aşığındandı, Kür topuğundan. Dünya vecinə deyil.

–Yaxşı, görək. Bəs sən özün nə işlə məşğulsan?

–Xeyli vaxtdı iş tapa bilmirdim. İndi iki həftədir ki, “BP” də

işə götürüblər. Hələ ki, praktika keçirəm.

–Nə praktika?

–Belə də… Nigerin köməkçisiyəm.

–Nigar? Nə gözəl! Müdirin xanımdır? Kefdəsən ki… Heç olmasa cavandırmı? Gözəldirmi?

–Alo, qaqaş… Bir tormoz elə. Nigar yox, Niger.

–Niger də elə Nigar kimidi də. Bizdə Nigardı, onlarda Niger.

–Lap olsun sən deyən. Nigar – Niger hökmən xanım adı olmalıdır? Kişi ola bilməz?

–Nə bilim. Məncə yox!

–Yadımda deyil, Sədaqət müəllim dərsdə həmişə onun adını çəkirdi e…

–Kimin?

–Yadıma düşsəydi elə özüm deyərdim. Bax, dilimin ucundadı e…

–Hansı Sədaqəti deyirsən; Kişi, yoxsa qadın?

–Fəlsəfə müəllimini, kişini.

–Hə, hə, yadıma düşdü. Seyid Nigaranı.

–Hə, hə, Seyid Nigarı. Elə hey deyirdi ki, Seyid Nigarı belə deyib, Seyid Nigarı elə deyib… Onda mən də sənin kimi elə bilirdim ki, Seyid Nigarı xanım olub. Sonra şəklini görəndə baxdım ki, bığlı-saqqallı bir kişidir.

–Zərdüşt, araya yüz söz qatdın, bircə demədin ki, bu Niger kimdi? “BP” nin şefidi?

–Yox.

–Baş mühəndisidi?

–Yox.

–Baş mühasibidi?

–Təəssüf ki, o da yox.

–Püff! Çərlətdin məni, di söylə görüm sənin o Nigerin kimdir?

–Adi qara bir zənci. Heç vəzifəsinin də nə olduğunu bilmirəm. Eləcə mənə deyiblər ki, onun köməkçisiyəm. Bir də maaşımı deyiblər.

–Kiiim? Zənci? Nigeriyalıdı?

–Yox, adı Nigerdi. Hansı ölkədəndi, bilmirəm, mənə deməyib. Eşşək kimi birisidi. Sağlam, gümrah, idmançı görkəmli…

–Zəncilərin hamısı belə görünür də. Vaxtın varsa, gedək oturaq.

–Yox, tələsirəm. Bu gün təhvil-təslim olmalıdır. Niger vəzifəsini müvəqqəti olaraq mənə ötürür. Londona gedəsidirlər. Orda yaxşı olsa, qayıtmayacaqlar, qalıb orda işləyəcəklər.

–Belə de…

–Səndən nə yaxşı. Xeyirdimi Con Braun parkında gəzdiyin?

–Dedim bir az gəzinim, eynim açılsın, bir də bəlkə qarşıma anqliçankadan, françujenkadan, heç olmasa nemkadan-zaddan kimsə çıxdı.

–Nədi, özümüzünkülər azlıq eləyir? İndi də françujenka, anqliçanka eşqinə düşmüsən? Ali məktəbdə oxuyanda qız qalmamışdı dalınca düşməyəsən…

–Alə, bizimkilər nə qanır sevgi-məhəbbət nədir! Heyif deyil

evropeykalar, adama cənnətin həzzin bəxş edirlər, köpəkuşağı elə bil huri-mələkdilər.

–Yəqin atana oxşamısan…

–Yox, dayıma. Bəs eşitməyibsən, deyirlər, qoç iyid dayısına oxşar…

–Olsun dayın. Görünür o da o vaxtlar rus-erməni qızlarının dalınca sürünürmüş. Ədə, sənin kimilərin ucbatından camaat normal qız tapıb evlənə bilmir. Qızlar basyak ərəb görən kimi göbəklərini açıb göstərirlər.

–Mənim nə günahım…

–Sən evropeyka dalınca sürünəndə, qızlar da sənin və sənin kimilərin acığına belə hərəkət edəcəklər də. Bəs bilmirsən ən qəddar qisasçılar qadınlardır?

–Yaxşı, yaxşı… Yeri get işinə. Gecikərsən, Niger xanımın, tfu, bəyin acığı tutar, yerinə başqa adam götürər…

Əvvəllər bu ərazi çox da məşhur deyildi. Elə ki, xarici şirkətlər yağışdan sonra baş qaldıran göbələklər kimi buraları bəzədilər, ərazi yeni tikilən bərli-bəzəkli binaların hesabına təzələndi, gözəlləşdi. Ağızlarına yatsın deyə parkın adını da onlara görə dəyişdilər. Çoxlarının hələ tanımadığı baxımsız Cəfər Xəndan parkı bir gecənin içində dönüb oldu çıl-çıraqlı Con Braun parkı. Elə bir gecədə də xarici şirkətlərdə işləyən xanımların selfi çəkdirdikləri şəkilləri ilə bərabər Avropaya "uçub" parkı orada da tanıtdılar, məşhurlaşdırdılar.

Zərdüşt ofisə ilk dəfə gələndə də onu elə Niger qarşılamışdı.

–Sən bura adamına oxşamırsan. – Qısa tanışlıqdan sonra

ona belə demişdi. Bakıda rastlaşdığı adamların yalançılığından, onu hər addım necə aldatdıqlarından və hər zaman əzməyə çalışdıqlarından danışdı.

Nigerin danışdığına görə onu bir neçə həmyerlisi ilə beş il əvvəl Afrikadan Bakıya yığma komandada futbol oynamaq adı ilə gətiriblər. Altı nəfər zənci gəncini gələn günü çox yaxşı qarşılayıblar, isti münasibət göstəriblər. Oteldə yerləşdiriblər, onlar üçün hər cür şərait yaradıblar. Özəl Universitetlərin birinin böyük futbol meydançasında və idman zalında məşqlərini təşkil ediblər. İlk günlər hər şey qaydasında olub. Bir ayın tamamında isə heç nə izah etmədən, pullarını ödəmədən oteldən qovublar. Yaşamaq üçün hər kəs bir tərəfə dağılıb.

–Görünür bizi satmağa gətiriblərmiş. – Niger dərk etdiyini belə dilə gətirirdi. – Çünki biz məşq üçün futbol oynayanda da, idman zalında məşq edəndə də bizi özləri ilə gətirənlər dəvət etdikləri müxtəlif adamlara göstərir, sövdələşirmişlər kimi nə isə danışırdılar. Danışıqları alınmayanda pərt olur, əsəbləşir, bizə bəlli olmayan sözlər danışır, özlərindən çıxırdılar.

Bir neçə gün bir yerdə boş-boşuna şəhəri fırlandıqdan sonra birlikdə heç bir iş tuta bilməyəcəkləri, hətta acından ölə biləcəkləri qənaətinə gəldilər. Öz camaatları tikintidə, yol çəkilişində, bordyur düzülüşündə güclə iş tapırdı, zənciyə kim idi iş verən, özü də altı zənciyə birlikdə. Odur ki, ayrıldılar – hərəsi şəhərin bir tərəfinə getdi. Niger də gəlib Cəfər Xəndan parkına çıxdı. Gündüzlər parkdan bir neçə yüz metr məsafədə yerləşən binaların əhalisi ilə dil tapmağa çalışır, kiminin zibilini

aparıb atır, kiminin ağır çantalarını marketdən evə daşıyır və əvəzində qəpik-quruş qazanırdı ki, bu da onun acından ölməməsi, yaşaması üçün çox vacibdi.

Burada binanın birinin altında – zirzəmisində bulku bişirən sex fəaliyyət göstərirdi. Müdiri ağsaqqal, nurani bir kişiydi, yaşı yetmişdən çox olardı. Sexə həftədə bir dəfə maşınla dolu un gəlirdi. Niger təkbaşına un kisələrini maşından boşaldıb anbara daşıyırdı. Əvəzində sexin sahibi ona on manat nəğd pul verər, hər gün gəlib üç ədəd təzə bişmiş bulku apara biləcəyini tapşırırdı. Nigerin üzünə nur çilənirdi, gözləri parıldayırdı – bu parıltı həyat işarəsi idi.

Gecələr isə əl-ayaq yığışandan sonra eləcə parkda, daldada yerləşən oturacaqların birində uzanıb yatardı. Əvvəllər polis serjantları onu tüfeyli hesab edər, təpikləyib qovmaq istəyirdilər. Nigerin başına gələnləri eşidəndən sonra ona dəyib-toxunmaz, hərdənbir çəkməyə siqaret də verərdilər. O, park həyatında siqaret çəkməyə öyrəşmişdi.

Niger ilk görüşdən Zərdüştün qəlbində özünə yer tutmuşdu. Elə Zərdüşt də Nigerin xoşuna gəlmişdi. Odur ki, ilk gündən dostlaşmışdılar. İşinin, vəzifəsinin sonralar nədən ibarət olacağı fərqinə varmamışdı Zərdüşt. Çünki məişət problemləri ilə məşğul ola-ola hələ ki, Niger ona bütün həyatını danışırdı. Zərdüşt üçün də maraqlı idi ki, Niger uzaq Afrika ölkəsindən Azərbaycana necə gəlib çıxıb və BP kimi yüksək bir şirkətdə ofis işinə düzəlib.

Niger öz ölkəsində yaxşı bir futbolçu olmuşdu. Əvvəlcə

doğulub boya-başa çatdığı qəsəbələrində yığmada oynamış, sonra qabağa çəkilmiş, axırda gəlib ölkə yığmasına çıxmışdı. İngilis dilini öyrənmişdi.

Afrika birinciliyində oynayacağı vaxtda Azərbaycana dəvət almışdı, əlbəttə ki, çox yüksək qonarar müqabilində. Amma aldadılmışdı, aldadıldığını da çox gec başa düşmüşdü, başa düşəndə də artıq iş-işdən keçmişdi, heç nə etmək mümkün deyildi.

Öz ölkəsində qalsaydı, bəlkə də indi evi, maşını, çoxlu pulu olacaqdı. Azərbaycana gəldiyindən bunların hamısından məhrum olmuşdu. "Ayağımla oynatdığım top kimi təpiklə vurub məni kənara atdılar, həyatın özündən də kənara…" – heyfslənərək bunu qeyd edirdi Niger.

Bir səhər Niger qəribə taqqıltı səsinə yuxudan ayıldı, tez ətrafa göz gəzdirdi, heç nə görmədi. Oturacaqdan ayağa qalxdı, sağ tərəfə çevrilib baxanda bir gəlinin avtobus dayanacağının yanındakı pilləkənlərlə uşaq arabasını yuxarı qaldırmağa cəhd göstərdiyinin şahidi oldu. Özündən asılı olmayaraq tez-tələsik ora yüyürdü. Nigerin ona tərəf gəldiyini görcək dayanıb onun üzünə baxaraq gülümsəyən gəlinlə baxışları toqquşdu. "İlahi, bu necə gözəl qadındı!" – az qaldı Nigerin huşu başından çıxsın, o, hələ belə gözəl, yöndəmli, cazibədar qadınla rastlaşmamışdı. Gülümsəyərək uşaq arabasına əl atdı. Bir anın içində arabanı pilləkənlərlə yuxarı qaldırdı. Səkkiz-doqquz aylarında olan totuq oğlan uşağı öz aləmində idi, nə isə qığıldanırdı. Niger balacaya da gülümsünüb arabanı buraxdı və kənara çəkildi ki, gəlin yoluna

davam etsin.

–Təşəkkür edirəm! – Gəlin ingiliscə təşəkkürünü bildirib gülümsündü.

–Dəyməz. – dedi Niger və dərhal da soruşdu. – Siz ingilissiniz?

–Bəli! Siz ingiliscə danışa bilirsiniz?

–Mən ingilis dilini öyrənmişəm. Sevərək öyrənmişəm. Bəlkə də mənim sevdiyim ikinci dildir.

–Ooy, nə gözəl. Təsəvvür etməzdim ki, sizin kimi birisi ilə qarşılaşam. Bir daha təşəkkür edirəm. – Sakit addımlarla arabanı sürüb getdi.

–Parkın o biri tərəfində yola çıxış var. – Uzaqlaşmaqda olan gəlinin arxasınca səsləndi Niger. – Pilləkənsiz.

Onların ilk tanışlığı belə başlamışdı.

Sonralar gəlin uşağını parka gəzdirməyə tez-tez gətirirdi və hər dəfə də pilləkənləri çıxartmaqda Niger ona köməklik göstərirdi. "Salam, necəsiniz, sağ ol, təşəkkürlər"dən başqa çox qısa danışıqları olardı. Niger onu heyran edən bu gəlinin adını da öyrənə bilməmişdi. Adını soruşanda gəlin eləcə gülümsəyir, "görüşərik" deyib əlini yelləyərək çıxıb gedirdi. Ara-sıra Nigerə pul da verirdi. On, bəzən lap iyirmi dollar da verirdi ki, bu da Niger üçün böyük pul hesab olunurdu.

–Bir uşaq arabasını pilləkənlərlə yuxarı qaldırmaq hara, iki maşın un kisələrini maşından boşaldıb anbara daşımaq hara? – Niger öz-özünə deyinər, müqayisə aparardı.

Hisslərini büruzə verməsə də Niger artıq o gəlinə vurulmuşdu.

Amma kim idi, kimin arvadıydı, niyə sübh tezdən təkbaşına uşağını parka gəzdirməyə gətirirdi, bunları bilmirdi. Harda yaşayır, harda işləyir, heç bunları da öyrənməmişdi. Adını da demirdi gəlin. Niger için-için yanırdı, odlanırdı, pürüşüyü çıxırdı, amma əli heç nəyə və heç hara çatmırdı.

Beləliklə, günlər gəlib keçirdi.

Bir gün Niger uşaq səsinə yuxudan oyandı. Gözlərini açıb uzandığı oturacağın qarşısındakı uşaq arabasını gördü. Tanıdı, ağlayan həmin uşaqdı, anası isə yox idi. "Bunu kim bura gətirmiş olar?" – tez öz-özünə sual etdi. Oturacaqdan qalxıb uşağı sakitləşdirməyə çalışdı. Sakitləşməyəcəyini görüb onu qucağına götürdü, üzündən öpdü, başını sığalladı. Uşağı qucağında astadan yelləyə-yelləyə ətrafa göz gəzdirdi. Bu zaman gəlin ağacın arxasından çıxıb onlara tərəf yüyürdü. Maral baxışlı, ceyran yerişli gəlini görcək Niger yenə də halbahal oldu, az qaldı ki, uşaq qucağından yerə düşsün. Gəlin yaxınlaşan kimi onları qucaqladı, Nigerin boyun-boğazını qoxladı, təmiz dəniz havası kimi acgözlüklə ciyərlərinə çəkdi.

–Öz oğlun kimi baxa bilirsənmi? – Doluxsunmuş halda göründü gəlin, səsində bir qəhər hiss olunurdu, sualı da şaqqanaq çəkən buludların yağdırdığı leysan yağışını, şıdırğı yağan doluya bənzədi.

–Siz… mənə çox doğmasınız. – Niger qolunu gəlinin çiyninə salıb özünə tərəf sıxdı. – Özünüz də, oğlunuz da. Heç bilirsinizmi, mən sizin üçün necə darıxıram? Siz gedəndən sonra bütün günü avara-sərgərdan kimi görünürəm. Nə işləməyə, nə

yeməyə həvəsim olur.

Gəlin Nigerin əlindən tutub oturacağa tərəf çəkdi. Onlar yanaşı əyləşdilər.

–Mənim adım Mayadır. – Gəlin danışmağa başladı. – Valideynlərim İngiltərənin Ceyson şəhərində yaşayırlar. Ailədə dörd nəfərik, məndən başqa bir qardaşım var. O, hələ balacadır, orta məktəbdə oxuyur. Mən Universitetə qiyabi daxil olan kimi işləmək istədim. Şirkətlərə müraciət etdim. Dəvətlər aldım və uzun sözün qısası Con Braunla tanış oldum. O, çox varlı adamdır, haranı istəsə, ala bilər. Həm də yaraşıqlı bir kişidir. Şirkətdə qızların hamısı ondan ötrü sinov gedirdi, amma o, hamının içindən məni seçdi. Bir müddət orada işlədikdən sonra Azərbaycana gəldik. Münasibətlərimiz alındı və… gördüyün bu körpə bizimdir. Onun ailəsi var, Londondadır. – Maya bir anlıq dayandı, sanki qəhər onu boğur, danışmağa imkan vermirdi. Gözlərinin yaşını sildi. – Bir müddət sonra mən başa düşdüm ki, bizim münasibətlərimizin sonu yoxdur. Con Braun məndən iyirmi beş yaş böyükdür. Mən hələ də anlamıram ki, ona necə vurulmuşam, onu necə sevmişəm. Ancaq nə etməli? Taledən qaçmaq heç vaxt mümkün olmur. – Maya yenə ara verdi. Diqqətlə Nigerin gözlərinin içinə baxdı, gülümsəməyə çalışdı. – Bu zaman sən qarşıma çıxdın. Əvvəlcə tüfeyli sandım səni. Sonra bizim dildə səlis danışmağın diqqətimi çəkdi, burda ingiliscəni çox az adam sənin kimi danışa bilir. Baxdım ki, yaxşı insansan. Yavaş-yavaş sənin varlığına alışdım və hiss etdim ki, xoş münasibətim yaranır. Həyatda ilk dəfədir ki, sevgi hissini

duyuram. Mən də sənsiz darıxıram, Niger!

Hələ heç kim onun adını belə səsləndirməmişdi, Maya onun adını elə vurğuladı ki, elə bil bütün dünyanı ona bağışladılar. Niger heç nə demədi, tamarzı kimi Mayanın əllərindən tutub dodaqlarına yaxınlaşdırdı, öpdü, öpdü, doymadı, duz kimi yalamağa başladı.

–Bəs sən necə? – Maya soruşdu.

–Siz nə danışırsınız? Mən yuxu görürəm, nədir? – Bilmədi nə desin, nə cavab versin.

–Yox, Niger, sən yuxu görmürsən. Bu, həqiqətdir.

–Ola bilməz! Sizin kimi gözəl, yaraşıqlı, alicənab birisi, mənim kimi avara, sərgərdan adama könül bağlaya bilməz.

–Niger, sən çox yaxşı adamsan. İnan! Hər şey yaxşı olacaq. Mən səni şirkətə dəvət edirəm. Qoy, səni görsünlər, tanısınlar, bizim münasibətlərimizdən xəbərdar olsunlar. Con Braunla da tanış edəcəyəm. Bəlkə, işə qəbul etdi. Etməsə də eybi yoxdur. Birlikdə çalışarıq. Mən yaxşı məvacib alıram, bəsimizdir.

–İlahi! Mənim başıma şahlıq quşu qonubmu? Bu nədir? Mən nələr eşidirəm.

Birdən uşağın ağlaması onların diqqətini çəkdi.

–Qalx, uşağı gəzdirək. Özümüz də söhbət edə-edə gəzişək.

Maya Nigerin əlindən tutub dartdı, hər ikisi ayağa qalxdılar. Niger uşağı sakitləşdirib arabaya qoydu.

Onlar parkda bir xeyli gəzişdilər. Ayrılanda Maya Nigerə yüz evro pul uzatdı.

–Al bunu. Get bərbərə, saçını, saqqalını qırxdır. Sonra özünə

əyin-baş al, yaxşı-yaxşı da hamamlanıb qiyafəni dəyiş. Saat beşdə gələrsən ofisə. – Ofisin yerini göstərdi.

Niger heç nə demədi, deyə bilmədi. Matı-qutu qurumuşdu, elə özü də quruyub qalmışdı. Maya gözdən itəndən sonra özünə gəldi. Əlindəki yüzlüyə baxdı, ilk dəfəydi əlində belə pul tuturdu. Əlini göyə açıb ucadan səsləndi:

–İlahi, bu nə taledi mənə yazmısan?!

Zərdüşt liftdən çıxan kimi foyedə dayanıb siqaret çəkən Niger ilə rastlaşdı.

–Tam zamanında gəldin. – Niger onu ingiliscə salamladı və bildirdi. – Biz yola düşməyə hazırlaşırıq. Axşamkı Bakı – London aviareysinə biletimiz var. Sən də vəzifəni qəbul etməyə hazırsanmı?

“Vəzifə ha! Eşidib-eliyən ola, deyər, görəsən, bu cavan, yeniyetmə oğlanı şirkətə vitse-prezident təyin edirlər, icraçı direktor qoyurlar, yoxsa…” Zərdüşt ani olaraq fikrindən keçirdi.

–Niger, sən heç məni əməlli-başlı başa salmadın axı… Görüm işim nədir, vəzifəm nədən ibarət olacaq… – Zərdüşt gileyləndi.

–Burda başa düşüləsi nə var ki… Bir aydır işin içindəsən. Hər şey sənə gün kimi aydın olmalıdır. Bu gün biz Maya ilə gedəcəyik, siz Culyetta ilə qalıb Con Braunun katibliyini boş saxlamayacaqsınız.

–Maya ilə Culyetta öz aralarında anlaşdılarmı?

–Gulyetta götürümlü qızdır. Kollec oxumasına baxma. Bir həftənin ərzində bütün sənədləri işləmək qaydasını öyrəndi.

Çay dəmləməyi də öz yerində. Con Braun bura gələndən sonra çayxorluqda sizinkiləri keçib. Hər şey öz qaydasında olacaq, problem yaşamayacaqsınız.

–Nə deyirəm ki…

–Bax belə… Sən elə ilk gündən Con Braunun da xoşuna gəlmisən. O dedi ki, Zərdüştü əməlli-başlı başa sal. Qoy, indidən həyatın nəbzini tutsun.

–O da baş üstə!

–Bir də mənim sənə bir qardaş məsləhətim var. Culyetta ilə mehriban davran. Sev onu. Elə et ki, o da səni sevsin. Sonra da zamanı gələr, onunla evlənərsən…

–Sən nə sarsaqlayırsan, Niger? Bəs o, Con Brauna məxsus deyil? Bunu özün demişdin axı…

–Burda hər şey, hamı Con Brauna məxsusdur. Maya da əvvəlcə ona məxsus idi. İndi isə mənim arvadımdı.

–Mən bunu bacarmaram. Mən sən ola bilmərəm, Niger.

–İndi sən məni maymaq hesab edirsən? Bu boyda ölkənizdə bir nəfər tapılmayıb ki, Maya kimi mələk görünüşlü dünya gözəli ilə evlənsin. Mən – qara zənci, afrikalı, adam yerinə qoymadığınız biri gəlib onunla evləndim. İndi İngiltərəyə yola düşürük. Orda şirkətimizi quracağıq. Bir ömür xoş günlər yaşayacağıq. Con Braunun da oğlunu oğulluğa götürmüşəm. Öz oğlumuz da öz yerində. Normal – ağ adamlar kimi yaşamaq üçün bundan başqa mənə nə lazımdır…

–Mən sənin yerinə ola bilmərəm. Mən Maya kimi bir qadınla, lap elə dünya gözəli olsun, evlənə bilmərəm.

–Demək istəyirsən ki, Maya pozğundur? Qızcığaz nə etsin ki, gənclik yaşlarında qızların bəhsinə düşüb, yaşlı bir kişiyə vurulub. Cəmisi bir neçə dəfə görüşüblər. Sonra başa düşüb ki, bunlar tay deyil, hissləri də ötərgidir.

–Sən öz arvadının keçmişi ilə bağlı necə də rahat danışırsan e…

–Bəs sən gedib kim ilə evlənəcəksən? Maymaqlığından gündə birinin aldadıb fırlatdığı bir ev qızı ilə? Sizin oğlanlar dildən pərgardır. O dil ki, onlarda var, ilanı da yuvadan çıxardarlar. Heç qızlarınız da onlardan geri qalmaz. Küçədə ərəbləri görən kimi özləri göbəklərini açıb göstərirlər, nədi, nədi, pulludurlar. Buna nədir sözün?

–… – Zərdüşt sadəcə baxırdı.

–Həə… indi dillən… Sözün yoxdur ki…? Onda bir az ağıllı ol. Con Braun yaşlı, həm də yaxşı kişidir, pulu çox olsa da, o murdar ərəblərin tayı deyil. Culyetta ilə uzaqbaşı bir il şur-mur fırladacaq. Sonra da, lap bir uşaq da doğsun. Bu, sizin üçün yaxşıdır, Con Braunun bir əli daima kürəyinizdə olacaq. Beş ildən sonra siz də Londona gələrsiniz. Yoxsa, gedib, Allah bilir, hansı kəndçinin, kasıbın, cındırından cin ürkənin birinin qızını alacaqsan. O da nə sevgi qanır, nə məhəbbət. Nə yanına salıb gəzməyə apara biləcəksən, nə də ziyafətlərə, görüşlərə…

–Mənə dərs vermə, zənci Niger! Düzdür, bizim qızlar qapalı böyüyürlər, sevgi-məhəbbətdən çox da anlamırlar. Elə yaxşı ki, anlamırlar, yoxsa onları heç kim almaz, evdə qalıb qarıyarlar. Bizim də papağımızı heç vaxt yerə soxmurlar, başımızı aşağı

eləmirlər.

–Sən nə danışırsan? Buna yaşamaqmı deyirsən? Məgər siz adam kimi yaşayırsınız? Marketlərinizi də gördüm, çörək, şirniyyat bişirən sexlərinizi də. Hamısı axşamadək eşşək kimi işləyirlər. İşçiləri demirəm heç, müdirləri günorta ya dönər yeyir, ya bulku gəvələyirlər. Rahatlıqla oturub bir qarın normal yemək də yemirlər. Siz buna yaşamaq deyirsiniz…?

–Düzdür, mənim babalarım, ulu əcdadlarım min illər boyu zillət içində yaşayıblar. Əllərinin qabarı ilə qazandıqları bir tikə yavan çörəyi yeyiblər. Başqasının qazancında, başqasının torpağında, başqasının arvadında gözləri olmayıb.

–Ayıl, Zərdüşt, ayıl. Elə bu düşüncəylə də torpaqlarınızı itirmisiniz. Məmləkətinizin qazancını bütün dünya sümürüb aparır. Siz hələ də "babam, nənəm belə yaşayıb" deyib durmusunuz. İndi bütün dünya müasirləşir, avropalaşır. Həyatdan zövq almağı bacar, dünyaya Avropanın pəncərəsindən, özü də avropalının gözü ilə bax. Gəl, gəl gedək. Con Braun bizi gözləyir.

–Mən getmirəm, Niger.

–Necə getmirəm?

–Daha gedəsi olmadım. Mənə nə Con Braun, nə avropalaşmaq, nə də belə təmtəraqlı həyat tərzi lazım deyil.

Zərdüşt fikrini qəti bildirib liftin düyməsini basdı. Qapı açılan kimi liftə daxil oldu.

–Zərdüşt. – Niger səsləndi, liftin qapısı bağlandı. – Bu ki, dəlidir…

Birinci mərtəbədə iyrənc ayaqyolundan çıxırmış kimi "… Plaza" yerləşən binanı yüyrək addımlarla tərk etdi. Parka çıxdı. Gözləri bir anlıq Ramini axtardı, bir anlıq onu öz yerində təsəvvür etməyə çalışdı. "Görəsən, mənim yerimə Ramin olsaydı, o, necə edərdi? Cülyetta kimi gözəl bir qızı əldən buraxardımı?"

Bir vaxtlar Cəfər Xəndanın adını daşıyan parkla yoluna davam etdi. Yönünü binalar görünməyən, alçaq, yöndəmsiz dam örtüyü olan yaşayış massivinə tərəf tutdu.

"Görəsən, bu yol onu hara aparacaqdı?" Zərdüştün beynində qeyri-müəyyənlik dolaşırdı.

Hər hara aparacaqdısa zənci Nigerin tərifədiyi səmtə aparıb çıxartmayacaqdı. Bunu Zərdüşt dəqiq bilirdi.

# Yer necə fırlanır ki…

Bu əhvalat XX əsrin doxsanıncı illərində olub. O vaxt çoxlarının anaları kimi mənim anam da sağ idi, ayaqdaydı, nəvələrinə həyan olurdu. İndi neçə illər keçsə də “ANALAR GÜNÜ” gələndə bütün xoş xatirələrlə bərabər həmin əhvalat da yada düşür.

Ermənilərlə müharibənin qızğın vaxtlarıydı. Rayonumuz işğal olunduğundan camaat, kimin gümanı hara gəlmişdi, səpələnmişdi. Biz ailəliklə Sumqayıta üz tutmuşduq. Qardaşım Qara həkim ailəsi ilə bərabər bağ evində yaşadığından onun dəniz kənarındakı beşmərtəbəli binada olan birotaqlı mənzilinə sığınmışdıq. Çox gərgin bir dövr idi.

Uşaqlar məktəbə gedirdilər, Vüsal yeddinci, Günel isə dördüncü sinifdə oxuyurdu. Şəhər xəstəxanasında işə düzəlmişdim deyə uşaqların dərsi ilə məşğul olmağa macal tapmırdım. Odur ki, anama tapşırmışdım. Anam savadsız bir kənd adamı olsa da, diri, zirək qadın idi. Onun da uşaqlıq bəxtinə Böyük Vətən müharibəsi yazılmışdı, oxuyub savad ala bilməmişdi. İstəmirdim ki, uşaqlar təhsildən kənarda qalsınlar, oxumasınlar. “Sən eləcə nəzarət elə, qoy oxusunlar, ev tapşırıqlarını yerinə yetirsinlər” demişdim anama, uşaqlara da hələmhəlbət tapşırmışdım. Həftəsonu gündəliklərinə nəzarət edirdim, görüm necə oxuyublar, necə qiymətləndiriliblər.

Bir şənbə axşamı baxdım ki, Günel "Təbiətşünaslıq" dan "qeyri-kafi" qiymət alıb. Hirs vurdu təpəmə. Yenə "İnfgilis dili", "Rus dili", lap elə "Riyaziyyat" ola, başa düşüləsidir. "Təbiətşünaslıq" dan niyə "iki" alasan? Bu necə ola bilər axı? Günel həm çalışqan uşaqdı, həm də dərslərini yaxşı oxuyurdu.

–Ay arvad… – deyə anama müraciət etdim, mən də, qardaşım da anama "arvad" deyirdik, heç inciməzdi, belə müraciətə uyğunlaşmışdı. – Bəs sənə deməmişdim ki, uşaqlarla məşğul ol, qoy dərslərini oxusunlar?

–Demişdin. – Anam heç təmkinini pozmadan cavab verdi. – Mən də məşğul olmuşam. Uşaqlar da dərslərini oxuyublar.

–Bəs bu nədir? – Gündəlikdəki qırmızı "iki"ni ona göstərdim.

–Müəllim səhv yazıb. – Anam yenə də arxayınlıqla cavab verdi. – O müəllimin başı xarabdır. Heç özü bilmir ki…

–Ana, o müəllimdir. Necə yəni özü bilmir?

–Yaxşısı budur Günelin özündən soruş…

–Danış görüm bu "iki" nədir? – Həmin hikkə ilə üzümü Günelə tutdum.

–Mən dərsimi oxuyurdum. Nənəm dedi ki, ucadan oxu, mən də eşidim. Mən də ucadan oxudum. Kitabda yazılmışdı ki, Yer kürə şəklindədir, yumrudur. Öz oxu və Günəş ətrafında fırlanır. Nənəm dedi ki, səhv yazıblar. Onu yazanın başı xarabdır. Görmür ki, Yer düzdür, dərəli, dağlıdır? O necə yumru ola bilər? Yumru olsa, ya yerindən tərpənsə, biz hamımız dənizə töküləik. Yer də fırlanıb eləmir, eləcə durduğu yerdə durub. Ay da, Günəş də onun başına fırlanırlar.

Diqqətlə qulaq asandan sonra düşdüm anamın üstünə.

–Qoymursan uşaq kitabda yazılanları oxuyub öyrənsin. Gedib danışsın, müəllimdən qiymətini alsın.

Bir sözlə, anamı o ki var danladım. Arvad heç nə demədi. Eləcə oturub, qımırlı-qımırlı üzünü divara tutdu, gözünü məchul bir nöqtəyə zilləyib durdu. Gözünü də qırpmadan fikirləşdi, fikirləşdi və nə fikirləşdisə, birdən qayıtdı ki:

–Aaz Almaz, məylim Yer fırlanır? Yer necə fırlanır ki, elə həmişə Zeynəbgilin pəncərəsi dənizə baxır. Qoy bir dəfə də bizim pəncərə dənizə baxsın dayna…

Gülmək məni tutdu. Özümü güclə saxladım. Doğrudan ha! Bircə "arvad" deyil ki, Yerin fırlandığını bilməyən… İstədim deyəm ki, Zeynəbgilin evi də, pəncərəsi də, elə dəniz özü də bizim evlə bərabər fırlanır, amma demədim. Azacıq anamı "danlamağımın" peşmançılığını çəkdim.

–Nə düşmüsən arvadın üstünə?! – Qaranın qəflətən səslənməsi məni fikirdən ayırdı, həmin vaxt o da bizdəydi.

…Gərginlik aradan götürüldü…

# Qapıçı

Hər bir qadın xəyalən qurduğu güllü-çiçəkli baharının o xoş anlarını qoca yaşlarında belə, hər zaman gözləməkdədir. Bəzən bir xoş söz də onun həyatını allı-güllü laləzara çevirə bilir, xüsusən də o sözü gözlədiyi kişidən, əziz-giramından eşidəndə. Hərdən də bunun əksi olur. Otuz il, qırx il, lap elə daha çox müddətdə bir yastığa baş qoyduğu ərindən könlündə bəslədiyi o xoş sözü eşitməyəndə, xəyalında qurduğu o xoş nəvazişi görməyəndə bir anın içində şahmar ilana dönür, könlünü oxşayan bir qucaq sevgi dünya boyda nifrətlə əvəzlənir. Onun üçün əziz olan insan bir göz qırpımında dünyanın ən pis, arzuolunmaz adamına çevrilir.

Ömrünün altmış beş ilini arxada qoyan Nazlı da bu gün beləydi, lap bahar buludu kimi dolmuşdu, bir himə bənddi ki, şimşək təki çaxsın, ildırımtək gurlayıb aləmi bir-birinə qatsın. Ərindən indiyə kimi görmədiyi hərəkətlər onu narahat etməyə başlamışdı. Düz qırx ildi onunla birlikdə yol gəlirdilər, qız-oğul dünyaya gətirmişdilər, böyüdüb oxutmuş, ailə qurmalarına köməklik göstərmişdilər; hər işdə dayaq durmuşdular. İndi, maşallah, övladlarının hərəsinin öz evi, öz ailəsi, öz işi vardı. Yaşlı vaxtlarında tez-tez olmasa da həftə səkkiz-mən doqquz nəvələrini gətirirdilər. Hər yerə qoşa gedib, qoşa gəlmişdilər. İndi iki il olardı ki, Nazlı təqaüdə çıxmışdı, Elxas isə yaşda ondan böyük olsa da hələ işləyirdi, çünki kişinin elmi dərəcəsi vardı,

alimdi. Alimlər üçün qanunda təqaüd yaşı müəyyənləşmirdi, nə qədər ki, canın suludur, yəni potensialın var, işləyə bilərsən.

Bütün bu illər ərzində Nazlı ərini "ağır oturub batman gələn" biri kimi tanımışdı. İndi birdən-birə onda bu yorğalıq hardandı? İyirmi-iyirmi beş yaşlı cavan oğlanlar kimi qıvraqlaşması onu narahat edirdi. Qadın beyninə də min cür müəmmalar dolurdu. Onun da lap birincisi… yenə də qadın şübhələriydi. Kim idi onun ərini bu yaşında qıvraqlaşdırıb dingildədən? Maraq Nazlının beynini qurd kimi yeyirdi.

Səhərdən ütünü bəhanə eləyən Nazlının fikri-zikri ancaq ərinin hərəkətlərindəydi, azacıq kostyumun pencəyini ütüləyir, tez-tez də əl saxlayıb güzgünün qabağında "bəzənib-düzənən" ərinə göz qoyurdu.

Elxas boynunu sağa-sola əyərək tez-tez qalstukunu düzəldir, seçdiyi qalstukun geydiyi köynəyə uyğun gəlib-gəlmədiyini müəyyənləşdirməyə çalışırdı. Odur ki, gah bu böyrü üstə durub güzgüdə özünə baxırdı, gah da o biri böyrü üstə çevrilirdi. Tez-tez də əlləri ilə saçını arxaya darayırdı, sanki dahilərdən, böyüklərdən kiməsə oxşatmaq istəyirdi özünü. Havayı deyildi, uzun ayrılıqdan sonra tələbə yoldaşları, onların arasında orta məktəb partasından yoldaşlıq elədikləri də vardı, onu yada salmış, dostlarından birinin oğlunun toyuna çağırmışdılar. "Pul yazdırmaq lazım deyil, eləcə sən gəl, görüşək", demişdilər.

–Yaxşı, görək. – Axır ki, Nazlı özünü saxlaya bilməyib atmacasını atdı. – Az bəzən, qız, xanım görüşünə getmirsən ha…

–Nədi, paxıllığın tutur? Uşaqlarla bir neçə saat bir yerdə

olacağıq. Gör neçə ildir bir-birimizi görmürük. Bir də adam qız, xanım görüşünə gedəndə yaxşı bəzənməlidir? Bəlkə elə qızlarımız da toyda olacaq, bizim qrupda cəmi on bir nəfər oğlan idik, qızlar bizdən çoxuydu.

–Uşaqlar e… – Nazlı sözünü bitirməyə ərinə imkan vermədi, ağzını büzüb ütüsünü sürtələdi. – Uşaqlara bir bax! Bu gün-sabah nəvələriniz ərə gedəcək, siz hələ də bir-birinizə "uşaqlar" deyirsiniz. Az qalır yaşınız yetmişi haqlasın e… Yetmiş yaşında da uşaq olar?

–Diqqətli ol, sən öz işini gör. Bax ha, yandırmayasan. Başın qarışar, pencəyi yandırarsan. Geyməyə başqa kostyumum yoxdur.

–Sənsən də…, "özünə kostyum al", deməkdən dilimdə tük bitib. Sən isə köhnə kostyumunu geyib nimdaşını çıxartmayınca nə ondan əl çəkə bilirsən, nə də gedib özünə təzəsini alırsan.

–Ağzımı açdırma…, artıq pul oldu, gedib almadım?

–Pul niyə yoxdur? Artıq pulun olanda da tez qoyursan qırağa ki, kitabımı çıxaracam. Kitaba pul toplaya bilirsən, təzə kostyum almağa yox…

–Arvad, bu sən baş açası iş deyil. Sənin işin pencəyi ütüləyib mənə verməkdir.

…Nazlı ərinin qəribə hərəkətlərini hələ səhər tezdən müşahidə etməyə başlamışdı. Çayı qızdırıb yataq otağına qayıtdı ki, ərini yuxudan oyatsın. Baxdı ki, Elxas gülümsəyir və halından çox razıdı. Onu yuxudan dərhal oyatmadı Nazlı, dayanıb bir xeyli müşahidə apardı. Elxas yerində qurcalanır, gülümsəyir,

yuxusunun ləzzətini çıxarırdı. Nazlının səbri çatmadı axıra kimi dayanıb baxmağa, paxıllığı, bəlkə də qısqanclığı tutdu ərinə. “Cavan, yeniyetmə oğlan deyil ki, yuxusunu qarışdırsın. Şeytanlar yoldan çıxarıb ona huri-mələk məclisi düzəltsinlər. Yaşlı adamdı, bu yaşda o, yuxuda nə görə bilər ki, halından belə meyxoşdu?”

–Elxas, qalx, dərsə gecikirsən!

Səs Elxasın başının üstündə ildırım kimi çaxdı, şaqqıldadı. Amma Elxas təmkinini pozmadı, belə şaqqıltılara artıq öyrəncəliydi. Elə həmin gülərüz sifətlə yuxudan oyandı, gözlərini açıb başının üstündə duran arvadına zillədi. Elə bil heç yuxuda deyil gerçəkdə görürmüş, nə idisə həmin yaşantıları. Yuxusunu qarışdıran da heç huri-mələklər deyil, dost-doğmaca arvadı Nazlı imiş.

–Nə olub?

–Heç nə. – Nazlı dodağını büzüb çiyinlərini çəkdi.

–Bəs onda nədi Ərəbzəngi kimi başımın üstünü kəsibsən? Qoymazsan bir havır gözümüzün acısını çıxaraq?

–Hmm… Gözümüzün acısını almağa bir bax! Allah bilir neçənci qat yuxunu yatırdın. Özü də, deyəsən, yenə yuxunu qarışdırmışdın.

–Yox, ay Nazlı, nə yuxunu qarışdırmaq. Bu dəfə əsl kef idi.

–Deyirəm də… Yenə də o universitetdəki laborantkalardan hansınısa xəyalına gətirmisən… – İstədi desin ki, qucaqlayıb özünə sıxmışdın, amma demədi, dilini sürütləyib saxladı.

–Sən də e.., ay Nazlı, elə öz xülyalarındasan. – Elxas da

arif adamdı, arvadının nəyə him-cim elədiyini göydə tutdu. – Qadın ki, qadın. Siz heç vaxt düzəlməyəcəksiniz. Bir ayağım bu dünyadadı, bir ayağım gorda, sən hələ də məni gah müəllimələrdən hansınasa, gah da laborantkalara qısqanırsan. Heç ayıb deyil…?

–Deyirsən, düz danışmıram? Siz müəllimlər axı öyrənibsiniz hamını kəsib tökməyə, yalanını çıxarmağa. Karam, yoxsa koram? Heç eşitməmişəm, bir dənə də olsun kinoya baxmamışam, anadangəlmə əlimə bircə kitab alıb oxumamışam. Bilmirəm o universitetlərdə nələr baş verir?! Hələ heç tələbələri demirəm. Qiymət almaq üçün az qalırlar müəllimlərin kirpiklərini aralayıb gözlərinə girsinlər. – Nazlının gül ağzı açılmışdı, bir az da keçsəydi…

–Yaxşı, ay Nazlı, bəsdir daha. Mən nə hayda, sən nə hayda. Gül kimi yuxu görmüşdüm. Ovqatımı yenə təlx eylədin. İndi mən bu ovqatla auditoriya qarşısına necə çıxacam?

–Lap yaxşı. Həmişə necə çıxmısan, indi də elə çıxarsan. Müəllim deyilsən? Hamıya hər vəziyyətdən çıxmağı siz müəllimlər öyrətmir, bəs kim öyrədir? Müəllimi gecə yarısı şirin yuxudan oyatsalar da gərək sorğu-suala hazır ola. – Yorğanı dartıb ərinin üstündən qaldırdı. – Qalx, əl-üzünü yu, keç mətbəxə, yeməyin hazırdır.

–Bircə bu işinə əla!

–Qarnın olmasa bunu da deməzsən.

–Yox, canım, ciddi sözümdür. – Elxas yataqdan qalxıb Nazlını öpmək istədi, amma arvadı buna imkan vermədi, üzünü

o tərəfə çevirib ərinin yaxasından itələdi.

–Minnətin olsun, aaz! – Elxas ağzını turşudub əynini geyinməyə başladı.

Əl-üzünü yuyub mətbəxə təzəcə keçmişdi ki, Nazlı gəldi. Qadın marağı onu rahat buraxmırdı.

–Səni dədiyin goru, danış görüm, yuxuda kimi görmüşdün? Cavan idi? Gözəl idi?

–Gəlib danışaram. İndi danışsam dərsə gecikə bilərəm.

–Yox e.., buraxmaram. Eləcə çörək yeyə-yeyə ucundan-qulağından danış. Görüm bu gecə səni hansı arvad yoldan çıxarıb.

–Bu gecə çox qəşəng bir yuxu gördüm. – Elxas bunu deyib ciddiləşdi. – Səni niyə bu qədər maraqlandırır mənim yuxularım?

–Başqa vaxt olsaydı, soruşmazdım. Amma deyirlər, səhər obaşdan görülən yuxular çin olur. Deyirəm birdən… Həm də bilmək istəyirəm görüm səni yoldan çıxaran o ləçər kimdir ki, yuxuda bu qədər xoşallanırdın?

–Gördüm ki, getmişəm qəbiristanlığa – Qurd qapısındakı qəbiristanlığa.

–İrağ olsun. Sənin qəbiristanlıqda nə işin var? Özü də Qurd qapısındakı qəbiristanlığa. Yenə Biləcəridəki köçkün qəbiristanlığına getsəydin, dərd yarıydı, deyərdik ki, ölənlərimizi yada salıb qəbirlərini ziyarətə getmisən.

–Sən də bir dayan görək. Qəbiristanlıqda kimi görsəm yaxşıdır?

–Mən nə bilim kimi görübsən.

–Azadı.

–Bizim bu Qəriblərdən olan Azadımı?

–Hə də. Orta məktəbi də bir yerdə oxumuşuq, institutu da. O, heç orta məktəbdə də yaxşı oxumurdu, institutu da birtəhər başa vurdu, demək olar ki, sürünə-sürünə.

–Azad qəbiristanlıqda nə edirdi? Olmaya rəhmətə gedəni olub, xəbər tutmamısan?

–Baahooo, desəm, inanmazsan. Azad qəbiristanlıqda sex açıb – mərmər sexi. Bəlkə iki milyonluq mərməri vardı.

–Doğrudan e.., Qurd qapısındakı qəbiristanlıq axı bahalı yerdir. Orda hələm-hələm adamlar ölüsünü dəfn edə bilmirlər.

–Hə, Nazlı, Azad məni görüb hal-əhval tutan kimi gileyləndi.

–Nə dedi?

–Dedi ki, müəllim, ta məşhur olandan sonra görünüb-eləmirsiniz. Sorağınızı ancaq televiziyadan, radiodan alırıq. Deyirdilər, indi də Almaniyada kitablarınızı çap edirlər, çox sevindik. Adam yazıçı olanda nə olar. Kitablarınızdan bir-ikisini də bizə göndərin, boş vaxtlarımızda oxuyaq. Azad elə bunu deyən kimi əl atdı cibinə. Nə qədər desəm də əl çəkmədi, bir qırmızı yüzlüyü zorla dürtdü cibimə, dedi, bu da kitabın şirinliyi.

–Sağ ol Azad.

–Nazlı, bu hələ harasıdır. Azadın yanında bir qaradıbırıq kişi vardı. Azad tanış elədi, dedi ki, Həmid kişidir, qəbiristanlığın müdiri. Özü də biz tərəflərdəndir, Qarabağlıdır, Xocavəndin Qaratorpaq kəndindən. O da məni tanıdı. Dedi, haqqınızda

çox eşitmişəm. Uşaqlar elə hey sizin kitabları oxuyurlar. Təzə kitabınızdan birini də mənə göndərərsiniz, apararam uşaqlara. Həmid kişi də bunu deyib bir sarı əllilik dürtdü cibimə. Vallah, utandığımdan o pul kimi saraldım.

–Sağ olsunlar, mən heç bilməzdim ki, kitabların səni belə mərtəbəyə qaldırıb. Həm də qəbiristanlıq işçisi olasan, kitaba belə yüksək dəyər verəsən! – Nazlı başını buladı. – Hə, sonra nə oldu?

–Day nə olacaq? Maşını sürüb gəlirdim ki, yolda birisi sıxışdırdı, karıxdım. Sükanı yığışdıra bilmədim, buferi sürtdüm bardyura. Bir az əzildi, bir də boyası getdi. Cibimdə pul var idi deyə evə gəlmədim. Birbaş sürdüm Dərnəgülə. Orda böyük qaraj var. Canavar kimi uşaqlar işliyir orda. Bir saatın içində maşını söküb yığırlar. Maşını Qorxmaz adında bir dəmirçiyə göstərdim, başladı düzəltməyə. Əzilmiş yerlərin düzəltmişdi, kraskasını vurmaq istəyirdi ki…

–Belə tez?

–İndi kraskanı şotka ilə vurmurlar, sənin dezodarantın kimi fısqırdırlar, bildinmi?

–Mən nə bilim axı.

–Hə, Qorxmaz kraskanı vurmağa başlamışdı ki, Vidadi gəlib çıxdı.

–Hansı Vidadi?

–Aaz o parabeyini deyirəm də, bazarkomun oğlu, bizinən oxumurdu? Həmişə məndən köçürürdü, yenə də səhv eliyirdi.

–Hə, yadıma düşdü, sonra da bir müddət kənd məktəbində

direktor işlədi. Ancaq səni heç vaxt unutmurdu, bayramlarda həmişə payını göndərirdi.

–Hələ bir deyirsən göndərməsin də? İnstitutu mənim hesabıma oxumuşdu.

–Sənin yox, bazarkom dədəsinin pulunun hesabına. Hə, nə isə, sözünü de.

–Görüşdük, hal-əhval tutduq. Soruşdum ki, sən burda nə eliyirsən, nə desə yaxşıdı? Dedi ki, mən bu qarajın müdiriyəm. İnanırsan, əlim qaldı ağzımda.

–Burda təəccüb eləməli nə var ki. Atası bazarkom olanın qarajı da olacaq, hələ deyirsən anbarı da.

–Nazlı, sən təsəvvür eləmirsən e.., bu qarajın ərazisi, bəlkə, bir hektardır. Qarajda yüzdən çox adam işləyir. Elektrik ayrı, motorist ayrı, dəmirçi ayrı, akkumulyatora baxan ayrı, təkər yamayan, yağ dəyişən, antifriz tökən, amortizator nizamlayan, nə bilim e.., maşına nə qulluq lazımdırsa, hamısı burda. Bir də bir diaqnostika aparatı qoyublar. Xəstəni müayinə edən kimi bunlar da maşını müayinə edib xarab yerini deyirlər. Yanasan, a texnika…

–Day, denən qaraj yox, hər şeyi olan bir qəsəbədir ki.

–Hə, bircə diskotekası çatışmır. O da axşam saat yeddidən sonra qarajı bağlamasalar ustalar kafedə onu da təşkil edərlər – böyük kafesi var qarajın.

–Sonra nə oldu? Vidadi necə yola saldı səni?

–Biləndə ki, maşını gətirmişəm, srazu ustaya gözünü necə ağartdısa, Qorxmaz dərhal işini bildi. Nə qədər elədimsə bircə

manat da götürmədi. Sağ olsun Vidadi, məni qapıdan yola salanda əlini cibimə saldı. O dəqiqə bildim ki, pul qoyur cibimə. Duyuq düşdüyümü görüb ağzımı açmağa macal vermədi. “Təzə kitabın çıxan kimi birincisini götürüb gəlirsən, yoxsa eşitsəm ki, məndən qabaq başqasına aparıbsan, inciyərəm”, dedi. Darvazadan aralanan kimi baxdım ki, yüz manatdır. Sağ olsunlar, məni heç yaddan çıxarmayıblar.

–Elə bu? Bəs sonra nə oldu?

–Sonra sürdüm maşını peşə məktəbinin qabağına. Dedim, cibdə pul var ikən bir yaxşı bazarlıq eliyim. Axı peşə məktəbinin qabağında hər bazar günü kənd təsərrüfatı məhsullarının həftəbazarı təşkil olunur.

–Hə, heç xəbərim yox idi.

–Necə xəbərin yoxdu? Bu ki, yarım ildən çoxdur təşkil olunur.

–Deyirlər e.., ancaq bilmirdim ki, peşə məktəbinin də qabağında kənd təsərrüfatı məhsullarının yarmarkası təşkil olunur.

–Hə, elə maşını təzəcə salmışdım məktəbin qabağına, qırağa verib saxlamaq istəyirdim ki, gördüm pilləkəndə iki-üç nəfər durub siqaret çəkir. Maşını saxlayıb baxdım. Kimi görsəm yaxşıdır?

–Mən nə bilim kimi görmüsən? Özün de də…

–Aliki – Fəttah kişinin nəvəsin.

–Hə, tanıdım. Institutda oxuyanda bir dəfə də olsun atası arxasınca gəlmədi, elə həmişə babası gəlirdi.

–Bəs elə uşaqlıqdan babası saxlayıb onu. Metirkasın

yazdıranda gedib kənd sovetinin yanına. Deyib uşağın adın Əli yaz. Kənd soveti də həm orta məktəbdə rus sektorunda oxuyubmuş, həm də əsgərlikdən təzə gəlibmiş. Yeri gəldi, gəlmədi, hamıyla yarırusca danışırmış. Götürüb uşağın adın Əli əvəzinə Ali yazıb. Fəttah kişi bir az hirslənib, ancaq hara çatasıydı onun hirsi, hikkəsi. Axırı razılaşıblar ki, adın sonuna bir "k" hərfi də əlavə etsinlər. Beləliklə, uşağın adı qalıb Alik.

–De, görüm, Alik qardaşdığın neylədi səninçün?

–Day neyləməliydi? Müavini Əjdərə tapşırdı ki, müəllimə bir yaxşı bazarlıq elə. Mənim heç xəbərim də olmadı. Biz Aliklə onun kabinetində çay içib durana kimi Əjdər müəllim baqajı ərzaqla doldurdu. Görüşüb ayrılanda Alik müəllim bir əlini kürəyimə vurub o biri əlini yavaşca saldı cibimə. "Alik, bu olmadı" deyib etiraz etmək istəyəndə sözümü kəsdi. "İnciyərəm, dedi. Eşitmişəm, təzə kitabın çapdadı, inşallah çıxan kimi götürüb gəlirsən. Həm məktəbdə tədbirini keçiririk, həm də… yuyuruq!"

–Bəs sonra nə oldu?

–Sonra nə olasıdır? İmkan verdin ki, nəsə də olsun. Ərəbzəngi kimi başımın üstünü kəsdirib qışqırdın. Elə qışqırdın ki, dost-tanış da yoxa çıxdı, bir anın içində pullar da uçub-getdi. Sən həmişə beləsən, elə həyatda da, yuxularda da.

Nazlı acı-acı gülümsündü.

–Heç bilirsənmi belə olanda Zöhrə qocam nə deyirdi?

–Nə deyirdi sənin o məktəb görməmiş qocan?

–Deyirdi ki, ac toyuq yuxuda darı görər.

…Elxas həmişəki kimi məktəbdən günortadan sonra qayıtdı. “İştaham yoxdur” deyə günorta yeməyindən imtina elədi. “İştahan yoxdur, yoxsa iştahanı qaqalarınla ley-peyə saxlayırsan?” deyə Nazlı atmacasın atıb soruşduqda bir az da hirsləndi.

–Tutaq ki, lap elədi. Sonra?

–Sonra da sənin can sağlığın. Deyirəm son vaxtlar belə birtəhər olmusan.

–Yəni nətəər?

–Demirsən ki, ay arvad, bizi toya çağırıblar. Geyin, dur düş yanıma. Gedək, bir az şənlənək.

–Nədii, könlünə toy düşüb?

–Niyə də düşməsin? Restorana aparmırsan, gəzməyə getmirik, ilboyu Bakıdan qırağa çıxmırıq. Nədi, mən adam deyiləm? Yoxsa, qorxursan ki, toyda səni pis göstərəm? Qızlarınız məni bəyənməyələr?

–Nazlı, Allah eşqinə, məni cin atına mindirmə.

–Sən heç cin atından düşmüsən ki? Mən səni tanıyandan, elə cin atının belindəsən.

–Nazlı, dedim axı, məni toy sahibi yox, uşaqlar dəvət edib. Pulumu da onlar yazdıracaq. Düz qırx ildir bir yerə yığışmırıq. Hamısının əli uzundur. Vəzifədədirlər, pulludurlar, imkanları hər yerə çatır. Beş kitabım hazırdır, pul dərdindən çapa göndərə bilmirəm. Deyirəm bəlkə, insafa gəldilər, kitabların çapına kömək elədilər. Yuxusunu da görmüşəm. Özün deyirsən ki, səhərə yaxın görülən yuxular çin olur.

–Nə deyirəm ki. Təki elə olsun!

Nazlı daha heç nə demədi. Vaxt gəlib çatdı, Elxasın kostyumunu ütüləyib geyindirdi və toya yola saldı.

–Allah ürəyincə versin. Təki sən deyən kimi olsun. Amma uşaqlara uyub cavanlığını yada salma.

–Yenə öz dediyindəsən e.., bu yaşda da məni qısqanırsan.

–Onu demirəm. Deyirəm ki, cavanlığını yadına salıb qaqalarının sağlığına çox içmə. Ürəyin xəstədir, dözməz.

–Noolub aaz, mənim ürəyimə. Lap on beş yaşlı yeniyetmənin ürəyi kimi döyünür.

Elxas kefi kök evdən çıxdı. Nazlı onun arxasınca bir diş qənd tulladı.

Toy "Yeganə" restoranındaydı. Ətrafda belə dəbdəbəli, möhtəşəm ikinci bir restoran yoxuydu. Deyirdilər, Dədə Mamedin restoranıdı. Elxas bunu elə-belə sözgəlişi eşitmişdi. Kimidi bu Dədə Mamed, nə iş yiyəsiydi, Elxas bilmirdi, heç maraqlanmamışdı da. Bir də nəyinə gərəkdi, beşdə alacağı yoxdu, üçdə verəcəyi. Toy sahibi də hər kimiydisə, Dədə Mamedin uzaq, ya yaxın qohumlarındandı. Çünki hər kəs burda toy sifariş eləməzdi.

İndi bunlar hardan düşdü Elxasın yadına. Son vaxtlar sponsor hesabına kitab çıxartmaq dəb halını almışdı. Kitab yazanlar axtarıb, arayıb varlı adamlar tapırdılar. Sonra da kitablarını onların hesabına çap elətdirirdilər. Giriş hissəsində də həmin haminin, sponsorun bütöv bir səhifə rəngli şəkilini verirdilər. Səhifənin arxasında da onun tərcümeyi halını yazırdılar.

Guya ki, Hacı Zeynalabdin Tağıyevdən millətə miras qalan xeyirxahlıq missiyasını indi Filankəsov Bəsmənkəs Hətəmkəs oğlu çiyinlərində daşıyır. Necə ki, çiyinlərini qarşınızdakı kitabın ağır yükünün altına verib. Hardansa Elxasın da ağlına belə bir fikir gəldi. İndi müxtəlif vəzifələrdə olan tələbə yoldaşları nə kömək edərlər, edərlər. Əsası toy sahibi ilə tanış olub onun vasitəsilə Dədə Mamedə çıxmaqdır. Bu boyda dəbdəbəli restorana sahib olan adamın əlində bir kitab çap elətdirmək nədi ki?!

Restorana çatanda gözlərinə inanmadı. Bura doğrudan da, olduqca dəbdəbəli, möhtəşəm bir bina idi. Başında tacı da vardı. Restorandan daha çox malikanəyə, şah sarayına oxşayırdı. Çöldən sakit görünsə də içəridə insanlar qaynaşırdı. Elxas içəri keçib dazbaş, yekəpər, ortayaşlı birisi ilə qarşılaşdı. Boğazında qırmızı qalstuk və gözlərində bahalı eynək olduğundan toy sahibinin yaxın adamı zənn etdi. Salamlaşıb gözaydınlığı verdi. Müəllim yoldaşlarını soruşdu.

–Xoş gəlmisiniz, buyurun! – Qırmızı qalstuklu onu foyedən salona keçirdi. Hardasa lap arxa tərəfdən on dördüncü, ya on beşinci cərgəni göstərib:

–Müəllim, sizin uşaqlar ordadır, buyurun, keçin! – dedi.

Elxas sağa-sola baxmadan göstərilən masaya doğru irəlilədi. Guya baxsaydı nə olacaqdı, kimi tanıyacaqdı. Amma istəmədi baxsın, birdən kimsə tanıyardı. Durub görüşər, öz masalarında oturmağa dəvət edərdi. Niyə də olmasın, azdan-çoxdan tanınan yazıçılardandı. Kim istəməzdi tanınmış yazıçı ilə bir masada

əyləşsin. Sonra da şəkil çəkdirsin. İnternetdə paylaşsın, dost-tanış arasında lovğalansın; baxın, bu mənəm, tanınmış yazıçı ilə birlikdə, toy masası arxasında.

Salonun yarısını keçmişdi ki, tələbə yoldaşlarının əyləşdiyi masanı lap aydınca gördü. Deyəsən, masa dolu idi, hər halda dolu görünürdü, masada qadın da vardı, ancaq kişilər çoxluq təşkil edirdilər. Bəli, tələbə yoldaşlarıydı, Elxas ilk baxışdan onları ayırd edə bilməsə də təxmini tanıdı. “Necə də qocalıblar, ilahi, bu qırx il nə tez gəlib keçdi. Yenicə bığ saxlayan şəvərək oğlanların indi başı dazlaşıb, sifətləri qat bağlayıb, qarınları necə də qabağa çıxıbdı. Çiyinlərini çəkib, tellərini yana ataraq naz satan nərmənəzik qızların görünüşündən əsər-əlamət qalmayıbdır” – bir anlıq Elxasın beynindən yalnız bu fikirlər keçdi. Baxdı ki, masanın qabağında dayanıb, birinci kiminlə görüşəcəyini, harda, kimin yanında oturacağını götür-qoy eləyir. Masanın baş tərəfində bir boş yer vardı, lakin keçib oturmazdan əvvəl hamıyla görüşmək lazımdı, on bir nəfər masa arxasından qalxıb onunla görüşməyəcəkdilər ki!

–Qızlar, salam! – İlk olaraq aşağı tərəfdə oturub ona tərəf baxan qızdan başladı.

–Əleykümə salam. – “Qız” bir az ciddi görkəm alıb cavab verdi, görünüşündən tanımadığı hiss olunurdu.

–Yasəmən deyilsən? Qara, uzunsaçlı qız? Məni tanımadın? – Elxas gülümsəyərək soruşdu.

–Hə, Yasəmənəm, amma o qara, uzunsaçlı qızdan əsər-əlamət qalmayıb, nəvə-nəticə sahibiyəm. Sizi kiməsə oxşadıram, amma

ayırd edə bilmirəm. Doğrudan tanımadım. – "Qız", daha doğrusu yaşlı qadın çiyinlərini çəkdi, o biri üç qadın da ona baxıb irişdilər.

Elxasa elə gəldi ki, heç "oğlanlar", indi artıq kişiləşmiş tələbə yoldaşları da onu tanımayıblar, elə bu an, bu dəqiqə tanışlıq verməsə onu məsxərəyə qoyub gülüşəcəklər. Yaman güləyən qrup idi onların qrupu, adlarını çöpəgüləyən qoymuşdular, hər şeyə gülürdülər; fərqi yoxdu, barmağını yuxarı qaldır, ya yumruğunu, güləcəkdilər. Özü də gülmək var, gülmək var; bunlar lap qəşş eliyib gülənlərdəndi.

–Mənəm də Elxas İlyasov.

–Axı sənin bir adın da vardı.

–Hə. Elə kənddə də hamı məni Eyvaz kimi tanıyırdı.

–Ohooo, Eyvaz!

–Ay səni xoş gəlmisən, Xan Eyvaz!

–Bizim məclisimizi feyziyab elə, yoldaş İlyasov!

Hamısı bu sözə bənd imiş kimi yerbəyerdən səsləndilər.

Qucaqlaşma, görüşmə, öpüşmə anları bir-iki dəqiqə çəkdi. Elxas qrup yoldaşları olan qızlarla da əl tutub görüşdü. Sonra ona göstərilən yerdə əyləşdi.

–Götürün, görək. – Şadoğlan badəsini qaldırıb təklif sürdü. – Şərəfə. Qırx ildən sonra bir yerə yığışmağımızın, görüşməyimizin şərəfinə. Ə, ordan qızlara şampan süzün.

–Bəlkə tamadanın çıxışını gözləyək! – Elxas astadan dilləndi. – Axı o da nə isə sağlıq deyir. Biz də sağlığımızı onun sağlığına qoşaq.

–Sən onlara fikir vermə. Şərəfə!

Şadoğlan badəsini bir az da yuxarı qaldırıb irəli uzatdı. Taqqataraq toqquşdurdular və neçə ilin tamarzıları kimi başlarına çəkdilər. Mıshamıs masanı başına götürdü. Əl atıb masadan nələrsə götürüb ağızlarına təpişdirdilər, kimisi xiyar turşusu, kimisi alça, kimisi də təzə pomidoru eləcə bölmədən ovurduna basdı. Mısıltı marçıltı ilə əvəzləndi.

–Yeyin, için, kef eləyin. – Baloğlan özünü tarazlayıb ortalığa söz atdı. – Dünya beş günlükdür, onun da cəmi ikisi şənbə, bazara düşür.

–İndi nə deyirsən, bu yaxşıdır, yoxsa pisdir? – Qədimalı soruşdu.

–Baxır nəbzini hansı tərəfdən tutarsan? – Vüqar tez cavablandırdı. – Şənbədən tutarsan, iş günləri də ley-peylə keçər. Yox, istirahətini bazara saxlarsan, azara düşərsən.

–Nə azarına? – Bədrəddin təəccübünü gizlətmədi. – İstirahətdə nə azar?

–Birinci gün işə çıxmaq azarı boğazını üzər, qoymaz bir damcı da içəri keçsin.

–Yaxşı, Götürün. – Baloğlan badəsini qaldırdı. – Yaxşı deyil, tamada gözləyir.

Badələri qaldırdılar, toqquşdurdular və xor dərnəyində keçirilən məşqlər təki hamı bir nəfər kimi başına çəkdi. İçib yenidən süfrəyə girişdilər.

–Hə, Elxas, danış görək nə işlə məşğulsan? – Bədrəddin soruşdu.

–On ildən artıqdır ki, Şərq-Qərb universitetində müəllim işləyirəm. Bir də yaradıcılıqla məşğulam, yazıram.

–Hə, sən universitetdə oxuyanda da nə isə yazırdın. – Valeh əlavə etdi.

Elxas baxdı ki, tələbə yoldaşları onu yaxşı tanımırlar. Səhərdən kefləri durulurdu, indi yazmaq məsələsi ortaya atılan kimi burunları sallandı. Odur ki, söhbəti bir az dərinləşdirmək istədi.

–Məni heç oxuyursunuzmu?

–Hardan tapıb oxuyaq? Heç olmasa kitabın çıxıbmı?

Gözlənilməz sualdan Elxas duruxdu.

–Siz mənimlə məzələnirsiniz? Artıq mənim on iki kitabım çıxıb.

–Ət ağa haqqı xəbərimiz olmayıb.

–İki kitabım osmanlı türkcəsinə uyğunlaşdırılıb, böyük tirajla Türkiyədə çap olunub.

–Pah atonnan! – Əl-ələ vurdular. – Halal olsun!

–Bir kitabım alman dilinə tərcümə edilib Berlində çap olunub.

–Əla!

–Gürcü, rus, özbək dillərinə tərcümə olunanları demirəm, onlar özümüzünkülərdir, keçmiş Sovet ailə üzvlərimizdəndirlər.

–Bravo!

–Yaşasın!

–Halal olsun1

Tələbə yoldaşları onu alqışladılar, amma Elxas onların səsində bir sevinc duymadı, bir səmimiyyət hiss etmədi.

–Doğrudan mənim yazdıqlarımdan xəbəriniz olmayıb? – Elxas ciddiləşdi.

–Sənə “sən öl” demirəm, vallah xəbərimiz olmayıb. – Baloğlan hamının əvəzindən xəbər verdi.

–Axı sən nə yazırsan? – Şadoğlan elə maraqla soruşdu ki, Elxasın özündə də nə yazdıqlarına maraq oyandı.

–Necə nə yazırsan? – Elxas acı-acı gülümsədi. – Yazıçı nə yazar? Roman, povest, hekayələr…

–Həə…, belə de… Mən də deyirəm bəs…

–İndi mən ölkənin ən məşhur, ən məhsuldar beş yazıçısından biriyəm. Orta məktəb dərsliklərinə ən çox hekayəsi daxil edilmiş yeganə yazıçıyam. Sizin bundan da xəbəriniz yoxdur?

–Vallah, xəbərimiz yoxdur.

–Bəs siz məktəbdə necə dərs keçirsiniz? Keçdiyiniz dərsliklərə baxmırsınızmı? – Elxas bu yerdə lap hövsələdən çıxdı. – Mən bəziləri kimi təxəllüs də götürməmişəm. Familiyamı da dəyişməmişəm. Familiyamın sonluğuna zadə, lı, li də artırmamışam. Eləcə institutda oxuyanda necə Elxas İlyasov idimsə, eləcə də qalmışam. Odur ki, sizi başa düşə bilmirəm. Necə yəni siz şagirdlərə keçdiyiniz dərsliklərdə mənim on bir hekayəmdən birinə rast gəlməmisiniz?

–Ə kişi, birincisi, sənə deyirik rast gəlməmişik, deməli rast gəlməmişik. İndi dərsliklərə fikir verən kimdir. Hər il yeni dərslik yazırlar. Heç bilmirsən kim yazıb, necə yazıb. Gündə bir xoruz səsi eşitməmiş dərsliklər üzə çıxarırlar. Bunların hamısına baxmağa vaxt lazımdır. Bizdə də ona vaxt yoxdur. Indi hamı

testlə məşğuldur. – Şadoğlan bəzi məsələləri açıqlamağa çalışdı.

–İkincisi, lap xəbərimiz olub, həə, noolsun? – Baloğlan əlindəki badəni toqquşdurmadan, sağlıq gözləmədən başına çəkdi, xiyar turşusunu ağzına basıb gəvələyə-gəvələyə sözünə davam etdi. – Sözünün mustafasını de.

–Daha sizə sözüm yoxdur. Mən səhv eləyib bura gəlmişəm. Sizinlə oturmağın, vaxt öldürməyin heç bir adı, mənası yoxdur. Həmişə toyda. – Elxas bunu deyib ayağa qalxdı və asta addımlarla masadan uzaqlaşdı.

–Elxas…

–Xan Eyvaz…

Arxadan səsləndilər… Qədimalı ayağa qalxıb onu saxlamaq istəsə də Valeh qolundan tutub aşağı oturtdu.

–Yox bir, böyük yazıçı olub, tanımamışıq. O boyda Səməd Vurğun vur-tut altı kitab yazıb. Heç onların adlarını yadda saxlaya bilmirik. İndi mindən çox kitab yazan var, biz nə bilək kim kimdir.

Elxas foyeyə çıxdı, ora adamla dolu idi. Toy təzə başlasa da burada iki-bir, üç-bir yığışıb söhbətləşir, çay içir, siqaret çəkirdilər. Müəllim yoldaşlarından kiminsə onun arxasınca gəlib geri qaytarmağa cəhd göstərəcəyindən ehtiyatlandı. Durub süpürləşməyəcək ki, ayıbdır, görənlər nə deyər. Sakitcə çıxmağın da mənası yox idi, toydan gedəndə kiməsə gözaydınlığı verməkgərəkdi. Bu heç yaxşı olmadı. Elxas çıxışa doğru ehmal-ehmal addımladıqca foyedəkilərin hamısını nəzərdən keçirdi, hərə öz kefindəydi, heç ona fikir verən də yox idi.

“Necə də həvəslə gəlmişdim. İndi dilxor halda çıxıb gedirəm, amma ayaqlarım heç getmək istəmir. Elə bil bir maşın daş daşıtdırıblar”.

Elxas öz-özünə sakitcə danışa-danışa restorandan çıxdı. Binanın çölündə qapıçıdan başqa heç kim yox idi. Qəşəng geyimi vardı qapıçının – qusarlara, süvarilərə bənzədilmişdi. Heyif ki, at belində deyildi. Odur ki, dərhal aralaşmadı, elə qapının ağzında bir siqaret çıxarıb yandırdı. Birdən qapıçı da toy yiyələrindən olar, onda elə siqaret çəkməyə çıxmışam.

–Müəllim, siqaretinizdən birini olar? – Qapıçı dərhal bir siqaret istədi.

“Adına, sanına bax; Dədə Mamedin restoranı. Amma qapıçısının özünə siqaret almağa pulu yoxdur. Bəlkə də vərdişdəndir, belələri adətkar olurlar. İşə düşdük də. Əvvəlcə siqaret, sonra alışqan, sonra həftəbecər söhbət, dalınca tanışlıq, dalınca da bütöv avtobioqrafiyan, de gəlsin!” Hirs vurdu Elxasın təpəsinə, elə acıqlı-acıqlı da cavab verdi:

–Sən hardan bildin ki, mən müəlliməm? Alnıma yazılıb? – Dərhal cibindən bir siqaret çıxarıb ona uzatdı və dalınca da alışqanını çıxarıb yandırdı ki, söhbət uzanmasın, öz yolu ilə rahat çıxıb getsin.

–Təşəkkür edirəm, sağ olun. – Qapıçı siqaretini yandıran kimi təşəkkürünü bildirdi, düz iki dəfə təzim elədi, deyəsən mərifətli adama oxşayırdı. – Belə zənn etdim. İndiyə kimi zənnim məni hələ aldatmayıb.

Hərəsi bir-iki qüllab vurdu siqaretinə, aradakı sükutu yenə də

qapıçı pozdu.

–Müəllim, niyə dilxorsunuz? Restorana toya gələrlər. Gələrlər ki, pul xərcləsinlər. Olmaya mənə verdiyiniz bu bir siqaretin fikrini çəkirsiniz?

–O nə sözdür ə.., sən mənə deyirsən? – Elxas bilmədi cibindəki siqaret paçkasını çıxardıb qapıçının başına çırpsın, yoxsa əlindəki siqaretin közünü onun gözünə soxsun, eləcə tərs-tərs süzüb özünü ələ almağa çalışdı. Bu gün onunku heç gətirmirdi, yuxusunu qarışdırmışdı, bir yandan. Evdə arvadı atmacasından qalmamışdı, burda da tələbə yoldaşları. İndi də qapıçının belə deməyi onu lap hövsələdən çıxartmışdı. – Vermək istəməsəydim, verməzdim də… Zorla cibimdən siqaret çıxartmayacaqdın ki…!

–Orası elədir, müəllim. Heç istəməyə də bilərdim. Elə siz deyən siqaret çəkən də deyiləm. Bunu sizə görə elədim. Gördüm dilxorsunuz, dedim bəlkə adama bir siqaret çəkib söhbət edək, yüngülləşəsiniz. Mənim də vaxtım getsin. Onsuz da sizli-sizsiz mənim işim gecə yarıyadək qapıda durmaqdır.

Elxasın hirsi bir az soyudu, özünə gəlməyə başladı. Baxdı ki, qapıçı heç də elə-belə adama, əldə-ayaqda itənə oxşamır. Heç tələbə yoldaşlarına da tay deyil, hər kimdisə yüklü adama oxşayır. Bəlkə də onunla söhbət etsə, bir az yüngülləşər, dilxorçuluğu keçib gedər.

–Axı biz heç tanış da deyilik. – Elxas müraciət etdi.

–Adın nə mənası var. Qapıçı elə qapıçıdır. Qapıçının adı nə olsa da heç bir əhəmiyyət daşımır.

–Niyə elə deyirsiniz? Mən öz adımla fəxr edirəm: Elxas İlyasov.

–Həə… tanıdım. Siz axı məşhur adamsınız. Ona görə də adınız necə olsa belə böyük əhəmiyyəti var. – Qapıçı razı-razı gülümsündü, elə bil əziz-giramını tapmışdı. – Mən sizi çoxdan tanıyıram, daha doğrusu adınızı eşitmişəm. Bəlkə də iyirmi ildən artıq olar.

–Hardan tanıyırsınız? Məni necə tanıdınız? – deyə Elxas maraqla soruşdu.

–Əsərlərinizi oxumuşam, siz məşhur yazıçısınız. Heç təsəvvürümə də gətirməzdim ki, nə vaxtsa sizinlə yan-yana durub siqaret çəkə-çəkə həmsöhbət olacağam. Bu mənim üçün böyük xoşbəxtlikdir.

–Şükürlər olsun sənə, ilahi! Məni də el arasında tanıyan birini urcahıma çıxartdın. – Elxas əvvəlcə üzünü göyə tutub əllərini qabağa uzadaraq dua etdi. Sonra yönünü qapıçıya tərəf çevirdi. – Mənim üçün çox maraqlıdır, zəhmət olmasa danışın, məni necə və haradan tanıdınız.

–Bilirsiniz?! – Qapıçı siqaretindən bir qullab vurub fikrə getdi, sümürüb ciyərinə udduğu tüstünü havaya buraxdı, ağzının, burnunun tüstüsü bir-birinə qarışdı. – Çətin illər idi. Hərki-hərkilik günü-gündən artmaqdaydı. Onda mən orta məktəbdə müəllim işləyirdim – tarix müəllimi. Milli pulumuz getdikcə elə sürətlə dəyərdən düşürdü ki, müəllim maaşına dolanmaq olmurdu. Mən də bəzi başqaları kimi günortadan sonra əlavə iş axtarmağa başladım. Bakıda mümkün deyildi, müəllim hara,

fəhləlik hara, görərlər, tanıyarlar, ayıbdır. Əvvəlcə Sumqayıtda toplaşan fəhlələrin yanına getdim. Təsəvvür edirsinizmi, günorta Bakıda dərsdən çıxırsan, iki-üç peraşki yeyib mədəni aldadırsan, sonra da elektriçka ilə Sumqayıta, fəhləçilik eləməyə gedirsən ki, orada səni tanıyan olmaz. Bu minvalla günlər gəlib keçdi. İş olurdu da, olmurdu da. Elə bu vaxtlar olardı, yaz vaxtıydı. Nasosnuda, bağlar tərəfdə iki nəfərə bir həyətdə iş götürmüşdük, yer belləyirdik. Bir də gördük bir Kamaz kitab gətirdilər əraziyə. Deyəsən, boşaldıb yandırmaq istəyirdilər, ya da yarğan vardı, ora töküb üstünü torpaqlayacaqdılar. Söhbətlərindən belə başa düşdük ki, kimsə varlı bir adam kitab mağazasının yerini alıb restoran tikdirmək istəyir. Kitablar da nə kitablar – hamısı təptəzə, çoxunun hələ qatı açılmayıb. Görəndə hayıfım gəldi, yanıb cıbırığım çıxırdı. Özümü saxlaya bilməyib yaxınlaşdım. Xahiş etdim ki, o kitabları mənə hədiyyə etsinlər. Əvvəlcə gülüşdülər. “Fəhlə babasan, kitab sənin nəyinə gərəkdir” dedilər. Uzun sözün qısası, birtəhər dil tapıb razılığa gəldik. İki günlük qazancımı onlara yanacaqpulu verib kitabları aldım. Ondan sonra yaşadığım binanın zirzəmisində yer düzəldib kitab mağazası açdım. Nə başınızı ağrıdım, elə o vaxtlardan sizin kitablarınızla tanış oldum. Bir az xoşuma gəldi deyə sonralar təzə kitablarınız çıxan kimi alıb gətirirəm. Nə bilim, belə də…

–Deməli, kitablarım xoşunuza gəlib?

–O vaxtlar xoşuma gəlmişdi. İndi bir o qədər də yox…

–Necə, necəəə? – Elxas təəccübünü gizlətmədi.

–Əvvəllər oxumağa, ümumiyyətlə, yeni bir kitab tapmaq

olmurdu. İndi o qədər sizin kimi kitab yazan ortaya çıxıb ki, bilmirsən kimi oxuyasan.

–Onların çoxu yazmağı məndən öyrənib. Düz deyirsən. Yazmağı məndən öyrənənlərin indi özləri də məni bəyənmirlər.

–Sizdən nə öyrənmək olar ki? – Qapıçı arsız-arsız irişdi. – Sizin özünüzə çoxlu öyrənmək lazımdır hələ.

–Başa düşmədim…

–Burda başa düşüləsi nə var ki? Mən bu iyirmi – iyirmi beş ildə on minlərlə kitab oxumuşam. Ona görə də belə arxayın-arxayın danışıram.

–Bu müddət ərzində bir belə kitab oxumaq mümkün deyil.

–Əsas məsələ də elə ondadır. İnsan hamı tərəfindən mümkünlüyü mümkün olmayan bir işi eləməlidir. Mən bunu edə bilirəm. Kitabı dəhşət dərəcədə sürətlə oxuyuram.

–Buyur, bir siqaret də götür. – Elxas siqaret paçkasını Qapıçıya uzatdı.

–Çox sağ olun, doydum.

–Hə, onda danış. Mənim kitablarımda nəyi tapa bilməmisən ki, xoşuna gəlməyiblər?

–Çox şeyi. Hətta adi şeylərə belə qorxa-qorxa yanaşırsınız, adam inanmaq istəmir yox, inana bilmir.

–Məsələn…

–Məsələn, yazırsınız ki, bir maşın daş daşıyan kimi yorğun idim. Amma cümləni hadisələrin gedişinə uyğunlaşdıra bilmirsiniz.

–Niyə uyğunlaşmır? Bizdən qabaqkılar da bunu yazıb.

–Xəbəriniz varmı ki, Viktor Hüqo bir ay səfillər arasında yaşayıb, sonra “Səfillər” romanını yazıb.

–Demək istəyirsən ki, mən bu cümləni yazmaq üçün gedib Karyer Qasımın daş karxanasında kubik daşımalıydım? Nizami Gəncədən kənara çıxmadan bütün dünyanın gərdişini təsvir edib.

–Axı o Nizamiydi. – Qapıçı şəhadət barmağı ilə yuxarını göstərdi. – Odur ki, dünyada ən yüksək zirvədədir. Min ildir ki, onun ayağı səviyyəsinə hələ heç kimin başı qalxmayıb.

–Biz də az oxumamışıq, az görməmişik. Həyat təcrübəmiz də zəif deyil.

–Yaxşı olar ki, tam dəqiq bildiyiniz, öz həyatınızda rast gəldiyiniz şeyləri yazasınız. Bu, bəlkə də, bir az maraqlı olardı.

–Sənin dediyindən belə çıxır ki, hər yazıçı məhdud bir sahəni yazmalıdır. Bəs onda başqa sahələr?

–Mən belə deməzdim. Yazıçı təkcə öz yaşam tərzində hər gün yeni-yeni sahələrlə rastlaşır. Dediyim odur ki, hazırlayacağın məhsul öz qazanında bişməlidir. Süfrəyə çiy yemək qoymaq yaramaz. Götürək sizin “Vaqon mühafizəçisi” kitabınızı. Ucardan çaxır vaqonunu götürüb gedirsən Rusiyaya. Yol boyu ancaq iyrəncliklərdən bəhs olunur. Nooldu, bunların içində bir dənə salamatı tapılmadı? Demirəm ki, kimisə ideallaşdırmaq gərəkdir, yox, olduğu kimi görünsə, yaxşıdır.

–Reallıq bundan ibarətdir…

–Siz dəmir yolu relslərinin qırağındakı ikinci, üçüncü evi görə bilməmisiniz. Adama da elə gəlir ki, Dərbənddən

Vladivostokacan yolboyu yaşayanların hamısı oğraşdır, alkaşdır, fahişədir. Belə olmaz axı. Düzdür, vağzal uşaqları bir az vələduzna olurlar, day, bu dərəcədə yox. Onların arasında da yaxşıları o qədərdir ki…

–Yazmaq üçün nə təklif edərdin?

–Rəhmətliyin nəvəsi, indi hadisələr elə sürətlə cərəyan edir və yayılır ki, heç kimi heç nə ilə heyrətləndirmək olmaz.

–Yenə də…

–Indi insanların ruhlar dünyası ilə, yadplanetlilərlə əlaqəsindən yazırlar. Böyük bir Hind qoşununun Himalay dağındakı mağarasında bir naməlum bədheybət tərəfindən məğlubiyyətindən yazırlar. Siz də başlamısınız ki, dükançı polis rəisi ilə necə mübarizə aparır, sonda necə intiqam alır, alverçi türk mallarının poddelkalarını necə hazırladır, geydirmə malları orijinal adı ilə müştərilərinə necə sırıyır, nə bilim nə. Adi… primitiv… həyati nələrsə… Bunlarla heç hara getmək olmaz.

–Heç bilmirəm, sənə necə təşəkkürümü bildirim. İndiyə kimi heç bir məclisdə eşitmədiyim sözləri mənə deyirsən.

–Müəllim, inciməyin. Bunları elə-belə sözgəlişi dedim. Siz yaxşı yazıçısınız. Diliniz də şirindir, oxumaq olur. Adama ləzzət eliyir…

–Bilirsiniz, qapıçı qardaş, bir vaxtlar yazıçıların hörməti bambaşqaydı. Elçiliyə gedəndə ağsaqqal qismində yazıçı aparırdılar ki, boş qayıtmasınlar. Indi tamam başqa əyyamdır.

–Onu da özünüz eləmisiniz. Bu məsələ ötən əsrin doxsanıncı illərinə qədərdi. O vaxtlar əyyam dəyişməyə başladı və “Bəxt

üzüyü" adlı kino çıxdı ortalığa. Moşu obrazı yaratmaqla ortaya çıxmaqda olan bütün yazıçı, şair nəslinin üstünü xətlədiniz. İndi şair, yazıçı deyəndə hamı göz önünə Moşunu gətirir. Belə cəmiyyətdən nə gözləyəsən, müəllim?

–Maraqlı söhbətlər edirsiniz. Al, bir siqaret də çək.

Elxas cibindən siqaret və alışqanı çıxardıb Qapıçıya uzatdı. Qapıçı paçkadan bir siqaret çıxarıb yandırdı, alışqanı geri qaytardı. Elxas alışqanı və siqaret qutusunu cibinə qoyub gözlərini Qapıçının ağzına zillədi ki, görsün daha nə deyir. Qapıçı ağzındakı siqareti sümürdü, sümürdü. Siqaretin közü yavaş-yavaş böyüməyə başladı. Köz böyüdü, böyüdü və Qapıçını görünməz etdi.

–Qapıçı qardaş, Qapıçı qardaş…

Elxas baxdı ki, Cavid parkındadır, başını da böyük bir plafona dirəyib, içindəki lampaya baxır.

–Bissimillah. Bissimillah. Mən bura hardan gəlib çıxdım? Məni bura kim gətirdi? Bəs qapıçı hara yoxa çıxdı? Biz ki, indicə söhbət edirdik, siqaret çəkirdik.

…Gecənin bir aləmində Nazlı ərinin bərk xorultusuna və sayıqlamasına yuxudan ayıldı. Elxas xor-xor xoruldayırdı. Xoruldayırdı yox e, traktorun matoruna qoşulmuş su nasosu kimi xorna çəkirdi. Yavaşca başından itələdi ki, xorultusu kəssin. Eyvaz dərhal yuxudan ayıldı.

–Səndən çıxmıyan iş, bu nə xorultudur salmısan? Özü də bərk sayaqlayırdın. Olmaya, yenə yuxunu huri-mələklərlə qarışdırmısan?

–Qapıçı necoldu? Hara yoxa çıxdı?

–A kişi, nə qapıçı? Nə vaxt gəlib yerinə girmisən, xəbərim olmayıb.

–Qapıçı da, qusar geyimli. İndicə burdaydı ki. Siqaret çəkirdik, söhbət edirdik.

–Yat. Yaxşısı budur yat.

–Hə. Hə. İndi yadıma düşdü. Gecə yuxuda gördüyüm Həmid kişiyə oxşayırdı, qəbiristanlığın müdiri Həmid. Hə, hə, oyudu, özüydü. Qapıçı elə həmin adamıydı. Bir o qədər söhbət etmişik, necə də tanımamışam.

–Yenə yuxunu qarışdırmısan. Qapıçı, qapıçı… – Nazlı üzünü o tərəfə çevirib yorğanı başına çəkdi.

# Şər

Bəlkə də şərin nə və necə olduğunu çox adam bilmir. Şər hardan gəlir, adam necə şərə düşə bilər, kim kimi və niyə şərləyir, ümumiyyətlə, şər dediyimiz nəmənədir ki, insanlar ondan yaman qorxurlar? Bəli, bu suallar, bəlkə də yüzdə səksənini düşündürmür. Amma əksər insanların vaxtaşırı özlərinə ünvanladığı minlərlə suallardan bir neçəsi də məhz belədir.

Mən də sadəlövh kənd uşağı olduğumdan əsl şərin nə olduğunu bilməzdim. Dağlar qoynunda, ucqar bir məkanda yerləşən doğma kəndimizdə şər axşamın düşməsinə deyilərdi. "Artıq şər qarışır, toyuq-cücəni hinə yığmağın vaxtıdı, çöldə qalar, gecə tülkü gəlib aparar. …Mal-heyvanı da rahatlamaq, tövləyə, ağıla qatmaq gərəkdir. …Nə iş görürsən, gör, ya şər qovuşan kimi yekunlaşdır, ya da dayandır ki, evdə olasan, sabah davam etdirərsən. …Şər qarışanda yatmaq olmaz, adamı elə bil qaramat basır… Elə ağırlaşırsan ki, elə bil bir maşın daş daşımısan…" – onlarla belə ifadə işlənərdi ermənilərin ucbatından indi olmayan gözəl kəndimizdə. Biz də, bizdən əvvəlkilər də, bəlkə elə onların dədə-babaları da bu ifadələri işlədərək şərin nə olduğunu beləcə başa düşmüş, qavramış, özlərindən sonra gələnlərə ötürmüşlər – yəni, axşamın düşməsi ilə göz dolusu baxdığımız işıqlı dünyanın üzərinə şər düşür, qaranlıq pərdəsi çəkilir.

İyirminci əsrin sonuna yaxın məmləkətimizdə müxtəlif cərəyanlarla yanaşı uzun müddət xəbərimiz olmadığı, mənsub olduğumuz İslam dininin çoxşaxəli cərəyanları da yayılmağa başladı. Onlar arasındakı fərq açıq-aşkar hiss olunurdusa belə camaatı narahat etmirdi. “Qoy müsəlmançılıqlarını etsinlər, neçə illərdən bəri qadağan olunmuş, dondurulmuş dinimizin yolunu seçsinlər, ibadətlərini yerinə yetirsinlər. Nə fərqi var, biri uzun saqqal saxlayır, biri qısa. Kimisi trapes geyinir, kimisi də şalvarının balağını topuğundan kəsdirir. Onların heç kimə maneçiliyi yoxdur, öz həyatlarını yaşayırlar” deyirdilər.

Amma bütün bu cərəyanların içərisində çarpışan insanların bir oxşarlığı vardı ki, o da diqqətdən kənarda qala bilməzdi. Namaz qılanların hamısı üzünü Allaha tutub eyni şeyi diləyirdilər. Maraqlısı onda idi ki, kişi də, qadın da şərdən, xətadan, xüsusən də qadın şərindən qorunmağa çalışırdılar.

–Ya rəbbim, məni şərdən, xatadan, xüsusən də qadın şərindən qoru.

Bəzən, yeri-göyü yaradan o gözəgörünməz böyük varlığa sığındıqları halda belə acizliklərinə görə onlara gülməyim də tuturdu. Hərdən də onları iradəsiz zənn edib rişxəndlə yanaşdığım vaxtlar da olurdu. Mindən çox bədii kitab oxusam, yüzlərlə kinoları seyr etsəm belə yenə də qadın şərinin nədən ibarət olduğunu tam mahiyyəti ilə dərk edə bilmirdim.

Necə yəni oturduğun yerdə qadın şərinə düşmək olar? İnsanın qadınla əcaib bir işi olmayandan sonra o, başqasına necə şər ata bilər? Atsa da buna kim inanar? Öz-özümə belə suallar verib

heç cürə ağlıma sığışdıra bilmirdim. Necə yəni, oturduğun yerdə boş-boşuna da qadın şərinə düşmək olar?

Hərdənbir qulağım çalırdı ki, hansısa qadın polis şöbəsində kişinin üzünə dirənib, ona sataşmaq istədiyini deyib. Polislər də qadının sözünü əsas götürərək kişini "yaman" cərimələyiblər, lap qabığını soyub, dərisinə saman təpiblər. Düşünürdüm ki, bəlkə kişi nəfsinə, tamahına güc gələ bilməyib, qadına şirnikləşdirici sözlər deyib, bəlkə, hələ əl-qol da atıb. Qadın da hüququnu müdafiə etmək üçün polisə müraciət edib. Başqa formada beynimə sığışdıra bilmirdim. Ta ki, öz başıma qəribə bir əhvalat gəlməyincə.

Elə bir dövr gəldi ki, kənddə yaşayanların çoxu şəhərə köçüb getdi. Hamı kimi biz də bu aqibəti məcburi yaşadıq. Bir az üst-başımıza əl gəzdirdik, bir az da davranışımızı dəyişdik, dönüb olduq "şəhərli". Şəhərli davranışlarının içində də ən çox zəhləmi tökən görüşəndə öpüşməkdi. Kənddə kiminlə öpüşəcəkdin – səhər-axşam hamı bir-birini görürdü. Həm də hərə öz işi ilə məşğuldu – uzaqbaşı uzaqdan-uzağa bir-birini salamlayardılar.

–Ə, siz tərəflərdə nə var, nə yox? Gecə Abuseyid dərəsində, Qaradaşlıqda canavar-zad ulamayıb ki? – Sürünün dalınca düşüb gələn canavarın göründüyü əsas istiqamətlər kəndin yuxarı hissəsindəydi deyə aşağı məhəllədə yaşayanlar yuxarı məhəllədə yaşayanlardan bunu soruşardılar.

Əvvəllər yay düşəndə tətilə çıxan həmkəndlilərimizin uşaqları – hansı ki, şəhərdə yaşayırdılar, tətil vaxtı yayın dadını çıxartmağa kəndə gələrdilər. Xüsusən də Fətinin uşaqları – kişi

bir az imkanlıydı deyə qonum-qonşular qat-qat olan kəlpeysər boynunu qucaqlayıb o üz-bu üzündən dönə-dönə öpərdilər. Arvadlar Fətinin qızlarını, inəklər Naxçıvanın gırmıy duzunu yalayan kimi yalayardılar. Bəziləri də vardı, lap dodaqlarından öpərdi. Düzdür, bu diqqətdən yayınmasa belə heç kim söz eləməzdi, amma mənim elə o vaxtdan öpüşməkdən zəhləm gedirdi. Dodaq-dodağa necə öpüşmək olar? Onun tüpürcəyi sənin ağzına dolur, səninki də onun, qız olanda nə olar. Ağzına dolmasa da dodaqlarına bulaşır. Üzdən öpməyə də pis baxırdım – səndən əvvəl oradan kimsə öpüb və onun da tüpürcəyi quruyub qalıb üzündə.

Bütün bunlara baxmayaraq, bəzən öpüşməyə məcbur olursan. Hamı öpüşür, sən öpüşməyəndə pis baxırlar. Ya deyirlər eqaistdir, ya da xəstədir. Yenə kişilərlə öpüşmək dərdin yarısıdır – üzünü-üzünə toxundurub öpüşü imitasiya eliyə bilirsən, o da əl çəkib səndən aralaşır. Ancaq həmişə öpüşməyə, öpülməyə, lap elə əzizlənməyə öyrəşmiş qadınlarla, qızlarla bu iş bir az qəliz məsələdir. Elə uzaqdan üzünü uzadır ki, öp. Belələrini də axtarsan, hamının qohumları arasından ən azından on-on beş nəfərini tapa bilərsən.

Odur ki, "şəhərli" olandan sonra mən təbiətimə uyğun bir öpüşmək variantı seçdim – alından öpmək. Alın üzə nisbətən həmişə təmiz olur, nə kiminsə tüpürcəyi bulaşmır, nə də qızlar üzlərinə sürtdükləri zir-zibildən alınlarına yaxmırlar. Elə ki, görüşəsi olduq, ya qaşqasından, ya da alnının bir küncündən öpüb tez də aralaşırsan.

“Söz vaxtına çəkər” deyiblər. Bir gün yenə də təzəcə axşam düşüb, şər qarışmışdı. Dekabr ayının günü də kasıbın sözü kimi qısa olur. Heç saat yeddi də deyildi. Mağazadan çörək alıb qayıdırdım. Döngəni dönüb öz dalanımıza qədəm qoymuşdum ki, qarşıdan gələn Sənəmlə rastlaşdım – əsil adı Gülsənəm idi, doğmaları onu gah Gülü, gah da Sənəm deyə çağırırdılar. İlk tanışlıq zamanı kimsə Sənəm deyə təqdim etmişdi, odur ki, yaddaşımda bu adla qalmışdı. Mən onu heç zaman “Gülü” deyə çağıra bilməzdim. Elə o, özü də buna alışmışdı, bilirdi ki, kim ona “Gülü”, kim də “Sənəm” deyə müraciət edəcək.

Sənəm iyirmi səkkiz yaşında qıvraq, toppuş bir gəlindi, şit hərəkətləri ilə ətrafındakıların diqqətini özünə çəkirdi. İki-üç il olardı ki, özündən beş-altı yaş böyük boşanmış bir kişi ilə ailə qurmuşdu, ancaq hələ də ana olmamışdı. Qəribə, çöpəgülən bir şıltaqlığı vardı, adam onunla çox da ünsiyyətdə olmaq istəmirdi, çünki salam-əleykdən, hal-əhval tutmaqdan o tərəfə söhbəti davam etmək üçün mövzu uyğunluğu tapmaq çətindi. Belə hallarda onunla görüşüb tez də aralanırdım.

Bu dəfə isə…

Mən dalanımıza dönəndə Sənəm on beş-iyirmi addımlıqdan gəlirdi. Hər iki əlində çox da ağır görünməyən iki çanta var idi – həmin sellafon torbalar üç-dörd kiloqrama hesablanmışdı. Çox vaxt bazar-dükanda xırda alış-veriş yerinə yetirənlər həmin torbalardan istifadə edirdilər.

Yaxınlaşanda gördüm ki, torbanın biri zibillə, yəni evdə yığılmış tullantılarla doludur, digərində isə nə olduğunu

müəyyənləşdirmək mümkün olmadı, bu heç mənə lazım da deyildi. Nəyimə gərəkdi, Sənəm bacısıgildən öz evlərinə nə aparır.

–Salam, Sabir əmi. – Görüşmək üçün Sənəm məni qabaqladı.

–Salam! Salam!

Mən adətim üzrə onu iki dəfə salamladım və sağ əlimdə çörək torbası olduğundan sol əlimi uzatdım ki, onun sağ əlindəki zibil doldurulmuş sellafon torbanı alım. Bu zaman o, görüşmək üçün üzünü mənə tərəf uzatdı və görüşməməyimiz mümkünsüz oldu. Mən həmişə onunla əl tutub görüşmüşdüm. Bu dəfə onun əlləri məşğul olduğundan güman etdim ki, o da belə görüşmək istəyir, çünki mənim qohum qızlarla görüşəndə alınlarından öpdüyümü bilirdi. Bir də burda nə vardı ki? Dalanda ikimizdən başqa kimsə görünmürdü. Mən ani olaraq onun alnından öpdüm və əlindəki zibillə dolu torbanı ondan aldım.

–Çox sağ olun! – Sənəm minnətdarlığını bildirdi.

Bilmədim ki, o, əlindəki zibillə dolu torbanı aldığıma görəmi təşəkkür etdi, yoxsa jest edib alnından öpdüyümə görəmi. Əslində bunun heç birinin mənim üçün əhəmiyyəti yox idi. Lap özgə qadın olsaydı belə köməyimi əsirgəməyəcəkdim. Dəfələrlə tanımadığım qadınların əlindən zənbilini alıb evlərinə qədər aparmışdım.

Biz birlikdə yola tərəf addımladıq. Mən evə getməli olduğum halda Sənəmlə geriyə döndüm ki, həm onun torbasını yolun kənarında qoyulmuş zibil qutusuna atım, həm də şəhərə gedən avtobuslardan birini saxlatdırıb onu yola salım.

–Sabir əmi, dünən mən sizi şəhərdə gördüm. – Salamlaşmaqda birinci olduğu kimi söhbətə də birinci o, başladı.

–Harda gördün? – Mən soruşdum.

–Siz Əhməd əmi ilə Şamaxinkada, işıqforun yanında durmuşdunuz. Yanınızda kök, alçaqboy başqa bir kişi də vardı. Orda durub söhbət edirdiniz.

–Hə, Əhmədin böyük qardaşı Səməd də bizimlə idi. Diş həkimindən çıxıb avtobus dayanacağına gedirdik. – Mən aydınlıq gətirdim.

–Mən də işdən gəlirdim. Yolu keçib evə getmək istəyirdim ki, sizi gördüm. İstədim yaxınlaşıb görüşəm, utandım. Gözlədim. Siz ordan uzaqlaşdınız, sonra mən yolu keçib evə getdim.

–Nahaq utanmısan. Burda utanası nə var ki? Bəlkə qorxmusan ki, evə dəvət etməli olarsan? Narahat olma, dəvət etsəydin də getməzdik. Sən artıq başqasının çırağını yandıran cavan gəlinsən, ananın şıltaq qızı deyilsən.

–Təkcə siz olsaydınız, mütləq yaxınlaşardım. Lap evə də dəvət edərdim. Yanınızda Əhməd əmi ilə başqa kişi olduğundan yaxınlaşmağa utandım.

Bu vaxt biz mərkəzi yola çatdıq. Mən Sənəmdən aralandım ki, zibil torbasını qutuya atım. Sənəm isə yolun kənarında durub avtobus gözlədi. Zibil torbasını atıb qayıdırdım ki, şəhərə gedən avtobuslardan biri gəldi və bizim bərabərimizdə saxladı. Sənəm avtobusa minən kimi:

–Sabir əmi, çox sağ olun. – deyib əlini yellədərək xudafizləşdi.

Qapılar bağlanar-bağlanmaz avtobus yola düşdü.

Ertəsi gün axşam saatları olardı, şər təzəcə qarışmışdı. Qaynatamgilin qonaq otağında oturub televiziya kanallarının birində gedən hansısa ailə dramı serialını seyr edirdik. Qaynanamla mən masa arxasında əyləşmişdik, qaynatam isə yerdə oturub mütəkkəyə dirsəklənərək ekranı seyr edirdi, onun üçün belə daha rahat idi.

Hər ikimiz həyət evində yaşayırdıq. Həyətlərimizi daş hasar bir-birindən ayırırdı. Darvazalarımız bir küçəyə açılırdı. Odur ki, axşam saatlarını bəzən bir yerdə keçirirdik. Qaynatam sakit təbiətli bir insan idi, hər şeyə reaksiya verməzdi, əsasən bağ-baxça, təsərrüfat işləri ilə məşğul olardı. Qaynanam isə həyatdan rahatlıq tapa bilmirdi, daima səksəkə içindəydi. Nəvələri onun adını "həyəcan siqnalı" qoymuşdular. Tam olaraq müəyyənləşdirmədiyi bir xəbər ona qəribə göründümü dərhal hay-küy salar, aləmi başına qaldırardı.

O, sanki tikan üstündə oturmuşdu, həyəcanlı xəbər gözləyirdi, bir gözü qapıdaydı. Serialın maraqlı yerində otağın qapısı açıldı. Qapı necə zərblə açıldı ki, yeli mənim kürəyimi "vurdu". Qapının açılması ilə qaynanamın sifətində əmələ gələn həyəcandan maraqlanıb geriyə döndüm. Bir əli ilə qapını tutan "Qara qarğa" – qaynatamın gəlinini belə adlandırırdılar, digər əlinin şəhadət barmağı ilə qaynanamı çağırırdı. Mən baxışımı geri qaytaranda qəribə mənzərənin şahidi oldum. Yetmiş yaşlı "ağbirçək" qaynanam təəccüb və həyəcanından gözləri bərəlmiş bir vəziyyətdə yerindən ildırım sürətilə qalxaraq gəlinin bir

barmaq işarəsi ilə sürətlə qapıya tərəf götürüldü.

Yaşı yetmişi haqlasa da qaynanamın gəncliyində, bəlkə də uşaqlığında qazandığı hüttülümlüyü keçib getməmişdi. Sevimli nəvələrindən kimsə gözündən beş dəqiqə uzaqlaşdımı, ya meyvə dərmək üçün bağa getdi, ya da ayaqyolunda ilişib qaldı, o, dərhal haray-həşir salır, hətta qonşuları ayağa qaldırırdı ki, nəvəsi itib, nəvəsini oğurlayıblar. Onun belə hərəkətlərinə bütün ailə öyrəncəliydi. Odur ki, gəlinin bir barmaq çağırışına otaqdan sürətlə çıxan qaynanamın arxasınca baxıb sadəcə gülümsündük.

–Hüttülüm ki, hüttülüm. – Hər ikimiz, bəlkə də ürəyimizdə eyni şeyi təkrarladıq.

Təxminən yarım saat sonra serial arası fasilə verildi. Bu zaman efirdə yaranan boşluğu reklam rolikləri fırlatmaqla doldururdular. Reklam başlayan kimi qaynatam ayağa qalxdı.

–Bir burunotu çəkib gəlirəm. – O, siqareti hərdən məzə ilə belə adlandırırdı.

Mən pult vasitəsilə kanalları yuxarı-aşağı dəyişərək başqa yerlərdə nələr nümayiş etdirildiyini yoxladım. Bir neçə dəqiqədən sonra qaynatam geri qayıtdı – onun gəlişi ilə siqaretin iyi otağa doldu. Sifətindəki mimikadan hiss olunurdu ki, o biri otağa da baş çəkib – o da belə maraqlı adamıydı, hər şeylə maraqlanırdı.

–Gəlin-qaynana yaman xısınlaşırlar. – deyə məlumat verdi. – lap yataq otağına çəkiliblər ki, söhbətlərini heç kim eşitməsin. Qapını da içəridən bağlayıblar. Deyəsən, çox ciddi bir məsələni müzakirə edirlər.

–Nə ciddi məsələ ola bilər? – Maraqlandım.

–Nə olur, olsun. Mənim heç vecimə də deyil, qulağıma arıcan da vızıldamır.

–Qulaq asmadın? – Maraqlandım.

–Yox! Nəyimə lazımdır. – O, etinasız cavab versə də maraqlandığı sifətindən oxunurdu.

–Bir qulaq asardın da. Görərdin nədən danışırlar?

–Asmadım. – O, yenə də laqeydliyini göstərdi. – Nəyimə lazımdır başımı ağrıdım. Qoy, nə danışırlar, danışsınlar. Onsuz da onların peşəsi axşamacan qeybət qılmaqdır. İndi də, görəsən, kimin torbasını tikirlər?

Pencəyinin sağ yaxalığı arvadının, sol yaxalığı gəlininin əlində qalıb yesir günə düşən qaynatam son vaxtlar, deyəsən hər ikisindən bezara gəlmişdi. Amma üstünlük hələ də gəlinin tərəfindəydi. Qaynanam gileylənib azaylandıqca kişi ondan uzaqlaşırdı. Gəlin isə "dədə, dədə" deyib kişinin o tərəf-bu tərəfinə keçir, süni də olsa mülayimlik nümayiş etdirir və çalışırdı ki, onu öz tərəfinə çəksin. Elə qaynatam da gəlinin nazı ilə oynayırdı. Nəvələrini görməyi bəhanə edərək evin ikinci mərtəbəsinə qalxır, bağdan, bostandan dərdiyi meyvə-tərəvəzi onlara aparır və bəzən saatlarla vaxtını yuxarıda keçirirdi. Bu müddət ərzində gəlin onun qabağına bir stəkan isti çay da qoymazdı, bunu özü danışardı.

Serial yekunlaşan kimi qaynatamgildən sağollaşıb çıxdım, birbaşa evə gəldim. Qaynanamın gəlini ilə yataq otağına çəkilib xısınlaşmasından bir saatdan da çox vaxt keçirdi.

Sabah günortaya yaxın yoldaşımdan çox qəribə bir mesaj aldım: “Bağışla, bilmirəm necə ifadə eləyim. Mən o səviyyəyə düşüb nəsə demək istəmirəm, çünki hələ dəqiqləşdirməmişəm, aranızda nə baş verib. Ancaq mamam belə deyir. Heç başa düşə bilmirəm ki, sən məni kiminlə… axı mən səni həmişə uca tutmuşam. Hələlik!” Ilk anda heç nə başa düşə bilmədim. Olub-keçənləri aydınlaşdırmağa çalışdım. Heç nə başa düşməsəm də ağlıma ilk gələn qaynanamla gəlininin xısınlaşmasının nəticəsi olduğu qənaəti gəldi. O dəqiqə bildim ki, Sənəm yolda görüşməyimizi hansısa formada bacısına bildirib. Yelbeyin “Qara qarğa” da özü başa düşdüyü tərzdə qaynanama danışıb. “Həyəcan siqnalı” isə “SOS” verib ailəni ayağa qaldırıb.

Sən demə, Şamama – qaynanamın adı belə idi, səhər-səhər yoldaşımın qanını qaraldıb, kefinə soğan doğrayıb.

–Alo. – Telefonla zəng etsə də sözünü deməyib, onu yanına çağırıb. – Yasəmən, bir bizə gəl, sənə sözüm var.

Səsinin tonundan yoldaşım başa düşüb ki, ortada nə isə xoşagəlməz bir iş var. Dərhal evin qapısını bağlayıb anasıgilə yollandı.

–Nə var, ay mama? – İçəri girən kimi salamsız-kəlamsız soruşdu.

–Dünən Sənəm ilə Sabir yolda rastlaşıblar. Sabir Sənəmi qucaqlayıb üzündən öpüb. Deyib ki, telefon nömrəni ver, zəngləşib şəhərdə görüşək. Bax ha, dedim ki, xəbərin olsun, Sabirin ipini çək, sonra gec olar.

–Ay mama…

–Hə, hə, kişilərin hamısı belədir. Bir az yaraşıqlı qız, çavan qadın gördülər, xüsusən də Sənəm kimi təlxəklənib, ora-burasını oynadan ola, o dəqiqə nəfsləri düşür, tamahlarını saxlaya bilmirlər. Sənəmi də Allah öldürsün, kişilərin üzünə şit-şit gülür, qaş-göz oynadır, xoş gəlmək üçün özünü əzdirir. Tutasan saçından, yolub qoyasan yerə. Qancıq, özünə oynaş axtarırsan, get qıraqda axtar, bizim kişilərlə işin olmasın.

–Axı… yaxşı deyərəm.

Axşam evə gələndə bəlli oldu ki, Yasəmən həkimə getməyib.

–Niyə həkimə getmədin? – deyə soruşdum.

–Gedə bilmədim. Getməyəcəyəm də… Qoy, xəstəlik artsın, xərçəngə çevrilsin. Ölüm, canım sizdən qurtarsın. Nə qədər dərd çəkmək olar, bezmişəm hamınızdan.

–Sənə nə olub?

–Özün yaxşı bilirsən.

–Mən heç nə bilmirəm.

–Necə bilmirsən? Sənin Sənəmlə nə işin var? Sənəm lazımdır sənə? Şəhər doludur gözəl-göyçək qızınan, qadınınan. Gərək gedib Sənəmə ilişəsən?

–Sən nə danışdığını bilirsən?

Sənəmlə yolda rastlaşdığımı təfsilatı ilə ona danışdım, nə bir kəlmə artıq, nə bir kəlmə əksik.

–Yalan deyirsən. Belə olmayıb.

–Mənə inanmırsan?

–Yox.

–Mən yalan deyirəm, maman düz deyir, eləmi? Yanımızda

olub maman, yoxsa sputniklə izləyib bizi? Elə isə onda özün bilərsən. Sənin sağlamlığın birinci növbədə özünə lazımdır. Bərk ayaqda mənim də heç vecimə deyil.

Gərginlik bir neçə gün davam etdi.

Növbəti günlərin birində axşamüstü evdə tək idim. Kompyuterdə yazı yazırdım ki, qapı döyüldü.

–Yasəmən. Yasəmən.

İki ağız yoldaşımı çağırdılar. Əvvəlcə səsinə görə yoldaşımı kimin çağırdığını ayırd edə bilmədim. Qapını açıb həyətə baxdıqda Süsəni gördüm – Sənəmin anasını.

–Sabir qardaş, Yasəmən evdədir?

–Evdə yoxdur. – Qısa cavab verdim. – Yasəməni neynirsən?

–Ona sözüm var.

–Mənə de, gələndə çatdıraram.

Süsən bir an duruxdu. Dönüb getmək istədi, nə fikirləşdisə yenidən mənə tərəf çevrildi.

–Sabir qardaş, mənə düzünü de. Sənəm ilə sənin aranda nə var? O günü nə olub ki, Şamama ilə Səmayə bunu bir bu qədər şişirdiblər?

Süsən məndən iki yaş böyük idi, amma mənə həmişə “dayı” deyə müraciət edirdi, indi “qardaş” deməsi qəribə səsləndi. Həm də hərəkətləri, davranışı ilə adamda ona qarşı allergiya ovqatı yaradırdı. Sözünün dalını-qabağını bilmədiyindən heç kim onunla ünsiyyətdə qalmaq istəmirdi. Elə mən də gülümsəyərək əhvalatı olduğu kimi qısaca danışdım ki, çıxıb getsin.

–Elə Sənəm də belə dedi.

–Bəs onda necə olub ki, söhbət məcrasını dəyişib.

–Məcra nədir?

–Yəni adi bir söhbət şəbədəyə, şərə çevrilib.

–Mənim qızlarıma heç kim şər, şəbədə yaxa bilməz.

–Görürsən ki, yaxılır. Özünüz öz sözünüzü şişirdib fil eləyirsiniz. Fikirləş, gör, bu necə olub?

–Sənəm gəlib evə çatandan sonra bacısı Səmayəyə zəng vurub. Deyib ki, narahat olma, gəlib çatdım. Səmayə də soruşub ki, necə getdin. O da cavab verib ki, gələndə yolda Sabir əmi ilə rastlaşdım. Sabir əmi zibillə dolu torbanı əlimdən aldı, aparıb zibil qutusuna tulladı. Həm də görüşəndə alnımdan öpdü. Səmayə də bunu söz eyləyib. Özün bilirsən axı, o, dindardır. Deyir ki, naməhrəmdir, nədir, nə bilim axı, ondandır. Sənəm ha çalışıb onu sakitləşdirməyə, alınmayıb. “Necə? – deyib, – Sabir əmi səni öpüb? Mən ona həddini göstərərəm”. Sən Allah, Sabir qardaş, bağışla ki, belə alınıb. Allah öldürsün Səmayəni də, Şamamanı da. Kaftarın yetmiş yaşı var, saçından, birçəyindən utanmır, uşağa qır verib qızışdırır. Sənəm yazıq xəcalətindən bilmir neyləsin. Səmayə altının zibilini təmizləyə bilmir, həmişə mən gəlib təmizləyirəm, yaxşı söz gəzdirməyi bilir.

Süsən bunu deyib getdi.

“Bağışlayın! Bağışlamağa bir bax! Üç-dörd gündür evimizi cəhənnəmə çeviriblər. Yediyimiz, içdiyimiz zəhrimar olub. İndi də gəlib deyir, bağışla”. Süsənin arxasınca gileylənməkdən başqa çarəm qalmamışdı.

Ertəsi gün günorta saatlarında hara isə gedirdim. Yolda

telefonuma zəng gəldi. Ekranda nömrə görünmürdü. Belə zənglər, adətən telefon xidməti vasitəsilə olunan zənglərdi.

–Alo, eşidirəm.

–Sabir müəllimdi?

–Bəli.

–Buyurun, danışın. Sizinlə Taun Əlehinə Mərkəzdən danışmaq istəyirlər.

dəqiqə dalağım sancdı, danışmaq istəyən Sənəm olacaqdı. Axı o, həmin mərkəzdə laborant işləyirdi.

–Bəli, bəli, eşidirəm. – Tam ciddiliklə cavab verdim.

–Sabir müəllim! – Sənəmin səsini dərhal tanıdım. Həmişə mənə "əmi" deyə müraciət edən Sənəm bu dəfə "müəllim" kəlməsini işlədirdi, özü də həzin, məlhəm bir səslə. Vücudumdan qəribə bir gizilti keçsə də özümü o yerə qoymadım. – Mən indi işdən çıxıram. "9 fevral" metrosunun çənub çıxacağında "Çudo peçka" var, orada olacam. Ürəyin istəyirsə, gəl, birlikdə kofe içək. Danışmaq lazımdır.

Sakitcə, sağollaşmadan belə telefonu bağladım. Bunlar da türk seriallarından söz öyrəniblər: "Danışmaq lazımdır!" Sənə lazımdır? Mənə yox! Maraqlıdır, bu nə jest idi? Baş aça bilmədim. Sənəm mənim telefon nömrəmi necə əldə etmişdi? Bir də… bütün bu söz-söhbətdən sonra…

"Ay səni, şeytan. Belə könlün var idi, mənə qarşı isti duyğuların oyanmışdı, bunu açıqca deyərdin də… Day bu qədər söz-söhbət, şər-şəbədə nəyə lazımdı? Yox, yox, ehtiyatlı olmaq lazımdır, bu gəlindən nə desən gözləmək olar. Bəlkə dindar

bacısının məsləhəti ilə növbəti şər-şəbədə hazırlanır? Sabir, sən onun görüşünə getsən səfehdən də səfehsən!”

Bu zaman telefonuma mesaj gəldi. Açıb oxudum: “Sənin öpüşünün alovu hələ də alnımı yandırır. Məni indiyə kimi heç vaxt belə ehtirasla öpən olmamışdı. Gözləyəcəm, gəl”.

# Nazirin qəbulundan reportaj

Səhər yuxudan oyananda yoldaşımın yazdığı siyahı stolun üstündə idi, dərhal gözümə sataşdı. Tez telefonumu götürüb gələn mesajlara baxdım, əlillik təqaüdüm hələ köçürülməmişdi, köçürülsəydi mütləq mesaj gələrdi. “Bəs deyirdiniz bütün təqaüdlər artıqlaması ilə bayrama qədər köçürüləcək…” – ürəyimdə nazirlik rəsmilərinin də, məlumatı efirdə səsləndirən aparıcıların da qarasına deyindim.

Könülsüz-könülsüz siyahını götürüb baxdım. “Bir hicaz toyuğu, aşın altına qoymağa, bir kiloqram yarım uzun düyü, 200 qram ən ucuz yağ, bir səba toyuğu, duxovkada qızartmaq üçün…” Elə beləcə də yazılmışdı. Vəssalam. Kompot, marinat evdə varıydı, yaydan tədarük olunmuşdu. Uzaqbaşı iki-üç çörək əlavə etməliydim. Vur-tut, hesablasaydım, heç on beş manat eləməzdi. Çox şey istəmirdi ki, həyat yoldaşım. İyirmi manat qazana bilsəydim, özümü bəy balası kimi hiss edərdim. Nə qədər olmasa da, mən axı milyonçu ölkənin vətəndaşıyam.

Amma bu iyirmi manatı harada və necə qazanmalıydım? Bax, əsl problem də elə bu idi. Heç fiziki cəhətdən tam sağlam olanlar səhər obaşdan evdən çıxıb axşama iyirmi manat pulla qayıda bilmirlər. O ki, ola əlil, Qarabağ əlili, ayağının biri dizdən aşağı protez. Hardan və necə qazana bilərdim bu on beş-iyirmi manatı?

Bir yandan bu fikirlər beynimi dolaşdırırdı, bir yandan

da gecəki yuxunun təsirindən çıxa bilmirdim. Gecə yuxuda görmüşdüm ki, hardayıqsa, bir bərli-bəzəkli hündür binanın yaxınlığındayıq, çoxlu adam toplaşıb, sanki böyük izdihamdır. Yekəpərin biri əllərində paçka-paçka pul ortada gəzib camaata paylayır. Biz iki nəfər qalmış pul paylamağı dayandırdı. Baxdım ki, hələ pulu qurtarmayıb, əlində xeyli pul var. "Bəs bizə niyə vermirsən?" – deyə soruşdum. Qayıtdı ki, özüm bilərəm. Day özüm bilərəm, özüm bilərəm, mən ona nə deyə bilərdim?..

Deməkdən də artıq yorulmuşdum. Müharibədən sonrakı bu iyirmi beş ildə deyə bildiklərimi hamıya deyib qurtarmışdım. Dediklərimin də heç bir təsiri olmamışdı. Məmura demiş, ya lay divara demiş, eyni şeydi, heç bir təsiri, əks-sədası, nəticəsi olmurdu. Yavaş-yavaş elə mən özüm də həmin məmurlardan birinə çevrilmişdim. Ayda bir dəfə işıq müfəttişi gəlib danlayırdı ki, niyə borcunu ödəməmisən? Qaz müfəttişi sayğacın üstünə quraşdırılmış plasmas qutunun sındırıldığını irad tuturdu. Su müfəttişi həyətdəki ağacları niyə içməli su ilə suvardığımı başıma qaxac eləyirdi. İncəvara, nə işığımı kəsirdilər, nə də cərimə eləyirdilər. Bax, beləydi mənim günlərim…

Hə, hələ qonşuların tənəli baxışlarını demirəm. Dalbadal növbəyə düzülən toylar, hüzür yerləri gələndə az qalırdım ki, qaçıb toyuqların hinində gizlənəm. Olmuşdum məmurlardan biri. Hamının danlağını qulaqardına versəm də bircə həyat yoldaşımın buyruğunu yerə sala bilmirdim. Zalımın qızı çox şey istəmirdi ki…

Ömrü boyu qızıl, brilyant adı tutmamışdı. Son beş ildə təzə

paltar aldığı yadıma gəlmir. Xalalarının, əmiqızlarının köhnəsini alıb gətirər, ora-burasını düzəldib geyinərdi. Yamağı elə vururdu ki, elə bilirdin fabrik bəzəyidir, müasir dəbdir. Bir sözlə, istədiyi ancaq evin dolanışığıydı. İşığımız yansın, qazımız, suyumuz gəlsin, bir də qazanda bişirməyə bir şeylər olsun.

Uşaqlar yuxudan durmasın deyə sakitcə mətbəxə keçdim. Çayı qızdırmaq üçün qazı yandırdım. Çaydanı qazın üstünə qoymuşdum ki, zəng gəldi. Telefonu cibimdən çıxardıb baxdım, ekranda "Həmzə" yazılmışdı.

Həmzə mənim əsgərlik yoldaşımdı, müharibədə bir yerdə olmuşduq. İkimiz də eyni gündə yaralanmışdıq. Çox dəqiq, hətta məndən də dürüst birisi idi. Seyrək əlaqə saxlayardıq, amma faydalı işlərdə mütləq bir-birimizi itirib-axtarardıq. Bildim ki, elə-belə zəng eləməyib. "Bu səhər-səhər xeyirdimi? Yəqin bayramı təbrik etmək istəyir" – deyib yaşıl düyməni basdım.

–Sabahın xeyir, Təhmasib! – Xəttin o başından səsini eşitdim, yuxulu idi, amma təmkinli danışırdı, ölüb-itən yoxuydu, deyəsən.

–Aqibətin xeyir! – Mən də təmkinlə cavab verib fasilə etdim, həm uzun-uzadı hal-əhval tutmağı xoşlamırdım, həm də imkan yaratdım ki, sözünü desin.

–Botanika bağına gələ bilərsənmi?

Hirs vurdu başıma! "Ə, indi botanika bağı yeridir?! Kefdəsən? Botanika bağında gəzintiyə çıxmaq istəyirsən?" – birtəhər hirsimi boğdum.

Həmzə yataqxanada tək yaşayırdı. Yoldaşı əlil təqaüdünə

yaşamağa duruş gətirə bilməmişdi, ayrılmışdı. Oğlunu da götürüb atası evinə qayıtmışdı. Dərnəgüldə mebel alveri ilə məşğul olan qardaşları öz yanlarında işə düzəltmişdilər. Deyirlər bəzi qadınların tamahı Həzrət Əlinin Zülfüqar qılıncından itidir. Pulu, dolanışığı yaxşı olsa da Həmzənin yaxasından əlini çəkmirdi. Uşağın alimentini alır, üstəlik, paltar, təhsil, müalicə və başqa xərclər üçün də vaxtaşırı pul tələb edirdi.

–Xeyirdimi? – Özümü toplayıb soruşdum.

–İnşallah, xeyir olar. Burda bir qrup əlil qardaşlar, bacılar toplaşmışıq, nazirliyə, nazirin qəbuluna gedəcəyik.

Son vaxtlar Həmzə dindar olub dindarlara qoşulmuşdu, namaz qılırdı, oruc tuturdu, ibadətlərini edirdi. Pis vərdişlərdən tamamilə kənarlaşmışdı. "Qardaşlar, bacılar" deyəndə az qaldı gülmək məni tutsun. Camaat öz qardaşına qardaşlıq edə bilmir indi… "Görüm, bacısız qalasan səni, vallah, demişdim. Öz arvadından bərk yarıdın, indi də gedib "bacılar" dediklərinlə bir arada toplaşırsan. Day bilmirsən ki, yad qızı elə yad qızıdır…"

–Nazirlikdə nə işimiz var?

–Bəs bu gün əziz gün deyil?! İlaxır çərşənbəsidir axı… dalıncan da bahar bayramı gəlir. Nazir çərşənbə, bayramımızı təbrik edəcək.

–Nə danışırsan? – Sevinclə soruşdum, gözlərimə işıq gəldi, qəlbim fərəhləndi.

–Həə… Deyirlər ki, adambaşına iki yüz manat pul verəcək.

Şadlığımdan bilmədim neyləyim, telefonu bağrıma basıb öpüm, yoxsa xəttin o başındakı Həmzəni…

–Tez gəl. Elə olsun ki, nazir işə gələndə bizi görsün.

–Nazir saat neçədə işə gəlir?

–Sən nə qəribə adamsan! Heç xəbərin yoxdur ki, bunlar hamısı saat onda işə gəlirlər…

–Gəlirəm. – Sevincək cavab verib telefonu söndürdüm.

Kefim yüz biri vururdu. Sevindiyimdən nə çay içdim, nə də bir tikə çörək yedim. İki yüz manatın sədası məni doydurmuşdu.

Hazırlaşıb çıxdım.

İki yüz manat… İki dənə qıpqırmızı yüzlük, istisi az qalırdı sifətimi qarssın. Təsəvvür eliyə bilmirdim. Aylıq təqaüdümün yarısından çox idi. Yuxusunu da görmüşdüm. Amma heç inana bilmirdim. Ya mənə çatanda pul qurtaracaqdı, ya da nə isə başqa bir hoqqa çıxacaqdı…

Deyirdilər, yuxu tərsinə yozular, mənim yuxularımsa həmişə çin olurdu. Eybi yox, mənə çatmasa da, heç olmasa onlara paylasınlar, iyirmi manat Həmzədən borc alaram, bu, evə boş qayıtmaqdan yaxşıdır.

Avtobusda tez-tez əlimi cibimə salıb əlillik vəsiqəmin yerində olub-olmadığını yoxlayırdım. Avtobusda yaman basabas idi, belə bir əziz gündə, ilaxır çərşənbə günündə bu qədər adam hara gedirdi, görəsən? Eşitmişdim ki, belə basabas avtobuslarda cibgirlər olur. Onları şübhələndirməyə də qorxurdum. Hər dəfə əlimi cibimə salıb vəsiqəni yoxlayanda fikirləşirdim ki, mütləq görüb şübhələnəcəklər. Düşünəcəklər ki, yəqin cibimdə pul var deyə narahatam. Onlara nə var. Cibdə pul tapmayanda acığa düşüb vəsiqəmi çəkərdilər. kim idi mənə vəsiqəsiz iki yüz manat

pul verən. Heç əlilliyimə inanmayacaqdılar da, nə olsun ki, çəliklə gəzirəm. Əlilliyi qanan olsaydılar, elə avtobusdakılar da qanardılar. Bayaqdan ayaq üstə qalmışam, heç olmasa cavanlardan kimsə durub yerini mənə verərdi…

Botanika bağının qabağında avtobusdan düşdüm. Burada xeyli adam toplaşmışdı, içində qadın da vardı, kişi də, uşaq da… çəlikli də, çəliksiz də. Elələri vardı ki, lap qucaqda olan balaca uşaqlarını da gətirmişdi.

Avtobusdan düşüb camaata qoşuldum. Onlar sanki mənim gəlişimi gözləyirmişlər, komandasız-filansız hərəkətə gəlib üzü aşağıya yön aldılar. Bəlkə də kimsə komanda verdi, ya əli ilə işarə verdi, sadəcə mən görüb-eşitmədim.

–Əkrəmdən bir dənədi. – Qadınlardan kimsə dilləndi.

–Əkrəm oğuldu, oğul. Onu Allah saxlasın. – Bunu başına çalma bağlamış bir arvad dedi, 65-70 yaşlarında olardı, nədənsə diqqətimi çəkdi.

Beləliklə, hərə bir söz deyir, gedirdik. Bu Əkrəm kim idi, arvadlar onu niyə tərifləyirdilər, baş açmırdım, ancaq təxmin edirdim ki, hər kimdirsə, nə vaxtsa burda toplaşanlara yaman yaxşılığı keçib. Yoxsa, kütlə boş-boşuna adam tərifləməz…

Gözüm camaatın arasında Həmzəni axtarırdı…

Sısqa yağış yağırdı, külək də əsirdi…

Külək hərdən güclənir, yağışı şiddətləndirir, camaatın üzünə çırpırdı.

Birdən baxdım ki, Vəli də camaatın arasındadır.

–Ə, Vəli, sən burda neyniyirsən? – Əl verib görüşdüm.

Vəli tezcə şəhadət barmağını dodaqlarına apardı, yəni sən sus.

Vəli nə əlil idi, nə də məcburi köçkün. Heç müharibədə iştirak da etməmişdi. Sağlamlığı da yerindəydi, elə bil buz baltasıydı. Yanında da iki gənc soyuqdan tir-tir əsir, naəlac qalıb addımlayırdı, vid-fasonlarından tələbəyə oxşayırdılar.

–Bunlar kimdi? – Astadan soruşdum. – Bunların burda nə işi var?

Mənim təsəvvürümdə burada toplaşanlar ya əlil olmalıydı, ya məcburi köçkün.

–Tələbələrdi, çağırdım ki, onlar da bayram payı alsınlar.

Daha heç nə demədim.

Nazirliyin qabağına çatanda orada yola yaxın yerdə divarın dibində on-on beş nəfərin dayandığını gördük. Yağışın və küləyin şiddətinə baxmayaraq kefikök görünürdülər.

–Deyəsən, çörək iyi gəlir ha… – Gələnlərdən kimsə onlara söz atdı.

–Nazir indicə keçdi. – Papağının qulaqlarını aşağı sallamış biri siqaretini sümürüb ağzındakı tüstünü göyə üfürərək gülümsəyib cavab verdi. – Bizi görcək əlini yelləyib salamladı. Yəni ki, gözləyin.

Burda duranların şad xəbəri ağız-ağız dolaşdı, hamının canına bir istilik gətirdi.

Bir-birimizə qısıla-qısıla divarboyu düzüldük. Külək və yağış arada elə şiddətlənirdi ki, nəfəs almağa belə imkan vermirdi, lap əhədimizi kəsirdi.

Telefonumu cibimdən çıxardıb Həmzəyə zəng vurdum,

gəldiyimi bildirdim.

–Mən içəridəyəm, qəbul şöbəsində. İndi bir şey öyrənib deyərəm.

–Deyirlər, nazir gəlib keçib. Camaatı görüb, salamlayıb.

–Hə, elə deyirlər. Görək də…

Yaman ümidliydim. Həmzəyə çox inanırdım. O, indi nəsə edəcəkdi. Yoxsa, mən burda nə gəzirdim. Basırıq olsa, camaatın arasında itib-batardım.

Bir saata yaxın beləcə gözlədik. Əlillər üşüməmək üçün siqaret çəkir, köhnə xatirələrini danışır, öz aralarında zarafatlaşırdılar.

Əlillərdən biri ucadan danışırdı.

–Baxın, diqqətli olun. İndilərdə kimsə gəlməlidir, camaatı siyahıya almalıdır.

–Həə, həmişə belə olur… – O birisi onun sözünü təsdiqlədi.

–Nə siyahıbazlıqdır! – Başqa birisi onun sözünə etirazını bildirdi. – Bir belə adamı burda, bu yağışın, küləyin qabağında siyahıya almaq olar..?

–Bəs nə təklif edirsən?

Guya ki, bunların təklifini soruşan vardı… Guya ki, nazir bunların sözü ilə hərəkət edəcəkdi. Elə də arxayın-arxayın danışırdılar ki, elə bil nazir bunlardan hansınınsa bacısı oğluydu.

–Yuxarıda, bina ilə hasarın arasında boş yer var. Camaatı yığsınlar ora, pulu paylayıb buraxsınlar.

–Sən lap qoyunu mağala yığıb sağdıran baş çoban kimi danışırsan…

–Sən lap hərbi strateglər kimi danışırsan… Böyük əməliyyatçısan.

Hərə bir söz deyirdi…

Bu zaman nazirliyin qabağından biri tövşiyə-tövşiyə gəldi.

–Orda deyirlər ki, ancaq əlillərə. Qalanları gözləməsinlər.

–Nə danışırsan? – Ağzı yaşmaqlı, dolu bədənli bir qadın dilləndi. – Başlarını yararam. Martın yeddisi bütün günü burda yağışın altında siyrik vurmuşam. Müavin özü məni görüb. Deyib ki, martın on doqquzu gəlin, hamınızı yola salacağıq.

Qırx-qırx beş yaşlarında olan arıq, sısqa bir kişi qabağa yeridi. O, əlil arvadı, üç uşağı ilə gəlmişdi. Uşaqlardan ikisi azyaşlıydı, birini – lap balacanı qucağına almışdı, o biri balacanın isə – hardasa 4-5 yaşı olardı, arvadı əlindən tutmuşdu.

–Mən onlara göstərərəm ancaq əlillərə… Bəs biz zəlillər neyləməliyik, – dedi. – Biz adam deyilik? Biz bayram keçirməməliyik? Normal bir iş versin, gedib işləyim, ailəmi özüm dolandırım. Kopoyoğluyam əyə bura gəlsəm…

–Uşaqlarına yazığın gəlsin. Onları burda saxlayıb sətəlcəm eləmə. – Yaşlı kişilərdən kimsə tövsiyyə verdi.

–Uşaqlara görə burdayıq. – Arvadı cavab verdi. – Uşaqlar olmasa kimdi bizi sayan…

–Onda get gir içəri. Sözünü de. De ki, soyuqdur, uşaqlar xəstələnəcəklər, insafınız olsun.

Deyəsən, ərinin ağlına batdı. Arvadı ilə uşaqlarını da götürüb binaya tərəf getdi. Dayanmadan binanın giriş qapısına yaxınlaşdı. Qapıda dayanan polis nəfəri ilə əl-qol ölçə-ölçə xeyli

danışdı. Sonra geri qayıtdı. Ağacın dibinə qısılıb bir siqaret yandırdı.

Həmzəyə zəng eləmək istəyirdim ki, özü gəlib çıxdı.

–Nə fikirləşirsən? – Soruşdum.

–Hər şey əllinin əlliyədir. – Yenə öz fəlsəfəsini atdı ortaya.

–Yəni nə?

–Ola da bilər, olmaya da bilər.

–Bəs onda məni bura niyə çağırmısan?

–Evdə oturub nağayıracaqdın? Dur burda, bəlkə alındı.

Onun belə danışmağı olub-qalan ümidimi də üzdü.

–Gecə yuxusunu da görmüşdüm. – dedim.

–Yuxular tərsinə yozular. – Bayaq tanış olduğumuz Aydın belə dedi.

–O yuxuları ki, mən görürəm, onlar ancaq düzünə yozulur. – Mən də inadımdan əl çəkmədim.

–Lap yaxşı. – Vəli də söhbətə qoşuldu. – Deməli, pul paylanacaq! Sənə və daha bir nəfərə çatmasa da olar. Adama beş-on manatdan yığıb sənə də bayram payı düzəldərik, evə əliboş getməzsən.

Vəli mənə ürək-dirək verdi. Baxdım ki, bayaq Vəlinin yanında olan tələbələr yoxdur.

–Bəs tələbələr hanı?

–Dözə bilmədilər. Üşüdülər, çıxıb getdilər.

–Deyəsən elə ən ağıllı işi onlar görüblər.

–Baxın! – Aydın aydınlıq gətirdi. – Elə nazirlik işçilərinin istədiyi də budur. Əsas odur ki, nazir keçəndə camaatı özü

görüb. Bunlar istəyir ki, adam azalsın. Nazirdən çox pul qoparıb camaata az paylasınlar.

–Artığını da öz ciblərinə qoysunlar. Eləmi?

–Əlbəttə!

Elə bu vaxt nazirlik rəsmilərindən bir nəfər binadan çölə çıxdı.

–Avratlar, irəli! – Kimsə komanda verdi.

Beş-altı arvad qabağa düşüb binaya tərəf getməyə başladı. Kütlə onların arxasınca düşdü.

Biz də yaxınlaşdıq ki, görək nazirlik rəsmisi nə deyir.

Nazirlik rəsmisi orta yaşlı, dolu bədənli birisiydi, çox da hündürboylu deyildi. Əynində bahalı göyümtül kostyum vardı.

–Əkrəmin köməkçisidir, tanıyırıq. – Kimsə tanışlıq verdi.

–Sizə kim deyib bura toplaşmısınız? Kim deyib ki, nazir bayramınızı təbrik edəcək? – Əkrəmin köməkçisi yaman diri-diri danışırdı.

–Necə yəni kim deyib? – Bayaqkı ağzı yaşmaqlı, dolu bədənli arvad cocudu. – Martın yeddisi müavin özü şəxsən mənə deyib.

–Bayaq nazir özü keçəndə də bizi gördü, əlini yellədi, yəni ki, gözləyin. – Kişilərdən biri qadının sözünə qüvvət verdi.

–Əkrəm xeyirxah adamdır.

–Hər il belə edir.

–Bizi heç vaxt naümid qoymayıb.

–Allah onun canını salamat eləsin.

Arvadların səsi bir-birinə qarışdı.

–Yaxşı, gözləyin, mən indi məruzə edərəm, görək nə deyir.

Əkrəmin köməkçisi dedikləri adam qayıdıb binaya daxil oldu. Camaat isə sevinə-sevinə bayaqkı yerinə – hasarın dibinə axışdı. Hava heç açılmaq bilmirdi. Yağış yağır, yağırdı, külək də ara vermədən əsirdi. Corabımıza qədər islanmışdıq, soyuq lap iliyimizə işləyirdi.

–Vəli, necəsən? – Hiss etdim ki, soyuqdan tir-tir titrəyir.

–Mən heç Sibirin soyuğundan qorxmamışam. – Vəli özünü sındırmadı.

–Buranın soyuğu daha təhlükəlidir, nəmişlikdir, rütubət çoxdur. – Aydınlıq gətirdim.

Beləcə, söhbət edə-edə daha bir saatı yola verdik getdi. Deyəsən, yağış bir az səngimişdi, külək isə öz şıltaqlığından əl çəkmək istəmirdi. Birdən bayaqkı göyümtül kostyumlu nazirlik işçisi, Əkrəmin köməkçisi dedikləri adam binanın qapısında göründü.

–Avratlar, irəli! – Qeyri-ixtiyarı həmin komanda səsləndi.

Arvadlar qabaqda, kişilər də onların arxasınca qapıya doğru axışdılar. Soyuğun iliyə işləməsinə baxmayaraq xəcalət təri məni basdı. Bir bayram payından ötrü, o da olacaqdı, ya olmayacaqdı, bilmirdik, oğlum yaşında birinin, nazirin köməkçisinin qabağına yüyürməyimizə utandım. İnanın, yer yarılsaydı, yerin altına girməyə razı olardım, nəinki onun qabağında aciz-aciz boynumuzu büküb gözləməyə… Tüpürəsən belə yaşayışa. Bu nə həyat idi bizə yaşadırdı Tanrı?

Papağımı yuxarı qaldırıb alnımın, boynumun tərini səhərdən burnumu silməkdən nəmləmiş cib dəsmalımla sildim.

Axın böyük idi deyə binanın qabağında nə danışdıqlarını eşidə bilmirdim. Saata baxdım, on iki qırx yeddini göstərirdi. Əkrəm dedikləri nazir öz əshabələri ilə hardasa bir neçə dəqiqədən sonra nahar fasiləsinə çıxacaqdı. Bayramqabağıydı deyə qısaldılmış iş günü hesab olunurdu. Nazirliyin bütün işçiləri nahar fasiləsinə yollanacaq və geri qayıtmayacaqdılar. Binada bir neçə nəfər növbətçilik çəkənlər qalacaqdı. Bunu dəqiq bilməsəm də ehtimal edirdim, fəhmim mənə belə deyirdi.

–Yaxşı, burada durmayın, keçin qəbul otağına. İndi tapşırıq veriləcək, sizinlə məşğul olacaqlar.

–Allah sizi qorusun! – Başı çalmalı qadın bunu deyib qabağa düşdü, axın binanın yan tərəfinə yön aldı.

Qəbul otağına giriş binanın sol tərəfindən idi.

–Durun! – Özümdən asılı olmayaraq səsləndim. – Getməyin!

Göyümtül kostyumlu məni tərs-tərs süzüb binaya daxil oldu.

–Sən nə danışırsan e… – Kimsə mənim sözümə ağzını büzdü. – Eşitmədin? Kişinin oğlu dedi ki, indi tapşırıq veriləcək.

–Nə tapşırığı? İndi onlar aradan çıxacaq. – Mən də əsəbi cavab verdim. – Demədi ki, camaatı təbrik edib yola salacaqlar. Dedi məşğul olacaqlar. Məşğul olmaqları isə, indi görəcəksiniz necə olacaq.

Çəliklilər çəliklərini taqqıldada-taqqıldada məni tərs-tərs süzərək yanımdan keçib getdilər, binanın sol tərəfində qəbul otağına doluşan camaata qarışdılar. Əllərində əlacları olsaydı çəlikləri ilə təpəmi odlayardılar. Çəliklərini yerə düzülmüş səki daşlarına bərk-bərk döyəcləyərək hirslərini ağlı-qaralı bəzək

daşlarının üzərinə tökürdülər.

Qəbul otağı çox da böyük deyildi, harda isə səksən-doxsan adam güclə yerləşərdi, ora adamla zıxçama dolmuşdu. Adamların qalanları pilləkəndə və binanın yan tərəfində sıxlaşmışdılar ki, imkan yaranan kimi qəbul otağına soxulsunlar.

Bu vaxt iki nəfər nazirlik işçisi əllərində kağız, qələm, gəlib divarın dibinə qısılaraq siyahı tərtib etməyə başladılar. Bayaq məni kinli-kinli süzən çəliklilərdən biri üzünü mənə tutmasa da ünvanıma deyinməyə başladı.

–Bildiklərini də danışırlar, bilmədiklərini də. Görürsünüz ki, Əkrəm yekdir.

–Əkrəm qardaşdır. – O biri çəlikli də onun səsinə səs verdi.

–Allah onu min budaq eləsin! – Pilləkəndə dayanan arvadlardan biri bunu eşitcək dilləndi.

Binanın tinində dayanmışdım deyə o biri tərəfdən çıxan maşın kartejini gördüm. Dörd-beş zil qara rəngli maşın şütüyüb yola çıxdı və sürətlə uzaqlaşdı.

–Getdilər! – İstəməsəm də dedim.

Bu dəfə çəliklilərlə bərabər nazirlik işçiləri də məni tərs-tərs süzdülər, amma heç nə demədilər.

Daha bir neçə dəqiqə keçdi. Siyahı vərəqini doldurdular. Nazirlik işçilərindən biri o birisindən də siyahını alıb dedi:

–Mən siyahını içəri keçirirəm. Sən o biri tərəfdən de, pəncərəni açıb qəbul eləsinlər.

“Deməli, bunlar da aradan çıxırlar. Bu qədər adamı aldatmaq nə qədər asan imiş?” – deyə fikrimdən keçirdim.

–Axı hamını yazmadınız… – dedim.

–Sən qarışma. – Yaxınlığımda duran çəliklilərdən biri hirslə qulağıma pıçıldadı, bu dəm lap çəliyini başıma endirəcəyini də gözləyirdim. – Onlar nə etdiklərini yaxşı bilirlər.

Bu dəm telefonuma zəng gəldi, Həmzə idi.

–Hə, eşidirəm.

–Sən hardasan?

–Çöldəyəm.

–Mən qəbul otağındayam. Burda bütün pəncərələr bağlıdır. Orda nə var, nə yox?

–Heç nə. Əkrəm getdi. Burda siyahı yazırlar.

–Fikir vermə, boş şeydi.

–Nə boş şeydi? Əkrəmin getməyi, yoxsa siyahı tutmaqları?

–Elə hər ikisi. Keç gəl içəri.

Elə bu vaxt siyahıları götürüb içəri keçmək istəyən nazirlik işçisi pilləkənlərlə yuxarı qalxmağa cəhd göstərirdi.

–Yol verin, yol verin, siyahını içəri keçirsinlər. – deyib nazirlik işçisinin arxasınca düşdüm ki, görüm bu oyun nə vaxt və necə bitəcək.

Adamları itələyə-itələyə, "zəhmət olmasa, yol verin", deyə-deyə birtəhər pilləkənlərin yuxarısına qalxdıq.

–Mustafayev Rizvan, Cəfərov Sadiq! – İçəridəki kişilərdən kimsə sanki siyahı oxuyurmuş kimi tanıdıqlarını səsləyirdi.

–Canəliyeva Gülpəri, Hətəmova Yazdagül! – Qəbul otağının girəcəyində gur toplaşan qadınlardan da biri eyni imitasiyanı təkrarlayırdı, tanıdığı qadınların adlarını çağırır, məzələnirdi.

–Deyəsən, qızışıblar, soyuğun təsiri keçib. – dedim.

Adamları yara-yara birtəhər qapıdan içəri keçə bildik.

–İmkan verin, siyahını pəncərəyə çatdırsın. – Ucadan səslənirdim ki, camaat yol versin.

Güc-bəla ilə adamların arasından keçib sağ küncdəki pəncərəyə yaxınlaşdıq. Pəncərənin şüşələri tünd qara rəngli idi, görünür içəridən plyonka yapışdırmışdılar ki, çöldən içəri baxanda görünməsin. İçəridə oturanlar isə qəbul otağında gözləyənlərin hərəkətlərini izləyə bilsin. Baxmayaraq ki, dörd bir tərəfdə kamera quraşdırmışdılar, yenə də göz nəzarətinə ehtiyacları vardı.

Nazirlik işçisi pəncərəni döyən kimi arxadan açdılar, sanki onu gözləyirmişlər. Baxdım ki, bayaq çöldə ikinci siyahını yazan məmurdu. Mənim onu gördüyümdən siyahını cəld alıb pəncərəni bağladı. "Bu basa-basa düşməyin nə lüzumu, siyahını elə o biri qapıdan da apara bilərdilər" – deyə düşündüm.

Siyahı gətirən məmur gəldiyi kimi də çətinliklə camaatın arasından keçib geriyə qayıtdı.

Çəliklilərdən bir neçəsi siqaret çəkmək istədiklərini bildirdilər və nazirliyin əməkdaşının arxasınca çölə çıxdılar.

Kimsə sol tərəfdə divarımı, qapınımı möhkəm-möhkəm döyəcləməyə başladı.

–Açıııınnn!

–Niyə hörmətsizlik edirsiniz? – Qadınlardan kimsə səsləndi.

–Əkrəmdən də başqa nazirlər var. Gedin görüm, onların qapısına gedə bilirsiniz? – Başqa bir qadın ona qoşuldu.

Deyəsən, qapını döyürdülər, çünki ikinci dəfə döyəcləmədə qapı açıldı və yoğunqarın bir nazirlik işçisi ordan çıxdı.

–Nə var? Noolub? Niyə döyəcləyirsiniz? Voopşe, burda durmayın, çıxın bayıra.

Camaatı qapıya doğru itələməyə başladı.

–Çıxın də… Nə durmusunuz? Sizi o biri tərəfdə qəbul edəcəklər.

–Getdik o biri tərəfə. – Xoş xəbər eşidibmiş kimi pilləkənin başında duranlardan biri ucadan səsləndi. – O bir tərəfdə qəbul edəcəklər.

İndi də axın nazirlik binasının o biri tərəfinə yön aldı. Heç üççə dəqiqə keçmədi ki, qəbul otağı boşaldı. Nazirliyin əməkdaşı içəridən qapını açarla bağladı, bu mənim diqqətimdən yayınmadı.

"Bu da son! Bu da toplaşanların dilindən düşməyən tərifli, gülməşəkər nazirin pərəstişkarlarına, fanatlarına bayram təbriki!" – deyə düşündüm və instikti olaraq axının arxasınca getdim.

Yağış kəssə də külək əsməyindəydi…

Camaat hasar boyu bayaqkı kimi bir-birinə sıxılaraq düzülmüşdülər.

"Yazıq camaat! Hələ də ümidlidirlər ki…"

Qadınlar iki-bir, üç-bir komalaşıb danışır, kişilər sakit-sakit siqaret çəkirdilər…

Beləcə, özlərinə təsəlli verirdilər.

Saat üçdə nahardan qayıdacağını, quş dimdiyində balalarına

yem gətirdiyi kimi nazir də bir cib dolu onlara pul gətirəcəyini, onları bayram münasibətilə təbrik edib yola salacağını düşünürdülər. Necə də xoşbəxtdilər!

Uşaqları ilə gələn kişi lap balaca uşağını qucağına alıb o baş-bu başa gəzişir, havalanmış adam kimi öz-özünə danışırdı. Uşağın sifəti bayaq qıpqırmızıydısa, indi bozarmışdı, qanı çəkilməkdəydi.

–Uşağa yazığın gəlsin, xəstələndirəcəksən. – dedim.

da dönüb məni tərs-tərs süzdü. Bu gün hamı mənə günahkar kimi baxırdı, sanki mən qoymurdum nazir gəlib onları təbrik etsin, bayrampulu paylasın.

–Nə tərs-tərs baxırsan? Get onları başa sal! – Binanı göstərdim. – De ki, körpə uşaqlara yazığınız gəlsin, daha gözləyə bilmirlər.

Deyəsən, ağlına batdı. Söylənə-söylənə binaya tərəf getdi. Girişdə kiminləsə bir xeyli danışıb geri qayıtdı. Giriş qapıları şəffaf şüşədən olduğundan içəri görünürdü.

Hardasa, nahar fasiləsinin qurtarmasına az qalmış qadınlar nazir gələn yola yığışdılar. Onlar aldandıqlarını indi-indi dərk etməyə başlayırdılar, amma artıq gec idi. Nazir nahara getmişdi, çətin ki, qayıdardı.

Bəlkə də hələ dərk eləmirdilər. Sadəcə, gözləməkdən bezmişdilər deyə yola toplaşırdılar ki, nazirin qabağını kəsib bayram təbriklərini tezləşdirsinlər.

Doğrudan, bu nə münasibət idi? Zorla kimisə məcbur eləmək olarmı ki, sənin bayramını təbrik etsin? Məgər zorla mərhəmət

olur?

Bu zaman iki ortaboylu, dolu bədənli, görünüşlərindən bürokrat məmurabənzər nazirlik işçisi binadan çıxıb onlara tərəf gəlirdi. İkisinin də başında kepkası vardı, əlləri ilə kepkalarının dimdiyindən bərk-bərk yapışmışdılar ki, külək başlarından çıxardıb aparmasın. Onlar yaxınlaşan kimi adamların dövrəsinə düşdülər.

–Nazir hamınızın bayramını təbrik edir!

–Sağ olsun!

–Var olsun!

–Allah onun canımı salamat eləsin!

–Əkrəmdən bir dənədi.

Yerbəyerdən səsləndilər, məmura sözünün gerisini deməyə imkan vermədilər.

–Sakit olun! İmkan verin görək nə deyir. – Qırmızımtıl şərfli kişi camaata çəmkirdi.

–Özünüzü yormayın. – Nazirlik rəsmisi davam etdi. – Sizdən kimsə hörmətsizlik edib, qəbul otağında olarkən qapını bərk-bərk döyəcləyib. Nazir də buna görə inciyib. Bayram payı olmayacaq. Bizi də incitməyin, özünüzü də, dağılışın evlərinizə.

–Necə olmayacaq?

–Neçə saatdır gözləyirik.

–Tezdəndən burdayıq. Onda deyəydiniz.

–Səhər-səhər deyəydiniz, biz də avara olub gözləməzdik.

–Yalan danışırsan, Əkrəm belə oğul deyil.

–O, heç vaxt bizi ümidsiz vəziyyətdə qoymayıb.

–Nə hörmətsizlik?! Qapı döyəclənəndə Əkrəm hardaydı ki? Özünüzdən söz çıxardırsınız.

Nazirlik rəsmisi əlini yuxarı qaldırdı ki, sakitləşsinlər.

–Bizə indi xəbər gəldi. Biz də dərhal çatdırdıq ki, daha gözləməyəsiniz.

Kənardakı yaşlı, dolubədənli qadın durub müşahidə edirdi.

–Sizi görüm qanınıza boyanasınız. – dedi. – Gör necə də haram yeyib şişiblər. İndi də pulu alıblar, istəyirlər ki, camaatı aldatsınlar.

Deyinən qadına diqqət artırdı. O, bunu görüb üzünü çəliklilərə tutdu:

–Nə üzümə baxırsınız? Ermənilərə gücünüz çatmayıb, çatmayıb. Bunlardan da qorxacaqsınız? Onların ikisini də al-qana boyayıb buraxın getsinlər rəislərinin yanına. Bax, bu olsun bayram təbriki. Yoxsa Qarabağda ermənінin qabağında qıçınızın birin qoyub gəlmisiniz, bunlar deyəni də peysərə verirsiniz. Adınızı da qoymusunuz Qarabağ əlili. Hanı sizin hökmünüz?..

Nazirlik rəsmiləri əllərini sallayıb qollarını yelləyə-yelləyə çıxıb getdilər. Başı çalmalı, ağzı yaşmaqlı qadın onları arxadan səslədi.

–Bir dəyqə əyaq saxlıyın. – Məmurlar dayanıb geri döndülər. – Gedin nazirinizə deyin ki, onu görüm qan qussun. Elə sizi də, bu əziz gündən demişəm, qanınıza bələnəsiniz. Siz ki, bu gün bizə bir belə zülüm verdiniz…

Aydın qolumu dümsüklədi.

–Tanıyırsan o qadını?

–Yox! – Cavabını verdim. – Hardan tanıyım? Birinci dəfədir görürəm.

–Ona da "ağzı dualı Fizzə" deyərlər. On gün keçməz, duası qəbul olar, görərsən…

Camaat çaşqınlıq içində dinməz-söyləməz yavaş-yavaş dağılışmağa başladı.

Suyu süzülə-süzülə kor-peşman geri qayıtdım.

Evə girəndə plovun iyi ciyərlərimə doldu. Bəh-bəh!

–Qırmızı toyuğu uşağa kəsdirdim. –İçəri keçən kimi əlimin boş olduğunu görən həyat yoldaşımın ilk sözü sifətimdə sillə kimi partladı. – Nə etməliydim? Bu bayram günündə uşaqları umsuq eləməyəcəkdim ki…

–Axı o toyuq gündə birini yumurtlayırdı… – Elə dedim ki, elə bil qırmızı toyuq gündə bir qızıl yumurta yumurtlayırdı.

Dillənmədi.

Gündə bir yumurta verən toyuq da belə getdi.

Başımı bulayıb içəri keçdim. Kompyuterin düyməsini basdım. Paltarımı dəyişib qayıdana kimi kompyuter açıldı. Bir az internetlə başımı qatdım.

–Çay içmirsənmi? – Yoldaşımın səsi fikirdən ayırdı.

Yaxşı ki, bu çay içmək vardı. Durub masaya yaxınlaşdım. Masada bir şəkərbura ilə pürrəngi çay məni gözləyirdi.

Pultu götürüb televizoru yandırdım. "Ümid.TV"-də xəbərlər gedirdi. Matışka sifətli birisi tövşüyə-tövşüyyə danışırdı:

–Novruz bayramı münasibətilə nazir iki yüz Qarabağ əlilinin ailəsini sevindirib. Hər bir ailə başçısı ilə görüşüb, bayram

hədiyyəsi olaraq iki yüz manat nəğd pul verib.

Ekranda bizi göstərirdilər. Nazirliyin qabağında toplaşdığımızı, göyümtül kostyumlu ilə danışığımızı, qəbul otağındakı basa-bası, nazirlik işçisinin çəliklilərin siyahısını tutmasını…

Təəccüb məni bürüdü: “Axı ərazidə çəkiliş olmayıb. Onlar bizi necə çəkiblər?”

Həyat yoldaşım şübhəli-şübhəli məni süzdü.

“Bəs niyə əliboş gəlmisən?” – baxışlarından oxudum.

“Vallah, yalan deyirlər” – qənd qabından konfet oğurlamış uşaq kimi məyus-məyus onun gözlərinə baxdım.

“Mən cəhənnəm, o boyda televiziya doqquz milyonun gözünə baxa-baxa yalan danışacaq?” – sual dolu baxışlarını üzərimdə gəzdirib mətbəxə keçdi.

Nitqim tutulmuşdu, heç nə deyə bilmirdim. Divanda oturub gözümü televizorun ekranına zilləmişdim. Buza dönmüş çayımı da içmirdim. Televizorda danışılanları da eşitmirdim, çünki qulağımı o başı çalmalı qadının səsi yağır eləmişdi.

“Nazirə deyin ki, onu görüm qan qussun. Elə sizi də qanınıza bələnəsiniz. Siz ki, bu əziz gündə…”

Aurasından çıxa bilmirdim, heç vaxt belə qarğış eşitməmişdim.

# Halal ehsan

Qardaşlar içində ən kiçiyi olan Aslan əmim taksi sürücüsüdür. Səhər obaşdan evdən çıxır, bir də axşam şər qarışandan sonra evə qayıdır. Gün ərzində evdə olmadığından yalnız bayram günləri onu görə bilirdik.

Bir dəfə çox vacib işim çıxdı, mütləq əmimlə görüşüb məsləhətləşməliydim. Onun şəhərdə tanımadığı bir küçə, bir yaşayış massivi, hətta bir tin, dalan da tapmaq olmazdı. Bazarları, anbarları, topdansatış mərkəzlərini, onların iş prinsiplərini də pis bilmirdi. Hardan nə soruşsaydın, məlumatı vardı. Hamı da ona: "Maşallah, sənə halaldı", deyərdi.

Mən ona zəng vuranda səhər saatları olardı. İşdə olduğunu, müştəri apardığını söylədi.

–Harda görüşə bilərik? – deyə soruşdum.

–Saat on ikidə Baba məscidinin qabağında ol! – dedi. – Hara getsəm də günortaya ora gələcəm.

Əvvəl təəccübləndim: "Bu niyə görüş yerini məscidin qabağına salır, olmaya qohumlardan, tanışlardan ölən olub, mənim xəbərim yoxdur?" Sonra fikirləşdim ki, yəqin əmimin "iş yeri" oradır. Axı şəhərdə fəaliyyət göstərən taksilər hardasa toplaşırlar…

Baba məscidinin qabağında avtobusdan düşəndə, saata baxmasam da elə əmim dediyi vaxt olardı, ya beş-on dəqiqə tez, ya gec, fərq etməzdi. Hələ avtobusla gələndə fikirləşdim ki,

məscidin qabağında dörd-beş maşın olar, o da taksilər. Amma belə olmadı, məscidin arxa tərəfi də, qabağı da, ikitərəfli yolun bir qırağı da maşınla dolu idi. Bura maşın bazarını xatırlatdı mənə, aşağısı iki yüz maşın vardı. Onların arasında əmimin maşınını asanlıqla tapa bilməyəcəkdim. Elə avtobusdan bir az aralanıb zəng etmək istəyirdim ki, hardansa özü peyda olub mənə yaxınlaşdı.

–Gəldin, Nadir? – Soruşdu.

–Gəldim, əmi. – Cavabını verdim.

Hərçənd cavab verməsəydim də aydındı, özü görmüşdü ki, gəlmişəm, heç soruşmağına da ehtiyac yox idi.

–Onda gedək.

–Hara?

–Məscidə.

Əvvəl elə düşündüm ki, onların ofisləri, toplandıqları yer məsciddədir. Sonra buna şübhə ilə yanaşdım, özəl taksi sürücüləri niyə məsciddə toplaşsın, onların ofisləri niyə məsciddə olsun. Məscid məgər ofis yeridir?

–Məscidə niyə?

–Məscidə nəyə gedərlər? Gedək ehsan yeyək.

–Əmi, nə ehsan? Hüzür yerimiz var? Kimsə rəhmətə gedib, mənə demirsiniz?

–Hər gün hüzür yeri olur, hər gün kimsə rəhmətə gedir də… İndi onsuz da günortadır. Hardasa oturub çay içməliyik, bir qismət çörək yeməliyik. Elə gedək məsciddə bir qismət ehsan yeyək. İmkan olar orda, olmaz da gəlib burda söhbətimizi edərik.

–Əmi…

–Burda hər gün böyüklərə ehsan verirlər. Özləri deyiblər.

–Sən get. Mən burda gözləyərəm.

–Gəl, gəl, sənin nə işinə var… mənimləsən. Burda məni bütün işçilər tanıyır.

Məscid yolun sağ tərəfində idi, ərazidə, bəlkə də ən böyük, əzəmətli bir tikinti sayılırdı. Məscidin arxa tərəfində üçmərtəbəli mərasim zallarından ibarət bir bina da vardı, hüzür yerləri bu binada təşkil olunurdu. Əmimlə həmin binanın qabağına gəldik, pilləkənlərlə yuxarı qalxıb binaya daxil olduq. Birinci mərtəbə geniş foyesi və dörd zaldan ibarətdi. Foye adamla dolu idi, qaynayırdı. Liftə yaxınlaşdıq. Liftin qapısında da gözləyənlər çox idi. Lift qapısının yuxarı hissəsində böyük məlumat lövhəsi asılmışdı, oradan hansı zalda kimin hüzür məclisi təşkil olunduğunu öyrənmək mümkündü. Əmimin dediyinə görə, bu binada irili-xırdalı on zal vardı. Əsas zal üçüncü mərtəbədə yerləşirdi, burda ən böyük zal o idi, adına "pravitelstvennıy", yəni, "hökumət zalı" deyirdilər. Burada prezident aparatında işləyənlərin, nazirlərin, rektorların, bir sözlə; çox böyük vəzifəlilərin, onların ən yaxın qohumlarının və varlıların hüzür məclisləri təşkil olunur. Onlar siyahı tutub gələnlərdən pul yığmırlar. Odur ki, onların ehsanını yemək halaldır, həm də savabdır. Bunun düz olub-olmadığını mən deyə bilməzdim, birinci dəfəydi belə bir şey eşidirdim, əmim belə deyirdi.

–Gəl, pilləkənlə qalxaq. – Əmim liftin ağzında gözləyən

adamların çoxluğu ucbatından belə təklif etdi.

Biz pilləkənlərlə yuxarı qalxdıq, bizdən başqa da çox adam pilləkənlərlə yuxarı qalxırdı. Yuxarı foyelərdə də adam əlindən tərpənmək olmurdu, çox sıxlıq idi.

–Buyurun, keçin! – Burada əmimi tanıyırdılar, tanımırdılar deyə bilmərəm, amma hörmətlə qarşılayırdılar. O da ya başı ilə təşəkkürünü bildirir, ya da "başınız sağ olsun", "axırıncı qəminiz olsun", "Allah səbr versin" kimi ifadələr işlədib təziyəsini bildirirdi.

Beləliklə, biz üçüncü mərtəbədəki ən böyük zalın, əmimin "pravitelstvennıy" adlandırdığı zalın qapısı ağzına gəlib çıxdıq. Əmim içəri keçənlərlə bərabər tam sərbəst olaraq:

–Allah o dünyasını versin! – dedi və içəri keçdik.

Mən çox narahat idim. Qorxurdum ki, indicə saxlayacaqlar məni, hara gəldiyimi, kimin yasına gəldiyimi soruşacaqlar. (Zalın nömrəsini əvvəlcədən bilmədiyimdən heç məlumat lövhəsindən də mərhumun adını oxumamışdım) Sonra da buradan mitilimi geri qaytaracaqlar. İnanın, qapının ağzından içəri keçəndə elə bildim ki, qıl körpüsünü keçirəm, bu dəqiqə səndərləyib qır qazanına düşəcəm. Bircə onu bilirdim ki, geriyə dönüş yoxdur, hər necə olsa, əmimin arxasınca getmək lazımdır. Xəcalət təri məni basmışdı, tüklərimin dibinə kimi islanmışdım.

Zalın sol tərəfindəki ikinci cərgə boyunca gedib, hardasa, yuxarı tərəflərdə əyləşdik. Nəzərimə çarpan ilk əlamət üç mollanın məclisi idarə etməsi oldu.

Əmimlə yanaşı oturduq.

–Qarşı tərəfə getmək olmaz. – Əmim zalın girəcəkdə sağ tərəfindəki cərgəni göstərdi. – Orada böyüklər, nazirlər, komitə sədrləri, deputatlar, aparat işçiləri otururlar. Bura gələsi olsan, həmişə bu tərəfdə otur. Burada sənin heç kimlə işin yoxdur, heç kimin də səninlə işi yoxdur. Ehsanını ye, mollanı dinlə, "Allah rəhmət eləsin", de, sonra da sakitcə çıx get. Bu zalda hüzür məclisi keçirənlər gələnlərdən pul yığmırlar.

Bu dəm şəbbəxeyir iki nəfər danışa-danışa gəlib qabağımızda əyləşdi, başqa stullarda əyləşmişdilər, bircə bizim qabağımız boş idi.

–Şadlıqlarda görüşək. – Əmim baxdı ki, onlar salamsız-kalamsız gəlib əyləşdilər, özü onları salamladı.

Əmimə heç əhəmiyyət də vermədilər.

Biri mənə yaman tanış gəlirdi, onu hardasa görmüşdüm, ya hardansa tanıyırdım, amma ha fikirləşirdim, yadıma sala bilmirdim.

–Bu ki, Musa Səlimbəylidir. – Əmim həmin adama diqqətlə baxdığımı görüb qulağıma pıçıldadı, amma onun pıçıltısı yaman ucadan səsləndi.

–Peyğəmbərin gül camalına bir salavat çevirək! – Yaxşı ki, molla uca səsi ilə onların diqqətini yayındırdı, qanımın arasına girdi, yoxsa onun qəzəbli baxışından canımı qurtara bilməyəcəkdim, bəlkə də nə isə ağır söz deyəcəkdi.

Musa Səlimbəylinin zəhmli qırğı baxışı vardı, adamın bağrını yarırdı. Gözaltı baxdım ki, əlindəki xurmanı təpəmə çırpmağa hazırdır. Elə ki, molla peyğəmbərin gül camalına salavat çevirdi,

Musa dərhal əlindəki xurmanı ağzına basaraq qabağındakı armudu stəkanı götürüb çaydan bir qurtum içdi.

Fikrim ondaydı, bir stəkan çayı beş xurma ilə ötürdü içəri – özü də necə xurma. Burdakı xurmalar da iriydilər, əmim demişkən "pravitelstvennilər" üçündü, indiyədək mən belə xurma görməmişdim.

Mollanın nə isə oxumasından istifadə edən əmim qulağıma tərəf əyildi:

–Bu, nazir deyil?

–Nazir yox, komitə sədri. – Bildim ki, Musa Səlimbəylini soruşur, belə cavab verdim.

–Hə də…

–Hə, özüdür.

–Bəs nə yaxşı o tərəflərdə oturmayıb?

–Görünür o tərəflərdə yer olmayıb.

–Yenə işləyir?

–Yox. Keçən ildən mitilini atıblar bayıra. İndi yığdıqlarını xırıd eləyir.

–Bilirsən nə qədər adamın çörəyinə bais olub, pensiyasın dayandırıb.

–Arsızdı ki…

Musa Səlimbəylinin qulaqları yaxşı eşidirmiş. Bizə elə tərs-tərs baxdı ki, qorxudan istədim durub çıxam. Əmim pencəyimin qolunu dartdı.

Masaya ehsan gəldi. Hər kəs başını aşağı salıb ehsan yeməyə başladı. Musa hamıdan tez yedi. Dovğanı başına çəkdi, burnuna

bulaşdırdı. İstədim deyəm, çəkindim, birdən acığı tutar deyə salfet uzatmağa da ehtiyatlandım. Musa Səlimbəyli elə burnu qaşqalı sağa-sola baxır, yanındakı ilə nə barədəsə yeyin-yeyin danışırdı. Heç yanındakı da burnunun qaşqasını ona demirdi.

Mən isə dovğanın qapağını açıb qaşıqla yeməyə başladım. Nazir olmağınan deyil ki, süfrə mədəniyyəti yoxdur. Tək o deyil e.., nazirlər, deputatlar hamısı dovğanı başına çəkir, hortahortla sümürürdülər. Kənardan çəkib özlərinə göstərən gərəkdi.

–Nədi? Məni görməmisiniz? – Musa Səlimbəyli birdən bizə bozardı.

–Görməsəydik bundan yaxşıydı.

–Nə pisliyim keçib sizə?

–Hələ bir soruşursan da… Ölkədə pislik eləmədiyin adam qalıb ki..?

–Voobşe, siz kimsiniz? Kimin hüzürünə gəlmisiniz?

–Bunun sizə dəxli yoxdur.

–Aha, ehsanşiksiniz deməli… Gəlib onun-bunun ehsanını havayı yeyib çıxıb gedirsiniz.

–Guya siz havayı yemirsiniz? Guya siz çıxanda siyahıya yüz manat yazdırıb gedirsiniz?

–Yox, yazdırmırıq…

–Onda sizinlə bizim ehsan yeməyimizin nə fərqi oldu?

–Fərqi var. Bizim haqqımız çatır, çünki biz tanıyırıq.

–Fərqi o gözəgörünməzdən başqa heç kim bilməz. Tanıyıb-tanımamağın dəxli yoxdur.

–Musa, Allah sənin belini qırsın. – Kimsə arxa masadan

səsləndi. – Mənim pensiyamı niyə kəsirdin ə? Qurumsaq, mənim ayağım kərtənkələ quyruğuydu ki, uzanıb gəlib yerinə çatsın… Mən ayağımı Qarabağda qoyub gəlmişəm, sən heç Qarabağın səmtin də tanımırsan…

Molla süfrə duasını verirdi.

Musa onunla gəlmiş adama nə işarə elədisə cəld ayağa qalxıb çıxışa doğru irəlilədilər.

–Buna bax! Hələ dili də var, haqdan danışır! – Əmim astadan dilləndi. – Bəlkə min adamın haqqını yeyib… Belələrinə heç salavat da düşmür, nəinki “fatihə” verib Allahdan rəhmət diləmək…

# Sonuncu dar ağacı

"…Misirxan padşahın vəziyyəti ağırdır, kişi bərk xəstələnib, bəlkə də bu gün-sabahlıqdır…"

İldırım sürətilə məmləkətin hər yerinə yayılan bu xəbər az qala çərşənbə torbası kimi qapı-qapı gəzdi, dönə-dönə ağızlarda dolaşdı, hətta bir quş sürətilə ucqar dağ kəndlərinə də gedib çatdı. Sadə insanlar belə bir əzazil padşahın sonunun çatdığına ürəklərində sevinir, daxilən fərəh hissi keçirirdilər. Amma bu neçə illərdə qorxu xofu canlarına necə hopmuşdusa daxildə sevinsələr belə aralıqda gəzib əl-ayağa dolaşan yaltaq-yalaq əlindən, həm də ağalarının qorxusundan üzdə büruzə verə bilmirdilər. Coşqu və hiddətlərini büruzə verməkləri heç mümkün də deyildi, çünki sifətlərinin qırışı tarlalarda günəşin istisindən, küləyin sazağından artıq qart bağlamışdı. Bir sevinc hissi ilə həmin qart basmış qırışları açmaq müşgül məsələydi, odur ki, yalnız gözləri parıldayırdı. Gərəkdi ki, qırış açmağın sirrini bilən kələntər arvadlar işə girişəydi. Lazım idi ki, kələntər arvadlar əllərini yaxşı-yaxşı yağlasın və sifətlərin qırışığını açmaq üçün üzləri ovxalamağa başlasınlar. Ancaq hardaydı bir o qədər kələntər arvad ki, məmləkət əhlinin qırışığını aça bilsin.

Məmləkətdə beş-on nəfər kələntər arvad var idi ki, onlar da Başbilən vəzirin əmri ilə Misirxan padşahın hərəmxanasına toplaşmışdılar. Gecə demədən, gündüz bilmədən növbə ilə baş hərəm Şirinbəyimin otağının ortasında qoyulmuş taxtın üzərində

uzadılmış padşahı ovxalayırdılar. Deyirdilər, bəlkə qırışığı açıla, hərəkətə gələ, əzrailə can verməyə. Sarayda hamı bilirdi ki, padşah hərəkətə gəlməsə, vaxtı, vədəsi yetişən kimi gedəcək. İndiyə kimi hansı gedənin qarşısını almışdılar ki, Misirxan padşahın da qabağını kəsib bircə gün, bircə saat, bircə dəqiqə artıq yaşada biləydilər.

Onun ayağından başlayan şişin qurşağına çatdığını görən kimi bacısı Səlmə xatun əlini yuxarı qaldırıb kələntər arvadlara "dur" işarəsi verdi.

–Siz bu yazığı niyə belə kökə salmısınız? – deyə hiddətlə soruşdu.

Dinmədilər, kələntər arvadlar heç cıqqırlarını da çıxartmadılar, eləcə başlarını aşağı salıb durdular. Onlar qəbahət görüləsi nə iş tutmuşdular ki? Başbilən vəzir nə əmr etmişdisə də kələntər arvadlar canla-başla onu yerinə yetirmişdilər. Padşahı tər götürüb gedirdi, dərhal pambıq dəsmalla tərini silirdilər. Alnına tez-tez sərin, nəmli dəsmal qoymaq lazım olmuşdu, etmişdilər. Ayaqları hər axşam isti suya qoyulmalıydı, dağların min bir çiçəyi ilə dəmlənmiş isti vanna hazırlayıb gətirmişdilər. Gündə üç dəfə yatacağını dəyişmişdilər. Bir sözlə, Başbilən vəzir nə lazım idisə hamısını elətdirmişdi. Bir əlac qalmışdı o gözəgörünməz göylər taxt-tacının sahibinə, indi hər şey onun ixtiyarındaydı, o isə nə dirçəltmirdi, nə də aparmırdı. Padşah zarıncı qalmışdı, vəzir qarışıq qulluğunda duranların hamısı girinc olmuşdular.

–Pəncərələri açın, qoyun otağa təmiz hava dolsun! – Səlmə

xatun içəri keçdiyindən Başbilən vəzirin yavaş-yavaş geri çəkildiyini görüb qətiyyətlə əmr verdi. – Sizin tərinizin iyindən sağlam adam otağa girə bilmir, o ki qaldı yataq xəstəsi ola. Yazıq bu boğunuqda necə nəfəs alsın?

Dərhal pəncərələr açıldı, baş hərəm Şirinbəyimin otağına dənizin üstündə təmizlənmiş sərin hava doldu.

–Kiflənmiş iyiniz divarlara da hopub. Heç utanmırsınız? – Səlmə xatun səsini ucaltdı. – Bəlkə xəstə adamı kiflənmiş iyinizlə boğmaq istəyirsiniz?

Yenə də səslərini çıxartmadılar, addım-addım geri çəkilərək pəncərəsi olmayan divarın dibinə qısıldılar. Fısıltıları, mısıltıları ilə otağın tünd aurasını təmizlənməyə qoymurdular.

–Başınız kamasutradan ayırd olur ki, özünüzə baxasınız. Səhərdən axşamadək, gecədən də səhərədək elə aludə olmusunuz ki, adamlığınız da yadınızdan çıxıb.

Başbilən vəzir artıq yox idi, arvadların arxasına keçib otaqdan çıxmışdı. O, şah tayfasına bələddi, kişili, arvadlı hikkə idilər, qımırlarından qarşılarında heç kim duruş gətirə bilməzdi. Daşın, torpağın da dodağı yeddi yerdən parçalanardı. İndi Səlmə xatunun qəzəbinə tuş gəlməmək üçün əkilmişdi, yəni onunla qarşılaşmadan sakitcə aradan çıxmışdı. Səlmə xatun qəzəblənib əmr etsəydi, vəzir olmağına baxmayaraq elə kələntər arvadlar onu yerə yıxıb tuman bağları ilə boğacaqdılar. Sonra da deyəcəkdilər ki, padşahın canına qəsd etmək istəyirdi. Neçə illərini sarayda yellərə verən Başbilən vəzir arvad tayfasının qımırına bələddi.

–Sizə kim deyib ki, padşahın bədəninə bu qədər yağ sürtmüsünüz? – Səlmə xatun padşahın par-par parıldayan ayaqlarına baxıb daha hiddətlə kələntər arvadlardan soruşdu. – Yazığın bədənində sağ islahat qoymamısınız. Allahın verdiyi beş-on günlük ömrü yaşayacaqdı, bu işıqlı dünyaya baxacaqdı, onu da siz əlindən alıb gen dünyanı başına dar eləmisiniz. Tez olun, təmiz parça ilə bədəninin yağını silin! Qoyun, bədəni nəfəs alsın.

Kələntər arvadlar əski, dəsmal götürüb padşahın sinəsinin, qılçalarının yağını silməyə başladılar. Ancaq yağ dəriyə, dəriarası qatqatlara elə hopmuşdu ki, lap kündəkəsən ərsin götürüb qaşısaydılar belə təmizləyə bilməzdilər.

–Yavaş olun! Xəstəni incitməyin! – Səlmə xatun bir də kələntər arvadlara çəmkirdi.

Misirxan padşah bacısının zəhmli səsinə gözlərini açdı. Başını azca da olsa yuxarı qaldırıb məsum-məsum ona baxdı, əlini güclə tərpədərək yaxına gəlməsinə işarə verdi. Misirxan padşahın gözləri o qədər solğun idi ki, Səlmə xatun baxa bilmədi. O, hiss etdi ki, son nəfəsinin yaxınlaşması qardaşına agah olub, yəqin vəsiyyətini söyləmək istəyir.

“Can qardaş, kaş öləydim, sənin bu gününü görməzdim!” Hıçqırıqlarını güclə boğdu Səlmə xatun, kələntər arvadlar görməsin deyə göz yaşlarını daxilinə axıtdı, ürəyinin başı sızıldadı.

“Düz deyirmişlər, qardaşın hayına yalnız bacıları çatır. İndi bu ağır günümdə yanımı tərk etməyən ancaq bacımdır” ani olaraq

padşahın fikrindən keçdi.

–Can qardaş! – Səlmə xatun bunu deyib padşaha yaxınlaşdı.

Bu kəlmə onun ağzından çıxar-çıxmaz kələntər arvadlar qiyyə çəkib şivən qopartdılar.

Arvadların şivənini eşitcək Misirxan padşahın gözləri bərəldi, qorxusundan az qaldı ki, elə həmin dəqiqə canını tapşırsın.

–Kəsin səsinizi, qara qarğalar! Şivən qoparmaqdan başqa əlinizdən bir şey gəlməz.

Səlmə xatun kəskin dilləndi, arvadlar xırp səslərini kəsdilər. Yenidən baş hərəmin otağına sükut hakim kəsildi. Milçək yox, lap elə hünü də vızıldasaydı, səsi eşidilərdi.

–Kaş bacın öləydi, sənin bu gününü görməzdi!

Bu dəfə dözə bilmədi, ürəyindəkiləri dilə gətirdi Səlmə xatun. Özünü nə qədər toxtaq tutmağa çalışsa da ürəyi ilə bacarmadı, kövrəldi, qəhərləndi. Qəhər onu elə boğdu ki, bilmədi necə özünü cəmləşdirsin. Birtəhər Misirxan padşahın yastığına yaxınlaşdı, əlini onun alnına qoydu.

–Bunun ki, istisi var, kişi təndir kimi od tutub yanır. – Astadan, öz-özünə pıçıldadı.

–Səlmə xatun! – Misirxan padşahın xırıltılı səsi eşidildi. O, bununla işarə verirdi ki, bu mənəm, hələ ölməmişəm. Əzrayıla can verməmişəm, ancaq yaşaya da bilmirəm, ölümlə çarpışıram. Qalmışam ölümlə həyat arasında, nə qala bilirəm, nə də ölə bilirəm. – Mən, Misirxan padşah da yorğan-döşəyə düşərmişəm.

–Dərdin ürəyimə, qardaş. Heç dərd eləmə. Bu gün-sabah, inşallah, dirçəlib ayağa qalxacaqsan. Yenə öz taxtına əyləşib

hökm verəcəksən. Bir sən deyilsən ki, hamı azarrıyır, xəstələnib yorğan-döşəyə düşür.

–Yox, Səlmə… xatun! – Misirxan padşahın səsi lap qırıq-qırıq gəldi, elə bil quyunun dibindən gəlirdi. – Uşaq deyiləm ki, mənə ürək-dirək verirsən. Dünyanı barmağıma dolamışam, heç kimi vecimə almamışam. Allahla da çiling-ağac oynamışam. – Səsi bir az ötkəmləşdi, sanki danışdıqca açılırdı. – Amma bu gediş mənim son gedişimə oxşayır. Bir daha yataqdan qalxmağa taqətim qalmayıb. Çətin ki. bir də… ayağa duram… – Gözləri yol çəkdi padşahın. Başını azca tərpədib intizarla hər tərəfi süzdü. – Vəzir, vəkil, əyanlar hanı? Niyə məni tək qoyublar?

–İndicə hamısı burada idi, qibləgahım! – Səlmə xatun sevincindən bilmirdi nə etsin. Misirxan padşahın azacıq da olsa dirçəlməsi, əsasən də danışması ona qol-qanad verirdi. – Otağın havası bürkülü idi, mən dedim çıxsınlar. Pəncərəni açdırırdım ki, təmiz hava gəlsin.

“Nə yaxşı pəncərələri açdırdım, nə yaxşı bədəninə sürtülmüş yağları təmizlətdirdim. Qoca təbiətin xoş havasından qardaşımın dərdinə bəlkə əlac tapıla?” Səlmə xatunun sevinci birə beş artdı.

–Bəs, Buludxan hardadır? – Misirxan padşah daha ötkəm soruşdu, oğlunun adını çəkəndə səsi heç titrəmədi. – Niyə gəlib mənə baş çəkmir?

–O da burada idi, indicə getdi. – Səlmə xatun bilə-bilə yalan danışdı, istədi ki, qardaşının könlü xoş olsun, oğlu sarıdan narahatlıq keçirməsin. – Neçə gündür çox yorğundur, divan işləri ilə məşğuldur, qibləgahım. Məmləkəti başsız buraxmayacaq ki?

İndi əkin-biçinin qızğın çağıdır. Rəiyyəti özbaşına buraxsan bir qarış da olsa torpaq şumlamazlar. Bunu ki, sən özün yaxşı bilirsən. Bunlar öküz kimidirlər. Nə qədər ki, şallaq əlindədir, qorxularından kotana güc vuracaqlar. Elə ki, şallağı aşağı saldın, yabı kimi boyunlarını büküb, durub məsum-məsum üzünə baxacaqlar.

–Deyirsən, Buludxan məmləkəti idarə edə bilər?

–Heç narahat olma. Sənin belindən gəlməyibmi, qibləgahım? Buludxan özünsən ki, vardır. Sən də o yaşda elə idin. Necə vardınsa, o da elədir. Sən canından muğayat ol. Ağlın divan işlərində ilişib qalmasın.

Misirxan padşah Səlmə xatuna əli ilə başını aşağı əyməyi işarə etdi. Səlmə xatun başını aşağı əyib qulağını qardaşının ağzına tutdu ki, nə deyəcəksə qulağına pıçıldasın. Onun nə dediklərindən divar boyu qısılıb boyunlarını bükmüş kələntər arvadların xəbəri olmasın.

–Səlmə xatun, siz yavaş-yavaş tədbirinizi görün. Deyəsən mənim vaxtımın tamamına lap az qalıb.

Səlmə xatun qəfil xəbərə dözmədi, başını azacıq yuxarı qaldırıb istədi bir şivən qoparsın. Əlini üzünə apardı ki, sifətini cırıb qan çıxarsın, Misirxan padşahı dediyinə peşman qoysun. Baxdı ki, yeri, məqamı deyil. Gözləri dolsa da ağlamadı. Sakitləşib başını yenidən aşağı əydi. Amma hisslərinə hakim kəsilə bilmədi, yanağı aşağı axan göz yaşları damcılayıb qardaşının sifətinə düşdü, onun da yanağı aşağı axan göz yaşına qarışıb sifətini göynətdi. Misirxan padşah ömründə hələ belə

göynərti hiss etməmişdi. Birtəhər özünü cəmləşdirib sözünə davam etdi.

–Tez Buludxanı çağır, gəlsin! Vəzirlə xəttatı da çağırtdır. Elə çağırtdır ki, heç kimin onlardan, onların da bir-birlərindən xəbərləri olmasın. Qoy, xəttat gəlib əmri-müntəzir hazırlasın, vəzir də möhürünü basıb təsdiqləsin. Buludxan əmrini alıb tez taxta çıxsın, indi tacqoyma keçirəsi halında deyilik, bunu yaxşı zamanlara saxlayarsınız. Elə ki, onlar yerbəyer oldu, sonra axundu çağırarsan. Gəlib otursun gözümün qabağında, avaz ilə Quran oxusun. Bir ömür yaşamışam, heç vaxtım olmayıb Quran oxutdurmağa, indi yaman könlümə düşüb. Arvadları da qov, çıxart otaqdan, onların varlığından nəfəsim çatmır. Baş hərəm qalsa bəsdir.

Padşahın çağırışına hamıdan tez oğlu Buludxan gəldi. Onun gəldiyini görcək Misirxan padşahın gözləri parıldadı, bunu Səlmə xatun da görüb çox sevindi.

–Gəldinmi, oğlum? – Padşah hər ehtimala qarşı oğlunun səsini eşitmək, onun mehrini duymaq istədi. Gözləri ilə işarə verdi ki, Buludxan onun əllərindən tutsun.

–Gəlməyə bilərdimmi, ata? – Buludxan atasının istəyini başa düşə bilmədi, düşsə də büruzə vermədi, elə etdi ki, guya heç nə anlamır. Minlərlə insanın öpdüyü əllərdən, sanki iyrəndi, onları cansız görüb yaxınlaşmaq istəmədi.

–Buludxan, atanın əllərindən tutsana! – Bu haləti görən Səlmə xatun dözməyib dilləndi. – Qoy, isti oğul hərarətini duysun!

–Qibləgahım! – Buludxan atasının soyuq, sönük, halsız

əllərini öz əllərinin arasına aldı. Həyat işarəsindən əsər-əlamət görmədi, özündən asılı olmayaraq qəhərləndi. Az qaldı uşaq kimi hönkür-hönkür ağlasın. – Dörd bir yana çaparlar göndərmişəm, ata. Hər yandan ən yaxşı təbibləri tapıb gətirəcəklər. Sən bir az da möhkəm dayan. Bu axşama özlərini çatdırmasalar da sabah sübh çağı təbiblər hüzurunda olacaq. Onlar sənin dərdinə əlac tapıb yataqdan qaldıracaqlar. Çox keçməz ki, dirçəlib öz taxtına əyləşərsən.

–Yox, Buludxan! – Padşah azca başını tərpədib eyham-eyham danışmağa başladı. – Mənim heç bir azarım yoxdur, sapsağlam bir adamam. Yalnız bir dərdim var, o dərdin də əlacı tapılmaz.

–Nə dərdin var, qibləgahım? – Buludxan hövlnak soruşdu, imkan vermədi ki, padşah sözünün gerisini gətirsin. – O nə dərddir ki, məmləkətin ən yaxşı təbibləri onun əlacını tapmasınlar?

–Mənim dərdim vaxt dərdidir, oğlum. Sizə agah olsun ki, vədə tamamdır, yaşamaq üçün mənə ayrılan vaxt bitib, bundan artıq yaşaya bilmərəm. Tanrının qoyduğu son vədə yetişəndə onun dərgahına yollanmalıyam. Ancaq məni narahat edən, əzab verən odur ki, neçə gündür can verə bilmirəm. Özüm də əzab çəkirəm, sizə də əziyyət verirəm. Əzrail gəlib canımı almır, mənə zülüm verir. Deyir ki, əcirindir, çək. Çünki vaxtında camaata çox zülm eləmisən, ən əzazil padşah olmusan. Səni gor da qəbul etmək istəmir.

“Bu kişinin başına hava gəlir, nədir?” deyə Buludxan düşündü.

–Elə demə, ata. Mən yetim qalmaq istəmirəm. – Buludxan

hıçqıran kimi oldu.

Səlmə xanımın da göz yaşları sel kimi yanağı aşağı axdı.

–Sən yetim qalmazsan, Buludxan. Bu boyda tayfa-toluğu sənə tapşırıram. Məmləkət sənə əmanətdir, oğlum.

–Bunu bacaracammı, ata?

–Bacaracaqsan, Buludxan. Xalq ki, var, cütə qoşulmuş öküz kimidir. Hoş desən duracaq, şallaqlasan kotana güc verib torpağı şumlayacaq. Nəbadə, şallağı əlindən yerə qoyasan. Elə et ki, yatanda da şallaq yanında olsun. Yuxudan duran kimi birinci əl atıb şallağı götürəsən. Süleyman peyğəmbər ömrünün sonuna kimi çəliyini əlindən yerə qoymayıb, hətta canını tapşıranda da çəliyə söykənərək tapşırıb. Bir də heç vaxt camaata yazığın gəlməsin. Azca boş buraxsan, çıxıb oturacaqlar başında, sonra düşürə bilməyib əziyyətini çəkəcəksən. Həm də tam arxayın ola bilərsən, xalqın ehtiyatı tükənməz, nəyə ehtuyacın olsa, nə istəsən, tapıb verəcəklər.

Bu vaxt vəzirlə xəttat ikisi də birlikdə gəlib çıxdı.

–Niyə gecikdiniz, vəzir?

–Sizin fərmanınızı hazırlayırdıq, qibləgahım.

–Hansı fərmanımı? – Misirxan padşahın qəfil sualı qarşısında vəzir duruxdu. Bayaq o, gedəndə padşahın halı qarışmışdı. Vəzir yəqin etmişdi ki, çox keçməz, canını tapşırar. Ancaq bu nə sirri-xuda idi ki, padşah dirçəlmişdi. Səsi həmişəkindən daha ötkəm idi. Gözlərinin hərəkəti nisbətən sürətlənmiş, parıltısı artmışdı. – Mən sənə fərman yazdırmaq tapşırığı verdimmi?

Vəzir bir padşaha baxdı, bir də dönüb Buludxana gözlərini

dikdi. “Heç olmasa, sən dillən, mənə qahmar dur. Qoyma ölüm ayağında mənim boynumu vurdursun. Mən hələ sənə çox qulluqlar göstərəcəm”. Amma Buludxanın cürəti çatmadı, ölüm ayağında olan atasının zəhmi qarşısında söz deyə bilmədi, sanki dişləri kilidlənmişdi. Vəzirin üzünə baxa bilmədi, başını tez yana çevirdi.

–Boynumuz qıldan da nazikdir. – Vəzir diz çökdü padşahın qabağında, onun üzünə baxmağa cəsarəti çatmadı, başını aşağı salladı. – Cəzamız nədirsə, çəkməyə hazırıq.

–Ver görüm, nə fərmandır hazırlamısınız? – Padşah üzünü xəttaba tutdu.

Xəttab dərhal yaxınlaşıb fərman yazılmış kağızı padşahın gözünün qabağına tutdu ki, oxuya bilsin.

Misirxan padşah özü də bunu bilirdi. Nə qədər ki, onun nəfəsi gəlir, vəzir quyruq bulayacaq, oğluna asi kəsilməyəcək. Amma sonrasından gözü su içmirdi. İnsan çiy süd əmib, deyiblər. Nə bilmək olardı, vəzir nə kimi xəyanətlər edəcək, hansı nankorluqları törədəcəkdi. Lakin Buludxanla baxışmaları, sonra da oğlunun başını yana əyməsi ona çox müəmmalı bir sirr kimi görünürdü. “Olmaya Buludxanla əlbir olub mənim axırıma çıxmaq istəyirlər? Tarixdə azmı olub belə sui-qəsdlər?” Müəmmaları çözməmiş vəziri başıaşağı vəziyyətdə qoyub fərmana baxdı. Oğlunun vəliəhdliyi barədə yazılmış fərmanı görəndə gözləri yaşardı, bilmədi bu sevinc yaşlarıdır, yoxsa sonunun çatdığını duyub ağlayır? Fərmana baxa-baxa gözləri sulandı, sulandı və daha heç nə görə bilmədi.

–Əlimdən tut, mürəkkəbə batır və hara lazımdırsa bas! – Xəttaba əmr verdi və özü də başa düşdü ki, bu onun son əmridir.

Xəttab cəld hərəkətlə hazır gətirdiyi mürəkkəbi padşahın barmağına yaxınlaşdırdı. Sonra padşahın cansız barmağından tutaraq mürəkkəbə batırdı, gətirib fərmanın üstünə basdı. Yenidən qaytarıb yanına uzadanda artıq Misirxan padşah özündə deyildi, huşa getmişdi.

–Hazırdır. – Xəttabın qeyri-ixtiyarı səsləndirdiyi bu kəlmədən üçü də diksinən kimi oldular, hətta vəzir başını qaldırıb padşahın üzünə baxdı.

–Nə hazırdır? – Səlmə xatun xəbərsizmuiş kimi soruşdu.

Cavab vermədilər. Gözlər Misirxan padşahın cansız sifətinə dikildi. Deyəsən vaxtı, vədəsi tamam olmuşdu, gözləri bərələ qalmışdı. Boynu azacıq yana əyilmişdi.

–Ata, ata!

Buludxanın səsi otağı başına götürdü. Vəzir gözünün ucu ilə padşahın cansız bədəninə baxıb:

–Qibləgahım, qibləgahım! – deyərək meyidin üstünə düşdü, onu qucaqladı.

–Kənara çəkilin! – Göz yaşları sel kimi axan Səlmə xatun irəli yeridi. – Kişi olun, başınızı dik tutun! Gedin, dəfn mərasiminin tədbirlərini görün. Qardaşımı mən urvatlayaram.

Səlmə xatun əlini Misirxan padşahın gözlərinə çəkdi, onun göz qapaqlarını yumdu.

–Siz çıxın ki, arvadlar gəlsin. – Baxdı ki, vəzirlə qardaşı oğlu quruyub yerlərində qalıblar, qəhərini boğub hıçqıra-hıçqıra

yalnız bunu deyə bildi.

Qabaqda vəzir, arxasınca Buludxan, onların ardınca da xəttab baş hərəmin otağını tərk etdilər. Misirxan padşahın taxtlıq səltənətinə belə son qoyuldu.

Ertəsi gün çox da təmtəraqlı olmayan vida mərasimi keçirib Misirxan padşahı son mənzilə yola saldılar. Heç bir mərasim-filan təşkil etmədən Buludxan atasının yerinə keçib taxtda oturdu. Sarayda heç kimin cürəti çatmadı desin ki, heç olmasa qırx mərasimini gözləsinlər. "Gərəkdir ki, kişinin qırxını yola verib, sonra yüngülvari bir tədbir keçirərdik" Buludxanın fikrindən keçsə də gözləməyə hövsələsi çatmadı. Həm də padşahın taxtını boş qoymaq olmazdı, qırx gündə qırx hadisə baş verə bilərdi. Saraydan, əyanlardan, xüsusən də Başbilən vəzirdən arxayın olmayan Buludxan padşah ilk fərmanı ilə onu vəzifəsindən azad edərək Zimistan bölgəsinə sürgünə göndərtdirdi.

–Sevin ki, boynunu vurdurmuram. – dedi. – Get, Allahın verdiyi ömrü dinməzcə yaşa. Xəbər tutsam ki, qara fikirlərə düşmüsən, özünü ölmüş bil.

Sonra camaata sitəm çəkməyə başladı, sanki atasına zülm edən, onun ölümünə bais elə qara camaatdı. Çox keçmədi rəiyyətə elə bir zülm tutdu ki, ərşə qalxan ah-nalədən Tanrı dərgahın yerini dəyişməli oldu.

Günlər keçdi, illər ayları əvəzlədi, amma Buludxan padşahın zülmü keçib getmək bilmədi. Dəliqanlılar səs qaldırmaq istədilərsə də, böyüklər, başbilənlər "səbr edin, düzələr" deyib

qarşısını aldılar. “Hələ cavandır, ağlı dayazdır, atası da bu yaşında tez-tez səfehliklər edərdi. Elə ki, böyüdü, yaşa doldu, müdrikləşdi bir az. Başladı camaatı başa düşməyə, heç olmasa sərbəst nəfəs almağa şərait yaratdı”.

Buludxan padşahın islahatları atasının həngəmalarına bənzəmirdi. Başqa məmləkətlərə üz tutan əhalinin ucbatından kəndlər, kəsəklər getdikcə boşalırdı. Padşah yerdə qalanları, başqa diyarlara üz tutub gedə bilməyənləri mərkəzə toplayır, qaniçən cəlladlarının qabağına qatdırıb günəmuzd işləməyə məcbur etdirirdi. Buludxan elə ki, bir az da yerini bərkitdi, varlandı, sahələrində, emalatxanalarında işlətdiklərinin günəmuzdunu da kəsdi. Bundan sonra onlar bir qarın çörəyə işləməyə məcbur edilirdilər. Əhali acından və ağır zəhmətdən gücdən düşməyə başlamışdı, əvvəl gördükləri işləri yerinə yetirməyə daha qüvvələri çatmırdı. Cəlladlar da kimi harda dayanmış vəziyyətdə tuturdularsa dərhal salırdılar şallağın altına. Çoxu bir neçə şallağa dözə bilmirdi, elə yerindəcə torpağı qucaqlayıb canını tapşırırdı. Əhalinin sıraları seyrəldikcə işçi qüvvəsi azalır, padşahın təsərrüfatlarında işlər ləngiyirdi. Bundan narahat olmağa başlayan Buludxan padşahın hirs vurdu başına.

–Toplayın, – dedi, – camaatı meydana. Sözüm var onlara.

Hamını şallağın qabağına qatıb meydana topladılar. “Cınqırınız çıxsa özünüzü ölmüş bilin” dedilər.

Padşah üçün meydanın başında taxt qurdular – qalxıb oturdu taxtda. Vəzir, vəkil, sarayın baş əyanlarını topladı yanına.

Camaat quru torpağın üstünə döşəndi, kim harda gəldi bardaş qurub yerə çökdü. O qədər yorğun və üzgün idilər ki, çoxusu bardaş da qura bilmədi, dayanan kimi taqətsizlikdən tirtap yerə düşdü. Acından tərpənməyə heyi olmayan adamların nə danışmağa halı vardı, nə də hərəkət etməyə.

Buludxan padşah çox coşdu, özündən çıxıb camaatı asıb kəsdi. İşdən, gücdən danışdı, batan təsərrüfatından gileyləndi. Onun işini ləngidənlərin dirilərini buraxıb əcdadlarından başlayaraq hamısını qəbirdən çıxarıb yağladı, sonra da qaytarıb gorlarına tulladı.

–İşləyirsiniz, adam kimi başınızı aşağı salıb işləyin, işləmirsinizsə, rədd olub çıxın gedin məmləkətimdən. Sizin yerinizə Afrikadan zənci gətirib işlədərəm. – dedi.

Camaatdan səs çıxmadı, elə bil izdihamlı meydan deyildi, daş atılmış bir qurbağa gölü idi.

–Ümumiyyətlə, sizin yaşamağa haqqınız yoxdur. Gedib başqa məmləkətlərdə bizim adımızı-sanımızı biabır edəcəksiniz. Odur ki, sizi gərək özüm bir-bir məhv edəm.

–Qibləgahım! – El-oba içində müdrik filosof kimi ad çıxarmış vəzir Daşdəmir ağa əyilib padşahın qulağına astadan pıçıldadı. – Əlinizi qana bulamayın. Bu biçarələri buraxın çıxıb getsinlər kənd-kəsəklərinə. Onsuz da işləməyə taqətləri yoxdur, onlardan sizə nə fayda gələcək. Kənddə-kəsəkdə ya otdan, əncərdən yeyərək dirçəlib dədə-baba yurdlarını bərpa edəcəklər, ya da qurda-quşa yem olacaqlar. Onların dizində təpər hardadır, çıxıb başqa məmləkətlərə getsinlər.

–Vəzir, mən nə dediyimi yaxşı bilirəm. Bir o qədər düşüncəsiz deyiləm ki, qan töküb günaha batam. Atam Misirxan padşah Əmir Teymurun yeddinci dönəm qız nəvəsidir. Onun cəddinə and olsun mənim qan töküb Tanrı qarşısında günaha batmaq fikrim yoxdur.

–Bəs siz nə etmək fikrindəsiniz? – Daşdəmir ağa astadan soruşdu.

–Ulu əcdadımız Teymur yaşamağa haqqı olmayanlara dərin quyu qazdırardı. Sonra da elliklə, tayfa-tayfa adamları həmin quyulara doldurtdurub üstünü torpaqladardı.

–Səndəmi bu fikirdəsən, qibləgahım?

–Yox. Mən onların hamısını dar ağacından asdıracağam. Qoy, Afrikadan gətirəcəyimiz zənci muzdurlar onların cəsədlərini görüb özləri üçün nəticə çıxartsınlar. Görsünlər ki, Buludxan padşahın əkinini əkməyən, biçinini biçməyən, təsərrüfatında canı dildən işləməyən hökmən dar ağacından asılmalıdır.

Bunu deyən Buludxan padşah gözünü elə bərəltdi ki, vəzir dərhal mayasını uddu, daha onun söz deyib, söz soruşmağa həddi çatmadı.

–Camaat! – Buludxan padşah səsini ucaldıb üzünü əhaliyə tutdu. – And olsun əcdadımız Əmir Teymurun cəddinə, sizin yer üzündə yaşamağa haqqınız yoxdur. Hamınız bir nəfər kimi ölümə məhkumsunuz. On gün ərzində meşədəki ağacların hamısı qırılmalı, bax, bu oturduğunuz meydanda dar ağacları qurulmalıdır. On birinci gün hamınız dar ağacından asılacaqsınız.

Onsuz da səs çıxmayan meydanda sükut davam edirdi. Elə bil qurbağa gölünə yenidən daş atıldı, torpaqdan səs çıxdı, əhalidə tərpəniş olmadı.

–Gördünmü, vəzir? – Bu dəfə padşah Daşdəmir ağaya tərəf əyildi. – Camaatdan bir nəfər də olsun ayağa durub soruşmur ki, ay padşah, bizim günahımız nədir? Bizi niyə qırırsınız, yaşamağa qoymursunuz? Nəyimiz vardısa hamısını əlimizdən almısınız. Yatmağımıza mitil olanda sevinirik. Yeməyə çörək qırıntısı tapanda bilmirik Allaha dua edək, yoxsa padşaha. Nə istəyirsən bizdən? Nə vermisən bizə ala bilmirsən? Hə, vəzir, onsuz da ölürlər də, ölüm qabağı sözlərini deməyə nə söz?

Vəzir hazırlaşırdı ki, nə isə desin, gördü arxa cərgədən kimsə əlini lap yuxarı qaldırıb, söz istəyir.

–Qibləgahım! – Vəzir sevincək dilləndi. – Görürsünüzmü, arxa cərgələrdən əlini yuxarı qaldıran var. Çağırın, yaxına gəlsin, dinləyək, görək nə deyir. Mən dedim axı. Kimsə ayağa durub bunu bizdən soruşacaq.

Padşah əli ilə işarə verdi ki, əlini qaldırıb söz demək istəyən cavan oğlan onlara yaxınlaşsın. Uzundraz bir cavan oğlan arxa cərgələrdən birində ayağa qalxıb, oturanların üstündən aşa-aşa, az qala tapdaya-tapdaya özünü padşahın taxtının qabağına yetirdi. Dayanıb məsum-məsum gözlərini döyməyə başladı.

–Buyur, oğlum! – Vəzir ona ürək-dirək verdi. – Qibləgahım səni dinləyir. Ərz elə görüm, sözün, xahişin nədir? Padşahdan nə rica etmək istəyirsən. Çəkinmə, sözünü söylə.

–Mənim heç bir ricam yoxdur. Gəldim ki, soruşum görüm,

özümüzlə kəndir tapıb gətirək, yoxsa ipi cəlladlar hazırlayacaq?

–Rədd ol, get yerinə! – Buludxan padşah acıqlı-acıqlı qışqırıb uzundrazı yerinə göndərdikdən sonra üzünü vəzirə tutdu. – Gördünmü, vəzir? Sənin kimi filosofu yetişdirən millətin aqibəti başqa cür ola da bilməz. Qırx ildir moizə oxuyursan, yenə də arpanı darıdan ayıra bilmirlər. Odur ki, bunlara heç bir güzəşt olmayacaq. Fərmanımın icrasına şəxsən özün nəzarət edirsən. Dar ağaclarının qurulmasını bircə gün gecikdirsən dar ağacından ilk asılan özün olacaqsan.

Padşahın müəyyən elədiyi vaxt tamam olanda dar ağacları qurulmuşdu. Axşam vəzir getdi padşahın hüzuruna ki, xəbər versin. İçəri girəndə padşahı çox gərgin və qəmli gördü.

–Qibləgahım, – dedi və təzim etdi. – dar ağacları hazırdır.

–Neçə dar ağacı qurdurmusan? – Buludxan padşah başını qaldırmadan soruşdu.

–Dar ağacları məmləkətdəki adamların sayına görədir, qibləgahım. Nə bir dənə artıq, nə də bir dənə əskikdir.

–Zəncilərin arxasınca gedənlərdən bir xəbər varmı?

–Sizin müəyyənləşdirdiyiniz vaxt, vədə sabah, nahardan sonra tamam olur. Harda olsalar, özlərini yetirəcəklər.

–Çox yaxşı. Onda de, görüm, nə vaxt başlayaq adamları məşhər ayağına çəkməyə?

–Qibləgahım, siz bilən məsləhətdir. Tanrının bizim məmləkətdəki ən yüksək nümayəndəsi, onun ən yaxşı bəndəsi sizsiniz. Madam ki, belə bir qərara gəlmisiniz, nə vaxt desəniz, icrasına başlaya bilərik.

–Məncə elə indi, gecə ikən başlasaq yaxşıdır. Tanrının yaratdıqları ən sirli, sehirli və möcüzəli işlərini gecələr həyata keçirirlər. Səhərə qalsa bir hoqqası çıxa bilər.

–Elə mən də bu fikirdəyəm.

–Vəzir, diqqətli ol. Bu işi çox ehtiyatla həyata keçirmək lazımdır. On nəfər cəllad götürürsən özünlə, hansı ki, bu işin öhdəsindən hamıdan yaxşı gələ bilərlər. Şəhərin bir tərəfindən başlayırsan, adamları oba-oba çəkirsən meydana. Ancaq elə edirsən ki, səs-küy düşməsin. Bax, ha…

–Narahat olmayın, qibləgahım. Elə mənim də acığım var onların üstündə. Qırx ildir moizə oxuyuram…

–Get, get! – Padşah onun sözünü kəsdi, gerisini deməyə imkan vermədi və vəzir otaqdan çıxar-çıxmaz arxasınca deyinməyə başladı. – Sən heç də məndən geridə qalan deyilsən. Bu hələ harasıdır? Gör, sizin başınıza nə oyunlar açıram?

Tezdən yuxudan oyanan kimi padşaha xəbər verdilər ki, məmləkətdə dar ağacından asılmamış yüz-yüz əlli nəfər qalar, ya yox. Vəzir cəlladları ilə bütün gecəni işləyiblər. Yorulub tamam taqətdən düşüblər, güclə ayaq üstə dururlar.

–Hələlik, deyin, işlərini davam etdirsinlər! Bir azdan onları dəyişmək üçün başqa qrup göndərərik. – Buludxan padşah xəbərçini vəzirin yanına yollayıb vəkili çağırdı.

"Yaxşı, deyək ki, yüz, yüz əlli nəfəri də asdılar. Bəs sonra necə olsun? Bir az baş işlətmək lazımdır, Buludxan, yaman yerdə axşamlamısan. Cəlladları, saray əyanlarını necə asdıracaqsan? Onları dilsiz-ağızsız camaat kimi asdırmaq mümkün olmayacaq.

Fikirləş, fikirləş…”

–Qibləgahım, çağırmısınız? – Buludxan padşahı fikirlərdən qapıda görünən kimi ucadan səslənən vəkil ayırdı. O, təzim edib içəri keçdi. Hiss olunurdu ki, baş verənlərdən dəhşətə gəlib, gözləri az qalırdı hədəqəsindən çıxsın.

–Vəkil, saray əyanlarını üç qrupa böl. Üç nəfər, ən etibarlı adam səninlə qalsın. Beş nəfər eşikağası ilə, on nəfər də mənim sərəncamıma ayır. Ancaq elə et ki, bir-birindən zəhləsi gedənlər bir qrupda olsun, dilləşib birləşə bilməsinlər. Saray əyanlarını səndən yaxşı tanıyan yoxdur.

–Qibləgahım, olmaya bizi də bir-birimizə asdırmaq fikrindəsiniz? – Vəkil ağıllı adamdı, Buludxan padşahın hiyləsini, bəlanın qaçılmazlığını hiss etmişdi, yəni saray əyanlarından da yan keçməyəcəyinə əmin idi.

–Sənin təklifin nədir, vəkil? Buyur, söylə! – Padşah elə hiddətlə soruşdu ki, zəhmindən az qaldı vəkilin bağrı yarılsın.

–Qibləgahım, biz varıq deyə, siz başımızın üstündə padşahsınız. Biz olmasaq, siz kimin padşahı olarsınız? Heç olmasa bizə rəhminiz gəlsin, saray əyanlarına dəyməyin. Ölüncə sizin qulluğunuzda durarıq.

–Yaxşı, o məsələyə baxacağıq. Hələ ki, get, mən dediklərimi elə.

Günortaya yaxın həmin xəbərçi xəbər gətirdi ki, bəs vəzir işini yekunlaşdırıb, məmləkət əhlindən asılmamış bir nəfər də olsun adam qalmayıb. Buludxan padşah ikinci planını işə salmağa başladı. Dərhal vəziri on nəfər cəlladı ilə saraya

çağırtdırdı. Əvvəlcə onlara dinclik verdi ki, yatıb dincəlsinlər. Vəzirə toxunmamaq şərtilə vəkilin hazırladığı on nəfərə cəlladları bir-bir aparıb dar ağacından asmaq əmri verdi. Elə ki, cəlladlar asıldı, onları asan on nəfəri bir-birindən ayıraraq saraya çağırtdı və eşikağasının başçılığında olan qrupun əli ilə onları asdırdı. Bundan sonra vəkil tabeçiliyində olan üç nəfərlə eşikağası qarışıq beş nəfərlik dəstənin boğazına kəndir keçirdi. Yalnız bundan sonra Buludxan padşah atını minərək vəzirlə bərabər meydana baxmağa gəldi. Meydan adamlar asılmış dar ağacları ilə dolu idi. Baş tərəfdən on bir gün əvvəlki yığıncaqda taxt qurulmuş yerdə yeddi dar ağacı qalırdı. Padşah onları boş görən kimi üzünü vəzirə tutdu.

–Vəzir, bunlar niyə boşdur? – deyə soruşdu.

–Qibleyi aləm sağ olsun, siz necə demişdinizsə…

–Yəni, özünü, vəkili, məni də nəzərdə tutmusan?

–Elədir, qibləgahım.

–Sən nə cürətlə mənə, məmləkətin padşahına dar ağacı qurdurmusan?

Buludxan padşah atını vəzirə tərəf sürdü. Şallağı yuxarı qaldırıb qıcandı, amma vurmadı. Vəzir başını aşağı salıb durmuşdu. Puçur-puçur tər tökürdü, qulaqlarına qədər qızarmışdı. Padşah şallağı aşağı salıb bir az zəif tonla soruşdu:

–Bəs onda dar ağaclarından biri niyə artıqdır? Onu kimin üçün nəzərdə tutmusan? Bəlkə düşünürsən ki, atamın çürümüş cəsədini qəbirdən çıxardıb onu da dar ağacından asasan?

–… – Vəzirdən səs çıxmadı.

–Vəziri çəkin dar ağacına! – Padşah gözləmədən vəkilə əmr verdi. O, bilirdi ki, belə etməsə sona qalan vəzir mütləq bir hoqqa çıxardacaq, çünki Başbilən vəzir sarayda hamıdan güclü, hamıdan da yaltaq-yalaq idi, nə desən bacarardı.

Elə ki, vəziri dar ağacından asdılar, padşah növbəti tapşırığını verdi. Bu dəfə o, işarə verdi ki, növbə ilə kəlmeyi-şəhadətlərini oxuyub, hər kəs öz dar ağacının altına keçsin.

Bir neçə dəqiqədən sonra padşah vəkilin kəlmeyi-şəhadətini oxuduğunu gördü. Bu vaxt bir atlı çaparaq onlara yaxınlaşmaqdaydı.

–Vəkil, bir əl saxla. Gör, bir çaparaq gələn atlı kimdir?

Vəkil sanki padşahın dediklərini eşitmirdi, öz aləmindəydi. O, ibadətini tamamlayıb kəlmeyi-şəhadətinin son kəlmələrini ibarəli şəkildə ifadə etdikdən sonra ayağa qalxıb padşaha tərəf baxmaq istəyirdi ki, atlı gəlib çatdı. Tanıdılar, Afrikaya, zənci gətirməyə gedənlərdən birisiydi.

–Qibləgahım! – Həmin atlı gəlib çatan kimi yerə tullanıb təzim etdi. – Zəncilər hamımızı qırıb çatdılar. Mən özümü güclə onların əlindən qurtardım.

–Zənciyə bir bax! Acından ölürlər, ancaq gəlib çörək qazanmaq istəmirlər. – Padşah deyinə-deyinə soruşdu. – Nə dedilər? Niyə gəlmək istəmədilər?

–Dedilər ki, Tanrı bizi Afrikada yaradıb. Lazım olsaydı, Omanda, Həbəşistanda, Azərbaycanda yaradardı. Madam ki, burada yaradıb, burada da yaşamalıyıq.

–Tanrılı, Allahlı olublar, buddist köpəkuşağı. Allaha

inananlara bir bax! – Padşah zəncilərin qarasınca deyindi. – Siz onlara dedinizmi ki, Afrikada yeməyə quru çörək də tapa bilmirsiniz. İldə bircə dəfə yağış yağır. Quraqlıqdan taxıl da bitmir. Nə qədər heyvan kimi ağac qabığı, yarpaq yemək olar?

–Elə biz də bunları dedik. Cavabları o oldu ki, Tanrı belə məsləhət buyurub, bizə belə xoşdur.

–Vəkil, yubatmaq olmaz, bunu da çək öz dar ağacına. Mən sizi zənci gətirməyə göndərmişdim, çaparaq zəncinin sözlərini gəlib mənə deməyə yox. Heç olmasa bircə zəncini atın tərkinə basıb gətirsəydin, bəlkə də, nə isə fikirləşmək olardı.

–Qibləgahım, nədir günahım? Mən tək bu işin öhdəsindən gələ bilməzdim.

–Mən sizi tək yox on nəfər göndərmişdim. Özünüz ağırlığında pul, qızıl-gümüş vermişdim…

–Qibləgahım… – Çaparın sözləri ağzında qaldı.

Vəkil onun nə deyəcəyinə əhəmiyyət vermədən dar ağacına çəkib kəndiri boğazına keçirtdi. Kəndirdən asılı çapar yellənməkdə ikən üzünü padşaha tutdu:

–Son buyruğunuz, qibləgahım?

“Bayaqdan fikirləşirdik ki, vəzir məmləkətin əhalisini düz saya bilməyib, bir dar ağacını artıq hazırlatdırıb. Hamı asılandan sonra biz altı nəfər qalmışdıq, dar ağacı isə yeddiydi. Hamımız asılandan sonra bir dar ağacı boş qalacaqdı. Ağlıma sığışdıra bilmirdim ki, sonuncu dar ağacı kimə qismət olacaq. Ancaq dar ağacı artıq deyilmiş. Sən demə, sonuncu dar ağacı zəncilərin əlindən canını salamat qurtarıb bizə pənah gətirmiş həmin o

atlının qismətinə yazılıbmış”.

–Son buyruğunuz, qibləgahım? – Vəkilin sözü padşahı fikirdən ayırdı.

–Son vəzifəni icra et. – Sakit, olduqca hüznlü, məlhəm və həzin bir səslə dilləndi padşah.

–Qibləgahım, bəs indi siz tək-tənha bu məmləkətdə nə edəcəksiniz? Kim sizin qulluğunuzda duracaq?

–Vəkil, sənə deyirəm son vəzifəni icra et. Bundan sonra mənim qulluğumda durmağa ehtiyac yoxdur. Sənin arxanca mən də özümü asacağam.

–Qibləgahım, siz şah oğlu şahsınız. Görürəm, özünüzü asmaqda çətinlik çəkəcəksiniz, bəlkə də heç asa bilməyəcəksiniz. Yaxşısı budur, əvvəlcə mən sizi asım, sonra kəndiri öz boğazıma keçirərəm.

–Vəkil, sən mənə görə heç narahat olma, kəndiri boğazına keçirt.

–Onda, gəlin, ikimiz də birdən kəndirləri boğazımıza keçirdək.

–Vəkil, deyəsən, cox çərənləyəcəksən. Baş-beynimi aparma, sənə dedim ki, son vəzifəni icra et.

Vəkil daha bir söz deməyin əhəmiyyətsiz olduğunu görüb kəndiri boğazına keçirtdi və daşın üstündən tullandı. Bir neçə saniyə göydə yellənərək ayaqları titrədi, boğazı xırıldadı və ağacdan sallanaraq quruyub qaldı. Bərəlmiş gözlərini sanki padşahın gözlərinə zilləyərək onu qorxutdu. Bütün bunları at üstündən müşahidə edən Buludxan padşah ani olaraq

vahimələndi. Elə bil vəkil onu da arxasınca çağırırdı. O, indi hiss etdi ki, dünyanın sonu çatıb.

Qanrılıb geriyə baxdı, hər tərəf dar ağacı ilə doluydu. Dar ağaclarından sallanan meyidlər küləyin zəif təsiri ilə tərpənir, onun üstünə gəlirdilər. Atını ayaqları ilə dəhmərləyib sonuncu dar ağacının altına sürmək istədi. At yerindən tərpənmədi. Ayaqlarını bir az da möhkəm vurdu. At könülsüz-könülsüz bir-iki addım atıb dar ağacının altına yaxınlaşdı. Buludxan padşah əl atıb kəndirdən tutdu, boynuna keçirtmək istəyirdi ki, at ürkdü və kəndir onun əlindən çıxdı. Bir az aralıda bayaq çaparaq gələn atlının atı otlayırdı, sanki dünyadan xəbərsizdi, heç nə vecinə deyildi. Padşahın atı ürküb ona tərəf götürüləndə həmin at təhlükə hiss etmiş kimi qulaqlarını şəklədi, amma ağzını otdan ayırmadı. Atın qulaqlarını şəklədiyini görən padşah hiss etdi ki, təhlükə gözlənilir. Ancaq, bundan betər daha nə təhlükə gözlənilə bilərdi ki? Bütün məmləkət bir günün içində dar ağacından asılıb. Yox, padşah təslim olmaq istəmirdi. Atını dəhmərləyib obalara tərəf çapdı, bəlkə kimsə qoyun, mal pəyələrinə girib, gizlənib.

Atı çapdıqca ona elə gəlirdi ki, kimsə Şütürü küləyi kimi arxasınca çapmaqdadı. Lap yaxındadı, kürəyinin arxasındadı, indicə ondan yapışıb kəndiri boğazına keçirəcək. Bir anın içində altındakı at çapıb gedəcək, o, isə kəndirdən asılı qalacaq.

Amma bu olmurdu. Kürəyinin arxasınca çapan kimsə padşaha çata bilmirdi. Deməli, hələ həyat vardı, yaşamaq olardı, vəziyyətdən çıxış yolu axtarmaq gərəkdi. Obalara çatanda atın

cilovunu çəkdi, at yavaşıyıb dayandı. Padşah qorxunu dəf etmək üçün yox, maraq xatirinə yavaş-yavaş qanrılıb geriyə baxdı. Bayaq onlardan bir az aralıda otlayan at da arxalarınca qaçıb gəlmişdi. "Allahın dilsiz-ağızsız heyvanı da təklikdən başını götürüb arxamızca gəlib. Şüursuz beyni ilə düşünüb ki, biz buralardan çıxıb gedirik. Ay yazıq heyvan, haramız var, hara gedək?" Padşah deyinə-deyinə bir az özünə gəldi. Elə bildi ki, ondan başqa kimsə var, ona həyan olur.

–Ehe…heeeyyy… – Var gücü ilə qışqırdı. – Kimsə vaar?

Obalardan səs çıxmadı. Padşahın səsi yuxarıdakı qayalarda əks-səda verib geri qayıtdı, sanki yel olub onun üstünə yeridi. Bayaq birisi onun kürəyinin arxasınca hücum çəkirdisə indi yeddi yerdən üstünə cummağa hazırlaşırdılar.

"Vəkil düz deyirmiş, gərək beş-on nəfər saxlayardım, qulluğumda durardılar. Onlar vardı deyə mən padşah idim. Indi onlar yoxdu, heç kim yoxdu, bəs mən kiməm? Bəlkə çıxıb başqa məmləkətə gedim? Yox, bir nəfər tapıb həmin o boş dar ağacından asmalıyam. Dar ağacının boş qalması yaxşı əlamət deyil".

Atını səyirdib başqa obalara getdi. Artıq axşam düşməkdəydi, yəni şəvinik qarışmaq üzrəydi. "Heç olmasa qocadan, şikəstdən bircə nəfər tapıb sonuncu dar ağacından assaydım, məmləkəti tərk edərdim, buralardan rahatca çıxıb gedərdim".

Buludxan padşah çox axtardı, ancaq bir kimsə tapa bilmədi. Vəzirin başçılıq etdiyi dəstə camaatı bir ucdan gecə ilə çarmıxa çəkmişdi. Qalanlarını da səhər açılandan sonra dar ağaclarından

asmışdılar. İndi bu həndəvərdə bir padşah özü qalmışdı, bir atı, bir də zənci gətirməyə gedən adamın atı. Ətrafda bircə it də qalmamışdı. Deyirlər, ruhu, cini, əzraili ilk görən it olur. İtlər hələ gecə yarısı uluya-uluya obanı tərk edib getmişdilər. Haraya üz tutmuşdular, hara çıxıb getmişdilər, Buludxan padşahın bundan xəbəri yox idi.

“Aha, tapdım. Mən niyə özümü asıram? Elə zənci gətirməyə gedib boş qayıdanın atını asaram. Bir dar ağacı boş qalmayıbmı? Atı asaram, sonra da öz atımı minib bu məmləkətdən çıxıb gedərəm. Yəni bu iki əlimlə bir başı dolandıra bilməyəcəyəm?”

Buludxan padşah atdan düşdü. Atın cilovunu çəkib obalardan birinin dirəyinə bağladı. Sonra aralıda durub şübhəli-şübhəli onlara baxan zənci gətirməyə gedən adamın atına tərəf yaxınlaşdı.

–Tuxu, tuxu, tuxu. Mənim ağıllı atım. – Buludxan əlini yarıyumulu vəziyyətdə tutmuşdu, elə tutmuşdu ki, sanki ovcunda kişmiş, noğul, ya da heç olmasa şəkər var, atı yemləyib ağzını şirin etmək istəyir. – Tuxu, tuxu, tuxu…

Buludxan qarış-qarış ata tərəf addımlayır və düz atın gözünə baxırdı. Çalışırdı ki, asta hərəkət etməklə atı hürkütməsin. At qulaqlarını şəkləyib başı aşağı vəziyyətdə Buludxana baxırdı, arxa ayaqlarından birini də bir az geriyə qoymuşdu, belə görünüşü ilə yabını xatırladırdı.

–Gəl, kəhərim, gəl. Burda sənin məndən başqa kimin var ki? Tuxu, tuxu, tuxu…

Buludxan atın lap yaxınlığında idi, iki-üç addımdan sonra,

bəlkə də əlini uzadıb atın yalmanını sığallaya biləcəkdi. At diqqətlə ona yaxınlaşmaqda olan Buludxanın gözlərinə baxdı, baxdı və fınxıraraq başını yuxarı qaldırdı. Başını bulayaraq yalmanına yığılmış toz-torpağı silkələyib çırpdı. Gözlənilmədən cəld hərəkəti ilə böyrüüstə tullanaraq qoşa şıllağa qalxdı. Həmin şıllaqla at nəinki Buludxanı, kimi desən vurub yerə sərə bilərdi. (Atlar, adətən canavardan belə qorunurlar). At Buludxanı vura bilsə də vurmadı, kişnədi və qaçıb getdi. Elə bir kişnərti qopartdı ki, Buludxan vahimələndi. Buludxanın dirəyə bağlanmış atı da həmin atın dalınca vurnuxmağa, dartınmağa başladı. O da qabaq ayaqlarını yerə döyəcləyərək kişnədi.

Hava qaralmaqda, şər qarışmaqda idi. Buludxan indicə atının cilovu dirəkdən qopararaq o biri atın dalınca qaçıb gedəcəyindən qorxaraq cəld ata yaxınlaşdı.

–Mənim qəşəng kəhərim, ağıllı atım. – deyərək yalmanını sığallamağa başladı, at sahibinin isti münasibətini duyub sakitləşdi.

Buludxan cilovu dirəkdən açaraq atın belinə qalxdı. Ayaqları ilə dəhmərləyib dar ağacları olan tərəfə istiqamətləndirdi. O biri at heç yerdə görünmürdü, heç səsi də gəlmirdi.

Dar ağacına yaxınlaşanda at duruxdu, sahibinin hiyləsini anlamışmış kimi yerə mıxlandı. Buludxan nə qədər dəhmərlədisə də tərpənmədi, qulaqlarını şəkləyib kişnədi. Təhlükənin yaxınlaşdığını duyub ayaqlarını yerə döyməyə başladı. Buludxan bir qamçı çəkdi ata, at şahə qalxdı, endi və arxası üstə qoşa təpiyə qalxdı.

Buludxan ayılanda yerdə olduğunu hiss etdi, hər yeri sızıldayırdı, sifəti cızılmışdı, dirsəyi, dizləri çapıqlamışdı. Özünü toplayıb ayağa qalxdı, bütün saray əyanları qabağında idi, gecənin bu vaxtına baxmayaraq hamısı bayram libasını geyinmişdi.

–Qibləgahım, niyə gec qaldınız?

–Əlahəzrat, sizi gözləməkdən gözümüzün kökü saralır.

–Nə tapmısınız orda? Əsil yaşamalı yer burdaymış…

–Kef içində kef, ləzzət…

–Bircə siz yoxsunuz…

Buludxan darıxdı onlar üçün, padşahlıq hissi oyandı, hökmranlığı baş qaldırdı.

–Bəs mən sizin yanınıza necə gəlim? – Soruşdu.

–Çox asan. – Başbilən vəzir işarə elədi. – Ayağınızı körpünün üstünə qoyun.

Vəzirin körpü dediyi kötük idi, padşahın gözünə gah kötük, gah da uzun körpü kimi göründü.

–Bu kötüyümü deyirsən? – Buludxan soruşdu.

–Nə kötük, qibləgahım? – Vəzir gülümsündü. – Bu həmin körpüdür ki, sizi bizim yanımıza keçirdib gətirəcək.

–Onda gəl, bura, əlimdən tut, məni də ora apar.

–Burda nə çətin iş var ki? Özünüz keçib gələcəksiniz.

Buludxan gözlərini yumub açdı, bu, həmin dar ağacının altındakı kötük idi – aradabir uzun, nazik körpü kimi göründü.

–Bu körpü çox ensizdir, yıxılaram. – dedi Buludxan, tezcə də ağlı başına gəldi, soruşdu. – Birdən bu körpü qıl körpüsü olar ha.

Məni cəhənnəmə apararsınız.

–hmm… hıı… hııı… – hırhahır gülüşdülər. – Qibleyi-aləm sağ olsun, nə cəhənnəm? Bütün huri mələklər burdadır, adamı heç darıxmağa qoymurlar. Sizin ki, ən sevimli əyləncənizdir. Gününüz onlarsız keçmirdi. İndi yolunuzu gözləyirlər. Cəsarətli olun.

Buludxan körpünün üstünə qalxdı, səntirlədi.

–Qoymayın, yıxılıram. – deyə çağırdı.

–Yıxılmazsan, qorxma, tut o kəndirdən. – Kimsə dar ağacından asılmış kəndiri göstərdi.

–Tutdum.

–İndi kəndirin içindən keç, gəl yanımıza.

–Axı kəndirin həlqəsi çox nazikdir. Mən ordan keçə bilmərəm.

–Biz hamımız ordan keçib gəlmişik. Siz də keçə bilərsiniz. Əsas odur ki, başınız keçsin. Birinci başınızı salın, başınızı… Başınız keçsə, bütün bədəniniz keçəcək. Elə həmin an bu tərəfdə, bizim yanımızda, huri-mələklərin əhatəsində olacaqsınız. Bir baxın, əndamları yanmış…

Buludxan gözlərini oynaşan huri-mələklərdən çəkmədən ehmal-ehmal başını kəndirin həlqəsindən keçirtməyə çalışdı.

–Biz hələ də başa düşə bilmirik ki, orda necə ilişib qalmısınız. Siz axı… bir dəqiqə də olsun, huri-mələklərsiz…

Buludxan daha heç nə eşitmədi. Ayağı necə sürüşdüsə, kəndir harayına çatdı, qoymadı yerə yıxılsın. Ayaqlarını bir neçə dəfə yığıb uzatsa da yerə çatmadı, eləcə göydən asılı qaldı. İndi gözləri

qamaşdıran bərli-bəzəkli paltarları ilə onu əyləndirəcək nə saray əyanları vardı, nə huri-mələklər. Gecənin qaranlığı hər şeyi ağuşuna alıb boğmaqdaydı.

…Çox-çox uzaqda isə at kişnəyirdi…

… Dədə Qorquddan üzübəri dağlar belə kişnərti eşitməmişdilər…

…sahibsiz qalmış bir məmləkətin dağları-daşları lərzəyə gətirən kişnərtisiydi bu.

# Doqquzuncu vaqon

Qardaşlar içində ən kiçiyi olan Aslan əmim taksi sürücüsüdür. Səhər obaşdan evdən çıxır, bir də axşam şər qarışandan sonra evə qayıdır. Gün ərzində evdə olmadığından yalnız bayram günləri onu görə bilirdik.

Bir dəfə çox vacib işim çıxdı, mütləq əmimlə görüşüb məsləhətləşməliydim. Onun şəhərdə tanımadığı bir küçə, bir yaşayış massivi, hətta bir tin, dalan da tapmaq olmazdı. Bazarları, anbarları, topdansatış mərkəzlərini, onların iş prinsiplərini də pis bilmirdi. Hardan nə soruşsaydın, məlumatı vardı. Hamı da ona: "Maşallah, sənə halaldı", deyərdi.

Mən ona zəng vuranda səhər saatları olardı. İşdə olduğunu, müştəri apardığını söylədi.

–Harda görüşə bilərik? – deyə soruşdum.

–Saat on ikidə Baba məscidinin qabağında ol! – dedi. – Hara getsəm də günortaya ora gələcəm.

Əvvəl təəccübləndim: "Bu niyə görüş yerini məscidin qabağına salır, olmaya qohumlardan, tanışlardan ölən olub, mənim xəbərim yoxdur?" Sonra fikirləşdim ki, yəqin əmimin "iş yeri" oradır. Axı şəhərdə fəaliyyət göstərən taksilər hardasa toplaşırlar…

Baba məscidinin qabağında avtobusdan düşəndə, saata baxmasam da elə əmim dediyi vaxt olardı, ya beş-on dəqiqə tez, ya gec, fərq etməzdi. Hələ avtobusla gələndə fikirləşdim ki,

məscidin qabağında dörd-beş maşın olar, o da taksilər. Amma belə olmadı, məscidin arxa tərəfi də, qabağı da, ikitərəfli yolun bir qırağı da maşınla dolu idi. Bura maşın bazarını xatırlatdı mənə, aşağısı iki yüz maşın vardı. Onların arasında əmimin maşınını asanlıqla tapa bilməyəcəkdim. Elə avtobusdan bir az aralanıb zəng etmək istəyirdim ki, hardansa özü peyda olub mənə yaxınlaşdı.

–Gəldin, Nadir? – Soruşdu.

–Gəldim, əmi. – Cavabını verdim.

Hərçənd cavab verməsəydim də aydındı, özü görmüşdü ki, gəlmişəm, heç soruşmağına da ehtiyac yox idi.

–Onda gedək.

–Hara?

–Məscidə.

Əvvəl elə düşündüm ki, onların ofisləri, toplandıqları yer məsciddədir. Sonra buna şübhə ilə yanaşdım, özəl taksi sürücüləri niyə məsciddə toplaşsın, onların ofisləri niyə məsciddə olsun. Məscid məgər ofis yeridir?

–Məscidə niyə?

–Məscidə nəyə gedərlər? Gedək ehsan yeyək.

–Əmi, nə ehsan? Hüzür yerimiz var? Kimsə rəhmətə gedib, mənə demirsiniz?

–Hər gün hüzür yeri olur, hər gün kimsə rəhmətə gedir də… İndi onsuz da günortadır. Hardasa oturub çay içməliyik, bir qismət çörək yeməliyik. Elə gedək məsciddə bir qismət ehsan yeyək. İmkan olar orda, olmaz da gəlib burda söhbətimizi edərik.

–Əmi…

–Burda hər gün böyüklərə ehsan verirlər. Özləri deyiblər.

–Sən get. Mən burda gözləyərəm.

–Gəl, gəl, sənin nə işinə var… mənimləsən. Burda məni bütün işçilər tanıyır.

Məscid yolun sağ tərəfində idi, ərazidə, bəlkə də ən böyük, əzəmətli bir tikinti sayılırdı. Məscidin arxa tərəfində üçmərtəbəli mərasim zallarından ibarət bir bina da vardı, hüzür yerləri bu binada təşkil olunurdu. Əmimlə həmin binanın qabağına gəldik, pilləkənlərlə yuxarı qalxıb binaya daxil olduq. Birinci mərtəbə geniş foyesi və dörd zaldan ibarətdi. Foye adamla dolu idi, qaynayırdı. Liftə yaxınlaşdıq. Liftin qapısında da gözləyənlər çox idi. Lift qapısının yuxarı hissəsində böyük məlumat lövhəsi asılmışdı, oradan hansı zalda kimin hüzür məclisi təşkil olunduğunu öyrənmək mümkündü. Əmimin dediyinə görə, bu binada irili-xırdalı on zal vardı. Əsas zal üçüncü mərtəbədə yerləşirdi, burda ən böyük zal o idi, adına "pravitelstvennıy", yəni, "hökumət zalı" deyirdilər. Burada prezident aparatında işləyənlərin, nazirlərin, rektorların, bir sözlə; çox böyük vəzifəlilərin, onların ən yaxın qohumlarının və varlıların hüzür məclisləri təşkil olunur. Onlar siyahı tutub gələnlərdən pul yığmırlar. Odur ki, onların ehsanını yemək halaldır, həm də savabdır. Bunun düz olub-olmadığını mən deyə bilməzdim, birinci dəfəydi belə bir şey eşidirdim, əmim belə deyirdi.

–Gəl, pilləkənlə qalxaq. – Əmim liftin ağzında gözləyən

adamların çoxluğu ucbatından belə təklif etdi.

Biz pilləkənlərlə yuxarı qalxdıq, bizdən başqa da çox adam pilləkənlərlə yuxarı qalxırdı. Yuxarı foyelərdə də adam əlindən tərpənmək olmurdu, çox sıxlıq idi.

–Buyurun, keçin! – Burada əmimi tanıyırdılar, tanımırdılar deyə bilmərəm, amma hörmətlə qarşılayırdılar. O da ya başı ilə təşəkkürünü bildirir, ya da "başınız sağ olsun", "axırıncı qəminiz olsun", "Allah səbr versin" kimi ifadələr işlədib təziyəsini bildirirdi.

Beləliklə, biz üçüncü mərtəbədəki ən böyük zalın, əmimin "pravitelstvennıy" adlandırdığı zalın qapısı ağzına gəlib çıxdıq. Əmim içəri keçənlərlə bərabər tam sərbəst olaraq:

–Allah o dünyasını versin! – dedi və içəri keçdik.

Mən çox narahat idim. Qorxurdum ki, indicə saxlayacaqlar məni, hara gəldiyimi, kimin yasına gəldiyimi soruşacaqlar. (Zalın nömrəsini əvvəlcədən bilmədiyimdən heç məlumat lövhəsindən də mərhumun adını oxumamışdım) Sonra da buradan mitilimi geri qaytaracaqlar. İnanın, qapının ağzından içəri keçəndə elə bildim ki, qıl körpüsünü keçirəm, bu dəqiqə səndərləyib qır qazanına düşəcəm. Bircə onu bilirdim ki, geriyə dönüş yoxdur, hər necə olsa, əmimin arxasınca getmək lazımdır. Xəcalət təri məni basmışdı, tüklərimin dibinə kimi islanmışdım.

Zalın sol tərəfindəki ikinci cərgə boyunca gedib, hardasa, yuxarı tərəflərdə əyləşdik. Nəzərimə çarpan ilk əlamət üç mollanın məclisi idarə etməsi oldu.

Əmimlə yanaşı oturduq.

–Qarşı tərəfə getmək olmaz. – Əmim zalın girəcəkdə sağ tərəfindəki cərgəni göstərdi. – Orada böyüklər, nazirlər, komitə sədrləri, deputatlar, aparat işçiləri otururlar. Bura gələsi olsan, həmişə bu tərəfdə otur. Burada sənin heç kimlə işin yoxdur, heç kimin də səninlə işi yoxdur. Ehsanını ye, mollanı dinlə, “Allah rəhmət eləsin”, de, sonra da sakitcə çıx get. Bu zalda hüzür məclisi keçirənlər gələnlərdən pul yığmırlar.

Bu dəm şəbbəxeyir iki nəfər danışa-danışa gəlib qabağımızda əyləşdi, başqa stullarda əyləşmişdilər, bircə bizim qabağımız boş idi.

–Şadlıqlarda görüşək. – Əmim baxdı ki, onlar salamsız-kalamsız gəlib əyləşdilər, özü onları salamladı.

Əmimə heç əhəmiyyət də vermədilər.

Biri mənə yaman tanış gəlirdi, onu hardasa görmüşdüm, ya hardansa tanıyırdım, amma ha fikirləşirdim, yadıma sala bilmirdim.

–Bu ki, Musa Səlimbəylidir. – Əmim həmin adama diqqətlə baxdığımı görüb qulağıma pıçıldadı, amma onun pıçıltısı yaman ucadan səsləndi.

–Peyğəmbərin gül camalına bir salavat çevirək! – Yaxşı ki, molla uca səsi ilə onların diqqətini yayındırdı, qanımın arasına girdi, yoxsa onun qəzəbli baxışından canımı qurtara bilməyəcəkdim, bəlkə də nə isə ağır söz deyəcəkdi.

Musa Səlimbəylinin zəhmli qırğı baxışı vardı, adamın bağrını yarırdı. Gözaltı baxdım ki, əlindəki xurmanı təpəmə çırpmağa hazırdır. Elə ki, molla peyğəmbərin gül camalına salavat çevirdi,

Musa dərhal əlindəki xurmanı ağzına basaraq qabağındakı armudu stəkanı götürüb çaydan bir qurtum içdi.

Fikrim ondaydı, bir stəkan çayı beş xurma ilə ötürdü içəri – özü də necə xurma. Burdakı xurmalar da iriydilər, əmim demişkən "pravitelstvennilər" üçündü, indiyədək mən belə xurma görməmişdim.

Mollanın nə isə oxumasından istifadə edən əmim qulağıma tərəf əyildi:

–Bu, nazir deyil?

–Nazir yox, komitə sədri. – Bildim ki, Musa Səlimbəylini soruşur, belə cavab verdim.

–Hə də…

–Hə, özüdür.

–Bəs nə yaxşı o tərəflərdə oturmayıb?

–Görünür o tərəflərdə yer olmayıb.

–Yenə işləyir?

–Yox. Keçən ildən mitilini atıblar bayıra. İndi yığdıqlarını xırıd eləyir.

–Bilirsən nə qədər adamın çörəyinə bais olub, pensiyasın dayandırıb.

–Arsızdı ki…

Musa Səlimbəylinin qulaqları yaxşı eşidirmiş. Bizə elə tərs-tərs baxdı ki, qorxudan istədim durub çıxam. Əmim pencəyimin qolunu dartdı.

Masaya ehsan gəldi. Hər kəs başını aşağı salıb ehsan yeməyə başladı. Musa hamıdan tez yedi. Dovğanı başına çəkdi, burnuna

bulaşdırdı. İstədim deyəm, çəkindim, birdən acığı tutar deyə salfet uzatmağa da ehtiyatlandım. Musa Səlimbəyli elə burnu qaşqalı sağa-sola baxır, yanındakı ilə nə barədəsə yeyin-yeyin danışırdı. Heç yanındakı da burnunun qaşqasını ona demirdi.

Mən isə dovğanın qapağını açıb qaşıqla yeməyə başladım. Nazir olmağınan deyil ki, süfrə mədəniyyəti yoxdur. Tək o deyil e.., nazirlər, deputatlar hamısı dovğanı başına çəkir, hortahortla sümürürdülər. Kənardan çəkib özlərinə göstərən gərəkdi.

–Nədi? Məni görməmisiniz? – Musa Səlimbəyli birdən bizə bozardı.

–Görməsəydik bundan yaxşıydı.

–Nə pisliyim keçib sizə?

–Hələ bir soruşursan da… Ölkədə pislik eləmədiyin adam qalıb ki?

–Voobşe, siz kimsiniz? Kimin hüzürünə gəlmisiniz?

–Bunun sizə dəxli yoxdur.

–Aha, ehsanşiksiniz deməli… Gəlib onun-bunun ehsanını havayı yeyib çıxıb gedirsiniz.

–Guya siz havayı yemirsiniz? Guya siz çıxanda siyahıya yüz manat yazdırıb gedirsiniz?

–Yox, yazdırmırıq…

–Onda sizinlə bizim ehsan yeməyimizin nə fərqi oldu?

–Fərqi var. Bizim haqqımız çatır, çünki biz tanıyırıq.

–Fərqi o gözəgörünməzdən başqa heç kim bilməz. Tanıyıb-tanımamağın dəxli yoxdur.

–Musa, Allah sənin belini qırsın. – Kimsə arxa masadan

səsləndi. – Mənim pensiyamı niyə kəsirdin ə? Qurumsaq, mənim ayağım kərtənkələ quyruğuydu ki, uzanıb gəlib yerinə çatsın… Mən ayağımı Qarabağda qoyub gəlmişəm, sən heç Qarabağın səmtin də tanımırsan…

Molla süfrə duasını verirdi.

Musa onunla gəlmiş adama nə işarə elədisə cəld ayağa qalxıb çıxışa doğru irəlilədilər.

–Buna bax! Hələ dili də var, haqdan danışır! – Əmim astadan dilləndi. – Bəlkə min adamın haqqını yeyib… Belələrinə heç salavat da düşmür, nəinki “fatihə” verib Allahdan rəhmət diləmək…

# Qəribə sərnişin

Əhvalı korlayacaq qədər aurası tündməzə olan soyuq bir qış axşamıydı. Küləkli şəhərin heç vaxt əskik olmayan üzücü sazağı az qala bıçaq kimi kəsirdi. Şaxta adamın əzalarını oynadır, lap iliyinə işləyirdi. Salonda sərnişin az olduğundan asta-asta irəliləyən tram- vayın ön oturacaqlarından birində büzüşüb oturmuşdum. Soyuğa heç dözümüm yox idi. Evə çox tələsirdim, səbirsizliklə son dayanacağa gəlib çatacağımız anı gözləyirdim. Tramvay isə heç tələsmirdi, keç-mişin qazalaqları kimi öz lamında irəliləyirdi. Bircə tez çatsaydım, dalbadal iki stəkan qapqaynar, özü də mürəbbəli çay içib özümə gəlsəydim yaxşı olardı. Qaynar çay içməkdə, deyirdilər ki, lap rəhmətlik babama oxşamışam. O, paqhapaq qaynayan samovardan süzülən çayı dərhal, gözləmədən içirmiş. Vaxt tez keçsin deyə könülsüz-könülsüz kitab oxuyurdum. Buna oxumaq da deməzdin, sadəcə gözlərimi sətirlərin üstündə gəzdirir, sanki mənimlə bərabər qaçışa hazırlaşan hərfləri geridə qoyub yanlarından ötüb keçirdim.

Diqqətim kitaba yönəldiyindən sərnişinlərin nə vaxt düşdüyünü, salonun, demək olar ki, büsbütün boşaldığını hiss etmədim. Qəflətən başımın üstündə qaraltı hiss etdim. Başımı qaldırıb baxdıqda qoca, uzun, çəlimsiz bir arvadın böyrümdə dayandığını gördüm. Qarı zəhrimar yağan sifəti, ilan gözləri ilə inadkar-inadkar mənə baxırdı. Ətrafa boylanıb salonda boş

oturacağın olub-olmamasına nəzər yetirdim. Biz ikimizdən və sürücüdən başqa tramvayda heç kim yox idi. İstəyirdim deyəm ki, qarı nənə, başımın üstündə durmayın, boş yerlərdən birində əyləşin, o, məni qabaqladı.

–Cavan oğlan, bəlkə nənəyə oturmağa yer verəsən? – deyə dilləndi.

Nə demək istədiyimi başa düşər deyə salona bir daha nəzər saldım. Bütün oturacaqlar boş idi. Qarı istədiyi yerdə otura bilərdi. Amma o, mənim başımın üstündə durmuşdu. Birdən gözüm sürücünün salona tuşlanmış güzgüsünə sataşdı. Tramvay sürücüsü də bir gözü ilə diqqətlə bizə baxırdı. Mənim tərpənmədiyimi görən qarı bir az əsəbiləşdi.

–İndiki cavanlar təmiz yollarını azıblar. Daha abır-həya qalmayıb. Böyüyə hörmət qoyan yoxdur. – Deyinməyə başladı.

İstədim cavabını verəm, abrını bükəm o nimdaş ətəyinə. Yenə səbrimi basdım. “Lənət şeytana” dedim, ayıbdır, nənəm yaşda bir qarıya baş qoşmayacaqdım ki! İstədim durub başqa yerdə oturam, yerimi ona verəm. Sürücünün də hərdən güzgüdən bizə baxmağı məni narahat edirdi. Qorxurdum deyə ki, yekə oğlansan, qoca arvadın xətrinə niyə dəyirsən.

–Ay nənə. – Yumşaq tərzdə müraciət etdim. – Görürsünüz ki, salon tamamilə boşdur. Biz ikimizdən savayı tramvayda heç kim yoxdur. Buyurun, istədiyiniz yerdə əyləşin.

–Sənin üçün belə çətindir ki, durub özündən böyüyə yer verəsən? Görmürsən ayaq üstə qalmışam. Nənən yaşındayam. Səndə heçmi vicdan yoxdur? – Qarı nənə səsinin tonunu bir az

da qaldıraraq deyinməkdə davam etdi.

–Əgər salonda boş oturacaq olmasaydı, mən ayağa durub yerimi məmuniyyətlə sizə verərdim. – Tramvay sürücüsü eşitməsin deyə lap astadan bildirdim. – Ancaq görürsünüz ki, bütün salon bombulumboşdur. Buyurub istədiyiniz yerdə əyləşə bilərsiniz.

–Heç dəxli var? Siz hamınız beləsiniz. Mənim yerimə bir cavan qız olsaydı, illah da yubkası gödək, yaxası açıq, o dəqiqə ayağa qalxıb yer verəcəkdin.

–Ay qarı nənə, qışın bu oğlan çağında heç sən dediklərinin yeridir? İndi hansı qızıxmış yaxası açıq, gödək yubka ilə evdən çıxar? Sən heç danışığına fikir verirsən?

–Hələ bir dilin də var, danışırsan? Elə bilirsən, görməmişəm? Ayağa durub oturacaqdan bircə qarış aralanmırsınız ki, yer verdiyiniz cavan-cüvənəzan keçib rahat otursun. Çalışırsınız ki, özünüzü ona sürtəsiniz. Sonra da gözünüzü yaxalığına dikib durursunuz.

–Yaxşı da, bəsdirin!

–Həqiqəti qəbul edə bilmirsən, hə? Guya ki, bilmirsiniz qadının yaxalığında nə olar. Elə bil ömrü boyu onu görməmisiniz. Min ildir üzünə həsrətsiniz. Elə baxırsınız ki, elə bil orda nə isə qeyri-adi bir şey gizlədilib. Az qalırsınız gözünüzlə onu dartıb oradan çıxardasınız, lap bəbəyinizin içinə soxasınız.

–Bəsdirin! – Elə qışqırdım ki, tramvayın sürücüsü diksinib ayağını əyləcə basdı.

–Hə də, indi belə deyəcəksən. Mənə heç əhəmiyyət də

vermək istəmirsən, çünki ələyi əyrilmiş, xəlbiri sovrulmuş qoca, qartımış bir qarıyam. – Qarı ona əhəmiyyət vermədiyimin fərqində deyildi, elə deyinməkdə davam edirdi. – Bundan sonra kimdir məni saya salan?

–Niyə elə deyirsiniz? Mən böyüklərə həmişə hörmətlə yanaşmışam.

–Gördüm böyüklərə hörmətini. Az qalırsan vurub tramvaydan salasan yerə. Yaxşı ki, hələ yol pulumu ödəməyi xahiş eləməmişəm. Şükür Allaha, pensiya alıram, özümə bəs edir. – Qarı bir az fasilə edib başını yellədi. Sonra yenidən mənim üstümə qayıtdı. – Deyirsən, böyüklərə həmişə hörmətlə yanaşırsan?

–Bəli! – Qəti cavab verdim.

–Bəs nə oldu? Bu gün pişik tərs asqırdı? Yoxsa günəş şimaldan doğub?

–Nə pişik tərs asqırıb, nə də günəş şimaldan doğub. Elə bu gün də böyüklərə hörmətlə yanaşmışam. İndi də salonda boş yer olmasaydı… yenə ayağa qalxıb məmuniyyətlə yerimi sizə verərdim…

–Mən hər gün bu tramvayla evə gedirəm. Hər gün də eyni yerdə otururam. Siz bu gün mənim yerimdə əyləşmisiniz. Özü də qanacaqsızlıq edib ayağa durmaq istəmirsiniz. Belə də zəmanə olar? Daha aradakı pərdələr götürülüb, böyük-kiçik məsələsi qalmayıb.

Qanım təmiz qaraldı, necə deyərlər, dönüb oldu lap it qanı. İstədim gözümü yumub ağzımı açam. Dişimin dibindən çıxanı

bu ifritəyə deyəm, ancaq özümü birtəhər saxladım. Onsuzda heç nə dəyişməyəcəkdi. Qarı bu yaşdan sonra xaraktermi dəyişəcəkdimi? Yaxşı ki, gözüm yenə də ön güzgüyə sataşdı. Tramvay sürücüsü kefixoş halda güzgüdən diqqətlə bizə baxırdı. Sanki baxışları ilə: “dur, qoy qarı otursun, zəhləmizi tökməsin” deyirdi. İsti yerimdən durmaq istəməsəm də məcburən ayağa qalxdım.

–Buyurun, əyləşin, xanım! – Bacardığım qədər kinayə ilə deyib zəhərimi boşaltdım.

–Çox sağ olun! – Qarı nənə azca gülümsünüb “razılığını” bildirərək keçib əyləşdi. – Xanım deməyinə dedin. Ancaq birtəhər dedin, heç ürəyimə yatmadı.

Dinmədim, daha nə isə deməyi əhəmiyyətsiz hesab etdim. Bundan sonra o, çox rahat və məmnun görünürdü. Mən isə daha heç yerdə oturmadım. Ondan bir az aralanıb yuxarıdan tutaraq elə ayaqüstü yoluma davam etdim. Salon soyuq olduğundan az qalırdım ki, tir-tir əsəm. Dişlərimi sıxıb durmasaydım bəlkə də bir-birinə dəyib çaqqıldayacaqdı. Soyuğa heç dözümüm yox idi. Bircə evə tez çatsaydım…

Növbəti dayanacaqda qarı yerindən durub çıxışa doğru getdi.

–İndi otura bilərsən. Mən düşürəm. – Atmacasından da qalmadı.

Mən yenə dinmədim. “Qoy rədd olub getsin” deyə düşündüm. O, sürücüyə yaxınlaşıb nəsə dedi.

–Pulun lazım deyil. – Sürücünün səsini aydın eşidirdim. – Ancaq mənə düzünü de, görüm, salon boş ola-ola o oğlanı niyə

durquzub yerində oturdun?

–Rəhmətliyin nəvəsi, salondakı bütün oturacaqlar bumbuzdur. O, isə oturduğu oturacağı isitmişdi. Məni o qədər ağıldankəm hesab edirsən?

Özümdən ixtiyarsız bir acı gülüş tutdu məni. O qədər güldüm, güldüm ki, hər şey təmiz yadımdan çıxdı. Bir də baxdım ki, sonuncudayıq. Tramvay sürücüsü öz yerindən qalxıb mənim salonu tərk etməyimi gözləyir.